**SEYİD ƏZİM ŞİRVANİ**

# SEÇİLMİŞ ƏSƏRLƏRİ

**ÜÇ CİLDDƏ**

II CİLD

"AVRASİYA PRESS"
BAKI-2005

*Bu kitab "**Seyid Əzim Şirvanu** Əsərləri. Üç cilddə, II cild" (Bakı, Elm, 1969) nəşri əsasında tərtib olunmuş və təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni: **Süleyman Rüstəmov**

Redaktorlar: **Qara Namazov**
**Sənan İbrahimov**

**894.3611 -dc 21 AZE**
**Şirvani Seyid Əzim. Seçilmiş əsərləri**. Üç cilddə. II cild. Bakı, AVRASİYA PRESS, 2005, 384 səh.

XIX əsr Azərbaycan poeziyasının boyük nümayəndəsi S.Ə.Şirvani klassik şerin bütün janrlarında əsərlər yazmışdır. Şairin satirik şeirləri, mənzum hekayə və məktubları ədəbiyyat tariximizdə son dərəcə böyük əhəmiyyət kəsb edir. Şair özünün satirik məzmunlu şeirləri ilə klassik poeziyamızda yeni ədəbi məktəbin əsasını qoymuşdur. Böyük M.Ə.Sabir də məhz bu ədəbi məktəbin yetirməsidir. Şairin üççildliyinin II cildinə satirik şeirləri, mənzum hekayələri və məktubları daxil edilmişdir.

**ISBN 9952-421-02-6**

© "AVRASİYA PRESS", 2005

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**"Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında"**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

# Satiralar

## ALİMLƏRİ MƏZƏMMƏT EDƏN CAHİLLƏRƏ

Saqi, mey ver bizə kim, dövlət olub yar bu gün,
Şövqdən cünbüş edir sabitü səyyar bu gün,
Dövr edər vəcd ilə nöh gümbədi-dəvvar bu gün,
Mən gərək nuş qılam badeyi-gülnar bu gün,
Badə içməkdə mənim bir qərəzim var bu gün.

Etmişəm tövbə egər badəvü tərsadən mən,
Keçmişəm deyrü kinişt ilə kəlisadən mən,
İçmişəm badeyi-rəngin xümi-İsadən mən,
Olmuşam indi xəbər badeyi-mövladən mən,
Meyi-mövladən elə sağəri sərşar bu gün.

Badeyi-Müstəfəvi xümdə edər cuşü xüruş-
Ki, səfasından onun qarət olur taqətü huş,
Badədir ruhi-xuda, saqiyi-gülçöhrə Süruş,
Aləmə nəşri-maarif eyləyir badəfüruş,
Açılıb rəhmət ilə xaneyi-xəmmar bu gün.

Piri-meyxanə meyi-nabə işarət eylər,
Dürdnuşani-vilayatə bəşarət eylər,
Dini təkmil qılıb kəsfi-kəramət eylər,
Muxtəsər, aləmə təbliği-risalət eylər,
Faş olur mərtəbeyi-Heydəri-Kərrar bu gün.

Mən də peygəmbəri-namursəliyəm Şırvanın - .
Ki, gərək zahir edəm şənini hər zişanın,
Faş edəm rəmzini həqdən yetişən fərmanın,
Saqiya, yoxmu əyağında meyi-rümmanın,
Şəhri qıl badə ilə cənnəti-ənhar bu gün.

Həqq edib çün məni peyğəmbəri-fövci-şüəra,
Mən gərək aləmə təbliğ qılam sübhü məsa,
Ərşdən həq mənə təbliğə qılır faşi-nida –
Ki, əgər eyləməsən xəlqə bu təbliği əda,
Olmayıb xəlqə risalət dəxi izhar bu gün.

Mən rəsuli-şüəra, mülki-vəfadən gəlirəm,
Hüdhüdi-naməbərəm, şəhri-səbadən gəlirəm,
Aləmə sibqət edib badi-səbadən gəlirəm,
Həcci-mənayə gedib, kuhi-Minadən gəlirəm,
Şahidi-vəhdət olub kəsrəti-zəvvar bu gün.

Axiri-həccini çün Xatmi-rəsul etdi təmam.
Azimi-Yəsrib olub Əhmədi-Məhmud məqam,
Ol şəhə-Xümmi-qədir üzrə olundu ilham,
Gəldi Cibril ki, ey sərvəri-səyyarəməqam,
Sənə göndərdi salam iyzədi-qəhhar bu gün.

Sən gərəkdir edəsən Xümmi-qədir üzrə nüzul,
Göftgu eyləməsin zümreyi-əshab füzul,
Bəs gərək zahir ola mərtəbeyi-zövci-Bətul,
Olacaqdır o şəhin ziddi "zəlumən və cəhul",
Açılır aləmə məxfi olan əsrar bu gün.

Yetir afaqə o şahənşəhin övfalığını,
Sabit et cümlə bu mövlalərə mövlalığını,
Əlivü ali-Əli gövhəri-əlalığım,
Zatının dürri-giranmayeyi-valalığını,
Minbər üstə çıxıban eyləginən car bu gün.

Etdi çün hökm nüzul ol şəhi-səyyarəxidəm,
Oldu əshablərin surəti-halı dərhəm,
Etdilər ərz ki, ey zübdeyi-əhli-aləm,
Su tapılmaz bu ğədir içrə hərarətdən həm,
Küreyi-xak olubdur küreyi-nar bu gün.

Nazil olmağa deyil hiç münasib bu məqam,
Hökm hökmündü, vəli biz sənə etdik elam,
Açıban dürci-dəhən sərvəri-ecazkəlam,
Dedi: - Bu hökmi-xudavənddir, ey qövmi-giram,
Eyləyib hökm mənə qadiri-cəbbar bu gün.

Etdi əshabə bu hökmü çü şəhi-ərşsərir,
Dedilər sövt ilə "ləbbeyk", ucaldı təkbir,
Oldular cümlə piyadə çi soğirü çi kəbir,
Müntəzir kim, nədi fərmani-xudavəndi-qədir,
Nə büruz eyləyəcək iyzədi-dadar bu gün.

O şəhənşahə bicazi-şütür oldu mənbər,
Bəd təmhidi-xudavəndi-qədimü davər,
Dedi: "Aya, deyiləm mən sizə candan behtər,
Dedilər cümlə, bəli, cy şəhi-valagövhər,
Sənsən övlalığa mövlayi-səzavar bu gün".

Dedi: Hər şəxsə ki, aləmdə mən olsam mövla,
Ona mövladü Əli, ol şəhi-mülki-məna,
Ona nasir olana nasir ola bari-xuda,
Hasidü düşməninə düşmən ola rəbbi-səma,
Bu duanı elədi Əhmədi-Muxtar bu gün.

Tutdu bir xeymədə bəs Heydəri-Kərrar qərar,
Təhniyət etdilər ol şirdilə xürdü kibar,
İbn-Xəttab xitab eylədi. Ey şirşikar,
"Bixxi bixxin ləkə mövla"* səni qıldı cabbar,
Oldun, ey sərvəri-din, aləmə sərdar bu gün!

O qədər çəkmədi kim, xətmi-rəsul etdi vəfat,
Zülməti-xakdə məstur olub abi-həyat,
Tutdular Xızr təriqindən o qövmi-zülmat,
Qıldılar özlərinə həqq ziyafət isbat,
Dedilər rehlət edib Seyyidi-Əbrar bu gün.

Uydular Əhrimənə, hökmi-Süleyman qaldı,
Bir də həqqin bizə göndərdiyi fərman qaldı,
Bənd olub zahirinə, batini-quran qaldı,
Kəsdilər suyunu, əfsürdə gülüstan qaldı,
Necə kim, indi də zahirdü o asar bu gün.

---

* Mübarək olsun, mübarək olsun sənin mövlalığın.

Hiç şək yoxdu ki, əlan "kəma kan" saqi,
Oldu hər əsrdə bu nüktə nümayan, saqi,
Bizə həq nayibidir'fazili-Şirvan, saqi
Əlivü ali o sibti-şəhi-mərdan saqi –
Ki, onun həqqini qövmü edər inikar bu gün.

Elmdə tay deyildir o cənaba bir əhəd,
Bu Ədi mənqəbətin vəsfinə yoxdur sərhəd,
Nə qəmi etsə əgər hasidi-iqbalı həsəd,
Hasidin boynuna zəncir olacaq həbli-məsəd,
Münkəri-rütbəsinin mənzilidir dar bu gün.

Saqiya, badı-xəzan etsə gülüstanı xərab,
Yenə gül nəkhətini zahir elər buyi-gülab,
Tutmağa ali-Əli damənini eylə iştab,
Bamdən gəlmə, dəri-elmi elə dəqqül-bab –
Ki, Əli elmi Əlidən olur izhar bu gün.

Saqi, ol xali-həcərdir mənə bu gün ərəfat,
Çahi-zəmzəm o zənəxdandı, ləbin abi-həyat,
Öpməsəm xalüvi haciligim olmaz isbat,
İzn ver busəyə, ey Kəbeyi-əhli-hacat,
Sonra kəs başımı, qurban elə, ey yar, bu gün.

Bağiban, səbzeyi-biganə tutubdur çəməni,
Payimal etdi xəzan laləvü sərvü səməni,
Zağlər incidir ol bülbüli-şirinsüxəni,
Rizəxari-kərəmidir çi fəqirü çi qəni,
Həqq əziz eyləyən axır olumu xar bu gün?

Həqq əzizi həsədi-düşmən ilə xar olmaz,
Gün şüai düşə yer üstünə idbar olmaz,
Rəsmdir Yusifə hər zal xəridar olmaz,
Hər yetən tərpəməmiş vaqifi-əsrar olmaz,
Nə qəmi gövhərə gər yoxdu xəridar bu gün.

Üləma içrə yenə yaxşıdı köhnə qazi,
Mən onun dəhrdəyəm hər bir işindən razı,
Eyni "mötəlldi, əcvəfdi" bu feli-mazi,
Yetcəgin nemətə inkar elədi fəyyazi,
Qisseyi-maziyə eylər özü inkar bu gün.

Şəbi-eyd alsa idi kəs iki kəsdən fitva –
Ki, sizə sabit olubmu ola bayram fərda,
Birisi verdi cavabında "nəəm", ol biri "la",
Nə səbəb "la" deyənin qövlünü etdi imza,
Əmri-şəridə qərabət görümüş kar bu gün.

İxtilaf oldu ki, çün eyddə beyni-üləma,
Öz xilafinə tapar hər biri şəri-fitva,
Nə düşübdür sizə, ey tayifeyi-bisərü pa,
Eyləyirsiz üləma qeybətini sübhü məsa,
Yetirirsiz niyə elm əhlinə azar bu gün?!

Etdilər ay tutulan gecəni on dördə hesab,
Dedilər səhv eləyib müctəhidi-arşcənab,
Əl nücumə aparırlar əcəba, qövmi-dəvab,
Bavücudi ki, nə təqvim bilillər, nə hesab,
Yerişin bilməmiş eylər göyə rəftar bu gün.

Seyyida, kim ki, hürər şiri-xuda naibinə,
Sən onun lənət oxu ruhuna, həm qalibinə,
Qəzəbi-iyzəd onun hazirinə, qaibinə,
Baxma dəhrin bu sifət xasirinə, xaininə,
Al qələm, yaz onların həcvinə əşar bu gün.

Hiç bu nüktəyə agahsız, ey qövmi-əvam –
Ki, deyib həq sizi quranı ara kələnam,
Ruzü şəb etdigüvüz fikrü xəyalatdı xam,
Alimə hürməyin, ey kəlbi-yəhudi-bədnam,
Surəti-Qələmi siz etməyin izhar bu gün.

Nə düşüb bilməyirəm tacirə, ya bəzzazə,
İstəyirlər ki, yenə qazimiz olsun tazə,
Gözləmək yaxşıdı hər bir iş üçün əndazə —
Ki, salıb töhmət ilə hər biri bir avazə,
Alimə diqqət edir hər yetən idbar bu gün.

Yoxdu kim, zərra qədər firqeyi-əttarda huş,
Oları buyi-gülü səndəl edibdir bihuş,
Elm üstə nə səbəb eyləyiri cuşü xüruş,
Siz deyin bağlasın öz nüsxəsini nüsxəfüruş,
Satsın öz ətrini misqal ilə əttar bu gün.

Hamıdan artıq edər könlümü bu müktə kəbab:
Açıb ağzın, üləma qeybətin eylər qəssab.
Bir deyən yoxdu qoyun eşşəyi, ey xanəxərab,
Sənə ki, həşrdə yoxdur nə səvabü nə iqab,
Yegilən... qarın vəcd ilə büsyar bu gün.

Bir yaman əsrdi ən bilməyirəm, vaveyla!
Fitneyi-dövri-qəmər yoxsa olubdur peyda?
Götürüb mənsəbi-Molla Nəqi hər bisərü pa.
Az qalıb Ağca bacı da gəlib olsun molla,
Yoxdu hərçənd ki, həlvasına bazar bu gün.

Şerbaf tayifəsidir hamıdan əhli-fəsad,
Cövqə-cövqə yığılıb qeybət edərlər bünyad.
Bunların vardır arasında neçə ibni-
Ziyad Gər imam olsa, imamə olu, billah, cəllad,
Demədi adlarını Seyyidi-əfkar bu gün.

Etməsin söylə qalayçı üləma qeybətini,
Başını salsın aşağı bulasın öz ...
İşləsin şövq ilə başmaqçı [da] öz sənətini,
Neçə dövlətli var Allah alacaq dövlətini,
Çün hürər sahibinə it kimi nəccar bu gün.

Hanudan bisərüpadır bu güruhi-şüəra,
Yoxdu məcmueyi-aləmdə bulardan rüsva,
Məstü layəqilü meyxarəvü bişərmü həya,
Nə sədaqət, nə dəyanət, nə əmanət, nə vəfa.
Şahidi-surət olur yazdığını əşar bu gün.

İxtisası bu zəmanə dögü bu rəftarın,
Olu hər əsrdə yüz möhnəti bir huşyarın,
"Kəc qoyub ruzi-əzəl xiştini bu memarın,
Gər çəkə sər fələkə kəc olacaq divarın".
Sən dua eylə ki, bərhəm ola divar bu gün.

Çəkmə dünya qəmi, qıl camuvi ləbrizi-şərab,
Kimci-xəlvətdə rəfiqin olacaq meylə kəbab,
Fazilin mədhini qıl, eyləmə təşvişi-əzab –
Ki, bu gün hər nə səvab etsən, olur eyni-səvab –
Ki, Olub naibi-həq sərvərü əxyar bu gün.

Yesin öz arpasını, buğdanı satsın əllaf,
Ola bilməz gəlibən gövhərə hərgiz sərraf,
Bu nə sözdür ki, cahan aləm edib şərə xilaf,
Şöhrəti-zahirə bənd olmayın, ey əhli-gəzaf,
Siz deyilsiz, bilirəm, elmə xəbərdar bu gün.

Nə üçün saz elədin bir belə hədyan, Seyyid –
Ki, dedin hər kəsə bir növ ilə böhtan, Seyyid,
Olacaqdır dili-əhbab pərişan, Seyyid,
Gəl usan xətmi-kəlam et, sənə qurban, Seyyid,
Rəməzan kimi tapıb tul bu göftar bu gün.

## ŞİRVANIN TƏZƏ BƏYLƏRİ HAQQINDA

Çünki xəllaqi-cahan xilqəti-imkan elədi,
Kənzi-məxfidə olan sirri nümayan elədi,
Mənbeyi-feyz idi, bu aləmə ehsan elədi,
Kimini eylədi heyvan, kimi insan elədi.
Ənbiya silkini sərdəftəri-dövran elədi.

Əqli sultan yaradıb, qıldı həvasi xüddam,
Qəlbi-insanı edib hikmət ilə ruhə məqam,
Xilqəti-aləmə çün feyzini göstərdi təmam,
Ta qoya aləmə ol qadirü qəyyum nizam,
Bəzini xan eləyib, bəzini sultan elədi.

Sirri-hikmətdi bu iş kim, hamı kəs xan olmaz,
Xar lazımdır ola xar, gülüstan olmaz,
Xan xar etmək üçün xaliqə nöqsan olmaz,
Hamı kəs bəy ola bilməz, hamı kəs xan olmaz,
Hikməti-kamiləsin həq belə şayan elədi.

Mülki-Şirvan bu diyarın ki, gülüstanı idi,
Mustafa xani-fələkşovkət onun xanı idi.
Bu diyar əhli onun tabeyi-farmanı idi,
Var idi bir neçə bəylər ki, onun canı idi,
Onların hər birinə bir cürə saman elədi.

Etdi çün dövləti-Rusiyyə bu mülki təsxir,
Səltənət mülkünü ta istədi qılsın təmir.
Yaranal Yermolovi-sahibi-əqlü tədbir
Şirvanın bəylərini birbəbir etdi təhrir,
Hər kəsin layiqi-əhvalını tibyan elədi.

Çün bu təhrir zamanından ötüb bir müddət,
Bəy olan kimsənələr şəhrdə tapdı şöhrət,
Xəlq gördü ki, edir bəylərə dövlət hörmət,
Bağladı şövqlə bəy olmağa çoxlar niyyət,
Kimi bəy yazdı atasın, kimisi xan elədi.

İmperatora bu iş çünki olub kəşfü oyan,
Ta ki, təhqiqi-məratib ola verdi fərman.
Gəldi Şirvanə Puçin açdı bu əmrə divan,
Onun əhdində bu iş tapmadı yeksər saman,
Təzədən gəldi, Məlikbəylərov ünvan elədi.

İçdilər and çilenlər hamısı Qurana,
Ta ki, meyl etməyələr əyrüiyə, böhtanə,
Hər kəsin layiqinü şərh edələr mərdanə,
Bəylərin bəyliyi ta sabit ola divanə,
Xan, kimi bəy eləyib, ya kimi dərban elədi.

Saqi, doldur, mənə bir cam, əmiranə gətir,
Tövsəni-təbimi bu ərsədə cövlanə gətir,
Bimü bak eyləmə, hər bir sözü mərdanə gətir,
İndi, ey təb, bəy əhvalını meydanə gətir,
De görüm, bəylik işin el necə ünvan elədi?

Bəli, ol gün ki, çilenlər seçilib tapdı nizam:
Müxtəsər ərz qılım, yaxşı deyil tuli-kəlam.
Gördü bəylər neçə yüz ərzə verən var, hamı xam;
Dedilər kim, at ölüb, itlərə oldu bayram,
Hər biri bir təmən-xam üə cövlan elədi.

İki bəy düşmədi rüşvət təməinə əsla,
Biri Məmməd Əli bəydir, biri də Mahmud ağa.
Qaldığı vurdu işin, gözləmədı şərmü həya,
Getdilər xəlqin hamı başına yüz dərdü bəla,
Unudub Allahi bunlar hamı tüğyan elədi.

Qarasaqqallı Həsən oldu pul almaqda vəkil,
Aldı pul, eylədi qismət, hamıya durdu kəfil,
Ət bazardan daşınıb mənzilə zənbil-zənbil,
Etmədi mədələri yağlı qidanı təhlil,
Saldı ishalə çoxun qatı elədi.

Çoxusu gəlmiş idi şəhrə bular bisərü pa,
Bir də gördük ki, geyib hər biri bir tirmə çuxa.
Görcəyin xəlq oları, söylədi, ey bari-xuda.
Tülkü quyruğunu harda batırıbdır nohura,
Yenə bunlar kimi soydu, kimi üryan elədi?

Bəylərin hasil olub dövri-fələkdən tamı,
Yedi, yağlandı, qarın saldı qoyun tək hamı,
At ölüb, itlərin oldu neçə gün bayramı,
Gördü şiybanlı Qasım görmədiyi əyyamı,
Getdi on dörd gecə Şiybanda çirağan elədi.

Yekə bəylər pul alıb bir neçə alçaq bəydən,
Kühən atlar necə ki, arpa qapar eşşəkdən,
Tutdular aqibəti qırma, barıtdan, zəngdən,
Nüh beyin pul tökülüb üstünə yerdən, göydən,
Qocalıq Nuh kimi axırı tufan elədi.

Necə insafdı kim, Hacı Həsən bəy bir pir,
Deyəsiz bəy deyil, axır ola sizdən dilgir,
Bəxş edib siz təki çox bəylərə şali-Kişmir,
Tərxanov Knyazovu gördü olub şeyxi-Kəbir,
Çox inayətlər edib hər işə tərxan elədi.

Bu nə insafdır, ey peyrəviyani-Bərmək,
Eylə kəs var ki, çox yaxşıdı ondan eşşək,
Onu siz bəy edəsiz, olmaya Mirzə Hacı bəg,
Bavücudi ki, çiləndir, özü də çox zirək,
Siz edən zülmü nə Süfyanü nə Mərvan elədi.

Xud pristatel özü Hacı bəyə verdi bəzək,
Dedi hər nal çəkər oğlu nə rəvadır ola bəg?
Bəs nədəndir ki, boy oldu, görəsən, zimral Səhək?
Aşikar işdi ki, həmməzhəbinə etdi kömək,
Batini zahir edib qəsdi-müsəlman elədi.

Qaraqaş oğlu ki, heç bəy döyüdü, bəg dedilər,
Pul ki, gəldi araya, bardağa səhək dedilər,
Kim ki, pul vermədi, - ol yazığı Bərmək dedilər,
Müxtəsər, eşşəyə at, ata da eşşək dedilər,
Bu eşşəklər yeyibən arpanı tüğyan elədi.

Bu çətin məsələ, ey müftiyi-pakizə-xisal,
Yazılıb, səndən olur şər təriqilə sual.
İndi bu bəylərə arvadı həramdır, ya həlal?
Sən əgər doğru deməzsən, qalı boynunda vəbal,
Şarii-şər bu hökmü necə tibyan elədi?

Gər qubernat ötürə əlli pristav Sibirə,
Yenə zənnim bu deyil, bir-birinə iş yetirə,
Çünki bədcins əmələ cümlə dönübdür qətirə,
Həmzəni saxladı Qurbanbəyov, arvad gətirə,
O da Qurbanbəyova canını qurban elədi.

Kişinin dövləti-Qarunə çatar imkanı,
Mülkü mal ilə müsəxxər eləyib Şirvanı:
Bağı, buzxanəsi, karvansarası, dükkanı,
Nökəri, faytonu, atı, qoyunu, çobanı,
Dövlətü malı onun aləmi heyran elədi.

Xud, tutaq ki, demədiz bəy filana, bəhmanə,
Gəldi sərdar sabah, düşdü bir iş, Şirvanə.
Hansınızda tapılar düşmoyə layiq xanə?
Tüpürüm astarı bez yatdığınız yorğanə!
Bilmirəm həq sizi bunca necə heyvan elədi.

Birisi xan ola gər olmaya evdə nanı,
Həsrəti-nan ilə hərdəm çıxa qəmdən canı,
Bilmirəm, neyləyir o xanlığі, ya dünyanı,
Hər kimin dövləti vardır, odur əsrin xanı,
Pul edən hökmü nə xanü nə də sultan elədi.

Adı bəy olmaq üçün bəy olumu hər gümrah?
Özünü yüz bəzəyə, şir ola bilməz rubah,
Nənəş oğlu gətirib bir bəyə Şirvanda pənah –
Ki, onu bəy eləsin, bir elə sən tanrı nigah!
Eylə kamil kişinin adını nöqsan elədi.

Şirvanski yazıb öz adını bir bəyzadə,
Ta ki, fəxr eyləyə əslü nəsəbü əcdadə,
Çox deyildir bu ona, fikr edəsən mənadə.
Biz dedik ki, yazacaqdır adını şahzadə,
Yenə insaf eləyib kim, bu yazıq xan elədi.

Yüz manatdan yuxarı xərc eləyib Hacı Manaf,
Bəylərin xanəsini şamü səhər etdi təvaf,
Dedilər bəydi, bunun bəyliyinə yoxdu xilaf,
Bir sual etdi pristatel, ey əhli - insaf-Ki, neçün
Xan ləqəbin Üryanın üryan elədi?

Qarasaqqallı Həsənbəy duruban tez ayağa,
Ərz qıldı ki, onu şərh qılım mən, ay ağa,
Nə qədər xan tutardı onu kürkə, papağa,
Dağıdıb paltarın, üryan gələrdi otağa,
Qoydu xan adını Üryan, lotu meydan elədi.

Kül sənin başına Şirvan, əcəb oldun nadan –
Ki, sənə sahib olur indi gəlib hər ... atan,
Hanı əyyami-qedimin, hanı ol Mustafa xan –
Ki, çıxıb taxtına izzətlə edərdi divan!
Çərxi-zən-qəhbə əcəb bizləri suzan elədi.

Advoqatlar demə, bu xəlq ilə manəndi-yağı,
Başı Fondilki, Haput orta, Ağacan ayağı,
Soydular ərzəçinin qalmadı cismində yağı,
Yazıq Abdulla bəyin həm uduzuldu boyağı,
Həm özün soydu lotu, gör necə üryan elədi...

Xəlqlər çox yığılıb söylədilər hədyan söz,
Yıxdı Şirvanın evin axın bu böhtan söz.
Həqq-nahəq cəm edər hər biri bir dəstan söz,
Məsləhətçün oxunan söhbət edər ünvan söz,
İnanan kimsə bilir ki, lotu meydan elədi.

İy çəkirlər tufa tək ta ki, görüb harda var aş,
Kimdə var ağca pilov, hər gecə yağlı bozbaş,
Çoxu var ki, götürüb çün özünə böylə maaş,
Öz evində yeməyib, and içərəm, bir gecə aş,
Qarnın otarmaq üçün nəfsini heyvan elədi.

Əhli-divanın işin şərh qılım bir neçə bab,
Şərhi itmamə yetişməz yazila ətli kitab;
Füqəralər yanıban zülm oduna oldu kəbab,
Bir tərəfdən elədi zəlzələ Şirvanı xərab,
Bir tərəfdən də, bular aləmi viran elədi.

Hələ qoy zəlzələnin söhbəti qalsın baqi,
Şərh edim cümlə polisə işini, ey saqi,
Kolbakin* tökdü bizim başımıza torpağı,
Tikdi hakim bizə hər həftədə bir sarsağı,
O da gəldi gücünən tabeyi-fərman elədi.

Aldılar saqqalını çün ələ bədzat əmələ,
Etdi soyğunçuluğu hər biri bir zat əmələ.
Hər biri tovladı soymaqlığa bir qat əmələ,
Aldılar xəlqdən eşşək əmələ, at əmələ,
Necə ki, hər biri bir ayğırı madyan elədi.

Nə pristav, nə köməkçi, nə kvartal, nə kazak,
Hamısı qurd kimi soymaqlığa xəlqi ki, qoçaq,
Məsləhətçin eleyibler neçə əşxası qaçaq,
Neçə kəs var ki, nahəqdən olubdur dustaq,
Kimi öldürdü görək, hansı sinib qan elədi?

---

*Kolyubakin

Etdi Əbdül Əli bəy xatirimi xoş və xüram,
Xassə kim, Xan çobanı taifəsi cümlə avam,
Biri bilməzdi ki, var məhzəri-divanda məqam
Həm şəhərdə, həmi çöldə işinə verdi nizam,
Gəzdi hər yan Məlikov, yaxşıca divan elədi.

Dağılıb çöllərə açdı hərə bir növ kələk
Qırxdı xəlqin başını hər biri misli-dəllək,
Sac Lahıcdan qutarıb, qalmadı Salyanda ələk,
Cifə cəm etməyə kim, bunlar ilə Şeyxəli bəg,
Gəh mürid etdi özün, gahi müsəlman elədi.

Sarısaqqallı naçalnik demə, bir qorxaq inək,
Çünki çullardı, palanlardı onu hər eşşək,
Hərə bir növ onun ... vurdu kəpək,
Bir neçə müddət ağamız bizim oldu İsa bəg,
Bir zaman gəldi bizə hökm o Tərxan elədi.

İncinar oldu Qasımbəy, bizə çox verdi əzab,
Həqq evin yıxsın onun, etdi bizi xanəxərab,
İncınarlıq özü bir elmdi bihəddü hesab.
Bu avam oğlu avam harda görüb fəsli-kitab,
Haradan gəldi, özün qabili-əyan elədi?

Atdı divanını hər müfsidi-bədzat üstə,
Mindi gündə atını, çapdı özü tat üstə,
Gəzdi hər yanda, beş eşşək yedi bir at üstə,
Bir gün az qaldı ki, yüz qan düşə dibdat[*] üstə,
Yenə həq lütfünü gör xəlqə njgəhban elədi.

Mirovoy sudyada vardır neçə bədzat əmələ,
Üz güləş, qəlbi qara, saqqalı manəndi-şələ,
Şələ saqqalı qoyub ciyfeyi-dünyayə tələ,
Aşina gözlədi bu Seyyidi-sərgəştə hələ,
Şərmdən adlarını yazmadı, pünhan elədi.

---

[*] Deputat

Gərçi it qırdı salıb çoxların etdi ixrac,
Leyk bundan belə olmaz qəmi-pünhanə əlac,
Özgə növ ilə tapıb şəhrdə bir növ rəvac.
Onları həqq özü bir əppəyə etsin möhtac,
Necə ki, özləri çox kimsəni binan elədi.

Var neçə molla ki, Şirvanə olar tazə gəlib,
Qoymağa küfr ilə islamə bir əndazə gəlib,
Şərin övraqına bir şəneyi-şirazə gəlib,
Şöhrəti-elmi salıb aləmə avazə gəlib,
Hər biri rövnəqi-islamı nümayan elədi.

Bisəbəb əhli-vəfa naləvü fəryad eləməz,
Üqdəsi olmasa, könlündə cərəs dad eləməz,
Büğzü var, çərxi-dəni əhli-dili şad eləməz.
Yıxmasa yüz evi, bir büqəni abad eləməz,
Tikməmiş bir evi, yüz min evi viran elədi.

Bu xəyal ilə ki, şayəd ələ bir xeyr düşə,
Çapdılar hər tərəfə, baxmadılar yayə, qışə,
Sərqətərlər hamını saldı işə, verə dişə,
Kürdəmir doşabı, Bakı üzümü düşdü işə,
Ozünə hər biri bir növ ilə saman elədi.

Hər kəsin olsa başında yekəraq əmmamə,
Görünür xəlqdə guya ki, odur allamə,
Minbər üstə çıxıban gərm eləyir həngamə,
Buınların vəsfini təhrir qıl, ey can, xamə,
Ərseyi-fikrdə yüz şövq ilə cövlan elədi.

Şeyxül-islam özü nəql etdi bunu çox məzəli,
Özgə növ ilə düşübdür bu işin xud əzəli,
Bu Şüreyh qazinin oğlu yəqin olmuşdu dəli,
Batinən qazilik üçün içi getmişdi, vəli,
Təmai-xam onu axırda pərişan elədi.

Yaxşı yadımdadı bir vəqt zəmani-mazi,
Şeyxül-islam, filani dedi olsun qazi,
Zahirən el üzünə olmadı ol kəs razi,
İndi də feyz üçün inkar qılır fəyyazi,
Gəldi zahir kişini aləmə dastan elədi.

Heyf əzl oldu Ağaməd kimi blr nər qazi,
Şiədən indi olub Molla Ələsğər qazi,
Dün soruşdum ki, məgər böylə olur hər qazi?
Dedilər sünnidə vardır hələ bədtər qazi –
Ki, müsəlmanlığı öz adına böhtan elədi.

## ŞAMAXININ TƏZƏ BƏYLƏRİNİ HƏCV

Niqtə gəl bülbüli-təbim ki, əcəb halətdir,
Qıl təkəllüm ki, çəkim nəzmə düri-qəltani.

Tazə işlər görünür sahəti-Şirvan içrə,
Özgə ayinü rəvişdə görürəm dövrani.

Xəlqi bidin eləyib gör necə bəylik həvəsi,
Tərk edib axirəti, cümlə tutub dünyani.

Cümlə biqeyrətü bihümmət olub xəlqi-cahan.
Cümləsi cifə üçün badə verib iymani.

Cəm olur on iki adəm ki, filani bəydir,
And içirlər qoyuban ortalığa Qurani.

Biri bəy olmaq üçün on ikisı kafər olur,
Tutar axır olan həm qəzəbi-rəbbani.

Bunların başçısı məlum çopur Əhməd bəydir,
Nəsli-insanda əcəbdir görürəm şeytani.

Ələ düşməz belə mərdudi-əzazilsurət,
Zahir eylər bu köpək aləm-ara Mərvani.

O qədər var təməi, molladan artıq həqqa,
And içər ovcuna bassan bir uduş həlvani.

Atası Sadiq, özü bəs nə üçün kazibdir,
Bilir anası ki, hardandı munun nöqsani.

Birisi Kəblə Hüseyn bəy Nəzər oğlu xudkeş,
Ona Hacı Kamal oğlu ola bilməz sani.

Doğrudur, Hac Kamal oğlunda da var bir belə iş,
Vəli məşhur deyil aləm ara dastani.

Çünki təlimini bu qardaşı Sadiqdən alıb,
Hər nə iş tutsa, otağında tutar pünhani.

Birisi ol Hacı Əhməddi ki, var sahibi-riş,
Yaxşı eşşəkdi, vəli yoxdu onun palani.

Hər zaman istəsələr şahid onun bəyliyinə,
Gətirər ortalığa kövrük ilə sindani.

Yəni rəhmətlik atam da mənim ahəngər idi,
Kəsib eşşək nalı çox Mustafa xan dövrani.

Hər uzun saqqal əgər lazımədir bəy olsun,
Bəs neçün bəy eləmir Mahmud ağa Kuzmani?

Barilaha, bu kvartalnini çox görmə bizə,
Əhli-dərdin o kərampişədi çox dərmani.

Hamıdan yaxşı budur Hacı Manaf da boy olub,
Gör mən indi edərəm gorbagor ol uryanı.

İddəası budu xanzadeyi-əslü nəsəbəm –
Ki, tərəqqi eləyib hiç bəyənməz xani.

Biri qardaşı Məmiş, əl çəkib ondan şeytan,
Bəyliyin şövqi ilə çıxdı onun həm cani.

Var imiş bəyliyinə əldə şəhadətnamə -
Ki, veribdir mənə şəh xalisə ol Zəngani.

Birisi Haci Kazımdır, özü çuban oğlu,
Tanımaz düzmü o dörd min qoyunun çubani?

Vardı bir validəsi, adı onun Kövsər idi.
Əhli-Qələbazar üçün bişirərdi nani.

Birisi Hacı Türab oğlu Qurutdi Məmməd,
O, neçün bəydü, görək, kim bəy edibdir ani?

Hansı dəvadə görək tiğ çəkib, baş kəsdi?
Hansı rəzm içrə alıbdır alinə qalxani?

Ay uşaqlar, mənə izhar eləyin, yoxsa budur,
Fəth edən Ağqoşanı, Darğuni, Dağıstani?

Bir yetim tifl idi           açıq, başı keçəl,
Küçələrdə dolanırdı, yox idi tumani.

Nənəsi saxlar idi bir sürü Təbriz toyuğu,
Döşəyi yırtıq həsir.... güvəc qazqani.

Hacsəməd oğlu Qədir həm döşədir küçələri,
Əliqəribdir, o da boynundan asar xaltani.

Atası çün eşidib oğlunun bəy olduğunu,
Qəbr içində fərəhindən piləyir zurnani.

Biri lahic Hacı Qasımdı ki, dağlar ayısı,
Bilmirəm bəyliyi neylir bu çölün heyvani?!

İnciyibdir, belə məlum, duz əkməklikdən,
Girdmanə buraxım mən bu köpək toplani.

İki dibdat*, müəyyən ki, olar da bəy olub,
Oların vəsfi gərəkdir oluna tulani.

Biri nəvvadeyi-dəllək Səfər, adı Soltan,
Bəli, əlhəq odu əsli-nəsəbin soltani.

Pul yeməkdən ötəri ta ki olubdur dibdat,
Çevirir, axşamacan fikr qılır, çortkani.

Edib ülgüc-bülövün babasının dəstaviz -
Ki, mənəm fəxri-cahan, mən təki bəyzadə hani?

---

* Deputat

Əcəb övlad qoyub getdi, o dəllak Səfər,
...quyusuna salım mən belə başqırxani!

Biri Abbas, özü xənnas, deyir mən də bəyəm,
Bilmirəm kim boy edibdir bu çolaq qarğani?

İstəyir bir qıç ilən gör bu da bəylik eləsin,
Kül sənin başuva Şirvan, əcəb oldun fani!

Mən eşitdim ki, Abbasın babası çərçi imiş,
Gətirirmiş bazara satmaq üçün çolpani;

Ağsu şəhrində cuhud kimi qabağında eşək,
Doldurub suzənü qeytan ilə ol torbani.

Min manatdan yuxarı xərc elədi həm Ağa bəy,
Dedi ya çin gəli, ya xaç, ya əmim ehsani.

Bəyliyə şövq eləyir həm Aşur oğlu Ağa bəy,
Heç utanmır ki, atası çağırır "tehrani"*

Getdi həccə atası ta oluma hacı xitab,
Kim ona hacı desə, bil ki, deyir böhtani.

Biz də bir neçə nəfər əzmimizi cəzm etdik,
Səbt edək möhrümüzü, bəy eləyək Xancani.

Bir də ol ali nəsəb, cümlə cahan içrə nəcib,
Səbzəmeydani Məşo oğlunu - Ağ Qurbani.

Bəy olan kimsənənin xalisəvü kəndi gərək,
Bəy nədir kəsdirə karvansaralar dalani?

İki kəs var ki, bəli, onlara bəylik yaraşar,
Sahibi cudü səxa, rəhmü mürüvvət kani.

---

* Yəni: ağ tut satır.

Var bu bəylər kimi çox alinəsəblər, oların,
Sidqü ixlas ilə dərgəhlərinin dərbani.

Biridir Hacı Ağa bəy, biri Ağa Rza bəy,
Onların yavəri olsun kərəmi-rəbbani.

Seyyida, sən bu iki sərvən-alınəsəbın,
Mədhü övsaflərin gün kimi qıl nurani.

## ŞAMAXI BABİLƏRİ HAQQINDA

Nitqə gəl bülbüli-təbim, nə təğafül dəmidir,
Şəkəristani-xəyalatda qıl cövlani.
Babilik şöhrət edib sahəti-Şirvan içrə,
Ələ zən-qəbbələr almış yenə gör meydani.
Bir neçə fasiqü mərdudi-əbəd, müfsid olan
Hərcü mərc eylədilər məmləkəti-Şirvani.
İbtidadan eləsəm şərh bu əhvali əgər,
Uzanıb rişteyi-söz, nəzm düşər tulani.
Seyyidi-Bab o gündən ki, mürəxxəs olunub,
Mənzil etmışdi, gəlib, xitteyi-Hactərxani,
Şuru düşmüşdü onun məmləkəti-Şirvanə,
Babilər olmuş idi aşiqi-sərgərdani,
Hər nəfəs burdan uçarlardı həvasilə onun,
Eyləyərdi pər açıb cümləsi baləfşani.
Qiblə Hactərxanı etmişdi bu qövmi-məlun,
Tərk edib Məkkəni, mənsux eləyib Minani.
Ta o günlərdə ki, izhardı əyyami-bahar,
Hicrətin min iki yüz səksən ikiydi sani,
Çıxdı nagəh bu xəbər kim, Bakıdan ağa gəlir,
Çıxdı pişvazına bu qövmi-Əbu-Süfyani.
Baqi-Sərdar kənarında mülaqat olacaq,
Vacddən çəkdi hamı naleyi-vaşövqani.
Kimi torpağə yıxıldı, başını qoydu yerə,
Kimisi qoydu ayağı yerinə
Etdilər səcdə tamam surəti-nəhsini görüb,
Qjldılar nisbət ona mərtəbeyi-Səlmani.
Şeytanın qeyrəti, əlhəq ki, bulardan çox imiş,
Etmədi Adəmə səcdə görübən zülmani.
"Ənə xeyrün" - deyibən eylədi rədd əmpi-həqi,
Satdı bir qeyrətinə bağçeyi-rizvani.
Mən bəni-Adəm üçün görməmişəm səcdə ola,
Səcdə etməklik üçün hanı həqin fərmani?
Müxtəsər kim, Ağalarov evinə etdi nüzul,
Neçə kəs olmuş idi ol qapının dərbani.
Qoydular ad ona kim, bu kişi həzrət Əlidir,

Bu gəlibdir ki, hidayət eləsin dünyani.
Vay bu firqə üçün ki, gedib iymanları,
Kimə nisbət eləyirlər, görün ol mövlani!
Getdi çox kimsənələr məclisinə oldu mürid,
Qıldı ixlas ki, budu vəliyi-rəbbani.
Çox adam əhlü əyalın aparıb, qoydurub əl,
Xəlq hərçənd deyir özgə təhər böhtani.
Çün filani bu aralıqda çox arif görünür,
Mən inanmam bu qəbih işin ola imkanı.
Nəçidir axır o babi, nə şəfa sahibdir,
Nəçidir ki, çəkə əl, gözlü edə əmani?
Heyf, sod heyf ki, bu məzhəbi-isnaəşəri
Zaye etdi bu zinazadələrin dastani!
Bir deyən yoxdu ki, ey müfsidi-mərdudi-əbəd,
Nə salıbsız bu qədər məmləkətə qovğani?
Bu nə ayinü nə məzhəb, nə təriqətdir bu,
Nə səfahətdä ki, məmlüvv eləyib dünyani.
Bu nə sözdür ki, çıxıb ruh girər it...
O sənin öz atanın ruhudur, ey moltani!
Var peyğəmbərimiz yüz iyirmi dörd min,
Hər birinin neço yüz illər olub dövrani.
Nuhü Musavü Süleymanü Xəlilü İsa,
Həm Məhəmməd ki, şərəfyab elədi Bəthani.
Buların heç birisi münkiri-miad deyil,
Buların heç birisi etmədi bu dəvani.
Biri vermibdi xəbər siz gətirən məzhəbdən,
Birisi etmədi peyda siz edən sövdani.
Əjdaha olmadı səhharə əsayi-Musa,
Olmadı aləm ara Nuh-nəbi tufani?
Münkir olduz tutalım "möcüzi-şəqqülqəmərə",
Necə danmaq olu bəs möcüzeyi- Qurani?
Eləyirsiz nə üçün qəbr əzabın inkar-
Ki, dirilməz bu bədən vəqt ki, oldu fani.
Münkiri-qüdrəti-qəyyum olursuz, billah,
Məgər acizdi verə bir də bu cismə cani?
Gətirən kətmi-ədəmdən hamını iycazə,
Bir də müşküidü məgər həyy edə bu əzani?

İysiyi-Məryəmi kim, sayiri-ədyan yazıb,
Etmədi zində məgər Qarzini-Yuvani.
Bu nə sözdür ki, gəlir yüz yol adam dünyayə,
Gah öküz, gah eşşək!!...Söyləməyin hədyani!
Hər adam neçə kərə dirili, dünyayə gəli,
Bu gəlib-getməyin olmazmı məgər payani?
Olmayım siz təki raən duzəxə hərgah qail,
Mən əgər siz təki inkar eləsəm mizani.
Gecə-gündüz içərəm bade pərivəşlər ilə,
Çəkmərəm qəm, dəxi bibak elərəm üsyani.
Qəsəm ol xaliqə bir kəs edə kər ləvvatə,
Gecə-gündüz içə zövq ilə meyi-səhbani,
Yenə min mərtəbə çox yaxşıdı ki, babi ola,
Etiqadata yetişməz əməlin nöqsani.
Etiqad əsl kötükdür, hər əməl şaxəvü bərg,
Yüz əgər şax qurusa, kötük olurmu fani?
Yüz güruhun neçə kəs silsiləcünbani olub,
Saldılar rövnaqə yeksər bu rəhi-bütlani.
Birisi maliki-duzəx Qara Mirzə Cəfər,
Deyəsən həq yamayıbdır üzünə qətrani.
Birisi Ağa Mikayıl-yekəgöz, əyri ağız,
Götürübdür özünə mərtəbeyi-Səlmani...
Neçə hüccət olu bir əsrdə mən bilməyirəm,
Buların hansına axır gətirmək iymani?
Biri Təbrizdə çıxdı ki, mənəm Mehdiyi-əsr,
Biri çıxdı ki, hidayət eləsin Tehrani.
Nasirəddin şahı atdı neçəsi güllə ilə,
Öldürüblərdi ədavətlə şəhi-İrani.
Birisi sahəti-Zəngandan oldu zahir,
Odu kim, indi də viranə qoyub Zəngani.
Birisi babı seyiddir ki, təzə hüccət olub,
Qıymıram kim, ona nisbət eləyim Qeyvani.
Gözü göy, burnu yekə, boynu uzun, saqqalı ağ,
Deyəsən tanrı dirildib genə Ağ Qurbani.
"Yörifül mücrimü"[*] zahir rüxü simasından,

---

[*] Günahkar üzündən tanın

Nəhsü bidin, nəcisül-eyn, şəqavət kani.
Eldar oğlu da qoyub başına bir vəqt sarıq,
Belinə taxdı qılınc, aldı ələ qalxani.
Dedi ki, o da mənəm hüccəti-islam bu gun,
Mənə lazımdı ki, aləm gətirə iymani.
Sarıtorpaqlıların hüccəti Eldar oğlu,
Qələbazar ələsin öz başına samani.
Santorpaqda Eldar beçəyə ümmət olan,
Biri taqqa Babadır kim tanıyıbdır ani.
Biri qəssab Bağırdır yuva bilməz...
Açıban kuçədə təfsir eləyir Qurani.
İddəası budu mən Mehdini hər gün görürəm,
Gözlərim feyzi-cəmalından olur nurani.
Əcəb oğlan idi o Kərbəlayı İsmail,
Həqqi onda yox idi bir əməli-nəfsani.
Bilmədim noldu səbəb axırı oldu məlun,
Nə səbəb oldu ki, bu tutdu rəhi-şeytani?
Mollayi-Rumi kitabinə baxardı şebü ruz,
Xali olmazdı kişi moizədən bir ani.
Əhli-dalan ayırıb sovça, kasasın ondan,
Qovdular cümləsi anın başını qırxani.
Afərin əhli-dalan yaxşı müsəlmanlar imiş,
Filhəqiqət, hamıdan yaxşı imiş iymani.
Lafi-hüccətlik edərmi o da ya rəb, görəsən,
Bu ləvənd oğlunun aya nə sayaqdır şani?
Mən eşitdim bu qoduq hər gecə meracə gedir,
Danışır gündüz olanda süxəni-ruhani.
Qayıra bilmədi çün əhli-dalandan ümmət,
Tovladı bir neçə bimərifəti-Qazyani.
Birisi Məşhədi Cəfərdi, Xorasan lotusu –
Ki, salır gündə İmamlı içinə qovqani.
Biri sərrac Maciddir ki, o da babı olur,
Hər yetən şəxs ilə söhbət eləyir ürfani.
Sənə nə vaqe olubdur ki, olubsan babi?
De görək səndə hanı mərifəti- insani?
Get bürün paltonuva, düş Əli Cabbar yanına,
Gah da bir gir dükana, vur meşinə bəxyani

Biri İsa, biri Musa, birisi Yunis olur,
Hərə bir ad götürürlər özünə ruhani.
Hər əlif-bey oxuyan gər ola peyğəmbəri-həq,
Mən də peyğəmbərəm, aya kim edir küfrani?
Var mənim də dəxi həm kəşfü kəramətdə yədim,
Mirzə Cəfər atası indi gəzir səhrani.
Kostinin atası Tiflisdə dönüb çal qabana,
Eldarın ruhi girib eşşəyə, var palani.
Kəlbə İsmailin atası olubdur porsuq,
Ulayır indi qəmişlikdə, çəkir əfqani.
Hacı molla Təği oğlu, birisi aşnam Ağa,
Cümlə şairlər içində yerə soxum ani!
Nə mürid olmaq idi Seyyidə əvvəl, gedibən
Sonra söymək nədi dalınca onun pünhani?
Kişi də xovfə düşüb hiç imamini söyər?
Eyləməz bu işi bilmərrə çölün çobani.
Bir deyən yoxdur, ay eşşək, sənə məzhəb nə gərək,
Eylə məzhəb özüvə bir üzügül canani.
Şairin məzhəbi hər yerdə olur bir üzügül,
Neyləyir şair olan məzhəbi, ya ərkani?
Taqi-əbrusin elə özüvə mehrab o məhin,
Elə təsbih özüvə türreyi-mişkəfşani.
İçgilən badeyi-gülnar, oxugü şerü qəzəl,
Mən təki çal... Aləmü mafihanı,
Bircə fikr eyləyin, ey əhli-kəmali-Şirvan,
Kimdi bu babılıyin aşiqi-sərgərdani?
Gər səzavar İsə hərgah yekə bığ babi ola,
Biz də babi eləyək gəl yasovul Osmani.
Bilmədim, heyf, bu laməzhəb olan taifələr,
Nə səbəbdəndi ki, tərk eylədilər ədyani?
Uydular cümləsi naseyyidi-şeytan sifətə -
Ki, təqəllübdə köpək oğlu ötüb şeytani.
Şiəməzhəbdə nə gördü bular aya, nə üçün -
Ki, edib tərk onu, eylədilər tüğyani?!
Hərəsi bir cürə bir ayəyə məna oxuyub,
"Zəbərü zir" ifiə eylə eləyib böhtani.
Ağa Seyyid Hüseyn bir neçə il dərs oxuyub,

Edir iqrar ki, hala bilirəm Qurani.
Nə köpək oğlu köpəkdir ki, o qəssab Bağır
Çıxıban kuçədə təfsir eləyib furqani?
Hafizin gər bilə mənasını mən eşşək olum,
Nə Bağır, cümlə bu babi ki, edir dəvani.
Bu nə sözdür ki, bu dünyadədi düzəx, cənnət?
Hər kimin dövləti var isə, tapıb rizvani.
İndi bu halda cənnətdədi bəs Mahmud ağa,
Evi cənnət, meyi kövsər, gədəsi qılmani.
Mindiyi atları Düldüldü, Buraqü Rəfrəf,
Gündə birin minibən seyr eləyir səhrani.
Eldar oğlu nəçidir bəs nə qələt eyləyir o?
Öz sözüylə ki, cəhənnəmdədir ol moltani.
Xəbti var babilərin cümlə, o mövla həqqi,
Onları hamı tutubdur qəzəbi-rəbbani.
Seyyida, lənəti-həq daim ola babilərə,
Öylə lənətlər kim, olmaya heç payani!

## QUBA TƏZİYƏDARLARI VƏ X EYMƏNİ QARƏT EDƏNLƏRƏ

Ey badis edən dəhrdə büdət, köpək oğlu!
Etdiz nə səbəb xeyməni qarət, köpək oğlu?

Yoxsa əlivüz çıxmış idi Kərbübəladən,
Düşdü ələ dövranda bu fürsət, köpək oğlu?

Qarət elədin xeyməgəhi-ali-rəsulu,
Gör olmusuz axır nəyə nisbət, köpək oğlu!

Yoxsa o kəsin nəslisiz, ey qövmi-şəqavət –
Kim etmiş idi özgəyə beyət, köpək oğlu!

Mərcanə sizi yoxsa doğub yeddi zinadən,
Həddəndi ziyadə bu şərarət, köpək oğlu!

Şövkətdə əgər tay olasız siz ki,Yezidə,
Getməz başa bu şən, bu şövkət, köpək oğlu!

Ey Əzrəqin övladləri, bu nə xətadır,
Qasim otağını nədi qarət, köpək oğlu!

Bu zülm ki, siz eyləmisiz Hərmələ etməz,
Sizdən yetişib qəlbə cərahət, köpək oğlu!

Vardır sizə nisbət Öməri-Səddə insaf,
Kimdə tapılır bunca nəhusət, köpək oğlu!

Bu zülm haçan oldu Sənan ibn-Ənəsdən,
İnsandan uzaqdır bu zəlalət, köpək oğlu!

Dərbəndliyə kəllə deyib mərdümi-aləm,
Amma yenə olmaz sizə nisbət, köpək oğlu!

Ata-baba şirvanlıya biar deyirlər,
Hər namdə var bir neçə hikmət, köpək oğlu!

Məcmuəsinin hikməti məlumü əyandır,
Bir kəs edə bilməz ona diqqət, köpək oğlu!

Amma bu təəccübdü ki, donquzlara "ceyran"
Kim qoydu adı, əhli-zəlalət, köpək oğlu!

Bais nə idi ta ki qəbul eyləmədiz siz,
Ağsaqqal edən vəqtdə nəsihət, köpək oğlu!

Hər əmrdə lazıimdı sizə mürşüdi-kamil,
Bimürşid olurmu bu təriqət, köpək oğlu?

Zülmatdə İsgəndərə bir Xızr gərəkdir,
Xassə ki, tutub aləmi zülmət, köpək oğlu!

Yainki olubdur aduvuz şieyi-xalis,
Şayistə deyil böylə şəniət, köpək oğlu!

Baş yarmağa, ox taxmağuva hiç sözüm yox,
Bir siz təki yox sabibi-cürət, köpək oğlu!

Amma ki, bu iş mərifət ilə ola xoşdur,
Biganə bizə etməyə töhmət, köpək oğlu!

Gözlər açılıb, iş dəyişib, haldır özgə,
Ancaq bizi tutmuş bu cəhalət, köpək oğlu!

Bari elə olmaq ki, bizə gülməyə düşmən,
Hər şəhrdə var xarici millət, köpək oğlu!

Hər növ ilə ki, büdətə siz mürtəkib olduz,
Yazdıq onu naçar şəriət, köpək oğlu!

Məmul elədiz dəhrdə hər feli-hərami,
Tapdıq onun icazına səhhət, köpək oğlu!

Ata-babanız şiələr öldürdü imamı,
Qıldız onu siz sünnüyə nisbət, köpək oğlu!

Baş çapmaq ilə, şaxi* olubdur sizə adət,
Ey məzhəbi-dini olan adət, köpək oğlu!

Ol kimsənə ki, məhlədə illərlə tapılmaz,
Nə xeyrə yarar, nə şərə nikbət, köpək oğlu!

Əyyami-məhərrəmdə olur Rüstəmi-sani,
Mərvan tək edər xəlqə siyasət, köpok oğlu!

Ancaq Quba üstündə deyildir bu məzəmmət,
Hər şəhrdə var kani-şərarət, köpək oğlu!

Amma Qubanın bişəsi çox, çaqqalı çoxdur,
Etdiz ki, toyuq tumağa adət, köpək oğlu!

Bəs, lazım olub çaqqal üçün bir tələ qurmaq,
Ta dəf ola bu rəncü məzəmmət, köpək oğlu!

Aya, demədiz təziyeyi-sərvəri-dindir.
Batildi belə bəzi ədavət, köpək oğlu!

Bu təziyənin sahibi sultani-şəhidan,
Sizdən edəcək həqqə şikayət, köpək oğlu!

Dünyada zinakarsız, üqbadə ziyankar,
Tutdu sizi aləmdə xəsarət, köpək oğlu!

Baş çapmağa, ox taxmağa etdiz əbəs adət,
Nə fərzdi bu əmr, nə sünnət, köpək oğlu!

Boynunda kəfən, əldə qılınc baş çapırsız,
Görsün məni ta bir neçə övrət, köpək oğlu!

---

* Şaxsey

Etdim ürəfayə sözü filcümlə işarət,
Ariflərə bəsdir bu işarət, köpək oğlu!

Aldanma, yalandır süxəni-mərsiyəxanə,
Cənnətlə sizə versə bəşarət, köpək oğlu!

Cənnət harada, siz hara tövlə döyü cənnət,
Eşşək balası, dağ ayısı, it köpək oğlu!

Çün hər bir əməl niyyətə mövquf olubdur,
Siz eyləmisiz bicliyə niyyət, köpək oğlu!

Səd heyf ki, Qudyaldan ağa eylədi rehlət,
Qaldı sizə meydani-rəşadət, köpək oğlu!

Əmir Həsən ağa edə gər dəxli-təərrüf,
Olmazdı dəxi sizdə cəsarət, köpək oğlu!

Bisahib olub dəşt, donuz təllə çıxıbdır,
Tülkü bəy olubdur, dərə xəlvət, köpək oğlu!

Tutduz bir əməl ki, elədiz milləti rüsva,
Yandırdı məni nari-xəcalət, köpək oğlu!

Bu fel ki, var sizdə şəhənşahi-rüsuldan,
Tutmun dəxi ümmidi-şəfaət, köpək oğlu!

Bir təziyəvüz var idi övladi-rəsulə,
Ancaq bu idi əcri-risalət, köpək oğlu!

Verdiz ona indi ki, aləmdə xələl siz,
Bir gözləmədiz əcrü qərabət, köpək oğlu!

Cəddim tüpürür görsə sizi ruzi-cəzadə,
Söylər ki, deyilsiz mənə ümmət, köpək oğlu!

Bir də, bu fəsadi ki, siz etdiz, sizə eylər –
Göylərdə mələklər hamı lənət, köpək oğlu!

Hərçənd başın Şüınri-şəqi kəsdi İmamın,
Ağladı yenə, eylədi riqqət, kopək oğlu!

Siz ağlamasız, öldürüsüz yeddi imamı,
Yox zərrə qədər sizdə mürüvvət, köpək oğlu!

Gər daşdı desəm qəlbüvüzi səxt əcəbdir,
Yox daşü dəmirdə bu qəsavət, köpək oğlu!

Vardır elə daş ki, yarılıb xövfi-xudadən,
Cari olub ənhari-lətafət, köpək oğlu!

Vardır elə daş yumbalanıb xişyəti-həqdən,
Yox qəhri-xudadən ona taqət, köpək oğlu!

Quranda sizin qəlbüvüzi zikr qılıb həq,
Get, eylə "əlif-lami" qiraət, köpək oğlu!

Sizdəndir uzaq dəhrdə əlbəttə pəyəmbər,
Nazil sizə olmuşdu bəraət, köpək oğlu!

Seyyid cühəla fövcinə bu sözləri yazdı,
Ta eyləyəsiz haldən ibrət, köpək oğlu!

Minbəd dəxi tutmayın ol növ ilə işlər –
Kim düşmən edə tənü şəmatat, köpək oğlu!

Yoxsa ki, gəlir sizlər üçün həcv dəmadəm,
Vermə dəxi bu Seyyidə zəhmət, köpək oğlu!

## NƏSRƏDDİN ŞAHIN HƏCVİNDƏ

Nasirəddin şəhi-adil ki, səmimi-dildən,
Ömri-tulanıdı həqdən ona daim diləyim.
Gəzdi Rusiyyəni, həm Rumü Firəngistanı,
Tutdu avazəsi afaqı, açıldı ürəyim.
Xəlq derlərdi ki, İskəndəri-sanidir şah,
Bu səyahətdə dəxi qalmadı bir zərrə şəkim.
Bu xəbər çıxdı ki, nagah gəlir Şirvanə,
O güli-gülşəni-İran, açıldı çıçəyim.
Hər o şəxsin ki, evi uçmuş idi, zəlzələdən,
Dedi kim, şah gəlir, oidu qızıldan dirəyim.
Şüəra, həm füqəra cümləsi göz dikdi yola,
Filhəqiqət ki, rəhi-şahə dıkildi bəbəyim.
Mən də bir türki qəsidə yazıb inşa elədim,
Duzlu, şirin söz idi, nə özümü nəzmə çəkim.
Həqqi, zənnim budu kim, söz tanıyan kimsədi şah,
Sayeyi-qadiri-sübhan olacaqdır köməyim.
Qissə kutəh, gecədən bir neçə pas ötmüş idi,
Şəhrə şəh varid olub yatdı, qutardı küləyim.
Sübh mindi karuta[*], sürət ilə oldu rəvan,
İltifat etmədi bir şəxsə nə arif, nə həkim,
Tutdular xəlq çörək, kəsmədi çün bir löğmə,
Görüb ol surəti bildim ki, kəsildi çörəyim.
Nə mənim şerimə baxdı, o nə dərvişlərə,
Dedi: bu xəlqdən əfzəldi mənə bir qəpəyim.
Dedilər kim, mənə bu qissəyə yaz bır tarix,
Mən dedim kim, demənəm, zaye olubdur əməyim.
Leyk Seyyid dedi tarixini, bir əksiyi var,
Niyə gəldi, niyə getdi bu[†]

---

[*] Kareta.

[†] Son misra əbcədlə hesablandıqda 1281-ci il alınır. Bu rəqəmə bir əlavə etdikdə və miladi tarixə çevirdikdə 1865-ci il alınır.

**SULTANOV HADİYƏ**

Ey bizi mədh qılan Hadiyi-dövran əxəvi!
Bu nə zəhmətdir, əya mənbəyi-ürfan əxəvi!
Seyyidi eyləmisən mədhi-firavan, əxəvi,
Şad səndən olacaqdır şəhi-Mərdan, əxəvi!

Çəkdi ol gün ki, Hüseyn Kərbübəlayə ləşkər,
Qaldı ol ərsədə tənha o şəhi-təşnəcigər,
Sən əgər olsa idin orda, əya paksiyər
Canım eylər idin ol şəhə qurban, əxəvi!

Çatmayıb çün əlin ol feyzə, əya xoştiynət,
İndi övladına bəsdir ki, edirsən hörmət,
Cəddimiz şad olacaq olsa sizin tək ümmət,
Mərhəba, namxuda, sahibi-iyman əxəvi!

Məni əfv eylə ki, öz cürmümə iqrar etdim,
Anladım səhvimi, iqrarımı inkar etdim,
Sənə baş çapma dedim, tövbə-stiğfar etdim.
Keç bu təqsirdən, ey mənbəyi-ehsan əxəvi!

Ülasan eşqdə divanə, məhəbbətdəndir.
Çapasan başını mərdanə, məhəbbətdəndir,
Tökəsən qanını meydanə, məhəbbətdəndir,
Olmuşam eylədiyim zəmmə peşiman, əxəvi!

Leyk gəl indi biz əyri oturaq, düz danışaq,
Elə bil küslü idik, gəl təzədən bir barışaq,
Şərdə var isə baş çapmaq biz də qarışaq,
Bir görək varmı buna höccətü bürhan, əxəvi?

Belə fitvanı görək verdi bizə hansı imam?
Ya ki, onlar özü də etdi bu əmrə iqdam?
Bədənin zəhməti gər şərdə olmazsa həram,
Biz də başlar çapıban cari edək qan, əxəvi!

Gərək əvvəl çapa, başlarını fövci-üləma,
Çünki onlardı bu işlərdə rəisül-füqəra,
Sonradan baş çapalar xan, əmirül-üməra,
Nə ki hər bisərü pa, lutiyi-meydan, əxəvi!

Heç eşitdinmi çapıb başın imami-Cəfər?
Ya ki Musiyyü Riza, Əskəriyi-xəstəcigər,
Bizdən onlar məgər öz cəddini az istərlər?
Niyə bəs vermədilər bu işə fərman, əxəvi?

Bu yəqinimdir əgər olsa özü zində imam,
Hökm edər: çapma başın, nəhydi bu feli-həram.
Yenə hər il çapacaq başını bu qövmi-əvam,
Demə kim, tərki-təbiət ola asan, əxəvi!

Qudyal əhli bu işə rağib olur bizdən çox,
Baş çapıb, qıfl taxıb, cismə keçirdərlər ox.
Nə məzəmmət eləyim, onlara bir töhmət yox;
Göz açıb böylə görüb, adət edib can, əxəvi!

Doğrudur, baş çapırıq biz dəxi cəmiyyət ilə,
Bunu lazımdır həlal eyləməyə hüccət ilə,
Nə olur bir göz açıb baxmaq işə ibrət ilə,
Bəlkə yoldan çıxarıbdır bizi şeytan, əxəvi!

Ey Həsənbəy ki, gəlib ləbimə mərdanə bu söz,
Bilirəm ki, dəyəcək Hadiyi-kaptana bu söz,
Çap qıl, ta dağıla səfheyi-dovranə bu söz,
Qoy məni həcv eləsin həzrəti-kaptan, əxəvi!

Ey bu nadanlar əlindən yetişən canə Həsən,
Səbr qıl təneyi-hər cahilü nadanə,
Həsən, Sən də Seyyid kimi ver pəndi-həkimanə, Həsən,
Bəlkə bir söz qana bu zümreyi-nadan, əxəvi!

**HƏSƏN QARA HADİYƏ**

Ey olan hadiyi-ərbabi-zəlalət, Hadi,
Ey müzillini edən həqqə hidayət, Hadi.
Eylədin sən ki, bu mehdiliyə adət, Hadi,
Elə bəs aləmə təbliği-risalət, Hadi!

"Əhsənül-qaidənin" sahibi, yaxud özü bəg,
Yazmış idi, nə rəva xəlq oiur, ağköynək?
Sən, oba aşrı, əzizim, nəyə lazım hürmək,
Nə üçün eylədin izhari-ədavət, Hadi?!

İnşaallah saba-birgün yetişir, mahi-əza,
Gey kəfən, yar başuvi, tök yaşuvi, bağla qəra,
Səni meydanda görən kimsə desin namxuda,
Eləyibdir yenə aləmdə qiyamət Hadi!

Əlüvi tutmadi bir kimsə ki, qardaş, sənin,
Can sənin, cism sənin, tiğ sənin, baş sənin.
Cəm ola baxmaq üçün sünni, qizılbaş sənin,
Baxıban onlara sən eylə fəxarət, Hadi!

Leyk siz bir para büdətlər edibsiz iycad,
Qoymusuz adını siz təziyə, ey əhli-fəsad!
Sizə bu təziyədən özgə həvəslərdi murad,
Mən ölüm, sən bir özün eylə mürüvvət, Hadi!

Bu deyilmi qərəzin başuvi sən çapmaqdan,
Yəni ki, canımı canana edərdim qurban,
Maluvi bəs nə üçün eyləməyirsən ehsan,
Quru baş çapmağa sən etmisən adət, Hadi!

Xatirin cəm elə kim, gər bu isə rəsmi-əza,
Sənə nifrin edəcək padşəhi-Kərbübəla,
Bədənin zəhmətinə şərdə yoxdur fitva,
Yoxsa var sizdə, görək, tazə şəriət, Hadi?

Leyk peyğəmbər olan həcv eləməz ümmətini,
Kişi lazımdı çəkə ümmətinin qeyrətini,
Gərçi həcv eyləyənin yoxdu kəsən
Sənə bu həcv nə fərz oldu, nə sünnət, Hadi!

Xaçpərəstlər hamısı açdi gözün düşdü qabaq,
Dalda qaldıq tökülüb cəhl ilə biz, ay sarsaq!
Bəs nə vəqti bizə qismət olacaq göz açmaq?
Əqlə gəl, tanrıya bax, bəsdi bu qəflət, Hadi!

Bu hədisi nə zaman zikr qılıb peyğəmbər –
Ki, olur rus diliylən oxuyan kəs kafər?
Allah, Allah, bu nə böhtandır, əya hiylətgər,
İxtüafati-lisandır bizə nemət, Hadi!

Kim ki, bir dil bilə, bir nemətə ol vasildir,
Kim ki, çox bilsə, o çox nemətə bəs şamildir,
Leyk aləmdə hər ol kimsə ki, naqabildir,
Edəcək qeyr lisanı o məzəmmət, Hadi!

Kim deyər ağlama sən Kərbübəla sərvərinə?
Canımız cümlə fəda olsun onun Əkbərinə,
Ağladı ərzü səma təşnə ölən Əsğərinə,
Onu inkar edənin zatına lənət, Hadi!

Biz də müddət "zərəbə Zeyd" kitabın oxuduq,
Rişteyi-ömrümüzü nəhv ilə sərfə toxuduq,
Bari biz taifə əzzəldə yenə bir
Olmuşuq indi dəxi eyni-nəcasət, Hadi!

Tut, Həsənbəy bizə təlim eləyir dərsi-zəlal,
Götürüb boynuna ol, kafər olub, vizrü vəbal,
Niyə təlimə siz ətraflı qılırsız irsal,
Bilməyirsiz niyə bəs eybü qəbahət, Hadi?

Oxudur cümlə uşaqlarını xanü bəgüvüz,
Neməti-rus ilə pərvərdə olub cəmdəgüvüz,
Bilməyən rus dilini bəlkə ola tək-təkivüz,
Sizdə var hamıdan artıq ona rəğbət, Hadi!

Şükrlillah ki, bizim padşəhi-kişvəri-Rus,
Ol zamandan ki, edib təxti-üdalətdə cülus.
Bizləri eyləməyib elmü ədəbdən meyus,
Doldurub aləmi insafli ədalət, Hadi!

Mərhəba mülki-Qarabağın əzadarləri,
Tan əfzun eləsin siz təki dindarləri,
Seyyida, bəsdi, əgər görsə bu əşarləri,
Çəkəcək tutduğu kirdarə xəcalət Hadi.

## HÜMAYİNİ HƏCV

Ey Hümayi, bu nə ətvardi izhar elədin,
Çərxi-bədmehr kimi zülmü pədidar elədin,
Sübhi-kazib kimi sadiq yüzünü tar etədin,
Sadiqin sabiti-əşkin yüzə səyyar elədin,
Şəfəqi-əşk ilə rüxsarını gülnar elədin?

Dostluqda nə üçün gozləmədin əndazə,
Düşmən oldun niyə ol sərvqədü tənnazə,
Qəleyi-Şişəyə saldın gedibən avazə -
Ki, filani rüxi-zibayə urardı ğazə,
Şahidi-qismətə məşşatəlik izhar elədin.

Sadiqin naməsi gəldi mənə, ey talibi-raz,
Sanki yazmışdı onu naz ilə Məhmudə Əyaz,
Leyk başdan-ayağa şikvə idi, suzü güdaz,
Görünür eşqi-həqiqin demisən eşqi-məcaz,
Ey bəradər, nə üçün sən belə rəftar elədin?

Sadiqin vəsfini dastanə gətirdin sən özün,
Gedibən kişvəri-Şirvanə gətirdin sən özün,
Töhfə tək bəzmi-Süleymanə gətirdin son özün,
Mindirib rəxşini meydanə gətirdin son özün,
Vəsfini aləmə firdovs kimi car elədin.

Ey əzizim, gəlibən şur ilə göftarə özün,
Eylədin xəlqi Züleyxa rüxi-dildarə özün,
Çəkdin ol Yusifi-gülçöhrəni bazarə özün,
Eylədin ərz mətaini xəridarə özün,
Sonra döndün niyə bəs təlqi-xəridar elədin?

Ey Hümayi, qəsəm ol padşəhi-qəhharə -
Ki, veribdir qulağa səm, gözə nəzzarə,
Hüsndə yusif ola gər o məhi-səyyarə,
Olmayıb pirəhəni-isməti hərgiz parə,
Yox yerə sən bu işi bir qərəzin var elədin.

Xud tutaq Sadiqə lazım görünürdü böhtan,
Neyləmişdi sənə Mahmud ağa, ey ruhi-rəvan?
Şərm edib gözləmədin həqqi-nəmək, hörməti-nan,
Gedibən Qələyə həqqində danışdın hədyan,
Filhəqiqə, nə onu, sən özüvi xar elədin.

Ağanın neməti-əlvanı gözündən gəlsin!
Süfreyi-bəzmi-Süleymanı gözündən gəlsin!
Kababı, çaxırı, büryanı gözündən gəlsin!
Meyi olsun cigərin qanı, gözündən gəlsin!
Çünki həqqində olan feyzini inkar elədin.

Gəlmisən bir neçə dəfə sən özün Şirvanə,
Hüsndə bənzər idin mehrü məhi-tabanə,
Sənə də Mahmud ağa etdi xəyanət, ya nə?
Niyə bica yerə saldın kişini böhtanə?
Binəvanın nə üçün fisqini iqrar elədin?

Nəğəmat əhlinə Mahmud ağanın rəğbəti var,
Bilməyən yoxdu, bu əsrarə onun şöhrəti var,
Gər ola, həqqi də vardır, kişinin dövləti var,
Dövləti, mərifəti, ləzzəti var, hörməti var.
Sən bu zahir işi bais nədir inkar elədin? [...]

## ABİD ƏFƏNDİNİN HƏCVİNDƏ

Əyyühənnas, bilin, türfə rəvayətdir bu,
Nə riyadır bu, nə böhtan, nə zərafətdir bu,
Demə şair sözüdür, nəzmi-ibarətdir bu,
Ya ki əlfazi-bəlağət və fəsahətdir bu,
Şəhrdə vaqe olan əsli hekayətdir bu.

Demə kim, münkiri-şeyxəm, eşidib əhvalı,
Mən özüm yaxşı müridəm, sözümə ol hali,
Övliyadən bu fəna mənzili olmaz xali,
Yoxsa hər tülküsifət kim, uzada saqqalı,
Demək olmaz ki, ona əhli-kəramətdir bu.

Bundan əqdəm dəxi çox şeyx gəlib dünyayə,
Lütfdən feyz veriblər mələyi-əlayə,
O Hacı Əhməd əfəndi ki, köçüb üqbayə,
Özünü salmadı o cifə üçün dünyayə,
Tarı rəhmət eləsin, vasili-rəhmətdir bu.

Var ona eylə müridlər ki, onu şah bilir,
Bəzilər nəhs üzün mehr sanır, mah bilir,
Bəzilər dərgəhini həqqə gedən rah bilir,
Bəzi də var ki, şeyxin özün Allah bilir,
Qəsəm ol xaliqə kim, eyni zəlalətdir bu.

Bircə gör Abidin əhvalını, ey sahibi-hal,
Gözü hər övrətə düşsə ki, olur anə həlal,
Bax, bu məlun özünü gör kimə eylər timsal!
Qıldı axır bu ləin şəri-rəsulu pamal,
Yenə derlər ki, ona əhli-şəriətdir bu.

Necə ki, şahidi-əhvaldı bu əmrə bu kar,
Guş ver, ta ki qılım mən sənə ani izhar,
Eşidib ta qılasan abidə lənət büsyar.
Gərçi təfsilən edim şərhin, olursan bazar.
Müxtəsər şerimə şərh oldu, kifayətdir bu.

Şiəməzhəbləri rüsva eləmişdi babi,
Sünnidən həm dəxi bir şeyx çıxıb qüllabi,
Cəm edib başına hər bisərü pa kəzzabi,
Dişi-erkək qarışıb rəqsə, çalallar qabi,
Bircə bax diqqət ilə, gör ki, nə adətdir bu!

Bəlgədildə bir əfəndi var idi piranə,
Hər kəramət eləmişdi ona bir dürdanə,
O da vermişdi onu bir üzü gül oğlanə,
Vəh nə oğlan ki, üzü güldü, gözü məstanə,
Qamətin gör, demə kim, sərvi-qiyamətdir bu.

Zahirən aşiq imiş abid həm ol simbərə,
Eşidib ta ki atası ki, onu verdi ərə,
Minibən atını bədzat qoyub üz şəhərə,
Eyləyib ərz ki, salsın işini bir təhərə -
Ki, naçalnik, sənə qurban, nə ədalətdir bu?

Alıb arvadımı zur ilə əlimdən Ağa bəg,
Verib öz növkərinə, hörmətimi eylədi hək.
Mənə bundan sonra bəs vacib olubdur ölmək?
Sünniməzhəb, məni-biçarəyə sən eylə kömək,
Demə şeyxəm məni, qapında bir ümmətdir bu.

Bu sözü ta ki naçalnik eşidib qıldı qəzəb,
Yazılıb hökm, qılıb hamını divanə tələb,
Şəhrə ta varid olub Ağa bəyi-alinəsəb,
Abidin kizbi büruz olmağına oldu səbəb,
Bildilər cümlə xəlayiq ki, nə illətdir bu.

Mənə təhrik verirdi bu işə bir neçə kəs,
Mən də ta ki təməi-xamə düşüb etdim həvəs,
Ya bağışla məni sən, ya başımı tərsinə kəs,
Qoyma, qurbanın olum, xəlqə yayılsın ki, bu səs,
Bilmişəm qəlpimi kim, eyni hamaqətdir bu

## ƏRƏB ƏFƏNDİZADƏ MAHMUD ƏFƏNDİYƏ

Var ərzi-salamım sənə, biçarə əfəndi,
Ey əsl vətəndən düşən avarə, əfəndi,
İqbalı dönən dəhrdə idbarə, əfəndi,
Vey tiri-cəfadən cigəri yarə əfəndi,
Biçarə kişi, bikəsü bikarə əfəndi!

Agahü xəbərdar ol, əya arifü kamil,
Bir siz təki alim nə rəvadır ola cahil,
Bir para xəbərsizdən olubdur bizə vasil,
Bir mətləb o ətvardən olmaz sənə hasil,
Təğyir münasibdü bu ətvarə, əfəndi!

Ol gün ki, səni xəlq elədi xaliqi-əkbər,
Həm ruziyi-ruzii şəbüvi qıldı müqərrər,
Hər yerdə ki, olsan çatacaq rizqi-müqəddər,
Bir parə çörəkdən ötəri fikr elə axər,
Dönmək nə rəva rubəhi-məkkarə, əfəndi!

Qeybət nə rəvadır, kişi, tərk et bu sifatı,
Yaxşıydı Ağa bəy sənə verdikdə bəratı,
Hər il düyünü, buğdanı, arpanı, həm atı,
Yaxşıydı kəsəndə çuxanı, kürki-Heratı,
İndi yaman oldu, a yüzi qarə əfəndi?

Bihal gəlib Sədərəyə, hal ilə getdin,
Yəni ki, doşab ilə, bal ilə getdin,
Həm atü öküz, bir neçə baş mal ilə getdin,
Şahanə qəbavü kəmərü şal ilə getdin,
Döndərmiş idin vəsfüvi tüccarə, əfəndi.

Qorxma Ağa bəydən, o deyildir elə övlad –
Kim, sən təki biçarələrə eyləyə bidad,
Sən kimi deyil təbi onun pisliyə mötad,
Sidq ilə çağırsan yenə eylər sənə imdad,
Hər yerdə fələk salsa səni darə, əfəndi.

**SALYANLI AXUND MOLLA MƏHƏMMƏDHƏSƏN HAQQINDA**

Gördüm yuxuda şəhi-bəlanı,
Məzlumi-diyari-Kərbəlanı.
Qəmgin idi, zar, əşk-rizan,
Giryan eləyirdi masivanı.
Öpdüm ayağın təzərrə etdim –
Key, möhnəti ağladan səmanı!
Bais nədi göz yaşın rəvandır?
Şərh eylə mənə bu macəranı.
Bir ah çəkib buyurdu ol şəh;
Gör dəhrdə çəkdiyim cəfanı.
Yetmiş iki tən şəhid olduq,
Çəkdik ələmü qəmü bəlanı.
Bunlar hamı səhldir və lakin,
İncitdi məni, görün, filani,
Bir mərsiyəxani-hərzə-göftar,
Minbərdə ipə düzür yalanı.
Ta ağlada bir neçə əvamı,
Bağlar bizə hərdəm iftiranı.
Sordum ki, o kimdir, ey mükərrəm?
Ver bircə nişan o qəltəbanı.
Bir ah çəkib dedi o sərvər:
Salyanın o zişt rövzəxanı.
O1 Molla Məhəmmədi-Həsən kim,
Satdı pula din ilə imanı.

## QAZİ HACI MOLLA MƏHƏMMƏD MƏLİKKƏNDLİYƏ

Görmüşəm xitteyi-islamdə bihəd qazi,
Var hər mülkdə yüz mollavü həm səd qazi,
Rəsmi-qanundu əzəldən ki, olur bəd qazi,
Leyk mən görməmişəm bir belə mürtəd qazi,
Hansı qazi? - desələr, Molla Məhəmməd qazi.

Vəh nə qazi ki, ləin ibn ləin ibn ləin,
Mülhidü müfsidü mərdudü şəqi, düşməni-din,
Olacaqdır ona axırda qənim şəri-mübin –
Ki, qılıb qaziliyi cifeyi-dünyayə kəmin,
Eyləyibdir özünü nəfsə müqəyyəd qazi.

İki kəs şərə gedib, versə biri iki manat,
Söz onundur ki, verib pul, nə qəmi, tapdı nicat,
Tez yazıb hökm verir qaziyi-şirinhərəkat,
Bu tərəfdən verə məğbun olan üç danə manat,
Filfövr yazdığı hökmün eləyər rəd qazi.

Təng olubdur bu şəririn sitəmindən aləm,
Yoxdu bir kimsə ki, şərrindən onun çəkməyə qəm,
Füqərayə bu qədər kim, eləyir cövrü sitəm,
Bu sözü bavər edin, qadiri-qəhharə qəsəm,
Yanacaq nari-cəhənnəmdə müxəlləd qazi.

Dursa öz qaziliyində döyü çox da nöqsan,
Deyərik: - neynək, edib qaziliyi hiyieyi-nan,
Gündə bir surətə təbdil olu misli-şeytan
Gah yasovuldu, gəhi mirzə, gəhi rüşvətalan,
Döyü bıı fasiqi-zənqəhbə mücərrəd qazi.

Gah gedir Misrə, gəhi Kufəyə, gahi Hələbə,
Gah əfəndi olu, gah suxtə, gahi tələbə,
Gah edir qaziliyi pişə misali-kəsəbə,
Qorxuram seyyid ola, əl qata axır nəsəbə,
Məni bari götürə övladına cəd qazi.

Annamaz heç sözün heysabü biheysabısın,
İsqıyar gündə minib kəndləri qırxıq yabısın,
Cəra edib başına harda adamın qullabısın,
İldə bir yol tanımaz məscidü məbəd qapısın,
Etdi müfrədxananı məscidü məbəd qazi.

Getdi səd heyf, a köpək, Tarxanovun dövrani –
Ki, tapaydm ona bir mahsifət oğlani,
Hac Kamal oğlu Təqi kimi tapaydın nani,
Eyləyəydin yenə qazi oluban divani,
Eyləyəydi səni bu mülkə mücəddəd qazi.

İstəsən xəlqin əgər könlünü razi edəsən,
Cümlə təshiri-dili-əhli-ərazi edəsən,
Bəs gərək arvaduvun felini mazi edəsən,
Cəhd qıl ki, bala qardaşuvu qazi edəsən,
Lotular tovlamağa yaxşıdı əmrəd qazi...

## BİR NƏFƏR DOSTA YAZILAN ZARAFATDIR

Alicaha, qənimin qadiri-sübhan olsun
Qəzəb ayatı sənə ayeyi-Quran olsun.

Səni suzan eləsin ayeyi-fihün fihi,
Mənzilin ruzi-cəza əsfəli-niran olsun.

Düşəsən dur görüm sən bu imarətlərdən.
Yatacaq yer sənə bir künci-dəyirman olsun.

Ay ötə, həftə ötə, heç dilüvə dəyməyə ət,
Bilmənəm il dolana bəlkə ki, qurban olsun.

Gozəsən küçələri, gəşt edəsən şamü səhər,
Bir qəpikdən ötəri göz yaşin əfşan otsun.

Yastığın qırmızı kərpic, döşəyin köhnə həsir,
Bir dənə yırtıq əba üstüvə yorğan olsun.

İstirahətlə sənə olmaya bir mənzili-xas,
Camədar Mirzəli tək mənzilin külxan olsun.

Can verəndə yığıla üstüvə cinn ilə pəri
Əməlin kisəsinin məxzəni şeytan olsun.

Şatır Abdulla, Qubuş Qarə nənə , Şölti Təqi,
Qardaşım vay! – deyib,  üstündə nəvaxan olsün.

Nə ki.... var isə qənşərində zikr desin,
Əl çalan Cəfər Ağa, mütrübün Tatyan olsun.

Gürcüvan çaxırı pişvazə gələ qənşərüvə,
Nuş bər nuş deyən şeytəni-dəğvan olsun.

Ərəsatə bu təhər kefli, xuraman gələsən –
Ki, görənlər səni bu şəkldə heyran olsun.

Xəlq səni loti bilir, amma ki, sən xudkeşsən,
Qoy dəlilin gətirim, aləmə bürhan olsun.

Bir gəlir yadüvə sabiqdə keçən kohnə dükan?
Qoy ki, faş eyləməyim bu sözü, pünhan olsun.

Səni mən mərd bilib dərgəhüvə üz tutdum,
Fərz bildim bu kişi sahibi-ehsan olsun.

Demə sən zatı qəliz Hacı Türabın birisən,
Qara eşşək nədi kim, daxili-insan olsun?

Sən deyirsən ki, atam müctəhidi-aləmdir,
Bu sözə bavər edən sən kimi heyvan olsun.

Müctəhid oğlu gərək qabil ola atası tək
Yoxsa, sən kimi lotu nayibi-lulan olsun.

Taci-sər, həcv deyildir bu ki, mən eyləmişəm,
Qərəz oldur ki, sənə bir neçə həzyan olsun.

Vay əgər haluva məndən olusan rəncidə
Həcv qıllam ki, səni şöhreyi-Şirvan olsun.

# *Müxtəlif şerlər*

## QƏZET NƏDİR

Dün sual etdi bir nəfər cahil –
Ki, qəzetdən nədir bizə hasil?
Bu Həsənbəy nə istəyir bizdən,
Doldurub aləmi quru sözdən
Danışır gah əkin, ziraətdən
Gah maşın, gah özgə sənətdən.
Şərh edir, gah süd qayırmağı –
Ki, qatıqdan belə çəkin yağı.
Pendiri öyrədir ki, böylə tutun,
Saxlayıb artıcaq bahaya satın
Gah Amcrikadan eyləyir kim yad
Bu sifət bir maşın olub icad.
Nəyə lazımdı bizlərə maşın,
Nə üçün xəlqin aldadır başın?
Babamız görməmişdi maşın işi
İngilis kimi tovlayır bu kişi.
Dad edir ki, gərəkdir elm oxumaq,
Çəkmə tikmək və ya ki çit toxumaq
Biz məgər bümirik yağı tutmaq,
Pendiri saxlayıb pula satmaq?
Çöldə hər övrəti-Qarabaği
Nehrədə çalxayır gözəl yaği.
Biz məgər bilmirik taxıl biçmək?
Nəyə lazımdı maşın öyrənmək?
Şöxmə vacibdi çünki beş cüt kəl,
Biçinə çin gərəkdi, xırmana vəl.
Nə gərəkdir yazib ki, ol sadə
Fəhlələr cəng edir Amerkadə
Bilməmiş rəmzini bu dünyanın
Söyləyir halını Amerkanın
Hiç doğru deyil bunun nəfəsi,
Nə qəzetdir? Tamam pul tələsi.
Dedim: - Ey cahili-kərihxitab,
Gərçi nadanə yoxdu hiç cavab.

Bu qəzet kim, olub cahanda bina,
Bunu kim ixtira edib aya?
Hansı millət bunu edib icad?
Hansı dövlət edib ona imdad?
Nədir ol millətin görək qərəzi,
"Həst əlbəttə dər diləş mərəzi" *
Hamı millətdə var qəzetlər çox
Demə kim, bunda hiç faidə yox.
Qəzetin çoxdu xəlqə mənfəəti,
Nə bilir kim ki, yoxdu mərifəti,
Nə deyim, vəhyi-asimanidir ol,
Leyk ərbabi-hal canıdır ol
Ümmül-əxbar, müxbirül-asar,
Kaşifür-rəmz, vacibül-əsrar,
Leyk vacibdü şərh edim hali
Səni filcümlə eyləyim hali
Rayizi-malikani- vadiyi-şövq,
Qaidi-sakinani-aləmi-zövq
Rəhbərü rəhnəvərdü rahnüma,
Cəbrəili-əmini-əhli-səfa.
Özünə eyləyib həmiyyəti fərz –
Ki, edə aləm içrə teyyül-ərz
Gah olur əsbi-telqrafə səvar
Şərqdən Qərbə söyləyir əxbar.
Gəh qılır poçtaxanələrdə məqam,
Xəlqə əxbar eyləyir elam.
Nə qəzet, mayeyi-səadətdir
Nə qəzet, eyni-etmi-hikmətdir
Xassə 'Tiflisski Vestnik"in xəbəri
Yetişir əhli-aləmə səməri.
Bir qəzetdir ki, sadiqül-əxbar
Müştərisi nücum tək büsyar.
Xassə "Kavkaz" ki, əhli-Qafqazə
Hər zaman bir xəbər verir tazə.

---

* Əlbəttə, ürəyində dərdi var.

Xassə ol kim, "Əkinçi"yi-dana,
Əhli-islamı eyləyib ehya
Gah Peterburqdan olur guya,
Gah olur Hindi-Şərqdən peyda.
Gah Dunaydan qəzet verir xəbəri,
Gah Parisdən gəlir onun əsəri.
Kəşf edir karxanədən səməri,
Söyləyir hər kraldən xəbəri.

## HƏSƏNBƏY MƏLİKOVA

*"Əkinçi" qəzetinə yardım üçün*

Əssəlam, ey əhaliyi-zişan!
Ey olanlar bəla oxuna nişan.
Nə bəla? Cəhlü dərdi-nadanlıq
Ey tutan cəmini pərişanlıq!
Neçə müddətdi ki, Həsənbəyi-zar,
Hüsni-tədbir ilə o fəxri-kibar
Öz qədimi lisanımızda haman,
Qəzetə çapını edib ünvan.
İzn hasil qılıbdı dövlətdən;
Biz gərək dəm vuraq səadətdən.
Özünə gərçi yoxdu faidəsi,
Leyk var xəlqə feyzi-zaidəsi.
Feyzi-əvvəl budur ki, müxtəsəri,
Yetirir ol cənab hər xəbəri
Oluruq hali-aləmə vaqif,
Bu bizə bəs deyilmi, ey arif?
Feyzi-sani budur ki, hikmətdən
Şərh edir kəsbdən, ziraətdən
Əkibən elm töxmünü o cənab,
Məzrəi-aləmi edir sirab.
O1 bizə bir səhabi-rəhmətdir,
Baisi-abruyi-millətdir.
Gərçi hər dildə var qəzetlər çox
Bizə ondan vəleyk faidə yox.
Bilmirik rus, ya firəng dili,
Hər dilin rəmzini öz əhli bili
Bizdə yox rusi, həm firəngi səvad.
Olmuşuq türki, farsiyə mötad
Onu da hiç bilmirik kamil,
Əksəri-xəlq əvamdır, cahil.
Bəs "Əkinçi" bizə münasibdir
Qiyməti yaxşı, mali-kasibdir.
Bəs "Əkinçi" cəlalımızdı bizim,

Nasehi -xoşməqalımızdı bizim.
Səy edin, ey güruhi-niksifat!
Etməsin ta bizim "Əkinçi" vəfat.
Sonra göydən əgər enə İsa
Edə bilməz o mürdəni ehya.
Ey "Əkinçi" xirid edən kəslər
Verməsə cəngdən "Əkinçi" xəbər,
Qəzetə tərkin etməyin zinhar,
Nə gərəkdir bizə o nəqlü güzar
Qədəğəndir o növ söhbətlər,
Eşidin pəndlər, nəsihətlər.
Biz gərak səy edək məişət üçün
Sənətü kəsb üçün, ziraət üçün.

## "ZİYA" QƏZETİNƏ

İlahi, bu "Ziya" afaq ara gün tək ziyalənsin!
Ziyai-tələtindən dideyi-aləm cilalənsin!
Ona bani olan Haci Səidin kövkəbi-bəxti
Səadət mətləindən zahir olsun, incilalənsin,
İlahi, aləm içrə canişini -mülki-Qafqazın,
Ədalət məsnədində yüz min il ömrü bəqalənsin.
Qəzet bir hüdhüdi-ziba, qəzetxanlar Süleymandır,
Yetib Bülqeysi- mənayə gərək onlar Səbalənsin.
Qezetdir peyki-ruhani ki, söylər sirri-pünhani
Nə lazım peyki-həq künci-xəfadə ixtitalənsin.
Bu kari-xeyrə kim, bir paktiynət eyləyib iqdam,
Gərək millət qıla himmət ki, ta mətləb ədalənsin.
Məsəldir söyləyib aqil ki, tək əldən səda çıxmaz,
Gərəkdir el-ələ vermək ki ta ol əl sədalənsin.
Çıxan dəm ceybi-qeybi-məşriq-lareybdən ol əl,
Yədi-Musa kimi ecaz üçün beyzanümalənsin.
Təəssübdən uzaq olmaz, ianət vəqtidir, canım,
Bilib əhvali-afaqı gərək millət səfalənsin.
Həqiqət, yaxşı söz hər kəsdən olsa yaxşıdır, billah,
Təəssüb əhli bu rəmzi-hədisə iktifalənsin.
"Və la-tənzür ila mən qalə"yə* qılsın nəzər hasid –
Ki, ta "Vənzur ila məqalə"dən† çeşmi ziyalənsin.
Məhəbbət-töxmin ək sinəndə, ta versın səmər rahət,
Fəzüət nəxlinə rəşk etmə, qoy nəşvü nümalənsin.
Miləl beynində bir rəftar qıl qanuni-hikmətlə -
Ki, ta biganələr görsün kəmalın, aşinalənsin.
İlahi, bu qəzetdən şad eylə əhli-afaqı,
Zəri-məskuki-dövlət tək rəvacında rəvalənsin.
Ziyası çün onun xurşidi-bürci-Rusiyətdəndir,
Onun təhtəş-şüaində qalıb "Əxtər" sühalənsin.
Qəzet təbində məzun eyleyib bir əhli-idraki –
Ki, ta pəndin görüb əhli-məarif iqtidalənsin.

---

* Deyənə baxma
† Deyilənə bax.

Bu işlər dövləti-Rusiyyənin ədlilə naşidir,
Xudavənda, bu dövlət günbəgündən etilalənsin.
O şahənşahi-adil, imperaturi-müəzzəm kim.
Hümayi-səltənətdir zillinə dəhr ilticalənsin.
Bizə bu izndən bihəd fəvaidlər ki, hasildir,
Yetişməz intəhayə gər yazam dəhr intahalənsin.
İlahi, seyyidin qıl bu düasın sən icabət kim,
"Ziya" gün tək ziyalənsin, cahanə müncəlalənsin!

## "ZİYA" QƏZETİNƏ

Ey "Ziya", ey ziyayi-çeşmi-cahan!
Ey olan afitab tək rəxşan!
Ey "Ziya", ey bəridi-əhli-kəmal
Nəşri-əxbər üçün açan pərü bal.
Hüdhüdi-nüktəsənci-badi-səba.
Qasidi-xoş-nəsimi-baği-vəfa
Ey "Ziya", ey bəridi-ruhani,
Kaşifi-rəmzhayi-pünhani,
Ey səvadın səvadi-dideyi-hur
-Ki, savadındı çeşmi-aləmə nur
Ey olan nəfi aləmə calib
Sənə əhli-kəmaldır talib
Ey olan rəşki-tələti-əxtər,
Sənə söylər bəsirət əhli-nəzər
Yetə hər vəqt söz həqiqətdir,
Hər sözün bir kitabi-hikmətdir
Hər bəyanın misali-dövri-qədəh,
Yetirir zövq ilə qülubə fərəh.
Ey verən vəcdü zövq Qatqazə
Səndədir hər xəbər ki, var tazə,
Bu "Ziya" rövşən etdi İranı.
Ey olan əhli-mərifət canı
Şüərayi-Şəmaxiyü Şirvan
Səndən eylərlər iltica, ey can
Edəsən ərz ol nikunamə,
Həzrəti-pak şeyxül-islamə-
Ki, əya pişvayi-əhli-kəmal,
Mədəni-feyz, mənbəi-əfzal
Ey təvarixi-dəhrdən müxbər,
Sənə tarix əhli xidmətgər
Yazdığın nükteyi-dilaralər,
Bikr məzmunü bikr mənalər
Bu duagulərə olub vasil,

Oldu yüz faidə bizə hasil.
Qismi-əhdi-əşər bəyan oldu,
Dili-əhbab şadman oldu.
Budur ümmid kim, o mövladən
Bir qədər kəşf edə bu mənadən.
Verə təfsil rəmzi-icmalə,
Gətirə zövq əhlini halə.
Ola lütfü mürəbbiyi-şüəra
Eyləyə tazədən bizi ehya
Şad olub mümtəru mücövhərdən,
Edə vaqif bizi bu cövhərdən
Oldu məlum rəmzi- "Müstəfa",
Sirri-məbsutü nəqli-müstəsna.
Həm müsərrəh rümuzu oldu sərih,
Həm mürəssə bəyanı çıxdı səhih,
Həm mürəttəbdə kəşf olub tərtib,
Həm mütəvvəcdə oldu vəcd nəsib.
Feyz alıb qibleyi-müqabilədən
Həm müzəlləldə nüktə oldu Həsən
Cəbri-nöqsanda hasil oldu kəmal,
Mərhəba, ey sipehri-məcdü cəlal.
Xeyli dəmdən bu feyzə rağib idik,
Bir əziz ustadə talib idik
Gərçi bir parə bişüurə bu hal
Eyləməz ləzzət, ey cahani-kəmal.
Çünki nadanda yoxdu zövqi-ülum,
Olmayıb kəşf o qövmə bir məlum
Xəlq əvam olduğuçün, ey mövla,
Etməz elmin təriqətinə vəfa.
Elmdir neməti-xudayi-cahan-
Kim, edib həqq onu sizə ehsan.
Kimə həqq elm eyləsə əta,
Ona xeyri-kəsir edibdir əta.
Neməti-paki-rəbbi eylə hədis,
Qoy həsəddən ölə bu qövmi-xəbis.

O zaman kim, bina olurdu "Ziya"
Xatirə gəlmiş idi bu məna-
Ki, gərək rəyi-paki-zivəri-Şeyx,
Xatiri-atiri-münəvvəri-Şeyx,
Verə müsvəddeyi- "Ziya"yə ziya,
Sayəgüstər ola o bali-hüma.
Şükrlillah ki, hasil oldu məram,
Seyyida, şükr qıl bu halə müdara!

## "ZİYA" QƏZETİNƏ

Ey verən səfheyi- "Ziya"yə ziya,
Ey edən dəhri vadiyi-Sina.
Nəfsi-Firon səndən oldu əlil,
Eylədin ani qərqi-lücceyi-Nil.
Ali-Firon əlində zarü zəlil,
Daimi qalmaz ali-İsrail.
Hansı Fironi-cəhlü kibrü qürur,
Düşməni-əqlü fəhmü huşü şüur
Qoymaz aləmdə elm edək hasil
Ta olaq bir məqamə biz vasil
Qurtaraq bu xəyali-vəhşətdən,
Oyanaq bircə xabi-qəflətdən.
Dolana rahi-rüşdə niyyətimiz,
İltiyamin tapa cərahatimiz.
Yaralanmızçün axtaraq məlhəm,
Özgə növ ilə dövr edə aləm
Oxuyaq biz qəzetlər əhvalın,
Ta bilək əhli-aləmin halın –
Ki, görək xəlq nə kəmaldədir,
Qeyr nə lıkr, nə xəyaldədır?
Özgələr eyləyib tərəqqiyi-tam,
Niyə biz qalmışıq bu növ əvam?
Niyə biz bunca bikəmal olduq,
Ayaq altında payimal olduq?
Bəsdi tədrisi-dərsi-"Gürbəvü muş",
"Leyli-Məcnun"ü "Vəsfi-badəfürüş".
Demirəm tutma ruzə, eyləmə həcc,
Leyk zahir olubdu üsrü hərəc.
Demirəm ki, nəmaz batildir,
Rədd hər kim deyərsə cahildir.
Demirəm, ey əziz, vermə zəkat,
Ver zəkat, eylə dəmbədəm xeyrat.
Allah ehsanını qəbul eləsin,
Tanrı məqsudini hüsul eləsin.
Nə səbəbdən zəlilü xar olduq,
Ərzəli-xəlqi-nızigar olduq?
Gər özün tapsan, ey vəfa kanı,
Sənə qurban bu Seyyidin canı

## "ZİYA" QƏZETİNƏ

*İrəvanlı Abbas ağa haqqında*

Mərhəba, ey İrəvanın xaki-zibamənzəri –
Kim, gəlib səndən vücudə əhli-məna sərvəri.
Mərhəba, ey İrəvan, ey məcməül-bəhreyn-əsər,
Bəhrsən, Abbasi-namavər o bəhrin gövhəri.
Gövhəri-qabil, münni-əhli-ürfan, feyzi-həq –
Kim, olubdur zatı bir alicənabın yavəri.
Eyləyib himmət "Ziya" haqqında ol xurşidfər,
Ta "Ziya" olsun cahanda əhli-həqqin rəhbəri.
Aləmə açsın zəbani-pənd, töksün dürrlər,
Zöhrəvü Xürşidü Məh olsun o dürrə müştəri.
Mərhəba, ey sahibi-himmət Məhəmmədzadə kim,
Sən bu imdad ilə şad etdin dili-peyğəmbəri.
Çün qəzetdən şad olur əhli-səvadi-ruzigar,
Sən onu ehya edib, şad eylədin aləmləri.
Sən təki bir beş nəfər qeyrətkeş olsaydı əgər,
Çəkməz idik aləm içrə minnəti-gavü xəri.
Gər qəzet qədrin hələ bilməzsə bu qövm, eybi yox,
İbtidadə hər işi, ari, sanırlar sərsəri.
İbtida Musanı təkzib etdi qövmi-Qibtiyan,
Bildilər gövsaləni məbud qövmi-Samiri.
Aqibət öz nurini izhar qıldı ləmyəzəl,
Oldular ol zatlər hər eybü nöqsandan bəri.
Bilməsə nadan qəzet qədrin, əzizim, nəqsi yox,
"Qədri zər zərgər şünasəd, qədri cövhər cövhəri"*.
Əhli-ürfanə nıüin olmaq kəmal istər özü,
Bikəmalın yox kəmal əhlilə meyli-xatiri.
Nükteyi-"mən ləm yərək ləm yörifə"† ol qutəvər,
Ta sənə ol nüktə açsın bir mütəvvəl dəftəri.
Sən qəzet tərcihinə aləmləri təhris edib,
Aləmi tutdun əziz, aləmdə xar etdin zəri.

* Zər qadrini zərgər bilər, gövhər qədrini sərraf.
† Səni görməyən tanımaz {hədis).

Pul əziz olmuş cahan əhlinə ol qayətdə kim,
Ta sanıllar əskinası Cəbrəilin şəhpəri.
Puldurur məbudu bu xəlqin, nə lazım mərifət,
Simi "ya səttar!" oxurlar, zərrə derlər təngəri*
Seyyida, Abbasə qıl daim dua kim, ol cavan
Həzrəti-Əbbas ilə məhşur görsün məhşəri.
Düşmani-Əbbas ola daim əbusən-qəmtərir,
Görməsin əhbabı üqbadə sərari-Azəri.

## BAKI ŞAİRLƏRİNİN TƏRİFLƏRİ

Şirvanə Bakıdan yenə çox töhfələr gəlir,
San Misr karvanı açılmış, şəkər gəlir.
Nazil olubdu ayeyi-rəhmət Şəmaxiyə,
Tulani şükrlər eləsin, müxtəsər gəlir.
Əşari-ruhbəxşdi, ya möcüzi Məsih,
Əzmi-rəmim zində olub tazətər gəlir.
Abi-bəqayə yetməyimiz oldu aşikar,
Zülmati-qəmdə Xızr bizə rahbər gəlir.
Yəqubə yetdi pirəhəni-Yusifi-əziz,
Çeşmi-ümidvarə ziyayi-digər gəlir.
Oldu bahar fəsli, açıldı şükufələr,
Noxli-ümidə, şükr ki, ey dil, səmər gəlir!
Cürmi edibdi cürmümüzü ətv zahirən,
O1 bəhrdən bu sahilə dürrü gühər gəlir.
Səd şükr, əfv olubdu, könül, cürmi-maməza,
Lütf aləminə ol şəhi-xurşid-fər gəlir.
Etmiş o şəh qəzali-Xütən seydinə həvəs,
Şerindən indi rayiheyi-müşki-tər gəlir.
Salik nə silk şəxsdi zahir deyil bizə,
Amma vücudi bizlərə əhli-himərgəlir.
Şerində dərc olubdu məaniyi-bişümar,
Mudən lətif nüktəsi bariktər gəlir.
Şirayi-şeri nur veribdir Münirinin,
Çərx üzrə müştəri ona şəmsü qəmər gəlir.
Təbi-Müniri şəmsü qəmərdən münirdir,
Baxdıqca şerinə gözə nuri-bəsər gəlir.
Aşiq olubdu nəzmi-Sürəyyayə Fərqədan,
Kəmtər sərayə bir bu sifət tacvər gəlir.
Pərvin-misal nəzmi-Sürəyyadə lütf çox,
O1 əxtəri-münirə Süha bisipər gəlir.
Şirayi-şamdır, ona kəlbül-Cəbar mən,
Bir üstüxani-lütf ilə ol şah əgər gəlir.
Dilxun təxəllüsündə bu rəmz oldu aşikar:
Aşiqdi, çeşmdən üzə xuni-cigər gəlir.
Qan eyləyibdi könlünü bir lalə üzlü yar -

Kim, sinəsində dağləri sərbəsər gəlir,
Mirzə Müsəvvirin qələmi-müşkbarına
Çindir, desəm midadi-siyəh müşki-tər gəlir.
Hər nəqşi-kilki Maniyi-nəqqaşi məhv edib,
Ayineyi-xəyalinə rəngin süvər gəlir.
Müştaqın iştiyaqı edib zar könlümü,
Bilməm nə gün Şəmaxiyə ol xoşsiyər gəlir?
Müddətdi Badkubəni ol məskən eyləyib,
Nə bir peyami-qasidi, nə bir xəbər gəlir.
Ey bivəfa, nədəndi bizi yad etməsən,
Göndər dua o vəqt ki, badi-səhər gəlir.
Tab etmədin cəfalərə qaçdın Şəmaxidən,
Meydani-eşqdir, buna sahib-cigər gəlir.
Verdin məni bu kafər olan bütlərə əsir,
Bir bilmədin ki, başıma axır nələr gəlir.
Qəm çəkmək oldu sən gedəni karü barımız,
Sənsiz bəlalı başımıza yüz xətər gəlir.
Bir səngdü nigarə giriftar olmuşam,
Nə suzi-şəb, nə ahi-səhər kargər gəlir.
Yadi-rüxilə çeşmimə aləm gəlir behişt,
Zikri-ləbilə ağzıma təmi-şəkər gəlir.
Çəksəm bəyanə surəti-hali-nizarımı,
Ayineyi-xəyalüvə qəmdən kədər gəlir.
Qoy söz açılmasın, qəmi biganə bilməsin,
Hərçənd dağ xaməyə, cövlanə pər gəlir.
Məndən deyin Müsəvvirə Şirvanə gəlməsin,
Sərmayeyi-kəmalma gəlsə zərər gəlir.
Qırxıb Şəmaxidən yola sallıq pəraq tək,
Gər cəngi-Qafilə o səgi-kuzəgər gəlir.
Bunlar zərafət idi ki, oldu Müsəvvirə,
Çün təyyibat əhli-dilə niktər gəlir.
Gəlsə bahar fəsli Müsəvvir Şəmaxiyə,
Billah, baharın üstə bahari-digər gəlir.
Bir yerdə kim, Müsəvvirə Seyyid qulam ola,
Sairləri cənabına bir xaki-dər gəlir.

## SƏFA HAQQINDA

Açıl ey dil ki, novruz oldu, həngami-səfa gəldi,
Açıldı qönçələr, güllər, bəhari-dügüşa gəldi,
Çəmən səhnində çak üldu yenə pirahəni-Yusif,
Züleyxa bəzmi tək gülzarə yüz zövqü səfa gəldi.
Bihəmdüllah, qurtardıq ol zimistan macərasından,
Yetişdi mahi-farvərdin, bu fəsli-canfəza gəldi!
Tərəşşöh qıldı baran əbrlərdən səbzəzar üstə -
Ki, guya Xızr üçün zülmatdən abi-bəqa gəldi.
Uzandı ruz şəbdən, nur oldu zülmətə qalib,
Çəməndən zağ getdi, bülbüli-dəstansəra gəldi.
Səfərdən gəldi gül, qıldı çəməndə feyzlər zahir,
Bu həm bir feyzi-digər kim, o yari-dilrüba gəldi.
Məhəmməd nuri zahir oldu gün tək kainat içrə,
Ziyalansın gözüm kim, aləmə nuri ziya gəldi.
Gəl, ey ol Kəbeyi-didar üçün həsrət qalan könlüm,
Dolan başinə, qurban ol ki, həngami-fəda gəldi!
Bahar oldu, açıldı lalə, gəldi yari-gütruyim,
Bu gəlməkdən dili-bimarıma yüz min şəfa gəldi,
Gəl, ey mahım ki, sənsiz oldu zülfün tək günün qarə,
Gəl, ey şahım ki, sənsiz başıma yüz min bəla gəldi!
Açılsın, feyzə yetsin, giryədən bu kur olan çeşmim –
Ki, xaki-məqdəmindən ol nigarın tutiya gəldi.
Bu gün Şirvanə bir gün doğdu kim, görcək təcəllasın,
Fələkdən, həm məlәkdən yüz sədayi-mərhəba gəldi.
Dili-məcruhə yetdi, şükrlillah, aqibət məlhəm,
Şikəstə üstüxanımçün bu gün ol mumiya gəldi.
Gədalıqdan qutardım, padşahi-ruzgar oldum –
Ki, başım üzrə həqdən sayeyi-bali-hüma gəldi.
Göründü zülfi-ənbərtan ol ahunigəh suxün,
Açıldı Çin qatarı, nafeyi-dəşti-Xəta gəldi.
Tərəhhüm qıl, həbibim, kəsmə lütfün aşinalərdən –
Ki, sənsiz başımə biganələrdən çox bəla gəldi.
Sürüdum naləvü əfğan, şərabım oldu göz yaşı,
Nələr çəkdim gör, ey gül, başıma yüz min xəta gəldi!

Xəyali-kakilü zülfünlə kim, hər canibə baxdım,
Biyaban oldu könlüm, çeşmimə aləm qəra gəldı.
Həvayi-kakilü zülfünlə düşdüm özgə sövdayə,
Olub divanə hərdəm başimə yüz macəra gəldı.
Məbada inciyə tuli-süxəndən ol pəri, Seyyid,
Yetir itmamə kim, bu şeri, hatifdən nida gəldi!

## MƏHƏMMƏD SƏFANIN TƏRİFİ

Ey qəmin bu dili-məhzunə səfa,
Kəbeyi-kuyüvə eşq əhli fəda,
Hər qədər eyləyəsən cövrü cəfa,
Mən sənə eyləməzəm qeyri-vəfa,
Hər nə hökm eylədin, ey mahliqa,
Cümləsi oldu muradınca rəva.

Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban sənə bu nalanın!

Sərvərim, padşəhim, soltanım,
Gülrüxüm, sərvqədim, reyhanım.
Ey fərəhbəxşi-dili-suzanım,
Bilmədim noldu mənim nöqsanım,
Döndü, ey mah, belə dövranım,
"Yan" dedin hicr ilə, yandı canım,

Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban sənə bu nalanın!

Söylədin eşq ilə zar ol, oldum,
Hicr ilə sinəfikar ol, oldum,
Nəzəri-xəlqdə xar ol, oldum,
Qəmü ənduhə düçar ol, oldum,
Zarü bisəbrü qərar ol, oldum,
Dedin: "əğyar ilə yar ol", oldum,

Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban sənə bu nalanın!

Ta gözüm hicr ilə giryan oldu,
Xatirin gül kimi xəndan oidu,
Döndü vəslin mənə hicran oldu,
İstədin dil ola viran, oldu,
Gənci-eşqin ola pünhan, oldu,
Dedin "olsun ciyərin qan", oldu.

Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban sənə bu nalanın!

Eylədin dövr xilafi-məmul,
Afitabi-əməlim etdi üful,
Bənd olub zülfüvə oldum məğlul,
Deyiləm gərçi bu sövdadə məlul,
"Küntü fil-eşqi zəlumən və cəhul"*,
Elədim hökmüvü can ilə qəbul.

Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban səna bu nalanın!

Gündə bir şəbədə ağaz etdin,
Çox olan lütfü bizə az etdin,
Üz verib, qeyri sərəfraz etdin,
Bizi qoydun, onu mümtaz etdin,
Hökmü fərmanuvi ibraz etdin,
Məni hər nakəsə dəmsaz etdin,

Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban sənə bu nalanın!

Ey səri-zülfüvə qurban Seyyid,
Oldu divaneyi-dövran Seyyid,
Olub əhvalı pərişan Seyyid,
Ki qalıb bisərü saman Seyyid,
Ağlayır hicrin ilə qan Seyyid,
Oldu torpaq ilə yeksan Seyyid.

Gözəlim, şimdi nədir fərmanın?
Canı qurban sənə bu nalanın!

---

* Mən eşqdə məzlum və cahil oldum

## ABDULLA BƏY ASİ VƏ XUDADAD BƏYİN VƏFATI MÜNASİBƏTİ İLƏ

*Tərkibbənd, mərsiyə*

Bu necə zülm idi, fey çərx ki, bünyad etdin,
Niyə zülm etmək üçün təbüvi mötad etdin?
Bir utan, ey fələki-süflə, bu dövranından,
Gör kimi zarü həzin, kimləri dilşad etdin!
Atəşi-hadisədən çox gözü qıldın pürtab,
Min Süleymanı salıb torpağa bərbad etdin.
Gah atıb tiri-bəla oxladın Abdullahı,
Gah çəkib tiği-cəfa qəsdi-Xudadad etdin.
Ta ki, Mərrixə inayət elədin tiği-sitəm,
Bilmədim ki, onu bikəslərə cəllad etdin.
Zülmkar ismi ilə aləmə oldum məşhur,
Yeri, ey çərx, adın batsın əcəb ad etdin!
Qüssədən günlərimi şamə bərabər qıldın,
Giryədən gözlərimi Dəcleyi-Bəğdad etdin.
Oldu Şirvan mənə Yəqub kimi Beytül-həzən,
Ta ki, gürgi-əcəli Yusifə səyyad etdin.
Bilmədim, heyf ki, ey çərx, nə əfsun oxudun,
Qəleyi-Şişədə təsxiri-pərizad etdin.
Hansı Yusif? O əzizi ki, sən əvvəldə onun
Türbətilə şüəra silkinə ustad etdin.
Niyə qıldın onu, ey çərx, sən axırda zəbun.
Bu nə ayinü rəvişdir ki, sən iycad etdin?
Ah, bu hiyləgərin dad əlindən, səd dad!
İstəməz dəhrdə ərbabi-vəfanı dilşad.
Cövrgüstər fələka! Bu nə cəfadır, nə sitəm?!
Elədin qamətimi bari-müsibətdən xəm.
Bəs deyilmiydi bizə daği-əzayi-Fələki?
Bəs deyilmiydi bizə matəmi-Həssani-əcəm?
Bəs deyilmiydi bizə daği-Xudadad, ey çərx?
Elədin sən yenə amadə bir üzgə matəm.

Nə verirsən bu qədər aləmə dərd üstən dərd?
Nə tökürsən bu qədər könlümə qəm üstən qəm?
Qayəti-hüzn ilə əzbəs ki, yanıbdır cigərim,
Saçılır aləmə odlar nəfəsimdən hər dəm.
Necəsən indi ki, bir ahi-şərarbap çəkim,
Yandırıb eyləyim, cy çərx, əsasın bərhəm?!
Zatın olmuş məgər onduhü bəladən təxmir,
Dəmbədəm aləmə səndən yetişir dərdü ələm?!
Hansı kəsdir ki, ola dəhrdə səndən dilşad,
Hansı dildir ki, ola dövrdə səndən xürrəm?!
Neyləyibdir sənə, ey qatili-ənvai-bəşər!
Neyləyibdir sənə, ey zalimi-nəsli-Adəm?
Hər sürurundadı yüz dərdü müsibət müzmər,
Hər nişatındadi min qüssəvü möhnət müdğəm.
Ağlasam ol şəhi-iqlimi-vəfadən ötrü,
Ahü faryadıma eyb eyləməyin, ey həmdəm!

Necə ah eyləməyim, ah ki, şahım getdi!
Qoydu tənha məni ol püştü pənahım getdi!

Yenə ərbabi-vəfa aləm ara xar oldu,
Əhli-dil ney kimi fəryadə gəlib zar oldu.
Ey könül, bu güli-gülzari-vəfadən ötrü,
Əşki-gülgün ilə gözlər yenə gülnar oldu.
Dağlərdir çəkilən sinələrə lalə kimi,
Ey cünun, seyr elə kim, mövsimi-gülzar oldu.
Ta ki, qərq oldu bəla bəhrinə ol dürri-yətim,
Sədəfi-didələrim bir düri-şəhvar oldu.
Mərifət gövhəri olmuşdu cahan içrə kəsad,
Ona sərrafı-əcəl gəldi, xəridar oldu.
Saldı qəm daireyi-möhnətə üftadələri,
Könül ol dairədə nöqteyi-pərgar oldu.
Qafili etdilər agah çü bu möhnətdən,
Möhnəti-hadiseyi-dəhrə giriftar oldu.
Getdi mirati-dili-safi-Səfadən rövnəq,
Ta ki, bu möhnəti-üzmayə xəbərdar oldu.
Rağibin rəğbəti bilmərrə gedib dünyadən,

Şad olub mərginə öz ömrünə bizar oldu.
Bixudun əxtəri-iqbalına üz verdi vəbal,
Sabitin kövkəbi-əşki üzə səyyar oldu.
Seyyidi-bəxti-qəranın günü oldu qarə,
Zövinin çeşminə məcmui-cahan tar oldu.

Saldı torpağə fələk zülm ilə mehrü mahı,
Ya həlak etdi Xudadad ilə Abdullahı.

## HÄCI ƏBDÜLƏHƏD ŞİRVANİYƏ

*Tərkibbənd*

Gəldi novruz, nigara, yetişib tbsli-bahar,
Gül açar pərdə camalından, olar bülbülə yar,
Səhni-gülzarə olur badi-səba ətrfəşan,
Bağdə sünbül açar silsileyi-ğaliyəbar.
Edəcəklər hamısı ləhni-Hicaz ilə səda,
Dolacaq Şurü Nova ilə bu firuzi həsar.
Tuti tutək çalacaq bağdə, bülbül balaban,
Gələcək sövti-dəfü musiqiyü musiqar,
Edəcək rast Əbülçəp dəxi türkü tacik.
Fəsli-novruz Rəhavəndi oxur səlsəlü sar.
Nə rəva bir belə mövsümdə, nigara, axır,
Bəxtü dövlət kimi məndən edəsən sən də fərar?!
Gül ola bülbülə haradəm, mən olam hicrə əsir,
Eyləyəm şamü səhər fırqət ilə naləvü zar?
Bu qədər eyləmə bu şiftəyə cövrü cəfa,
Bu qədər aşiqi-dilxəstəni sən eyləmə xar.

Dilbəra, yaxşı deyildir bu hekayət səndən,
Eylərəm yoxsa ki, bir zatə şikayət səndən.

Həmdəmim sən təki ta yari-meyaşam oldu,
O qara zülf bəlasilə günüm şam oldu,
Tökülüb zülfi-siyəh tutdu rüxi-rəxşanın,
Dedim: - Ey vay, yaman yerdə gün axşam oldu!
Dedim: - Ey şux, haçan səndən olur kam rəva?
Dedi: - Nakamlıq eşq əhlinə bir kam oldu.
Yar olub özgələrin yarı, edər zövqü səfa,
Dili-şuridə əbəs eşqdə bədnam oldu.
Gəldi novruz, müzəyyən elədi dünyanı,
Bülbüli-xəstəyə güldən yenə ənam oldu.
Dedim: - Ey şux, olub eyd, öpüm qoy əlüvi,
Eyddə bus eləmək sünnəti-islam oldu.
Güldü ol simbədən, söylədi, ey aşiqi-zar,
Səni rüsva eləyən bu təməi-xanı oldu.
Dedim: - Ey müşk-xət, etdin nə üçün məndən rəm?

Dedi kim əhuyi-vəhşini görüb ram oldu.
Yardən aşiqi-şeydayə təmənna nə üçün?
Bu təmənna sanə, ey aşiqi-şeyda, nə üçün?

Şüəra içrə sənin şöhrət edən namın yox,
Yar üçün bəzmi-səfa içrə sərəncamın yox.
Özgələr kimi sənin yoxdu visaqın, bəzmın,
Məzəvü nöqlü kəbabü meyi-gülfamın yox.
Söyləyirsən özünü Camdən artıq, amma,
Meyi-gülfam ilə məmlüvv olan camın yox.
Çeşmi-badamıma həsrətlə baxırsan hərdəm,
Belə zahir ki, sənin şəkkərü badamın yox.
Yox dilaram sənə şəhrdə məndən özgə,
Görməyən gün bu rüxi-şəmimi araının yox.
Səri-küyimdə yatan sübhə kimi bir itcən,
Etibarın, şərəfin, izzətü ikramın yox.
Ruzgarın eləyib tirə bu zülfüm tari,
Tarı şahiddi ki, bir xoş keçən əyyamın yox.
Qoymusan dəhrdə sən bülbüli-şeyda aduvi,
Bəzmdə mən kimi bir yari-güləndamın yox.
Qönçə kimi ciyərin, get dəxi, sən qan eləmə,
Mən kimi bir gül üçün naləvü əfqan eləmə.
Dedim: - Ey şəm, sənin hüsnüvə pərvanə mənəm,
Eyləyən eşqdə bu yanmağa pərva nə mənəm.
Kakilin tarı mənim boynuma vurmuş zəncir,
Bağlanıb süsileyi-zülfdə divanə mənəm.
Xalüvün danəsinə cənnəti versəm nə əcəb,
Adəmin züryətiyəm, talibi-ol danə mənəm.
Tutma, ey gövhəri-yekdanə, belə xar məni,
Məxzəni-mərifətəm, gövhəri-şahanə mənəm.
Etmişəm hər nə cəfa eyləsən, ey şux, qəbul,
Can verən rəğbət ilə sən kimi canənə mənəm,
Salmışam boynuma zünnar səri-zülfüvü mən,
Dərdi-eşq ilə dönən dəhrdə Sənanə mənəm.
Gecələr yadi-rüxü zülfün ilə sübhə kimi,

Söyləyən suz ilə, ey şəmrux, əfsanə mənəm.
Kimsə bilməzdi səni eşq ilə əngüştnüma,
Ey edən, qaşı hilalım, səni dürdanə mənəm.

Etmisən hüsn ilə bu aləmə şöhrət məndən,
Yeri vardır edəsən axın nifrət məndən.

Qönçə vəqti, bu yəqindir, gül olur xar ilə,
O zaman kim açılar, yar olur əğyar ilə.
Bağban zəhmət ilə gülbünü bəslər daim,
Açılıb həmdəm olur gül, vəli, əttar ilə.
Tərbiyət lütf ilə dəryadə edər dürrü sədəf,
Çıxıban həmdəm olur şahi-cahandar ilə.
Çox da, ey ruhi-rəvan, hüsnüvə məğrur olma,
Qalmasan gül kimi bu çöhrəvü rüxsar ilə!
Ta gələr xətt, düşərsən o lətafətdən sən,
Bağı-hüsnün dolacaqdır xəs ilə, xar ilə.
Zülməti-xəttin olur mahi-münir üstə hicab,
Qalısan aləm-ara dərdi-şəbi-tar ilə.
Sonra çox axtarırsan hüsnüvü, həm üşşaqi,
Almaq olmaz onu yüz dirhəmü dinar ilə.
Müştəri qəht olu ol iki əqiqi-təbinə,
Qalmasın gərm lətafətdə bu bazar ilə.

Sənə ondan sonra bir kimsə xiridar olmaz,
Dəxi bu rövnəqi-rüxsar, bu bazar olmaz.

Bu qədər təngə gətirmə məni, ey qönçədəhan!
Çünki mən istəmirəm faş ola əsrari-nihan,
Bilsə əhvalımı ol mənbəyi-əfzalü səxa,
Mənim əhvali-pərişanıma eylər saman.
O1 səxa kani ki, aləmdə onun feyzindən
Şadü xürrəmdü hamı mərdümi-şəhri-Şirvan.
Seyyidə, alimə, hər növ fəqirə hər il,
Əl tutar, sim verər, lütf ilə eylər ehsan.
Getməyib Məkküyə bir kimsə onun tək getməz,
Xəlqi sirab eləyib, dövlət ilə oldu rəvan.

Edər ənam monə, xatirimi şad eylər.
Tapılır camdə mey, evdə daxi süfrədə nan.
Gəlüsən onda visaqimə mənim izzət ilə,
Görəcəksən ki, olur nöqlü məzə zinəti-xatı.
Həqq onu şad eləsin ki, məni çox şad eləyib,
Nəzəri-mərhəməti Seyyidə var bipayan.
Sadiqin toyunu etsin ona Allah nəsib,
Şad olaq, eyş qılaq bərbətü tarü xoşxan.
Düşməni-bəxti görüb dövlətini xar olsun,
Ey xuda hasidinin mənzili olsun niyran.
Həzrəti-Xızr kimi Ömr eləsin aləmdə,
İstəkanında ola çayı zülali-heyvan.

Görməsin gülşəni-iqbali xəzandan xələli,
Bəhəqi-seyyidi-səccad Hüseyn ibn-Əli.

Seyyida, çünki bu tərcü sən etdin təhrir,
Qıl xiyabani-behişti kim hər yan təstir.
Göndərib şerüvi qıl Hacı Rizadən xahiş,
Xidməti-Hacı Əhəddə edə anı təqrir.
Çünki var onda fəsahət, oxur əşarı gözəl,
Pakdil, pakgühərdir özü bir pakzəmir.
Var ümidim ki, Əhəd pakə xudavəndi-əhəd,
Dövlət ilə verə əbnayi-zamandan tövfir.
Ruzi-əzzəldə onun tiynətini dəsti-qəza
Abi-əltafı-səxa ilə edibdir təxmir.
Ona yox lütfu əta, cudü səxavətdə şəbih,
Ona yox feyzü səxa, bəzlü inayətdə nəzir.
Necə ki, Seyyidi-şəhri-şüərayi-Şirvan,
O sifət Hacı Əhəd oldu səxavətdə şəhir.
Bilmirəm nəsli-Hüseynə edəcək
Hacı əta, Maneyi-xeyr əgər olmasa bir Şümri-şərir.

Seyyida, xətmi-kəlam eylə ki, gəldi bu nida;
"Lənətüllahi əla manei-xeyrən əbəda'[*]

---

[*] Xeyrə mane olanlara Allahın əbədi lənəti olsun.

## MİSKİN DÜNYADAN ŞİKAYƏT

*Qəsidə*

Cahan mülkündə zər müşkülgüşadır,
Nə mətləb istəsən ondan rəvadır.
Əgər bir kəsdə olsa mali-dünya,
Təmamən xəlq oniylə aşinadır.
Gədani zər qılır aləmdə sultan,
Əgər sultan ola bizər, gədadır.
Bu söz şərən əgər küfr olmasaydı,
Deyərdim filhəqiqət zər xudadır.
Desəm gər qaziyül-hacat, həqdir,
Desəm gər kaşifül-qəmdir, rəvadır.
Mühafillər içində əğniyanın,
Kəlamı san kəlami-övliyadır.
Əgər bir kəs mənim tək olsa müflis,
Kəlamı kizbdir, qövlü xətadır.
Könül, qəm çəkmə müflislər pənahi
Vəliyyül-həq Əliyyül-Mürtəzadır.
Vəsiyyi-Əhmədi-mürsəl ki, zati
Haman məmsusi-zati-kibriyadır.
Onun vəssafi-zati-bimisalı
Hamı Quran, nə tənha "Hələtadır".
Fütüvvət kişvərinin padşahı
Bilir aləm ki, "Şahi-lafətadır".
O əllər kim ki, tutmaz damənindən,
Könül, dusti-Əli, dusti-xudadır:
Fəda ol dəstə kim, Mərhəbfikəndir,
Fəda ol şəstə kim, Xeybərgüşadır.
Əlidir caili-ərzü səmavat,
Əli xəllaqi-yeksər masəvadır.
O əldən tinəti-Adəm müxəmmər,
O yüzdən mahi-gərdün biziyadır.
Əlidəndir vücudi-küll mövcud,

Əli bənna, Əli dəhrə binadır.
Özü məxluqdur, əmma o sərvər
Həman xəllaqi-ərzü həm səmadır.
Qəsimi-cənnətü duzəxdir ol şəh,
Şəfri-ərseyi-ruzi-cəzadir.
Yetiş fəryadinə, ya şahi-Xeybər-
Ki, Seyyid bir qulami-rusiyadır!

## FƏRHAD MİRZƏYƏ

*Qəsidə*

Ey könül, bir müjdə ver kim, cismə ondan can gəlir,
Can çıxar şövq ilə istiqbalə kim, canan gəlir.

Bu haman fəsli-humayundur çıxıb Mizandən,
Bürci-Əqrəb seyrinə xurşidi-nurəfşan gəlir.

Bürci-mizandan gələn xurşidi-rəxşandır və ya
Sahəti-İrandan şahi-fələkfərman gəlir.

Ya Süleymandır büsat üzrə və ya Kənandən
Ərzi-didar etməyə Misrə Məhi-Kənan gəlir.

Verdilər dün müjdə kim, məhruseyi-Tehrandən
Sahəti-Qafqazə bir şahzadeyi-dövran gəlir.

Xosrovi-şirinzəban Fərhad Mirzə kim, bu gün
Şəkkəri-mədhilə tuti tək mənə əlhan gəlir.

Bağlayıbdır Kəbeyi-məqsudə ehrami-səfa –
Kim, minayi-eşqdə zibh etməyə qurban gəlir.

Zilli-həqdir Nasirəddin şəh, bu anın sayəsi,
Sayeyi-sultanda müzmər sayeyi-yəzdan gəlir.

Əhli-islamı sərəfraz etməyə hər səfhədə
Lütfi-həq, bürhani-mütləq, ayeyi-Quran gəlir.

Lütf ilə feyzi-qüdumindən bu rizvanbargah
Etməyə Rusiyyə mülkün rövzeyi-rizvan gəlir.

Həbbəza, ey dövləti-Rusiyyə, fəxr et kim, sənə
Bir hümayi-övci-istiğna bu gün mehman gəlir.

Seyti-ədliylə bu gün məmlüvv edib əfaqı kim,
Söyləyirlər tazədən Şirvanə Nuşirvan gəlir.

Bistümi-mahi-siyami eydi-Şəvvl et, könül –
Kim, bu gün Şirvanə ol Mehrü Zühəl dərban gəlir.

Mən deməzmidim, könül, qəm çəkmə dərdi-fəqrdən –
Kim, olur bir gün ki, axır dərdüvə dərman gəlir?

Mən deməzmidim ki, qalmaz çox da bijən çahdə,
Qurtarırsan qüssədən çün Rüstəmi-dəstan gəlir?

Daim olmaz səfheyi-aləmdə Keyvan cilvəgər,
Müştəri iqbal edir, ol gövkəbi-rəxşan gəlir.

Daim olmaz şahidani-bağ Bəhməndən təbah,
Açılır gülşəndə güllər, mövsümi-niysan gəlir.

Daim olmaz Yusifi-Kənanə qəhti-müştəri, Bir əzizi-
Misr olur peyda, şəhi-saman gəlir.

Şükrlillah, gəldi bir şəhzadeyi-vala gühər –
Kim, səxasın gər görə Hatəm, gözündən qan gəlir.

Ey fələkçakər ki, hər gün dərgəhi-əfzalüvə
Əl açıb sailliyə yüz Hatəmü Neman gəlir.

Sənsən ol xaqangühər kim, mətbəxi-ehsanüvə
Kasə əldə Çindən Fəğfur ilə Xaqan gəlir.

Gər səni Qeysər desəm, vardır qüsuri nəzmimin,
Gər səni Kəsra desəm, əlbəttə kəsri-şan gəlir.

Gər desəm xurşidi-rəxşansan, zəvalım var mənim,
Gər desəm mahi-fələksən, söz mənə nöqsan gəlir.

Bilmişəm, ey məzhəri-əsmai-hüsna kim, nəsən,
Gərçi fikri-bikrimə hər ləhzə bir ünvan gəlir.

Aləmi-nasut üçün qövsi-nüzulin teyy edib,
Surəti-insan ilə dünyayə bir rəhman gəlir.

Ey riyazi elminin aləm ara İqlidisi,
Məktəbi-təlimüvə dərs almağa Loğman gəlir.

Versələr əhbabüvə gər zəhr lütfündən sənin,
Zəhri-qatüdən xəvasi-çeşmeyi-heyvan gəlir.

Düşmənin gər abi-kövsər içsə guya zəhr içər,
Dideyi-bədxahüvə baği-cinan niran gəlir.

Sərvəra, alinəjada, şahi-gərdun rüfəta,
Ey ki, vəsfindən təni-efkarə hər dəm can gəlir.

Mövsümi-əhyadə gəldin xitteyi-Şirvanə sən,
Mürdələr ehyasına həqdən bu gün fərman gəlir.

Barilaha, bu səfər olsun mübarək kim, sənə
Bu səfərdən buyi-xeyr, ey şahi-zil ehsan, gəlir.

Yavərim ol, qıl bu gün lütfünlə ehya Seyyidi –
Kim, sənə məhşər günü yavər şəhi-Mərdan gəlir.

## QƏSİDƏ

Söylədim yarə ki, ey məh, gəlib əyyami-bahar,
Güldü naz ilə ki, bilməm yenə bu sözdə nə var.
Dedim: - Ey mayeyi-can, gülşənü səhra dəmidir-
Ki, gülü laləyə pirayə qılır badi-bahar.
Pərdədən çıxdı yenə gülşən-ara şahidi-gül,
Qalmadı xatiri-bülbüldə dəxi səbrü qərar.
Sünbülün türrəsini şanə qılıb badi-səhər,
Kuhü səhraları hər ləhzə qılır qaliyəbar.
Dəşt-ara qülqüleyi-qümriyü sarü səlsəl,
Nərgisin açdı gözün xabdən etdi bidar.
Lalə doldurdu meyi-jalə ilə camını kim,
Bağ şahidlərini qoymaya bir dəm huşyar.
Bir tərəf tarü dəfü hayü heyi-sadəpərəst,
Bir tərəf nayü neyü nöqlü meyi-badəgüsar.
Qarışıb bir-birinə şeyxü müridü mürşid,
Səhni-gülzarı qılır seyr, çıxıb xurdü kübar.
Dedi: - Ey aşiqi-dilsuxteyi-xamtəmə,
Belə bihudə xəyalatdən et istiğfar!
Aşiqi-zarə və lazımdı təmaşayi-çəmən,
Talibi-yarə nə hacətdi həvayi-xəsü xar?
İstəsən lalə vü gül, qıl rüxi-alimə nəzər,
Eyləsən meyfi-çəmən, et səri-kuyimə güzar.
Qönçəni eylə təsəvvür ki, dəhanım kimidir,
Leyk yox qönçədə hərgiz belə şirin göftar.
Sünbülü tut ki, səri-zülfümə bənzər, amma,
Bağlıdırmı ona zülfüm kimi yüz min dili-zar?
Hanı zülfüm kimi sünbül, hanı ruyim kimi gül,
Hanı güldə bu təravət, hanı sünbüldə bu tar?
Ola bir yerdə ki, zülfi-siyəhim nafəgüşa,
Nə rəvadır ki, edə ərz mətaın əttar.
Nərgizi tut ki, bieyneh, elə, bənzər gözümə,
Hanı nərgizdə bu qəmzə, hanı onda bu xumar?
Tutalım ki, qədi-movzunuma xud bənzər sərv,
Bu rəvişdə hanı bir sərvdə movzun rəftar?

## BAHARİYYƏ

*Məsnəvi*

Dəmi ki, etmiş idi dərdü qüssə könlümü xun,
Məlalü möhnətimi eyləmişdi çərx füzun,
Nə bir rəfiq ki, bu qəmdə qəmküsarım ola.
Ənisi-xatiri-qəmdidəvü fikarım ola,
Gözüm piyaləsi məmlüvv əşki-həsrət ilə.
Keçib məlalilən əyyam min kədurət ilə.
Könüldə yüz qəmü möhnət, nə taqəti-təqrir,
Nə dərdü qüssəyə çarə, nə möhnətə tədbir –
Ki, bir rəfiqi-vəfaşivəvü kərəmkirdar,
Təriqi-lütf ilə dildarlıq qılıb izhar.
Dedi ki, ey bu cahanda səramədi-üşşaq,
Hərifi-məclisi-rindan, rəfiqi-xoşəxlaq,
Zəmanə əhli səni əhli-dil edəllə hesab,
Həmişə maili-eyşü nişat, çəngü rübab.
Bəiddir ki, məqamın ola bu guşeyi-qəm,
Məlalü möhnət ilə yar, dərd ilə həmdəm.
Əcəb bu qəflətə səndən, bu guşeyi-pünhan,
Ələlxüsus ki, fəsli-bahardır bu zaman.
Edib nəsimi-səba kuhü dəşti müşkamiz,
Tutubdu suhni-gülüstanı səbzeyi-novxiz.
Füruği-çöhreyi-gül səhni-bağə nur salıb,
Nəvayi-bülbülü qümri cahanə şur salıb,
Behişt səfhəsi tək səhni-bağ xürrəmdir,
Bənafşə - susənə, nəsrinə - lalə həmdəmdir.
Sədayi-kəbki-xüramanü naleyi -dürrac,
Qərarü səbrini eşq əhlinin edib tarac.
Ayəğə dur ki, edək bir zaman səyahəti-bağ –
Ki, bəlkə nəfheyi-güldən edək əlaci-dimağ.
Məni-şikəstəkönüi, dərdü qüssədən əfkar,
Bu qissəni eşidib laəlacü həm naçar.
Səyahət əzmi ilə üz qoyüb gülüstanə,
Bəli bir əldə sürahi, bir əldə peymanə.
Fəzayi-gulşəni gördüm əcəb dilaradır,

Həvayi-bağ fərəhbəxşü rahətətzadır.
Behişt əlaməti gülzardən büruz etmiş,
Şükufə xələti-əşcan nüqrəduz etmiş.
Görüb bu növ ilə gülzarı xürrəmü şadab,
Xitab saqiyə qıldım ki, bir qədəh meyi-nab!
Edib piyaləni ləbriz söylədi saqi –
Ki, yoxdu zəhri-qəmin bundan özgə tiryaki.
Əzəl piyalə ki, əvvəl qədəmdə nuş etdim,
Nəvayi-faxtədən bu sədanı guş etdim –
Ki, ey şəvahidi-gülzar, sakinani-çəmən,
Edən bu rövzcyi-cənnətmisal içində vətən.
Bilin ki, xosrovi-gülgunqəbayi-xitteyi-bağ
Sizə bu növ ilə hökm etdi, ta edəm iblağ –
Ki, ta qüdumi-bahar ilə bağdır xürrəm,
Büsati-işarətidən xali olmayın bir dəm.
Büsati-işrəti çəksinlə tərfi-gülzarə,
Kimisi dairə götsün, kimisi nəqqarə.
Bənəfşə zülfünə badi-səba yetirsin tab –
Ki, tutsun aləmi yeksər şəmimi-ənbəri-nab.
Qəbayi-lalə bu mövsümdə ləlfam olsun,
Byşərti-inki əlində müdam cam olsun.
Gərək bu bəzmə verə əndəlib sövti rəvac –
Ki, hüsni-sövtə bu fərxəndə bəzmdir möhtac.
Kənari-cuydə sərvi-səhi məqam etsin,
Vəli gəlib-gedənə yaxşı ehtiram etsin.
Səyahət etməyə gülzarə hər kəs etsə xüram.
İcazə verməyə şimşadə eyləsin iqdam.
Bisati-səbzəni ta bir kəs etməyə pamal,
Əlində xəncər ona susən etsin istiqbal.
Yetirdi çün bu pəyamı o mürği-xoşəlhan,
Gəlib nəşatə gülü lalə, sünbülü reyhan.
Məni-füsürdə bu hali görüb, gəlib halə,
Dedim: - Səbəb nədi, saqi, bu qədr ehmalə?
Edib piyaləni ləbriz ol nikuməslək,
Tutub bərabərimə söylədi: "həni ən lək'*

---

* Nuş olsun

İkinci camı ki, nuş eylədim məni-məcnun,
Edib xümarımı əvvəlki camdən əfzun,
Zəmanə dərdü məlalından etdi könlümü pak,
Gətirdi şurə məni, baş açıq, giriban çak.
Dedim ki, bir dolanım canibi-gülüstanı,
Tapım qərargəhi-bülbüli-xoşəlhanı –
Ki, həm nəvası ilə bir zaman olum dilşad,
Qüdumi-güldən edim həm ona mübarəkbad –
Ki, var onun da mənim tək başında sevdası,
Çəkib fəraq ələmin, vəsldir təmənnası.
Könül bu fikrdə, gəz maili-nəzareyi-bağ,
Fəzayi-gülşəni seyr etməyə götürdüm ayağ –
Ki, bir pərivəşə çeşmim sataşdı, gözləri məst,
Gəlib xüramə ki, ta sərvi-nazı eyləyə pəst.
Fəriştə xuyü firəngi-xisalü kafərkiş,
Xədəngi-qəmzəsi hazır könüllər etməyə riş.
Töksübdü tərfi-binaguşə türreyi-müşkin,
Salıbdı çöhreyi-xurşidə müşki-tərdən çin.
Kəməndi-zülfünə təhriki-şanə vermiş tab,
Mərizi-eşqə ləbi-ləli şərbəti-innab.
Çəkibdi lövhi-cəbinində dəsti-qüdrəti-həq,
İki hilal, vəli, müşkdən verib rövnəq.
Olub mənimlə müqabil o dilbəri-tənnaz,
Təriqi-tənz ilə dürci-əqiqin eylədi baz –
Ki, "mərhəba ləkə", ey şairi-bədii-kəlam,
Sənə səyahəti-gülşən mübarək ola müdam!
Məgər gətirdi səni təngə eşq sevdası –
Ki, oldu seyri-çəmən xatirin təmənnası?
Dedim ki, ey məni rüsvayi-xəlq edən dildar,
Büti-Məsihtəkəllüm, nigari-xoşgöftar,
Xədəngi-qəmzən edib, bos deyilmi könlümü riş,
Dəxi bu söz nə rəva zəxmim üzrə vurmaq niş?
Həmişə istərəm olsun qəmin könüldə füzun,
Məlalü möhnətü eşqinlə bağrım olsun xun.
Kəməndi-həlqeyi-zülfünlə gərdənim ola bənd,
Neçin ki, layiqi-divanədir həmişə kəmənd.
Vəli həvayi-çəmən kuyüvün nişanəsidir,

Camali-laləvü gül ruyüvün nişanəsidir.
Edəllə bir-birə lafi şəvahidi-gülzar,
Bizimlə həmdəm olan istəməz bir özgə nigar.
Gəlib itabə bu sözdən o mahi-müşkniqab,
Məni-şikəstəyə bu nəhv ilə yetirdi cavab:
Mənim ki, hüsnü cəmalım salıbdı aləmə şur,
Cəmalü surətinə, söylə kim olub məğrur?
Dedim ki, qəddin ilə sərvi-naz eylər laf,
Dedi: - Güman budu, qəddim görə, verər insaf.
Dedim: - Bənəfşə edər laf o zülfdən izhar,
Dedi: - Əbəs döyü başı aşağı, xicləti var.
Dedim: - Durubdu üzün qarşısında laleyi-al,
Dedi; - Onu da edər şərmsar üzümdəki xal.
Dedim: - Gözünlədi həmçeşm nərgisi-məxmur,
Dedi ki, gözlərimi görsə gözləri olu kur.
Dedim: -Dəhanuva bəs qönçənin nə nisbəti var?
Dedi; - Dəhanıma bənzər və leyk yox göftar.
Dedim: - Ləbinlədi gül-bərgi-tər mübahisəsi,
Dedi: - Xəzanın ona tez yetər həvadisəsi.
Dedim: - Qaşınla müqabil durub fələkdə hilal,
Dedi ki, çərxə qaşımdan düşüb bu türfə misal.
Dedim: - Üzünlə bərabər tutar özüm məhi-tam,
Dedi: - Edən onu sərgəştə bu həvəsdi müdam.
Dedim ki, ləlüvə bənzər əqiqi-rümmani,
Dedi: - Bəli, əgər etsəydi xəndə pünhani.
Mənim ki, hüsni-cəmalımda əqldir heyran,
Səbəb budur ki, mənəm bəndeyi-şəhi-imkan.
Dəxildir bu şəhə Seyyidi-ələmpərvər,
Cəza günündə onu qoyma zar, ey sərvər.
Şəhi-səriri-xilafət, əmiri-hadiyi-rah,
Əmiri-ənfüsi-afaq Əli vəliyullah.
Vəsiyyi-mütləqi-xeyrulbəşər, imami-mübin
Müini-məzhəbü millət, şəhi-Qiyasəddin.

## QƏSİDƏ

Dün ki, xurşid üzünə əbri-siyah oldu hicab,
Müşkdən arizinə şahidi-çin çəkdi niqab.

Nisfi-şəb çeşmi-kəvakib kimi həngami-səhər
Tutdu asayiş üçün əhli-cahan çeşmini xab.
Məni-dilxəstə, könül içrə xəyali-ləbi-yar,
Mən ki, möhnətzədə başımda xumari-meyi-nab.

Sübhədək dideyi-əxtər kimi bidar gözüm,
Zarü əfkarü dilazürdəvü məşğuli-kitab.

Nagəhan həlqeyi-dərdən ucalıb çərxə səda,
Lərzə əndamıma düşdü, eşidib, çün simab -

Ki, xudaya, bu zaman kimdü bu qapuni döyən,
Deyiləm bir kəsə mədyun ki, gəlib alsın hesab

Və nə mən bir kəs ilə eyləmişəm cəngü cədəl,
Gələ fərraş mənə etmək üçün zəcrü əzab.

Bu nə məsciddü ki, hər ləhzə qapusun açalar,
Bu nə meyxanədü kim, istəyələr cami-şərab.

Bu nə həmmami-Sifahandu ki, vəqtü bivəqt,
Xəlq qüsl etmək üçün eyləyə hər ləhzə şitab.

Bu deyil Hacı Kamal oğlu Təqinin otağı,
Nisfi-şəb söhbət üçün eyləyələr dəqqül-bab.

Əlqərəz, xövfü rica ilə ayağə durdum,
Pəsi-dərdən ona verdim bu təriq ilə cavab.

Kimsən, aya nə işin var bu şəbi-tardə kim,
Salmısan günbədi-gərdunə səda, xanəxərab?

Azmısan yol bu şəbi-tirə müsafirsən əgər,
Karivangah deyil bu, yeri, tut rahi-səvab!

Qəsəm ol münimü fəyyazə ki, sailsən əgər,
Yoxdu bir şey ki, verib hasil edəm əcrü səvab.

Eşidib bu sözü səsləndi ki, ey divanə,
Bu nə əfsanə süxəndir, bu nə bihudə cavab?

Bildim ol dilbəri-mehparədi kim, eşqindən
Yox idi dildə təvan bu dili-qəmdidədə tab.

Sıçrayıb bərq tək açdım qapını sürətlə,
Gördüm ol mahı töküb gün üzünə ənbəri-nab.

Xali-müşkini onun tərfi-ləbi-ləlində
Elədir, sanki qonub kuzeyi-şəkkərdə zübab.

Zülfi-pürçinü girehgiri rüxi-alında,
Sanki bir əqrəbdir müşk ilə etmiş məhtab.

Arizi üzrə ərəq sanki gül üzrə şəbnəm,
Ya düzülmüş təbəqi-lalədə löluyi-xoşab.

Öldürüb bir neçə yüz aşiqi-sərgərdanı,
Eyləyib əllərini qan ilə ol şux xizab.

Dedi: - Ey Seyyidi-biçarə, nolubdur ki, sənə,
Rahəti-xabdədir xəlq, vəli sən bixab?

## QƏSİDƏ

Afərin, ey əhli-sünnət vəl-cəmaət, afərin!
Ey edənlər xəlqə izhari-səxavət, afərin!

Var imiş sizdə həmiyyət, ey güruhi-bavəfa,
Binəvalər xeylini etdiz himayət, afərin!

Pul yığıb etdiz zəkat ilə qəni müflisləri,
Var imiş sizlərdə asari-zəkavət, afərin!

İki min üç yüz nüfusun rizqinə zamin olub
Eylədiz ərzaq möhtacə zəmanət, afərin!

Müttəsəf olduz sifati-rəbbi-rəzzaq ilə siz,
Eylədiz eytamü miskinə kəfalət, afərin!

Pul yığıb, buğda alıb tutduz əlin miskinlərin,
Ac qalanlar tapdı gör kim, istirahət, afərin!

Sədri-məclisdən büruz etdi bu tədbiri-səvab,
Afərin, ey məsdəri-izzət, sədarət, afərin!

Adəmü Həvvanı bu buğda ilən şad eylədiz,
Baği-cənnət tapdı bu işdən xəsarət, afərin!

Adəmin övladına buğda ilə etdiz kömək,
Qoymadız ol həzrəti çəksin xəcalət, afərin!

Çıxdı çənnətdən yeyib buğda babamız çün bizim,
Eylədiz buğdayə siz yaxşı siyasət, afərin!

Bir neçə anbarlərdə buğda olmuşdu nihan,
Tapdız ol buğdanı, ey əhli-rəşadət, afərin!

Adəmin övladına verdiz dəyirmanlar ara,
Əzdilər un tək onu, tapdı xəsarət, afərin!

Etdilər tənnurlərdə bərrə tək büryan onu,
Qıldılar buğdayə izhari-ədavət, afərin!

Atəşi-fəqri masakinə gülüstan eylədiz,
Eyiəsin sizdən Xəlilulla fəxarət, afərin!

Həq-təala razı olsun sizdən, ey əhli-səxa,
Qoymaduz çəksin dul övrətlər əhanət, afərin!

Bu bahalıq ildə, bu şiddətli sərma günləri
Gərm edib miskinləri etdiz ianət, afərin!

İmperaturi-müəzzəm eyləmişdi həm kömək,
Çox rəiyyət xatirin etdi rəayət, afərin!

Tutdu miskinlər əlin ehsani-bipayan ilə,
Afərin, cy şahi-iqlimi-ədalət, afərin!

Əlli ildə böylə il aləmdə bir dəfə düşər,
Etdiz, ey ərbabi-himmət, rəfi-üsrət, afərin!

Safi-milad ilə yazdım bu ilin tarixini,
Ta Məsihadən bizə olsun kəramət, afərin!

Bir cidavü iki möhməl sıfr onun tarixidir,*
Afərinlər, Seyyida, ruhi-fəsahət, afərin!

---

* Tarix miladi 1880-ci ildir.

## QƏSİDƏ

Ey dadmayan zəmanə ara eşq şərbətin,
Bəs ağzının haçan bilisən söylə ləzzətin?
Get rahat ol, səninlə bizim yoxdu karımız,
Qoy biz çəkək bu badiyənin bari-möhnətin.
Biz xazini-əmanəti-eşqik ki, kirdgar,
Sənduqi-sinəmizdə qoyubdur əmanətin.
Eşq olmasaydı, olmaz idi hüsn müştəhir,
Hüsn olmasaydı, eşq itirmişdi şöhrətin.
Ərz etdi hüsn aləmə məşuqeyi-əzəl,
Eşq eylədi qəbul onun dordü zəhmətin.
Eşq idi kim, Xəlilini hifz etdi nardən,
Söndürdü bir xitab ilə narın hərarətin.
Məcnunu hüsni-Leyli idi dərbədər qılan,
Eşq idi artıran buların bunca rütbatin.
İsanı çərxi-çarümə qalxızdı eşqi-həq-
Kim, vasil etdi xaneyi-xurşidə rüfətin.
Şirinin eşqi eylədi Fərhadı təlxkam,
Əzra həvası Vamiqin artırdı xiffətin.
Hüsn idi Yusifi eləyən şöhreyi-cahan,
Eşq idi artıran o Züleyxa məhəbbətin.
Hüsn ilə eşq olmasa, hasil nə dəhrdən,
Bieşq kimsə anlamayıb sirri-xilqətin.
Sövt ilə hüsıı nuri-əla nurdur gözüm,
Məndən soruş bu töhfələrin qədrü qiymətin.
Davud hüsni-sövtini Talutdən soruş,
Calut anlamaz bu işin sirrü hikmətin.
Ləhni-hudilə şurə gəlir naqeyi-ərəb,
Ey şeyxi-kəcməniş, oxu bari rəvayətin,
Ey şeyx, sanma eşqi-məcazi bu eşqi son,
Bu nüktənin məcazdə gördüm həqiqətin.
Hər yerdədir xudayi-əhəd nuru cilvəgər,
Vəhdət gözilə bax, biləsən sirri-vəhdətin.
Ğeyr əzvicudi-həq yox imiş cilvə göstərən,
Gördüm mən, eyni vəhdət imiş cümlə kəsrətin.
Aləmdə olsa idi xudabin olan gözün,

Hər şeydə sən görərdin əyatı həqq surətin.
Ol gün ki, gördü yarımı Adəm, behiştdən
Düşdü həvayi-vəslinə, tərk etdi cənnətin.
Axırda oldu mətəkifi-babi-dövləti,
Darüssəlamə vasil olub tapdı behcətin.
Seyr et Nəcəf diyarını, qap dürri-vəhdəti,
Bundan ziyadə mən nə açıra yar söhbətin?
İnsanı xəlq eylədi öz surətində həqq,
Bax arizi-nigarıma, gəl gör əlamətin.
Varımdı Misri-qəlbdə bir Yusifi-əziz,
Həq doldurubdu könlümə mehrü müvəddətin.
Ol Yusif eşqi eylədi vadar kim, məni
Təhrir edim bu növ ilə Yusif hekayətin
Gəh qazeyi-kəlam qılar hüsni-Yusifi,
Gəh faş edər o mahə Züleyxa iradətin.
Şayəd ki, rəmzdən olan agah halıma,
İzhar edə bu aşiqi-zarə inayətin.
Ey dil, bu halə gətdi səni badeyi-vila,
İnkar qılma piri-muğanın kəramətin.
Seyyid, bir özgə rəmz göründü bu nəzmdən.
Hal əhlinin bu rəmz füzun etdi halətin.

## ŞƏRAB HAQQINDA

*Məsnəvi*

Evlər yıxıldı dəhrdə şürbi-şərabdən,
İbrət götür şərabın üzündə hübabdən,
Hali-hübab mətləbimə bir işarədir,
Bu ariyətsərадə sözüm istiarədir.
Əql itədir şərafəti-insan zəmanədə,
Pamal qılma əqli şərabü müğanədə.
Mey bəzminin dolanma, əzizim, kənarına,
Dəyməz səfayi-badeyi-gülgun xumarına.
Hər kimsənin ki, xatiri mail əyağədir,
Tutmaz əlini əql ki, meyli əyağədir.
Badə dimağı fasid edər, ehtiraz elə,
Naçar eyləsən bu təbəhkarı, az elə.
Təqlid ilə bu mətləbi mən qılmıram bəyan,
Bir neçə dəfə badə içib etdim imtəhan.
Gördüm ki, içmişəm çıxıb əqlü şüurdən,
Fərq etmədim cahanda ünası zükurdən.
Məst olmasaydım, olmaz idim maili-zina,
Məst olmasaydım, etməz idim cəngi-bərməla.
Gərçi günahı az görünür camü badənin,
Amma dərini fəth qılır hər iradənin.
Harutu qıldı şürbü onun dərdə mübtəla,
Marutu qıldı şürbü onun varidi-bəla.
İçmə şərabi-nabı ki, ümmül-fəsaddır,
Hər fitnədən şərab fəsadı ziyaddır.
İçmə onu ki, içmədi peyğəmbəri-xuda,
İçmə onu ki, içmədi sultani-övliya.
Mey şürbü bil şəriəti-adəmdədir həram,
Bu əmrə ənbiyayi-izam etməyib qiyam.
Meyl etmə kim, şərabə, dimağə ziyanı var,
İçməz o kimsə ki, xirədi-nüktədanı var.
Seyyid edibdi tövbəni şürbi-şərabdən,
Ümmidi var çəzadə qutarsın əzabdən.
Asi qulundu əfv qıl, ey xaliqi-rəhim,
Feyzindən eyləmə onu novmid, ya kərim!

## ӘHİBBANIN RİCASI

*Məsnəvi*

Nə olur, ey ədibi-əhli-cahan,
Edəsən pəndimi qəbul əlan,
Çəkəsən şiveyi-qəzəldən əl,
Qəzələ qoymayır qəzal məhəl.
Bəsdir etdin bu dəkli şerə həvəs,
Şeri almaz şəirə əsla kəs.
Ehtiraq etdi kövkəbi-şüəra,
Biəsərdir Ütaridü Şira.
Sədi-əkbər qalıb səadətdən,
Sədi-əsğər düşüb kəramətdən
Kövkəbi-Müştəri vəbalə düşüb,
Afitabi-səfa zəvalə düşüb.
Əhli-izzət cahanda xar olub,
Qəsri-nadan zərnigar olub.
Huşə gəl, mərdük zamanı deyil,
Dəxi bidərdlik zəmanı deyil.
Olma bikar, ol mübaşiri-kar,
Gərçi bimüştəri qalıb bazar.
Yox mətai-hünər xəridarı
, Saldı gərdun kəsadə bazarı
. Demə əşar, rəsmi-şeri unut,
İndi sən bir təriqi-digər tut,
Nə olur nəqli-ənbiyayi-cahan
, Ola türki dilində xəlqə bəyan?
Cümlə ətfali-türkü şad edəsən,
Özünə həm cahanda ad edəsən.
Qala aləmdə yadigar sözün,
Ola rövşən bu macərədə gözün.
Sözü ol yarın eylədi təsir,
Necə kim, mey dilə verir təşvir
. San Məsih idi ol mələksima,
Eylədi mürdə könlümü ehya.
Qıldı tərğib ol fəriştənihad,

Oldu ruhül-qüdüs mənə ustad,
Oldu təlim Adəmə əsma,
Sənə hərad olsun, ey ilahi-səma!
Pir idim, tifl oldu ustadım,
Feyzi-həqdən yetişdi imdadım
Badeyi-nitqi etdi məst məni,
Eylədi əmrə paybəst məni.
Eylədim şerhi-halə bəs iqdam,
Eylədi övni-qadirü əllam.
Bu hekayətlər ənbiyadəndir
Şərh olub "Rövzətüs-səfa"dəndir.
Bikəmü biş etmişəm təhrir,
Vermədim hiç nüktəyə təğyir.
Cümlə bir qövmə kim, olub havi
Dedim: "Əl öhdətü ələrravi"*.

---

* Babalı deyənin boynuna.

## TƏSVİRİ AMAXININ VƏZİYYƏTİNİN

*Mürəbbə-dördlük*

Saqiya, ey büti-gülçöhrə, gəlir fəsli-bahar,
Meyi-gülfamı gətir, mövsümi-işrət görünür
Ruhi-Cəmşidi qılıb şad, gətir mey camın,
Yenə təbimdə mənim türfə bəşarət görünür.

Var ümidim, yenə güllər açılıb yaz olacaq,
Bülbüli-suxtədillər yenə dəmsaz olacaq,
Çox olub cyşü tərəb, möhnətü qəm az olacaq,
Açılıb laləvü gül, gör nə lətafət görünür!

Neçə illərdi ki, Şirvanə gəlib rəncü əzab,
Oldu çox kimsənələr zəlzələdən xanəxarab,
Kimiya kimi olub rahi-mədaxil nayab,
Neçə müddətdi ki, bu əhldə üsrət görünür.

Şəhri-Şirvan idi Qafqazdə hər ölkəyə baş,
Xəlqinin könlü hami gen, üzü gül tək bəşşaş,
Qəhtdən, zəlzələdən bizlərə təng oldu məaş.
İndi bizlərdə nə bir malü nə sərvəf görünür.

Qəhtdə, zəlzələdə üsrətimiz gördü əyatı
İmperaturi-müəzzəm bizə qıldı ehsan,
Nəqd pul, möhləti-tövci, bəm əta eylədi nan,
Filhəqiqət ki, bu dövlətdə səxavət görünür.

Həqq edə Sani Aleksandra daim rəhmət,
Eyləsin mənzilü məvasını baği-cənnət,
Verməsin salis Aleksandra hərgiz afət-
Ki, bu övladdə asari-ədalət görünür.

Şəhri-Moskovda bu il kim, o siracü vəhhac
May ayında qoyacaq izzət ilə başına taç
Gərçi xurşidi-cahan tacə deyildir möhtaç
Padşəhlərdə və lakin belə adət görünür.

Odu şahənşəhi-can, tacı ədalətdir onun,
Kəməri qüvvəti-həq, təxti fərasətdir onun,
Ləşkəri fövci-mələk, yavəri qüdrətdir onun",
Hər yerə əzm eləsə, fəth ilə nüsrət görünür.

Harda olsa o şəhə bir neçə bədxahü bəxil,
Həq-təala edəcək geydlərin fıt-təzlil,
Yağdırır teyri-Əbabil o qövmə siccil,
Əsfi-makövndə ol qövmə xəsarət görünür.

O zaman kim, qoyacaq tac bu şahi-dünya,
Olacaqdır mənəfis, eyləyəcək lütfü əta,
Barilaha, bizə də şəfqətin eylə icra.
Hamıdan çünki bizim əhldə zillət görünür.

Bir tərəf zəlzələdən evlərimiz oldu xərab,
Bir tərəf xəlq bahalıqda yanıb oldu kəbab,
Bir tərəf getdi quberna, işimiz oldu əzab,
Müxtəsər, bizdədi aləmdə hər afət gorünür.

Bu haman şəhrdi kim, adlanır idi Şirvan,
Bunda Şirvanşəhilər tutdu səadətlə məkan,
Əxsitan şah, Xəlil şah, o şahi-Xəndan,
Bax təvarixlərə gör bir nə hekayət görünür

Mərkəzi-daireyi-cümlə vilayətdir bu,
Hasilavər yeri, şirin suyu şərbətdir bu!
Kim baharın görən adəm, deyə cənnətdir bu,
Nə günahı var onun? Sözdə ləyaqət görünür.

Şəhrimiz abü həvadə qoyub aləmləri mat,
Bakı Şirvanə bərabər ola bilməz, heyhat
Məsəlin eybi nədir "bir olumu eşşəgü at…”?
Bir məsəldir, nə ki bir özgə ədavət görünür.

Var onım pisliyinə cümlə ətibbadə sübut,
Qışda Əraf sifət, yayda "misali-Bərəhut.
Mətləbim həçv deytl, bil ki, bu mənada, sükut,
Doğru söz acı olur, həqq mərarət görünür.

Bakının şəhri-Şəmaxi kümi samanımı var?
Ya ki şirin suyu, bir baqi-gülüstanımı var?
Kərkü teyhusimi, ya sünbülü reyhanımı var?
Onda bir neftdən özgə nə əlamət görünür?

Var sərriştələri lobər ilə ləngərdən
Doludur sahili-məqsudləri gövhərdən,
Bir cəhətdən Bakı əfzəldi hamı kişvərdən
Ki, səğirində, kəbirində dəyanət görünür.

Bizdə yoxdur, var olarda neçə yer şeyi-xəvas,
Safdil kimsədilər kim, hamısı mömini-xas,
Ari əzbüxlü həsəd, şieyi-sahibixlas,
O cəmaətdə hamı qeyrəti-millət görünür.

Biz gərəkdir eləyək şərh öz əhvalımızı,
Nə gərək Bakı sozü, dağıdalar dalımızı,
Döndərib tanrı ki, idbar edib iqbalımızı,
Əxtəri-bəxtdə müddətdi nəhusət görünür.

Bir yaman dərd budur nazil olub tazə bəla,
İstənir töycü pulu, xəlq qılır vaveyla!
Gəldi boy çıxdı, qalıb yerdə fəqirü füqəra,
Füqəra qövminə bir tazə qiyamət görünür.

Gördü dövlətli ki, şəhr əhli qalıb sərgərdan,
Neçə dəfə bizə pul, buğdalar etdi ehsan,
Borcdan çıxmamışıq biz hələ, çıxdı fərman,
Bilmirəm bizdə nə dövlət və nə sərvət görünür?!

İmperatur bu əhvaldən olsa hali,
Razı olmaz ki, pərişan ola xəlqin hali,
Ey "Ziya", yaz qəzetə, şərh elə bu əhvali,
Sənə, ey kani-ədəb, xəlqdə minnət görünür.

İvanov gündə yığıb xəlqi qılır hökmün əyan-
Ki, gərəkdir verəsiz töycü pulun, vermir aman,
Nə qədər icz edirik, yalvarırıq növhəkünan
Olmayır hiç riza, başqa küdurət görünür.

İntixab eyləmişik dörd nəfər əhli-hali,
Korsakov-Dondukova şərh edətər əhvali,
Var ümidim ki, əgər haldən olsa hali,
Edəcək rəhm ki, zatında mürüvvət görünür.

Birisi Mahmud ağadır, biri Sərkar Həsən,
Birisi Haci Əli Abbas, əla müstəhsən
Və Aleksan Ləfəyof hali bulardan, əhsən,
Filhəqiqət ki, bu dörd kəsdə himayət görunür.

Bular öz xərcləri ilə gedəcək mərdanə,
Maskova, şəhri-Peterburqa, dəxi hər yanə,
Salacaqlar kişilər şəhrin işin samanə,
İş bilən şəxsdü, bunlarda fərasət görünür.

İşə getməkdə Həsənbəy hamıdan müstəsna,
Pul işində Lələyofdan olacaq dərdə dəva,
Dil işi olsa əgər, lazım olur Mahmud ağa,
Onda çox sürəti-göftari-fəsahət görünür.

Füqəralər qəminə qalsa bu dörd şəxs, xuda,
Bunlara nüsrətini nazil elə sübhü məsa!
Qorxuram eyləməyə bir neçəsi əhdə vəfa,
Çünki tənpərvərə bu əmrdə zəhmət görünür.

Bilürəm ki, birisi bu işə bişək gedəcək,
Hüsni-əxlaq, kərəmkani Həsən bəg gedəcək,
Getməsə heç biri, axərdə özi tək gedəcək,
Çünki zatında onun himmətü qeyrət görünür.

Bir neçə əmrdə sabit görünüb andə qədəm,
Eylədi acliq ilində nə qədər xəlqə kərəm,
Cəm edüb uşqula ətfali üçün xeyli dirəm,
Məktəbi-məclisə ondan genə hümmət görünür.

Çaryar eşqinə, ey padşəhi-ərzü səma,
Bir-birindən dəxi bu dörd nəfəri etmə cüda,
Rübi-məskundə ver sən bulara ömri-bəqa,
Çün bulardan genə asari-kəramət görünür.

Seyyida, qorxma, bu dörd kəs gedər, inşaallah!
Arizu nəxli verər bir səmər, inşaallah!
Yeno Şirvanə quberna gələr, inşaallah!
Kövkəbi-bəxtdə bir özgə səadət görünür!

Ta düşə töycü pulun verməyə iş samanə,
Yenə möhlət olacaq bir neçə il Şirvanə,
Ya ki keçmişləri əfv eyləyəcək şahanə,
Təbimə qeybdən ilhami-bəşarət görünür.

## HACI RÜSTƏM BƏYƏ

*QƏZƏL*

Ey Rüstəmi-siminbərü sərvər, gözün aydın!
Vey gülşəni-dövlətdə sənubər, gözün aydın!

Əlminnətü-lilləh sədəfi-lütfi-ilahi
Göstərdi bu gün lölövü gövhar, gözün aydın!

Yəni ki, xuda hacıya çudü kərəmindən
Bəxş eylədi fərzəndi-mütəhhər, gözün aydın!

Ol mahvücud ilə hərəmxaneyi-dövlət
Ayinəsifət oldu münəvvər, gözün aydın!

Çox var idi gül gülşənü gülzardə, amma
Artırdı bu gül gülşənə zivər, gözün aydın!

Bir şəm idi kim, qıldı cahan bəzmini rövşən,
Ya mərdüməki-didə kim, eylər gözün aydın.

Yüz şükr ki, məqbuli-ilah oldu dualar,
Məqsudü murad oldu müyəssər, gözün aydın!

Həqqində budur şamü səhər virdi-zəbanım,
Etsin sənin ol xaliqi-davər gözün aydın!

Versin bacıya bir neçə övladi-mükərrəm,
Qılsın səni hər ləhzə mükərrər gözün aydın!

## MƏNZUMƏ

*Məsnəvi*

Şükrlillah ki, yetişdim kamə,
Müşkriz olctn bəyazə xamə.
Hali-məxluqi-əzəl oldu bəyan,
Can-biçcan gətirdim ünvan.
Bir neçə dövrlər itmam oldu,
Gərçi möhnətlə günüm şam oldu.
Bir tərəf dəğdəğeyi-fikri-məaş,
Bir tərəf vəsvəseyi-səyü təlaş.
Bir tərəfdən qəmi-hicrani-nigar,
Bir tərəf cövri-sipehri-qəddar.
Gecələr rişteyi-canım yandı,
Şəm tək ruhi-rəvanım yandı.
Vəqt kim, mənzilini oldu xali,
Düşdü yadimə nigarın xali.
Xalmı- nöqtə görüb yad elədim,
Nöqtədən xatirimi şad elədim.
Qisseyi-Adəmi etdim təhrir,
Şeysin əhvalını qıldım təstir.
Oldu təhrir sifati-İdris,
O ki, hikmətlər edərdi tədris.
Salehü Hud hekayətlərini,
Söylədim cümlə rəvayətlərini.
Eylədim qisseyi-Qabili bəyan,
Möhnətü kürbəti-Habili əyan.
Gəldi izharə Xəlilür-rəhman,
Nəqli-Nəmrudi-ənud oldu əyan.
Nəqli-Şəddadi-şədid etdi zühur,
Qoymadım qisseyi-Babildə qüsur.
Bütşikən ol şəhi-dövran oldu,
Həzrətə nar gülüstan oldu.
Ey xuda, dərdimə dərman eylə,
Atəşi-hiçri gülüstan eylə!
Masıva hübbini dildən pak et,

Könlümü ayineyi-idrak et!
Kəbəni qoyma ki, bütxanə ola,
Dil gərək mənzili-cananə ola.
Bizə bəs eşqi-xudavəndi-əhəd,
"Laşərikə ləhu əllahü səməd"*,
Mustafa haqqına, ey bari-xuda,
Şərəfi-mərtəbeyi-ali-əba
Seyyidi eyləmə məhşərdə zəlil,
Çün olub itrəti-Zəhrayə dəxil.
Bir üzüqarə qulundur bu fəqir,
Əfv qıl, hər nə edibdir təqsir!

## HƏSƏDİN MƏZƏMMƏTİ

*Məsnəvi*

Bu ziba nüktəni Şeyxi-Şəbüstər,
Edibdir "Gülşəni-raz"ında müzmər.
Əgərçi farsidir ol məani,
Mən etdim türkiyə təhrir ani.
Deyib qardaşə etmə etiban,
Həsəddir qardaşın qardaşə kan.
Həsudi-canə ad qoydum bəradər,
Deyirsən naqisin namını xahər.
Çü şəhvət aralıqda kargərdir,
Biri fərzənddir, biri pədərdir,
Məsih-asa atadan sən iba qıl,
Nişiməngahuvu övci-səma qıl.
Həsəddən qətl edib Habili Qabil,
Batıb qanə təni-biçarə Habil.
Həsəd viranə eylər xanimanı,
Həsəddir eyləyən viran cahanı.
Nələr tutdu görün ixvani-Yusif,
Həsəddən çah olub zindani-Yusif.

## ARZU

*Məsnəvi*

Nə xoşdur yetsə aşiq vəsli-yarə,
Çəkə can kimi dildarın kənarə!
Ona şərh eyləyə hicran bəlasın,
Sirişki-çeşmi-zarın macərasın.
Xudavənda, behəqqi-İsü Yəqub,
Məni hicran əlində qoyma məğlub!
Yetir bu xəstəni vəsli-nigarə,
Mübəddəl qıl xəzanini bəharə.
Gözüm görsün rüxi-zibayi-yarı,
Görüm bəzmimdə yari-gülüzarı.
Qalıbdır hicrdə avarə Seyyid,
Bu dərdi-hicrə bilməz çarə Seyyid.

## SEYYİDİN MÜNACATI

*Qəsidə*

Cahan cəhəndədun, ey dustlər, kinayətdir,
Təsəvvür eyləmə kim, çayi-istirahətdir,
Əbəs cahan ona ad qoymadılar, ey arif,
Cahan çü bərqi-cəhəndə məqami-sürətdir.
Yüz il gər ömr edəsən, can yetən zamanda sona,
Belə təsəvvür olur, doğduğun bu saətdir.
Əgər min il edəsən ömr son də Nuh kimi,
Səfineyi-əməlin qərqi-bəhri-rehlətdir.
Cahan nə Xızra vəfa eyləyər, nə İlyasə,
Bu bivəfayə ümid eyləmək səfahətdir.
Qiyamətin qopar ol gün ki, rehlət eylərsən,
Cahanda hər nəfəsin bəlkə bir qiyamətdir.
Xoş ol ki, xitteyi-əcsamo basmayıbdı qədəm,
Məqami-ruhdə bilqeyb cism rahətdir.
Nə gəlməyibdi cahanə, nə çəkməyib möhnət,
Diyari-paki-ədəmdə yatıb, fəraqətdir.
Nə yarə aşiq olub, nə çəkir qəmi-hicran,
Nə kan ahü fəğandır, işi nə möhnətdir.
Təsəvvür eyləmə kim, dövlət ilə rahət olur,
Kimin ki dövləti çoxdur, qərini-zəhmətdir.
Puli-məcazdü dünya, əgər onu keçəsən,
Könül, o səmtə yolun kişvəri-həqiqətdir.
Zəmanə məzrəədir, onda ək əməl töxmin,
O töxm bansıdı? Bil: taətü ibadətdir.
Üzü qara, əli boş, çakərindi Seyyidi-zar,
Ümidi səndən onun lütfdür, inayətdir.
Əgər behıştə aparsan, təfəzzülündəndir,
Əgər cəhənnəmo salsan, yenə ədalətdir.
Bu qədr cürm ilə səndən deyil könül novmid,
Bilibdi dərgəhi-mövlani babi-rəhmətdir.
Cəza günündə bizim kimi rusiyahlərə,
Mühəmmədi-ərəbi sahibi-şəfaətdir

## A.S. PUŞKİN HAQQINDA

*Qəsidə*

Təaləlla, zəhi-qadir, əlimü əqdəsü əla-
Ki, məcmui-cahanı altı gündə eylədi peyda.

Qılıb altımcı gün öz surətində xəlq insani,
Ədən bağında qoydu şadü xürrəm yavəri Həvva.

Onun nəslində qoydu bır nicat əhlin ki, aləmdə
Onunla pak oldu məsiyətdən mərdümi-dünya.

Nizami-aləmin icrasına hər qərndə bir kəs,
Rəisül-qövm olubdur ki, dolansın aliyü ədna.

Vücudə gəldi rusi-pürhünər Nuh oğlu Yafəsdən,
Dəmi-təqsimdə mülki-şimali etdilər məva.

Həman rusun adilə adlanıbdır mülki-Rusiyyə
Və lakin dillərində var idi çox kəsrlər peyda.

Zəbani-rusi asan etməyə təqrirü təhrirə,
Əgərçi xeyli zəhmətlər çəkib hər arifü dana.

Vəli bu axırıncı dəfədə bir əfsəbü əkməl
Lisanü həm lüğati-rusi etdi tazədən ehya.

Aleksandr kim oldur Sergeycviç Puşkin ləğəb şair,
Neçə nafe kitab etmişdi ol şirinsüxən inşa,

Məcalislər tapıb ziynət o pakın nəsrü nəzmindən-
Ki, guya hər kitab İncildir, təhrir edən Luqa.

Romanlar kim edib təhrir ol sərdəftəri-ürfan,
Əgər guş etsə zövqündən onun Məcnun olur Leyla.

Driğa, getdi dünyadən o şəxsi-arifü karail!
Onun cənnətdə ruhun şad qılsın həzrəti-İsa.

Əgərçi öz həyatında görübdür çox nəvazişlər,
Vəli, bəd əz vəfat oldu ona həm hörməti-üzma.

Hümayi-mülkü dövlət, imperaturi-müəzzəmdən
Çıxıb fərman bu kim, təmir olunsun mərqədi-vala.

Olub təmir o valanın məzarı hökmi-şah ilə,
Şəhənşahi-müəzzəm qıldı öz asarını ibqa.

Xudaya, baqi olsun dövləti-sultan Aleksandr-
Ki, əhli-elmə etdi ehtiram ol şahi-bihəmta.

Nəinki əhli-elmə hörmət eylər öz həyatında,
Vəfatından sora elm əhlinin namın qılır ehya.

Zəhi sultani-adil qədrdan kim, zati-valası,
Tapıbdır rəfət ilə cümleyi-aləmdə istisna.

Həmişə qıl dua, Seyyid, bu şahi-qədrdan üçün-
Ki, oldur əhli-Qafqazə vəliyyi-neməti-kübra.

İlahi, qıl özin, qardaşların, həm oğlunu daim,
Bəlalərdən səlamət, cümleyt-düşmənlərin rüsva.

# *Məktublar*

## HƏSƏN BƏY MƏLİKOVA

*Məsnəvi*

Ey Həsənbəy, müəllimi-dana!
Ey edən əhli-aləmi ehya!
Ey çatan aləmə səfa səndən,
Eyləyir Seyyid iltica səndən-
Ki, bu məktub kim, xəyalımdır,
Əhli-Qafqazə ərzi-halımdır;
Edəsən çap, ey gözüm nuri,
Ta ola ruzigar məşhuri.

* * *

Əssəlam, ey əhaliyi-Qafqaz,
Ey rəisani-sahibül-ezaz!
Əssəlam, ey güruhi-xeyr-əsər,
Millətin qeyrətin çəkən kəslər!
Kişidə olmasa əgər qeyrət,
Ondan, əlbəttə, yaxşıdır övrət.
Dadü fəryad, ey güruhi-izam,
Oldu zaye bu milləti-islam.
Günü gündən zəlilü xar olduq.
Möhnətü qüssəyə düçar olduq.
Bu qədər dərd kim, olur hadis,
Ona bielmlik olur bais.
Bir bəladır bu dərdi-nadani-
Ki, onun elm olubdıı dərmani.
Bu təəccübdür, ey güruhi-bəşər,
Bir kişi yatsa, naxoş olsa əgər,
Axtarır bir təbibi-danadil,
Ta ki, səhhət ola ona hasil.
İndi naxoşdu milləti-islam,
Ona lazımdır eyləmək əncam.

Dərdimizdir bu dərdi-nadanlıq-
Ki, tutubdur bizi pərişanlıq.
Qeyrilər etdilər tərəqqiyi-tam,
Qaldı zillətdə firqeyi-islam.
Kişinin olmadısa dünyası,
Bari lazımdır olsun üqbası.
Bizdə nə axirət, nə dünya var,
Olmuşuq bir yaman bəlayə düçar.
Hər vilayətdə var beş-on kəsəbə,
Əlli min seyyidü axund, tələbə,
Əlli dərviş, əlli mərsiyəxan,
Hamının sözləri tamam yalan;
Əlli min suxtə, əlli min sail,
Əlli min hoqqabazi-naqabi1,
Hamının fikri xəlqi soymaqdır,
Quru yerdə bu xəlqi qoymaqdır.
Xəlqə bunlar hamı qurublar dam,
Bir bunu annamir bu qövmi-avam.
Şiəmiz sünniyə edər töhmət,
Sünnimiz şiədən edər qeybət.
Bizi puç etdi şiə, sünni sözü,
Əhli-islamın oldu kur gözü.
Bizə sairlər eyləyir töhmət,
Çün tərəqqi edibdir hər millət.
Gərçi var iş qanan kişi tək-tək,
Əksəri-xəlq əvamdir, bişək.
Neyləsin iş qananlar, ay qardaş,
Qurunun oduna yanır həm yaş.
Babi-elm olmayıb bizə məsdud,
Kəsb edən yoxdur anı, leyk, nə sud!
Bundan əqdəm əgərçi kəsbi-ülum
Müşkül idi və leyk, ey məxdum,
İndi işlər çıxıbdır asanə,
Rəsmi-dünya düşübdü samanə,
Tapıb övzai-masiva təğyir,

Göyə çıxmağa xəlq edib tədbir.
Paraxod oldu gəştiyi-yelkan,
Özgə samanə düşdü xəlqi-cahan.
Leyk biz bilmənük göz açmaği
Köhnə işlərdə qalmışıq baqi.
Babamizdan nə görmüşük əvvəl,
Dəxi ondan səvayə olmaz əməl.
Məsələn, bir müəllimi-ələm,
Deyə xurşidi mərkəzi-aləm,
Deyə sabit günü, yeri səyyar,
Zəlzələ baisin bilirsə buxar;
Deyə kim, var əraziyi-tisin,
Yerin altında yoxdu gavi-zəmin;
Şərh edə gün tutulmağın sözünü,
Deyə kim, ay tutur günün üzünü,
Tutulan vəqtdə məhi-taban,
Deyə kim, zilli-ərz edir pünhan;
Edə ərşin xürusunu inkar,
Etməyə bu kəlamə istiğfar.
Deyəcəklər ki, cümlə: kafərdir,
Bu şəqi münkiri-peyəmbərdir!
Bu nədəndir? Savadımız yoxdur,
Elmdə ictihadımız yoxdur.
Bilmirik biz hədis mənasın,
Qanmırıq əhli-şər fitvasın.
Bixəbər olmuşuq şəriətdən,
Başımız çıxmır elmi-hikmətdən.
Bağlanıbdır rəhi-məişətimiz,
Gərçi var kəsbə istitaətimiz.
Olmuşuq misli-tənbəli-Bəğdad,
Edirik cümlə bəxt əlindən dad.
Kəsb üçün həzrəti-rəsulüllah-
Dedi: - "Əlkasibü həbibüllah"*.

---

* Allah zəhmətkeşin dostudur.

Zinəti-şəxs elmi-ədyandır,
Elmsiz şəxs misli-heyvandır.
Sizə, ey xəlqi-bibəsər, əlan
Rövşən olsun bu nükteyi-pünhan,
Bu Həsənbəy ki xud müəllimdir,
Tanıyırsız ki, bir onu kimdir?
Bir ləim idi ol rəfii cənab,
Məsqətür-rəsi qəryeyi-Zərdab.
Oxuyub elm eylədi hasil,
Ta ki oldu bu nemətə vasil.
Elmdən oldu ol bülənd məkan,
Qaldı yoldaşları vəli çuban.
Əyyühənnas, kimyadır elm,
Məzhəri-zati-kibriyadır elm.
Çünki var idi bizdə nadanlıq,
Bizə üz verdi çox pərişanlıq.
İndi Şirvanda açmışıq məktəb,
Dərsimiz rusü türkü farsü ərəb.
Zəhmətim çoxdu, hiç nəfim yox,
Leyk həqqə ümidvarəm çox- .
Kim, bu zəhmətlər olmaya zaye,
Bəlkə bu macəra ola şaye.
Şeyxül-islamü müftiyi-islam
İkisi bir olub, edə əncam.
Çünki bunlar rəisi-millətdir,
Mədəni-lütfii kani-qeyrətdir.
Necə kim, ol müəllimi-əvvəl,
Ona Tiflisdir məqami-məhəl,
"Qafqazski uçebni"nin miri,
Hikmətin canı, elmin iksiri,
Mahi-fevralda ol səfaxanə,
Mənə yazmışdı bir rizanamə.
Sizi tari, bir eyləyin insaf,
Gövhəri-mətləbə olun sərraf!
Gör necə xeyirxah kəslər var,

Eyləyin qeyrət, ey ülül-əbsar!
Bavücudi ki, rusdur o cənab,
Şad olur elm kəsb edə tüllab.
Ol bu əmrə görün, olur dilşad—
Ki, müsəlmanlar olsun əhli-səvad.
Seyyida, bəsdi, nəzmi qıl kutah,
Xatirin cəm qıl ki, inşallah,
Şeyxül-islamü müftiyi-xoşnam
Uşqola əmrinə edər əncam!

## HƏSƏNBƏY MƏLİKOVA

(*Möhsünə cavab)*

*Məsnəvi*

Ey bizə xeyrxah olan Möhsün,
Əhli-ehsanü xoşnişan Möhsün!
Millətin qeyrətin çəkən qardaş,
Töxmi-xoşbəxtlik əkən qardaş.
Sözlərin dün gətirdi şurə məni,
Şad qılsın görüm ilahi səni!
Yazmış idin ki, ey güruhi-bəşər,
Əhli-islam, qövmi-paksiyər,
Ayılın bircə xabi-qəflətdən,
Geri qaldıq təmam millətdən!
Afərin, cy yeganeyi-dövran
Pəndinə yoxdu şəkkü reybü güman.
Məsəlin xub, sözlərin mərğub,
Zövq edər guş edəndə əhli-qülub.
Filhəqiqət dirəxti-nakamil,
Tərbiyət feyzinə olur şamil.
Növi-insan deyil ağacdan kəm,
Qabili-tərbiyətdi hər adəm;
Daşı təsiri-afitabi-fələk
Döndərib ləli-nab edər bişək.
Nafi-ahudə müşk edir qanı,
Dürri-nab eylər abi-niysanı.
Elm üçün, ari, əhli-hikmətlər,
Çəkib aləmdə çox riyazətlər.
Elmsiz kimsənə hünərsizdir,
Elmi-bitərbiyət səmərsizdir.
Tərbiyət mayeyi-səadətdir,
Tərbiyət şəxsə malü dövlətdir.
Eimlə hər o kəs ki, danadır,
Qabili-feyzi-rəbbi-oladır.
Lütf ilə mürdələr qılan ehya
Qaçdı nadandan Həzrəti-İsa.

Elmdir baisi-tərəqqiyi-tam,
Alimə tay deyil güruhi-əvam.
Bunu da bil ki, ey qərini-şərəf,
Elm ancaq deyil bu "Nəhv" ilə "Sərf'.
Bu deyil ancaq elm, ey dana,
Edəsən böl vəqti-istibra.
Hələ qalsın bu rəmzlər bari,
Elmsiz adəmin nə midqari?
Möhsüna, ey fəda olum sənə mən!
Etdiyin fikri-bikrə səd əhsən!
Bilməyən yoxdu kim, bu mənanı:
Tərbiyət kamil eylər insanı.
Tutatım gəldik əmrə mərdanə,
Baxmadıq tənü lənü nadanə;
Tutalım eylədik bu əmrə tifaq,
Tərbiyət biz görək ki, kimdən alaq?
Hansı məktəbdə fövci-ətfali
Hansı bir elmdən edək hali?
Məktəbi-tibb, ya ki hikmətdən'?
Ya ki hərbiyyə, ya ki hirfətdən?
Necə ki ol "Vəkili-naməlum'*
Eyləmişdi bu nüktəni mərqum.
Əvvəla, bizdə yox o məktəblər-
Ki, verə kəsbi-elmi xəlqə səmər.
Nə o günə kitablar ələn-
Ki, ola öz lisanımızda bəyan.
Biza hasil nə şey olur yoxdan-
Kim, itibdir kitabımız çoxdan.
Ham bizdə "Xü1asə"nin səməri,
Hanı "Cəbrül-müqabil"in xəbəri?
Səhl dillərdə elmi-heyət yox,
Cəmi təfriqü zərbü qismət yox.
Nə təqiyyə, budur sözün safi,
Küfrdir bizdə elmi-coğrafi.
Hər vilayətdə var beş-on məktəb,

---

* M.F.Axundzadənin imzasıdır.

Edirik kəsb onda elmü ədəb.
Məktəbin fərşi altı köhnə həsir,
Neçə ətfali-müztər onda əsir.
Dərsimizdü kitabi-"Gürbəvü muş",
"Nəqli-həmdunə ", "Qisseyi -xərguş".
Oxuruq, çox tərəqqi etsək əgər
Cümlə "Tarixi-Nadir"i əzbər.
Deyəcəksən ki, ey qərini-ədəb,
Bəs gəlin tazədən açaq məktəb.
Biz bu əmrə görək ki, ey xoşnam,
Hansı qüdrətlə cyləyək iqdam?
Pulumuz varmı ol sərəncamə,
Ta yetişsin fəqirlər kamə?
Əhli-islam eyləyibdi vəfat,
Dəxi müşgül tapa bu qövm həyat.
Məgər ol Əsgəri-Gorani gələ,
Neçə məktəb gələ dəxi əmələ.
Vəzirov bəlkə eyləyə imdad,
Qıla bu qövmi elm üçün irşad.
Aça onlar da mən kimi məktəb,
Çəkələr ruzü şəb əzabü təəb.
Alicaha, behörməti-Quran,
Bizə çatdırsin onları sübhan.
Seyyida, hər güruh içində ola,
Daima əhli-elmə eylə dua.

## HƏSƏNBƏY MƏLİKOVA

Alişan Həsənbəy, əhsənəllahü haləhu ila əhsənil-hal bimühəmnıədin və alihi ila yövmil-əcal! Nəhayət, məruzi-hüzuri-bahirünnur oldur ki, mənim müəllim olmağıma cənab Axund Molla Məhəmmədin və Sizin səy vu təlaşinizdən qayət məmnun və məsrur varam. Lillahül-həmd ki, məqsudimiz hasil oldu. Allah-təala Sizdən razı olsun və olavə bu günlərdə Şamaxı çox aramdır və hər yerdən asudədir [...] Həqir öz ixlasımızı və padşaha olan sədaqətimizi öz türki dilimizdə rişteyi-nəzmə çəkib hüzurunuza irsal qıldım. Ümidvaram ki, əgər layiq olsa çap edəsiniz. Çünki söz elə sözdür, amma nəzmdə ziyadə təsir eləmək vardır. Və əlavə bizim uşkolalarda oxumağa türki dilində uşaqlar üçün şəriəq kitabları yoxdur. Mən bir müxtəsər türki dilində "Zakon-boj" kitabı yazmışam. İstəyirəm onu "narodnı uçilişenin" direktoruna irsal edim ki, əgər mümkün olsa, çap olunsun, ta ki uşaqlar oxusunlar. Amma əgər sizin qəzetənin hürufləri ilə çap olsa, məsləhətdir. Çünki çox yaxşı, aydın oxunan xətdir. Təvəqqe edirəm ki, bu barədə əgər vaxtın olsa, mənə bir cavab yazasız.

Vəssəlam.

Fi 20 oktyabr 1877-ci sənə.

Müxlisi-Şüma Seyid Əzim Seyid Məhəmməd oğlu.

Məktubi-mənzumeyi-Şirvaniyan.

*Məsnəvi*

Ey Həsənbəy, müəllimi-huşyar,
Etməsin həqq vücudunu bimar.
Sənə versin şəfa xudayi-əlim,
Bədənin olmasın çahanda səqim.
Çünki sən xeyrixahi-millətsən,
Mədəni-lütfü kani-şəfqətsən.
Qəzetin olmadi bu həftə əyan,
Yüz yerə getdi zənnü fikrü güman.
Belə fikr eylədik olub məsdud,
Zaye oldu o gövhəri-məqsud.
Çünki hər işdə macəra görünür,
Hər sözü söyləmək xəta görünür.
Çün bu günlərdə nəqli-qisseyi-cənk,

Bizlərə ərsəni edibdir təng.
Tabeyik gərçi biz şəhi-Rusə,
Bir xələl dəyraəyibdi namusə.
Gərçi ixlasımız firavandır,
Heyf kim, adımız müsəlmandır.
Bizdə yox bir əsər xəyanətdən,
Şakirü razıyıq bu dövlətdən.
Bundan əqdəm də şahi-çərxövrəng
Çox edib Türki-şumbəxtlə cəng.
Neçə il çəng edib Dağıstanda,
Çox olub özgə cəng hər yanda.
Bir xəyanət görünməyib bizdən,
Əyrilik sadir olmayıb düzdən.
Xah Dərbəndü Qübbəvü Şirvan,
Gəncəvü Badkubəvü Salyan,
Lənkəran şəhri, Şişə torpağı,
Dövləti-Rusə olmayıb yağı,
Əhü-Tiflisü Naxçıvan, İrəvan,
Olub əlqissə, tabeyi-fərman.
Bizə hər hökm kim, olub sadir,
Onu dərhal etmişik hazir.
Biz qoşun vermişik sədaqətdən,
Cümlə bəyzadədən, rəiyyətdən.
Qədri-məqdur nəqdlə dilşad,
Silki-məcruhə etmişik imdad.
Vermişik adəm ilə ərradə,
Olmuşuq xidmət üçün amadə.
Tazədən hökm olundu nəqli-cəməl,
Ona da eylədik həqiqət əməl.
Yenə hər hökm sadir olsa əgər,
Hazırıq biz bəhəqqi-peyğəmbər
Var bizim əqlimiz, fərasətimiz.
Dövləti-Rusə yox xəyanətimiz.
Sidqdən qeyri fikrimiz yoxdur,
Leyk şeytanımız bizim çoxdur
Şükrlillah, naçalnik aqildir,
Sahibi-fəhmü şəxsi-kamildir.

Gər naçalnik olaydı naqabil,
Ol zaman əmr olurdu çox müşkil.
Bundan əqdəm ki, Fit dağında haman
Bizlərə hakim idi Mustafa xan,
Yox idi rusdən bu yerdə əsər,
Sizə islamdən nə oldu zərər?
Əl çəkin fitnədən, şərarətdən,
Nə çıxar bu əbəs ədavətdən.
Biz bunu bilmişik ki, şahi-cahan
İmperiaturi-mədələtbünyan,
Atadan mehribandı bizlərə çox,
Bizə bir özgə gözlə baxmağı yox.
Döndülər gərçi qövmi-Dağıstan,
Özlərinə dəyər bu işdə ziyan.
Necə övrətləri olubdu əsir,
Özləri oldu küşteyi-şəmşir.
O1 zəmani ki, var idi Şamil,
Neylədi rusə, bir olun aqil.
Tutdular Şamili nə zillətlə,
Cümlə əhli-əyalü külfətlə.
Sirkə tünd olsa, ey ülül-əbsar,
Axirül-əmr öz qabı çatdar.
Sözü insafsız deyən cahil
Kişilik silkinə deyil daxil.
Seyyida, bəsdi qiteyi-inşa,
İmperatura eylə xeyr-dua.
Düşməni-Rus tarümar olsun,
Ona Allah lütfü yar olsun!

**HƏSƏN BƏY MƏLİKOVA**

Müəllimi-xeyirxah, müdərrisi-aləmpənah, bərgüzideyi-dövri fələk, alişan Həsənbəy, səlləməllahüt-təala min-əlbəliyyat, təvəqqe, olunur ki, zeyldə mərqum olan əhvalati-cədidəyə mültəfit olasız. Əgər pəsəndxatir olsa, bu gələn qəzetədə səbt edib nəşr edəsiz. Çünki Şamaxı uyezdinin rüəsalarından bir neçə nəfər üməra və tüccardən cəm olub, bir qədər pul cəm edib, qubernator Staroselskinin ittilaı ilə qubernski ruhani məçlisinin təhti-nəzarətində bir uşkola bina ediblər və bu halda yaxşı yola gedir. Ümidvar olmaq olur ki, Sizin səliqənizə müvafiq başa gəlsin Mən də haman uşaqlara dərs oxutmaqdan buyi-xeyir istişmam edib, öz fərzəndi-dilbəndim Mircəfər namı haman uşkolaya dərs üçün qoymaqdan Şamaxıda əvamün-nasın məzəmmətin öz haqqımda görübvə oğlum Mircəfərin əvamün-nasi-kələnamın mətamətindən vahiməni götürməkçün öz türki tisanımızda çox asan ibarətlərlə bir türki kitab nəzm etmişəm. Haman kitabdan bu bir neçə əşar ki, bundan sonra yazılaçaq, yazıb xidmətüvüzə irsal elədim ki, çap edəsiz ki. Sizin qəzetin məzmununda olan mətləblərə münasibdir. Şayəd ki, xalqdan rəfi-vahimə ola. O ki gərəkdir yazılsın, həmin bu ərizənin dalında səbt olundu. Əgər qəzetə yazılsa, gərəkdir ki, nəzmən və nəsrən hamam qərar ilə yazılsın ki, bəndə yazmışam. Nəinki dümbüridə çap olmasın ki, söz rabitədən düşəndə ləzzətdən düşər.

Vəssəlamü əl-əddəvam ilə yövmil-qiyam. Təhrirən fı 10 mahicəmadiəl-əvvəl sənə 1293. Müxlisiniz Hacı Seyid Əzim Şirvani.

Şamaxıda bir camaat uşkolası bina ülub ruhani "okrujnoy" məclisinin təhti-nəzarətində. Şamaxı sakini Hacı Seyid Əzim məliküşşüəra öz oğlu Mircəfər namı haman uşkolaya elm təhsil etmək üçün qoymaqdan xalqın məzəmmətin görüb öz oğluna nəzm ilə nəsihət verdiyinin bəyanıdır:

*Məsnəvi*

Cəfər, ey qönçeyi-gülüstanım,
Ey mənim bülbüli-xoşəlhanım.
İki yüz yetmiş üçdə, bəd həzar
Mötədil fəsldi zamani-bahar
Səni həq mən fəqirə qıldı əta,

Kəbeyi-qəlbimə yetişdi səfa.
On beş ildir ki, ey ətayi-əzim,
Sənə adab eylərəm təlim.
Yetibən əqlə sərfəraz oldun,
Dəxi məndən ki, biniyaz oldun.
Əql peyğəmbərin qılıb rəhbər.
Öyrən adabi-məzhəbi Cəfər,
Demirəm mən gedən təriq ilə get,
Əqli tut, ol gözəl rəfiq ilə get.
Sənə bürhan deyil təriqi-pədər,
Gör nə yol getdi zadeyi-azər.
Demirəm rus, ya müsəlman ol,
Hər nə olsan get, əhli-ürfan ol!
Ey gözüm nuri, ey ətayi-xuda,
Sənə Şirvanda oldu nəşvü nüma.
Lilləhül-həmd xitteyi-Şirvan,
Saniyi-İsfəhandır elan.
Gərçi viranə oldu zəlzələdən,
Çıxmayıb mərifət bu mərhələdən.
Var hər guşədə yüz əhli-kəmal,
Hər biri əhli-elmü sahibi-hal.
Xasə kim, abü xakinin əsəri
Qabili-tərbiyət qılır həcəri.
Xasə kim, padşahi-kişvəri-rus,
Edəni təxti-ədlü dadə cülus.
Eyləyir tərbiyət kəmal əhlin,
Gətirir halə hər mahal əhlin.
Hər vilayətdə açdı məktəblər,
Çatdılar feyzə əhli-mənsəblər.
Oxunur onda müxtəlif dillər,
Həll olur onda cümlə müşgüllər.
Ey oğul, bu dəlili-bişəkdir,
Adəmi-bisavad eşşəkdir.
Rəmzi-"həl yəstəvi" müdəlləl imiş,
Bilməyəndən bilən kəs əfzəl imiş.
Həq buyurmuş ki, ixtilafı-üsan

Nemətimdəndir, ey güruhi-cahan!
Kim ki, bəs bir dil eylədi hasil,
Oldu bir nemətə o kəs vasil.
Cəhd qıl neməti-təmamə yetiş,
Elm təhsil qtl, məqamə yetiş.
Ey gözüm, hər lisanə ol rağib,
Xassə kim, rusidir bizə vacib.
Onlara ehtiyacımız çoxdur,
Bilməsək dil, əlacımız yoxdur.
Çatmayıb şərdən bizə bu xəbər-
Ki, ərəbdən səva dil oldu hədər.
Nə ərəbdir xuda, nə rumü nə zəng,
Nə həbəşdir, nə rusü türkü firəng.
Xah boq, xah tanrı, xah xuda,
Birdi mənada, ey düri-yekta.
Ləfz edərsə ifadə mənanı,
Sərf edər əhli-mərifət anı.
Bir hədisi-səhihdir bu xəbər,
Söyləyibdir cənab peyğəmbər-
Ki, Süleyman nəbi əleyhi-səlam
Hər güruhun dilin bilirdi təmam,
Ey oğul, bil bu rəmzdən mətləb,
Deyil əlhəq lisan lisani-ərəb.
Həqq özü hər lisanə danadır,
Hər lisan həq yanında zibadır.
Var bizim dörd kitabımız, ari,
Hər biri bir lisan ilə cari.
Biri Tövrat idi giranmayə,
Gəldi İbri dilində Musayə.
Biri İncil idi, birisi Zəbur,
Hər biri bir lisan ilə məşhur.
Çün Məhəmməd ərəbdən etdi zühur,
Öz lisanında qıldı həq məmur,
Türkdən göndərəydi gər anı,
Türki dildə olurdu Quranı.
Xassə kim, məzhəbi-imamiyyə

Xah Bağdadü, xah Şamiyyə,
Cümlə bu etiqadə güyadır -
Ki, nəbi hər lisanə danadır.
Xah rusi lisanı, xah firəng,
Bilir ani imami-bafərhəng.
Bir lisani ki, bəs bilirmiş imam,
Sən də bilsən nə eybi, ey gümnam?!

## HƏSƏNBƏY MƏLİKOVA

*Məsnəvi*

Ey Həsənbəy, əmiri-alişan,
Elmi-hikmətdə saniyi-Loğman.
Gərçi, ey sərvəri-büləndməqam,
Sənə vacibdi qeyrəti-islam.
Çəkdin aləmdə xeyli zəhmətlər,
Eylədin xəlqə çox nəsihətlər;
Ruhi-İdrisi eyləyibsən şad,
Elədin xəlqi elm üçün irşad;
Əhli-Şirvan edib hədisini səm,
Şiəvü sünni oldu bir yerə cəm;
Sözlərin etdi onlara təsir,
Etdilər məktəb açmağa tədbir;
İttifaq ilə tutdular dəftər.
Etməyə ta ki, cəm sim ilə zər;
Hər biri mərdlik edib isbat,
Dəftərə yazdı: verrəm əlli manat;
Biri yazdı otuz, biri doxsan,
Belə zahir ki, etdilər ehsan;
Ruzi-əvvəl Kərimbəy, ol xoşzat,
Verdi filhal yüz iyirmi manat;
Bir qədər pul ki, etdilər saman,
Oldular xəlq xürrəmü xəndan;
Əvvəli-kar o qövmi-fərzanə
Tutdular yüz mənatə bir xanə;
Məsləhətçün dübarə oldu cülus,
Manveli tutdular müəllimi-rus;
Onu üç yüz mənata söylədilər,
Mərhəba, fikri-bikr eylədilər;
Dedilər ki, müəllimi-islam
Bizə lazımdı bir fəsih-kəlam.
Vaqifi-nəhvü sərfli fiqhü üsul,
Arifi -rəmzi-şəri-pak i -rəsul,
Şüəra bəzminin nəməkdani,

Hacı Seyyid Əzim Şirvani,
Sədri əlfazi-müşkülə mənus,
Ona əzbərdi "Kənz" ilə "Qamus";
Biz də olduq müəllimi-sani,
Ta ki təlim edək "Gülüstani",
Tapdılar həm müəllimi-salis,
Odu Qürrai-Səbəyə varis;
Pürlətafət kəlam, ibni-Lətif,
Adı Molla Hüseynağayi-zərif;
Verə ətfalə darsi-Quranı,
Artıra rövnəqi-müsəlmanı;
Altı ay tapdı uşkola saman,
Olmadı hiç kəsr, həm nöqsan;
Çün Kərimbəy, o sahibi-ənam,
Elədi Badkubə içrə məqam,
Sındırıb əhli-Kufə beyətini,
Qıldı təğyir cümlə niyyətini.
Nisfi-məbləğ deyildi cəm hənuz,
Əhli-fisqin fəsadı etdi büruz.
Vermədi yazdığı pulu hüzzar,
Hamı iqrarın etdilər inkar.
Dedilər: - "Neylirik biz uşkolanı,
Hər nə tövr ilə olsa el dolanı.
Nə üçün biz verək bu barədə pul,
Bizə bundan nə xeyr olur məhsul?
Neylər ətfalımız bizim rusi,
Neylərik biz o dərsi-mənhusi?
Hər uşaq getsə ol dəbistanə,
Olacaq dindən o biganə.
Xud tutaq hamımız dəxi bişək,
Oxuyub olmuşuq Həsənbəy tək;
Bixəbər məzhəbü şəriətdən,
Bisəmər qüsldən, təharətdən..."
Əlqərəz, gündə bir bəhanə ilə,
Yüz belə bisəmər fəsana ilə,
Qoydular uşkolanı bisaman,
Qaldı ətfal zarü sərgərdan.

Ərzə verdik keçən qubernatə,
Keçmədi, heyf, erzə isbatə.
Gətmədi hiç bir cavab bizə,
Verdi üz dərdü iztirab bizə.
Bir tərəfdən bu intizari-diraz,
Bir tərəfdən könüldə suzü güdaz.
Bizə əhli-diyar bipərva,
Etdilər gündə töhməti-bica.
Bizi az qaldılar həlak edələr,
Lənü tən ilə zəhrəçak edələr.
Leyk biz durduq işdə mərdanə,
Baxmadıq lənü təni-nadanə.
Fövci-ətfalə məhzətən-lilliah,
Dərs verdik hamı gəhü bigah.
Özlərindən nə kim olur hasil,
Bizə bir həbbə olmayır vasil.
Edirik özlərinə biz məsrəf,
Bizə bəsdir bu izzü namü şərəf
Gər Kərimbəy olaydı Şirvanda.
Qalmaz idik bu qədr nöqsanda.
Elər idi bu əmrdə saman,
Mənbəylütfü cuddur, ehsan.
Ey Hesənbəy, nəcibi-dövrü zaman!
Sənin insafuva olum qurban-
Ki, nəsihətdi xəlqə göftarın,
Heyfdir söhbəti-şəkərbarın,
Sözlərin, ey cahani-fəzlü hünər,
Əhli-hikmət yanında canə dəyər!
Leyk bil, ey həkimi-fərzanə,
Əsər etməz bu qövmi-nadanə.
O nəsihətlər, ey sütudə-siyər,
Eyləməz zümreyi-cəmadə əsər.
Abi-niysan ki, onda var təşvir,
Eyləməz sənki-xarəyə təsir.
Yerə göydən əgər enə İsa,
Edə bilməz bu firqəni ehya.
Niyyətin əmri-xeyrə cazimdir,

Zəfəran eşşəyə nə lazimdir?
Qurasan hikmət ilə yüz min əsas,
Adam olmaz bu firqeyi-nəsnas.
Elmü hikmətdən açma babi-hünər,
Eşşəyə bal dadızma, eylə həzər!
Bilmirəm ol "Vəkili-naməlum"
Nə üçün eyləyib səni məzmum?
Söyləyibdir ki, açmağa məktəb
Yoxdur əsbabımız, gərəkdi səbəb.
Etməyibdir "Vəkil" heç insaf,
Görünür, sözləri tamam xilaf.
Şükrlillah ki, vardı dövlətimiz,
Çoxdu əsbabü malü şövkətimiz.
Vardı dövlət və leyk himmət yox,
Əhli-islamdə həmiyyət yox.
O1 zamandan ki, şahi-kişvəri-rus,
Mülki-Qafqazı eyləyib mehrus,
Doldurub aləmi ədalətdən,
Nəyimiz kəmdi malü dövlətdən?!
Əhli-islam edib tərəqqiyi-tam,
Xah rəsmi-libas, xah təam.
Sabiqən tapmayan bir ebrə qədək.
İndi ətləs geyir dəxi, bişək.
Quru balıq, soğan yeyən oyan
Olub əlqissə sahibi-milyan.
Məgər azdır bu xəlqdə dövlət?
Çoxdu dövlət və leyk yox himmət!
Millətin qeyrətin çəkən yoxdur,
Təxmi-xoşbəxtlik əkən yoxdur.
Ey Həsənbəy, bu qövmi-nadanə
Heyfdir söhbəti-ədibanə.
Bunlara elmü mərifətdi həram,
Seyyida, vəssəlam, vəl-ikram!

## MİRZƏ ƏBDÜLXALIQ YÜSİFƏ

*Qəsidə*

Niyə həcv eyləmisən Cürmini, ey can Yusif?
Dilü canım sənə qurban ola, canan Yusif!
Yoxsa Cürmi eləyib yad yenə cürmü qüsur!
Ey olan Misri-könül təxtinə sultan, Yusif!
Nə üçün it kimi hər gecə hürürsən ayə,
Gormüsən mahi-münəvvərdə nə  noqsan, Yusif?
Nə üçün Cürminü saldın belə zindani-qəmə,
Sənə netmişdi məgər ol məhi-Kənan, Yusif?
Yoxsa Cürmi də o Yusif kimi bir xab görüb,
O səbəbdəndir ona hiyleyi-ixvan, Yusif?
On bir ulduzla dəxi ay və gün səcdə edib,
Cürmiyə etdi həsəd firqeyi-üdvan, Yusif.
Surədə aç oxu "ya Yusifü əriz" sözünü,
Tövbə et, ol belə ehvalə peşiman, Yusif!
Gər Səcah eyləyə Qurani bədəl söz zahir,
Qədrdən hiç düşər söylə o Quran, Yusif?
Ənkəbutun toru tari ola dünyayə hərif,
Quş toru hanə, hara xirqeyi-xəlqan, Yusif.
Bir Məhəmməd kimi canı nə səbəb həcv edəsən –
Kim, odur şairü ustadi-süxəndan, Yusif?
Demirəm mən səni şair dögüsən, var şerin,
Vəzni var, qafiyə var, qalibə yox can, Yusif.
Doğrudur, hər kəsənin şeri gəlir xoş özünə,
Hiç kəs bilməz özündə ola nöqsan, Yusif.
Özünə xoş gəlir eşşəklərin anqırmağı,
Bu məsəldən ürəyin etmə hərasan, Yusif.
Necə ki xoş görünür Seyyidə öz hərzə sözü,
Qoyub adın ki, mənəm şairi-dövran, Yusif.
Hiç kəs dəhrdə öz ayranına turş deməz,
Bilir aqil özünü dəhrdə nadan, Yusif.
Mən sənin şerüvi çox görməmişəm, nabələdəm,
Gördüyüm həcvdi, məcmuəsi həzyan, Yusif.
Gər bu gunə ola məcmui qalan şerlərin,

Layiq öz rişüvədir, olma pərişan, Yusif!
Məsləhətdir ki, bu şairliyüvi tərk edəsən,
Tazə muzdur olasan, kəştiyə losman, Yusif.
Çıxasan dor ağacına, baxasan dəryayə,
Açasan bad əsən canibə yelkan, Yusif.
Minəsən quyruğa hər ləhzədə qibtana* baxıb,
Alasan dəstüvə təzim ilə sükkan, Yusif.
Bu nə insafdı ki, Cürmi kimi ustadı
Etmisən həcv, əya tifli-səbəqxan
Yusifi Bilsə idi sənə Yusif deyəcəklər, billah,
Qoyar idi adını quli-biyaban Yusif.
Tutiya kimi elə xaki-dəri-valasın,
Tutiyanı elədin xak ilə yeksan, Yusif.
Sən əgər mədh desən, Cürmi üçün həcvdir o,
Həcv edib eyləmisən zülm nümayan, Yusif.
Olur azürdə o mövlanəfəsi-qüdsidən,
Odu xoş ətr gəlir rövzeyi-rizvan, Yusif!
O şəhin şeridi guya ki, Əsayi-Musa,
Çəkəcək kamına hər sehri o Söban, Yusif.
Edəsən dəhrdə əfruxtə yüz atəşi-həcv,
Cürmiyə, bil ki, olur baği-gülüstan, Yusif.
O süxəndir ki, "qifa nəbk"ə vurub "nəbk qifa"†
Sözləridir o şəhin ayeyi-tufan, Yusif.
Nə hünərdir bu, söyüş söyməyi hər kimsə bilir,
Bu kəmal ilə deməzlər sənə Loğman, Yusif.
Gər kəmalın var isə, Qümri kimi mərsiyə yaz,
Eyləsinlər sənə təhsini-firavan, Yusif.
Yolla Təbrizə kitabın, basılıb paylansın,
Oxusun ta ki onu bir neçə heyvan, Yusif.
Sən də gör Qümri kimi annamasan qafiyəni,
Cəhd eylə olasan ta ki rəcəzxan,
Yusif Eybdir bir-birini həçv edə ərbabi-kəmal,
Bidəmağ olma sözümdən, sənə qurban, Yusif!

---

* Kapitana

† Qifa nəbk (nəbk qifa) - məşhur Ərab şairi Məhəmmədinmüasiri İmrəül-Qeysin bir qəsidəsi bu sözlərlə başlanır (tərcüməsi: durun, dayanın ağlayaq).

Bəs deyildirmi bizə təneyi-ərbabi-çəfa,
Bəs deyildirmi bizə möhnəti-dövran, Yusif?
Bəs deyildirmi ki, şairləri çərx etdi zəlil,
Dili-əshabi-kəmalı eləyib qan, Yusif?
Nə gərəkdir bizə bir-birimizi həcv qılaq,
Bir neçə əbləhü nadan ola xəndan, Yusif?
Qərəzim həcv deyildir, bu nəsihəldi sənə,
Bədgüman olma sözümdən, sözü bir qan, Yusif.
Bilirəm, dolmamısan əqlə, hələ naqissən,
Bədənində, bəli, artıqdı sənin qan, Yusif.
Qorx o gündan vura neştər sənə fəssadi-kəmal,
Xuni-fasid bədənindən axa hər yan, Yusif.
Var ümidim ki, gələ tər sənə, səhhət tapasan,
Gözləyir çünki təbibin hələ böhran, Yusif.
Sən əgər, bülbüli-gülzari-məhəbbət olsan,
Can qulağinə gələr şur ilə əlhan, Yusif.
Dögüsən zağ ki, sən meyli-nəcasət qılasan.
Dögüsən cuğd, məqamın ola viran, Yusif.

## MİRZƏ ƏBDÜLXALIQ YUSİFİN MƏHƏMMƏD AĞA CÜRMİYƏ YAZDIĞI HƏCVƏ CAVAB

*Qəsidə*

Olub Məhəmmədimin naməsi mənə vasit,
Sanırsan ərşdən ayati-həq olub nazil.

Könüldür ərşi-ilahi, Məhəmməd ərşə çıxıb,
Olubdur ərşi-xudavənddə həqə vasil.

Yetişdi ərşi-bərinə başım fəxarətdən-
Ki, yad edib məni ol miri-adilü bazil.

Açıldı möhrü, ədəbla oxundu məzmunu,
Muradü mətləbü məqsudi etdi dil hasil.

Müşəxxəs oldu ki, ol şairani-qövmi-
Qüreyş Məhəmmədi eləyib həcv həqqdən qafil.

Necə bu möhnətə tab eyləsin dəxi Həssan,
Nə gunə səbr edə bu dərdə şairi-qabil?

Qərəz ki, şərhi-təsəllidən özgə yox çarə,
Məhəmmədin nə bilir qədrin hər yetən cahil?

Fəda ülum sənə, ey novgüli-riyazi-hünər,
Gərəkdü sən olasan dərdü möhnətə hayil.

Haçandan oldu bu şair, görək bu harda idi?
Nə idi sənəti anın, nə karədir şağil?

Qəribə sirrdir, artıbdı Bakidə şair,
Edəllə şerə həvəs, feli tərk edən fail.

Nəinki bir Bakı, ondan Şamaxı bədtərdir,
Olubdu şairi-ustad hər yetən kahil.

İti vurarsan əgər indi şair üstə...,
Əgərçi bir nəfəri yoxdu kim, ola qabil.

Bu şerdən qərəzim Yusifə deyildir həcv,
Rəva deyil ki, yazam mən kəlami-latayil.

Vəli mənim qərəzim moizə, nəsihətdir,
Qəbul edər bu nasihətləri olan kamil.

Nə lazım oldu ki, sən bir əzizi həcv etdin?
Nə vacib olmuş idi bunca göfteyi-batil?

Gərəkdi baş sənə qoşmayaydı ol Cürmi,
Gərək edəydi təhəmmül o şahi-dəryadil.

Əgər Məhəmməd edə iddəa nübüvvəti-şer,
Onun nübüvvətinə əvvəli mənəm qail.

## MƏHƏMMƏD AĞA CÜRMİYƏ

*Qəsidə*

Yetdi namən mənə, ey tazə süxəndan Çürmi,
Gilşəni-şerə olan bülbüli-xoşxan Cürmi.

Deyəsən pirəhəni-Yusif idi ol namə,
Gözümə verdi ziya ol məhi-Kənan, Cürmi.

Hüdhüdi-badi-səba şəhri-Səba içrə yenə,
Belə sandım gətirib hökmi-Süleyman, Cürmi.

Görüm, ey bari-xuda, izzət ilə sən olasan
Mülki-məhruseyi-əşardə sultan, Cürmi!

Belə fikr etmiş idim Bakıda olmaz şair,
Nə bilim mən ki, yatıb bişədə aslan, Cürmi?![*]

Afərinlər sənə, ey şairi-ecazkəlam!
Mərhəbalər sənə, cy saniyi-Həssan, Cürmi!

Nəsəbü cahdə mümtazi-cahansan, bilirəm,
Qıla əcdadüvi həq daxili-rizvan, Cürmi!

Tarı şahiddi görüb şerüvü çox şad oldum,
Sanki gəldi əlimə gənci-firavan, Cürmi.

Şükrlillah ki, var imiş Bakıda əhli-kəmal!
Seyyidin canı kəmalatuva qurban, Çürmi!

Hər nə ki föhş demişdin mənə, layiqdi mənə,
Həqqi inkar qılan kim olu nadan, Çürmi.

Nə qədər fikr elədim eylədiyin həcvi mənə
Öz xüsusumda deyildi biri böhtan, Cürmi.

---

[*] Sədidən iqtibasdır - təbdil olunmuşdur.

Sən məni "şürbi" deyib yazmış idin badəpərəst,
Yazdığın şerdə yox zərrəcə yalan, Cürmi.

Hələ var çox sifətim hiç deyilsən vaqif,
Qoy bu əfali-şəniə qala pünhan, Cürmi.

Mən niyə bakılının adını tutdum ki, məni
Həcv edib eyləyələr şöhreyi-dövran, Cürmi.

Alıram boynuma öz səhvimi, ey kani-kərəm,
Əfv qıl cürmümü, ey mayeyi-ehsan Cürmi.

Oldu məlum mənim həcvimə təhrik qılıb Bakıda
Qasiri-zan neçə zişan, Cürmi.

Qasirin var qüsuru, ona bir diqqət yox,
Var əqlində onun bir neçə nöqsan, Cürmi.

Etdi Adəm kimi ol sahəti-Bakuni məqərr,
Onu yoldan çıxarıb bir neçə şeytan, Cürmi.

Bəndəni şürbi-meyə eyləmiş idin təhrik,
Bu nə eyhamdır, ey mənbəi-ürfan Cürmi?!

"Təbl pünhan çi zənəm, təşti-mən əz bam üftad'*,
Misrəi-farsidir halıma şayan, Cürmi.

Sadədəndir ürəfa xatirinə zövqü səfa,
Badədəndir şüəra dərdinə dərman, Cürmi.

Kim ki şairlik edə, içməyə ol badeyi-nab,
Olmaya sadəyə mail, odu heyvan, Cürmi.

Badəvü sadə olur şairə dinü məzhəb,
Sən də öz dinüvü gəl eyləmə kitman, Cürmi.

---

* Gizli nə təbl döyüm, mənim ki, təştim damdan düşüb. Yəni: təştim damdan düşüb, cingiltisi aləmə yayılıb.

Haşəlillah ki, mən həçv edim əhli-Bakını,
Deyiləm çox da, həqiqət, elə nadan, Cürmi.

Nə yamanlıq eləyibdir bizə əhli-Baki?
Niyə öz əhlimizə biz olaq üdvan, Çürmi?

Bakı bir şəhrdi kim, əhli hamı şieyi-xass,
Peyrovi-şiri-xuda, sahibi-iyman, Cürmi.

Xassə həq mərhəmətin Bakıya etmiş şamil,
Onda izharə gəlib rəhməti-yəzdan, Çürmi.

Nə bilim ki, esəri-tərbiyəti-mehri-münir
Yetiribdir yenə bir ləli-Bədəxşan, Cürmi?

Nə bilim ki, yenə Xaqani edibdir ricət,
Nə bilim ki, yenə təxt üstədi xaqan, Cürmi?

Nə bilim ki, nəzəri-səd ilə Sədi-Əkbər-
Ki, edib Bakıda bir Sədi nümayan, Cürmi?

Bakıya salmış Ütarid nəzəri-təhsinin,
Tərk edibdir nəzəri-nəhsini Keyvan, Çürmi.

Nə bilim mən ki, Bakı saheti-gülzarə dönüb,
Onda bülbüllər edib şur ilə əfgan, Cürmi?

Bakını bir neçə il bundan ozəl görmüşdüm,
Qışda Ərafsifət, yaydə Niyran, Cürmi.

Bakıda var idi bir şair, adı Balasadıq,
Sözləri başdan-ayaq hərzəvü hədyan, Cürmi.

Şükrlər indi Bakı xitteyi-Şirazə dönüb,
Olub ol şəhərdə yüz Sədi nümayan, Çürmi.

Xassə bir taifəni həcv qılım kim, onlar,
Ola məcmui-qulami-şəhi-Mərdan, Cürmi.

Xassə bir tövci ki, onlardı əzaxani-Hüseyn,
Mövci-əşk ilə salan aləmə tufan, Çürmi.

Əlimi şil eləsin xaliqi-əkbər ki, özü,
Dilimi lal eləsin qadiri-sübhan, Çürmi!

Leyk bir ad deyirlər sizə mən qoymamışam,
Nə gunahım mənim, ey sahibi-ürfan Cürmi?!

Əhli-Dərbəndə niyə "gəllə" deyirlər?
Nə bilim, Qudyal əhlinə deyirlər niyə "ceyran", Cürmi?

Yazmış idin Bakının şəhri sərasər dəyişib,
İndi məxluqu olubdur hamı insan, Cürmi.

Haşəlillah, bu sözə eyləmərəm mən bavər,
Sanma kim, tərki-təbiət ola insan, Çürmi.

Sizdə təğyir tapıb bir neçə şey, zahirdir,
Eyləyim mən onları birbəbir ünvan, Cürmi.

Əvvəla in ki, qədək donlaruvuz ətləs olub,
Xaneyi-misli-təvilə olub eyvan, Cürmi.

Quru balıq, soğanı eyləmisiz tərk, bəli,
Siz yeyirsiz gecələr indi fisincan, Cürmi.

Qara şəkkərlə deyilsiz dəxi siz təlxməzaq,
Düzülür bəzmə müsəmmayi-badımcan, Cürmi,

Lənkəran qırqovulu, sahəti-Şirvan kərəsi,
Bakı şəhrində olub zinəti-hər xan, Cürmi.

Çəkməvü paltona var indi sizin rəğbətiniz,
Evdə çəngalü bıçaq, ustolü divan, Cürmi.

Yaduvuzdan çıxıb ol vəqt ki, dəryalərdə
Siz hamı muzdur idiz kəştiyə losman, Cürmi?

Gətirirdiz neçə yük Şirvana qarpız, doşab,
Dəxi əncil qurusu bir neçə batman, Çürmi?

İndi zahirdi ki, təğyir tapıb ol işlər,
Bunu inkar eləsəm, var mənə nöqsan, Cürmi.

Bir zaman sahəti-Şirvan idi hər ölkəyə baş,
Bizə möhtac idi məcmui-bəyü xan, Cürmi.

Neməti-həqqə Səba əhli tək olduq küfran,
Yetdi ol seyli-İrəmdən bizə tufan, Cürmi.

Nəfsimizdir, nə bəla başımıza gəlsə, səbəb,
Məsiyətdə elədik biz hamı tüğyan, Cürmi.

Aldı həq neməti-üzmasını bizdən axir,
Olmuşuq biz hamı bu nemətə küfran, Cürmi.

Lut şəhri kimi, bu şəhri həq etdi viran,
Eylədi zəlzələdən xak ilə yeksan, Cürmi.

İndi Qafqazdə Bakı hamıdan əladır,
Edə abad dəxi, qadiri-sübhan, Cürmi!

Leyk gəl hikmət ilə bu sözü bir dərk eləyək-
Ki, çəkək biz ürəfa ruhinə suhan, Cürmi.

Bakının tərbiyəti-abü həvasın danışaq,
Bir görək tərkinə varmı onun imkan, Cürmi?

Əsəri-abü həvani, gözüm, inkar eləmə,
Babi-hikmətdə yazıblar bunu Loğman, Çürmi.

Əhlini tənbəl edər abü həvayi-Bağdad,
Xəlqini qorxaq edər sahəti-Kaşan, Çürmi.

Bizi biar eləyən abü həvamızdı bizim,
Hükəmadən bu sözə var neçə bürhan, Cürmi.

Sizi eylə yetirən abi-həvayi-Bakıdır,
Gər desən yəni necə, qoy qala pünhan, Cürmi.

Bu təxəllüs ki, sənin var, mənə layiqdir,
Çünki mən eyləyirəm gündə bir üsyan, Cürmi.

Zahirən seyyidəm, əmma nə o seyyiddən kim,
Xüms alam, mali-imam, yox buna imkan, Cürmi.

Deyiləm müftəxəri-gərkəsi-murdartələb,
Mənə öz rəncim olub vasiteyi-nan, Cürmi.

Sənətini bir neçə ətfalə olubdur təlim,
Açmışam sahəti-Şirvanda dəbistan, Cürmi.

Vardır layiqi hərçənd dəbistanımda,
Ruhi-Xaqani ola tifli-səbəqxan, Cürmi.

Mənəm ol Xızr ki, zülmati-dəvatımdan olur
Əhli-afaqə rəvan çeşmeyi-heyvan, Cürmi.

Seyyidəm gərçi, bu seyyidliyə yoxdur fəxrim,
Şərt ismətdir ola taəti-yəzdan, Cürmi.

Bu əməllər ki, mənim var-səyadətdir bu,
Nuhə övlad idi əlbəttə ki, Kənan, Cürmi.

"Leysə min əhükə'* remzilə olundu xaric,
Bu sozün şahididir ayeyi-Quran, Curmi.

---

* O (Kənan) bizdən deyil.

Xaki-fərmanbər olur fövçi-mələkdən əla,
Mələki-asi olur axın şeytan, Cürmi.

Kül mənim başıma kim, bunca xətalərlə yenə
Var ümidim ki, olam daxili-rizvan, Cürmi.

Sanki istəbli-süturanidi bağı-cənnət-
Ki, ona daxil ola mən kimi heyvan, Cürmi.

Sən əgər bülbüli-gülzari-məhəbbət olsan,
Can qulağına gəlir şur ilə əlhan, Cürmi.

## MƏHƏMMƏD SƏFAYA CAVAB

*Qəsidə*

Yetişdi dün mənə məktubun, ey Səfa kani,
Gətirdi nitqə o dəm bülbüli-xoşəlhani.

Dedim, ilahi, həzaran şükr kim, Seyyid,
Salıbdı yadə bu gün rüqə ilə canani.

Oxundu sidq ilə namən, bilindi məzmunu,
Həm onda bildik o dəm ol nikahi-pünhani.

Səni şikəstə dəxi olma gəl pərişənim,
Bu xəstəni sənə çakər veribdü rəbbani.

Diyari-Kəbəyə həm əzm edib, səfayə gedib,
Qəbul olmadı, neylim, kəsəm o qurbani.

Yenə sənalər elə ol cəvanə kim, Seyyid,
Yetişdi xitteyi-Şirvanə getdi həmrani.

## MİRZƏ İSMAYIL QASİRƏ

*Qəsidə*

Əssalam, ey güli-xoşbuyi-gülüstan, Qasir,
Bülbüli-xoşsüxəni-rövzeyi-rizvan, Qasir.
Şairi-nadirəgöftarü pəsəndi dəkəlam,
Murşidi-əhli-vəfa, piri-süxəndan, Qasir.
Bu neçə beyt ilə qıldım sənə izhari-səlam,
Ey olan könlü kimi xanəsi viran, Qasir.
İki məktubi-şərifin mənə oldu vasil,
Hər birindən yetişib cismimə bir can, Qasir.
Xızr zülmətdə bir çeşmə tapıb, amma mən
Tapdım ol namədə yüz çeşmeyi-heyvan, Qasir,
Leyk mərsukyi-dövvümdə ədavət görünür,
Nə səbəbdən elədin şerdə tügyan, Qasir?
Təprədib özgə səni, həcvimə iqdam elədin,
Niyə oldun bizə nahəq yerə üdvan, Qasir?
Bakı əhlinə əgər dəymiş idi əşarım,
Özləri qoy eləsin dərdinə dərman, Qasir.
Şükrlillh Bakı əhlində neçə şair var,
Hər biri nəzmdə bir saniyi-Həssan, Qasir.
Hansı əfsungər ilanı sənə tutdurdu əcəb,
Niyə oldun belə sən xam, ey insan, Qasir?
Sehr göstərmiş idin şerdə hərçənd ki, sən
Necə bəs kamına çəksin səni səban, Qasir?
Yoxmudur səndə vətən qeyrəti, ey kəmhimmət,
Səndən azürdə olub küll bu Şirvan, Qasir.
Bilmədim ki, Bakı əhlinə neçin dəydi sözüm,
Bidəmağ oldu neçün firqeyi-üdvan, Qasir?
Nəzm ilə yazmış idim mən ki öz əhvalımızı-
Ki, bəyan olmuş idi zilləti-ixvan, Qasir.
Nə Bakı əhlinə olmuşdu ədavət bizdən,
Nə demişdik olara bir para böhtan, Qasir.
Haşəlilləh ki, o məxdumları həcv qılam,
Yoxdu zatımda mənim şiveyi-şeytan,
Qasir. Bakı əhlilə işim yoxdu, xudavəndi-cahan,

Eyləyib nemətini onlara şayan, Qasir.
Razıyam Ağa Dadaş beydən, odur kani-kərəm,
Biz olarla yemişik çox nəməkü nan, Qasir.
O fəsihül-füsəhadır, o nəcibün-nücəba,
Gülşəni-şerdədir bülbüli-xoşxan, Qasir.
Həqq edə Haciyi-mərhumu qəriqi-rəhmət,
O Hüseynə qul idi sahibi-iyman, Qasir.
Təqiyev Zeynəl-İbadın dəxi mən müxlisiyəm,
Həq-təala edə daim ünu şadan, Qasir.
Dərdimə aclıq ilındə yetişibdir o mənim,
Dadına yetsin onun şafeyi-üsyan, Qasir,
Qəhti-Kənan kimi qəht oldu Şəmaxidə əyan,
Yetdi fəryadıma ol gün məhi-Kənan, Qasir.
Əsədullah vəli nasiri olsun Əsədin,
Görməsin hiç bəla puri-Süleyman, Qasir.
Gözümün nurləri Sadiqü Əbdülxaliq,
Lütfi-xaliq olara ola nigəhban, Qasir.
Şiri-həq Məşhədi Aslanın ola dadrəsi,
Adı Aslandır onun, həm özü aslan, Qasir.
Həq bilir, mən bunların müxlisi-dirinəsiyəm,
Buların hər biridir fazili-dövran, Qasir.
Sahibi-nemət olan şəxsə nə lazım küfran?
Haşlillah, mən olam nemətə küfran, Qasir.
Leyk doğru sözü zikr eyləməyin eybi nədir?
Var hər şəhrdə bir növlə nöqsan, Qasir.
Əvvəl öz eybimizi zikr eyləmək övladır,
Özgələr olmaya tainki pərişan, Qasir.
Əvvəla, ad bizə "biar" şamaxılı deyilir,
Cümlə biar oluruq mərdümi-Şirvan, Qasir.
"Gəllə" dərbəndlidir, bir dəxi "ceyran" qubalı,
Demişəm mən Bakının adına nisyan, Qasir.
Qərəzim həcv deyil, şurə gətirməkdi səni,
Ta ki düşsün əlüvə mətləbə ünvan, Qasir.
Toxunan söz ola, gər efv elə, təqsirmizi,
Oldu təbim bu rəviş silsiləcünban, Qasir.
Haşəlillah, səni mən həcv eləyim, gər eləsəm,

Dilimi lal eləsin qadiri-sübhan, Qasir,
Sən mənim köhnə rəfiqimsən, əya İsmail,
Seyyidin çanı gərəkdir sənə qurban, Qasir.
Bəs deyildirmi bizi həcv eləyib dövri-qəza,
Bəs deyildirmi bizə xəsmdi Keyvan, Qasir?
Bəs deyildirmi ki, hər nakəsə xidmət qılırıq;
Bəs deyilmi oluruq xadimi-dunan, Qasir?
Bəs deyilmi bizə bibadəvü şair deyilir,
Mövsümi-eyşü tərəb, fəsli-gülüstan, Qasir?
Bundan artıq nə olur həcv ki, şair olduq,
Xassə bu əsrdə kim, qəhtdir ehsan, Qasir?
Fələki-nəzmdə sən mahi-təmam olsan əgər,
Verəcək çərxi-cəfacu sənə nöqsan, Qasir.
Xud tutaq şerdə Xaqaniyi-sani oldun,
Hanı Şirvanda o Şirvanşehi-zişan, Qasir?
Nəsxü təliqdə tut kim, sənə yoxdur həmxət,
Fələk ol xətlə çəkibdir xəti-bütlan, Qasir.
Naxuni-həsrət ilə eyləmə çox sinə xəraş,
Xətti-naxundan olurmu sənə dərman, Qasir?
Hər səri-muydə yüz min hünərin olsa əgər,
Sənə yoxdur səri-mu bir sərü saman,
Qasir Yazmış idin Bakıda ali imarətlər var,
Yaxşı karvansara, həmmam ilə dükkan, Qasir.
Hacı Hacı ağanın dövləti Qarunə çatar,
Ola bilməz o gəlib Musiyi-İmran, Qasir.
Sənə nə, verməyəcəkdir sənə ki dövlətini,
Təqiyəvdə tapıla gər neçə milyan, Qasir!
Sənə mənzil verəcəklərmi imarətlərdə?
Mənzilin ziri-zəmindir, nə ki eyvan, Qasir.
Sən gərəkdir açasan məktəbi-tədrisi-bəlis,
Olasan şamü səhər vəsvəsəguyan Qasir.
Mərtəi-qüdsdə nəxli-rəmeyi-izzət ikən.,
Olmusan gürgi-müxaliflərə çuban, Qasir,
Şəhi-teqqani-kərəm cudi tapılmaz ki, bu gün,
Edəsən mədhini ta kim, tapasan nan, Qasir.
Bilirəm olmayacaq dərdinə məktəbdən əlac,
Ey olan löqmeyi-hər hikmətə Loğman, Qasir.

Özüvü ver yelə palvunda*, əzizim, yellən,
Yel əsəndə dəxi aç bir neçə yelkan, Qasir.
Giləvar vəqti çevir kəştini Hactərxanə,
Həq çıxanda sənə göstərməyə tufan, Qasir.
Xəzri üstimdə gedərsən dəxi Gilanə tərəf,
Nəzərində görünür sahəti-İran, Qasir.
Xatirim xahiş edir kim, məni sən həcv edəsən,
Sənə sonra yazaram bir neçə hədyan, Qasir.
Müşgülə düşməyəsən qafiyəni eylə dedim,
Tusəni-təbüvi çap, gendi bu meydan, Qasir.
Mən ölüm, sən məni hecv eylə, mənimçün göndər,
Çünki həcvindi mənə xələti-əlvan, Qasir.
Xatirin gər ola rəncidə məni həcv edəsən,
Hansı məlundu ola halı pərişan, Qasir?
Leyk əğyar səni həcvimə təhrik qılıb,
Bu səbəbdən görünür səhvi-firavan, Qasir,
Səməni-əndəkə Quranı satarmı aqil?
Qorxuram xəsmin ola batini-Quran, Qasir.
Mən məgər ki, deyiləm ali-rəsuli-mədəni,
Deyiləm yoxsa ki, sibti-şəhi-Mərdan, Qasir?
Yoxsa seyyid deyiləni, məkr ilə daxılnəsəbəm,
Nə güman eyləmisən, ey evi viran, Qasir?
Sən namazında əgər ali-Məhəmməd deməsən,
Batil olmaqda ona var neçə bürhan, Qasir.
Belə fikr eyləmə sən, olsa əgər zində imam,
Şümr olmaz ona əlan, "kəma-kan", Qasir?
Sahibin istəyən, axır itinə hörmət edər,
Niyə səndən ola qəmgin şahi-Mərdan, Qasir?
Ali-Yasinə əgar etsən ədavət zahir.
Şad səndən olu zürriyyeyi-Süfyan, Qasir.
Büğzi-haccac nədən oldu görək səndə əyan?
Yoxsa kim, hökm yazıbdır sənə Mərvan, Qasir?
Məni bir xələt alıb həcv eləmək, eybindir,
Dini dinarə satarmı kişi, nadan Qasir?
Aldı bu xələti bir vəqt dəxi Şümri-şərir,

---

* Paluba

Çəkibən xəncəri-kin, eylədi cövlan, Qasir.
At ölər, don dağılar, pul gedər, ev yıxılar.
Leyk boynunda qalar nahəq olan qan, Qasir.
Xələti-düşməni dünyadə geyərsən, amma
Ərəsatə gelisən peykəri üryan, Qasir,
Lənkəranda yox idi böylə ədalər səndə.
Bakıda yetdi məgər əqlüvə nöqsan, Qasir?
Belə məlum veriblər sənə qarğa beyni
Bu sifət eyləmisən xəbti-nümayan, Qasir.
Yoxsa bu mümkün olurdu məni sən həcv edəsən'
Qalmışam mən belə bu nüktədə heyran, Qasir.
Ey ğərib, indi sənin haluva heyranəm mən,
Gah suzan oluram, gah sənə giryan, Qasir.
Bəxti-bərgəştə səni qildı vətəndən məhrum,
Yetsin imdaduva sultani-qəriban, Qasir.
Olmusan ney kimi sən xaki-Şəmaxidən qət,
Yeri vardır edəsən ney kimi əfqan, Qasir.
Rövzeyi-xüldi-Şəmaxidə ki, bir Adəm idin,
Mənzil olmuşdu sənə rövzeyi-rizvan, Qasir.
Sağərin badeyi-kövsərdən olurdu sərşar,
Həmdəm idi sənə yüz huriyü qılman, Qasir.
Şəcəri-mənhiyənin əklinə iqdam etdin,
Olmadın xaliqüvə tabeyi-fərman, Qasir.
Cənnəti-şəhri-Şəmaxidan, əya xoştiynət,
Səni məhrum elədi məkr ilə şeytan, Qasir.
"Fəhbitu" ayəsinin təhtinə oldun daxil,
Düşdü üsyanlara, tutdu səni xüsran, Qasir.
Bir zaman aləmi-bərzəxdə dolandın naçar,
Aqibət oldu yerin guşeyi-niyran, Qasir.
Bəxti-bəd eylədi büryan ki, atıb yanə səni,
Çəkilib bir yana, qəm atəşinə yan, Qasir.
Lənkəranın yenə var idi bahan, meşəsi,
Bakı şəhrində nə var, ey şəhi-dövran, Qasir?
Bakı bir şəhri-nəməkzardü, məşhuri-cahan,
Bu nəməkzardə yox bir nəməki-can, Qasir.
Olmağın Bakıda bir vəchlə layiqdi sənin,
Qoy onun vəchini izhar eləyim qan, Qasir.

İt düşən vəqtdə duzlaqə deyirlər olu pak,
İnşaallah olusan pakü müsəlman, Qasir.
Damlar üstündə çıxıb qır verəcəksən, bilirəm,
Çünki vardı Bakıda qır ilə qətran, Qasir.
Qiblə eylə özüvə sən gedib atəşgahı,
Degilən Cökki kimi atəşə yəzdan, Qasir.
Məhzi-teyyibdi bular, ey güli-gülzari-vəfa,
Mən qulaməm sənə, sənsən mənə soltan, Qasir,
Sənsən ol əfsəhi-sərdəftəri-fövci-şüəra-
Ki, sənə tifli-səbəqxan olu Söhban, Qasir.
Seyyidi-suxtə bil, muri-zəifindi sənin,
Kişvəri-nəzmdə sən misli-Süleyman, Qasir.
Qəsri-Bülqeysi-Səbayeldə edib eyşü tərəb,
Olasan nəğmeyi-Davud ilə xəndan, Qasir.
Müntəzirdir gözümüz şerüvə, ey kani-ədəb-
Ki, gərək şerin ola töhfeyi-Şirvan, Qasir.

## ABDULLA BƏY ASİYƏ

*Qəsidə*

Həzar şükr, könül, mövsümi-bahar olaçaq,
Həzar naləsi hər guşədə həzar olacaq.
Hənuz Hutdədir Yunisi-cahanəfruz,
Həməldə zahir olan gündə özgə kar olacaq,
Səba xəbər verəcək möcüzati-
İsadən, Nəsim baisi-ehyayi-ruzigar olacaq.
Şükufə xələti-əşcarı nüqrəduz edəçək,
Behişt əlaməti gülşəndə aşikar olacaq.
Dəhani-yar təkin qönçələr olub xəndan,
Səhab dideyi-aşiq tək əşkbar olacaq.
Şükufədən dönəcək bağ ruyi-cananə,
Bənəfşə bağdə manəndi-zülfı-yar olaçaq.
Səba kəsad edəcak nırxi-müşkü şəncərfi,
Zibəs ki, tərbiyəpərdazi-laləzar olacaq.
Kənari-səbzə olub pür əbirü ənbərdən,
Dəhani-lalə dolu dürri-şahvar olacaq.
Dili-zəmin edəcək gənci-şayegan zahir,
Çəməndə gövhəri-şəhvarlər nisar olacaq.
Bənəfşə türrəsinə cilvələr qılıb hərdəm,
Dəmi-nəsimi-səhər türfə müşkbar olacaq,
Sədayi-kəbki-xüramanü naleyi-dürrac,
Səfayi-rövnəqi-səhravü kuhsar olacaq.
Gəvəznlər çıxacaq dəşt-ara güruh-güruh,
Külənglər düzülüb çərxə yüz qətar olacaq.
Həsari-günbədi-firuzə şurlər düşəcək,
Nəvayi-dilkəş ilə əndəlib zar olacaq.
Qürur ilə çıxacaq seyri-bağə gülrüxlər,
Gülün lətafəti bülbül gözündə xar olacaq.
Əyaği-laləni şəbnəmlə görcəyin memlüvv,
Əlində rindlərin cam xoşgüvar olacaq.
Nə yanə əzm edəsən camü şahidü sağər,
Nə səmtə meyl edəsən saqiyü əqar olacaq.
O qədr şişeyi-mey cəm olur gülüstanə—

Ki, Şişədən ürəfa dövrinə həsar olacaq.
Kimə bu mövsüm olur vəsli-yar ilə cənnət,
Kimə fəraq ilə gülşən bəsani-nar olacaq,
Düşən həvayi-rüxü zülfi-yarə gün görməz,
Nə yerdə olsa, qara günlərə düçar olacaq.
Xoşa ol aşiqi-xoşbəxtə kim, bu mövsümdə
Onunla seyri-gülüstanda yarı yar olacaq,
Yəqindir ki, mənə ol büti-şəkərləbsiz
Şərabi-nab bu mövsümdə zəhrimar olacaq.
Rəqibə eylədiyi meyldən müşəxxəsdir-
Ki, ənqarib məni-xəstədən kənar olacaq.
Nə kim ki, badə edər rəf möhnətü dərdim,
Nə qəmli xatirimə Zövi qəmküsar olacaq.
Nə Rağib eyləyəcək hal sormağa rəğbət,
Nə Qafil əmri-əçibimdə buşyar olacaq,
Zühuridən nə edər halıma zühur kərəm,
Nə Didənin gözü bu qəmdə əşkbar olacaq.
Nə bir səfa verəcək xatiri-həzinə Səfa,
Minayi-eşqdə dil zarü-biqərar olacaq.
Vəli bu fikr ilə şadəm ki, dərdi-hicranə,
Hədisi-Asiyi-dilxəstə sazkar olacaq.
Nə Asi, ol ki, dəri-izzətində Seyyidi-zar
Qulamı olmaq ilə sahib-etibar olacaq.
Nə Asi, ol ki, xəyalı rəhi-məhəbbətdən
Könül səraçəsinə şahi-tacdar olacaq.
Səfa ilə gələcək nəzmü nəsri Şirvanə,
Görüb o nəzmləri Zövi şərmsar olacaq.

## ABDULLA BƏY ASİYƏ

*Tərcibənd*

İlahi, məscidə meyxanə dönsün,
Tökülsün badəsi peymanə dönsün!
Ola meyxanə bayquşlar yatağı,
Uçub bir mənzili-viranə dönsün!
Nə güldən ötrü bülbül nalə etsin,
Nə dövri-şəmə bir pərvanə dönsün.
Pozulsun rövnəqı-Ordubehişti,
Gülüstani-cahan niyranə dönsün!
Səfayi-kainat olsun küdurət,
Bu aləm xəlq üçün zindanə dönsün!
Sənin minbəd, ey rindi-xərabat,
Şərabi-ləlfamın qanə dönsün!

Neçün kim, Asiyi-zarü fitadə
Edibdir Şişə içrə tərki-badə.

Edib təsir ona zahid kəlamı,
Salıb gözdən şərabi-ləlfamı.
Çəkib əl xublər zülfi-kəcindən,
İbadətlə keçirdir sübhü şamı.
Dili-aşiq tək ol səngindil etmiş,
Şikəstə sağərü minavü camı.
əhi-xümda Fəlatun kimi badə,
Qalıb zillətdə, yoxdur ehtiramı.
Pozuldu Kəbeyi-ərbabi-hacət,
Səfadən düşdü meykəşlər məqamı.
Şərabi-nab bağrı döndü qanə,
Olub meykəşlərin sağər həramı.
Ola xak ilə yeksan barilaha,
Nə kim, meyxanə var səqf ilə bamı!
Neçün kim, Astyi-zarü fitadə
Edibdir Şişə içrə tərki-badə.

Şikəst olsun xümi-səhbayi-Xüllər,
Tapa meyxanələrdə zib minbər.
Müğənni tərk olub meyxanələrdən
Ucalsın naleyi-allahü əkbər.
Tökülsün xakə əşkim tək o mey kimi,
Cəmali-yar üçün olmuşdu məzhər!
Nə bəng olsun cahan içrə, nə badə,
Nə cam olsun, nə minavü nə sağər!
Mizaci dərhəm olsun səlsəbilin,
Dönə zəqqumə, yarəb, abi-kövsər!
Əsasi-işrətim tək bərhəm olsun,
Fələkdən iqdi-Pərvin, qütbi-mehvər!
Cahan mülkündə olsun badə nayab,
Bəsani-kami-nayabi-Sikəndər!

Neçün kim, Asiyi-zarü fitadə
Edibdir Şişə içrə tərki-badə.

Xərab olsun fəzayi-gülsitanlar,
Xəzan cövrilə udsun badə qanlar!
Qurusun şaxü bərgi-taki-əngur,
Əli qoynunda qalsın bağbanlar!
Vüsali -düxtəri -zibayi-rəzdən
Ola məhrum, yarəb novcəvanlar!
Edib saqilərin zülfun pərişan
Tuta mey damənin piri-muğanlar!
Sürudi-şerlə mey matəmindən
Cahan mülkündə qalsın dastanlar.
Ola meyxanələr viranə, yəni
Pozulsun rövnəqi-darül-amanlar!
İlahi, görməsin minbəd meydən,
Səfavü zövqü asayiş cavanlar!
Neçün kim, Asiyi-zarü fitadə
Edibdir Şişə içrə tərki-badə.

Əgər mey olsa kövsərdən ibarət,
Dəxi Seyyid, yoxumdur hiç rəğbət.
Meyi-gülfamdən əstəğfürullah,
Mənü səccadəvü kunci-ibadət.
Şikəst et, Bixuda, cami-şərabı,
Dürüst et, Zöviya, əsbabi-taət! Oyan,
Qafil, götür əl cami-meydən,
Səni məst etməsin bu xabi-qəflət!
Gözün yum, Didə, ruyi-dilsitandan,
Şərabi-nabə, Rağib, etmə rəğbət!
Səfa, düşsün səfadən təbi-pakın,
Zühur etsin Zühuridən küdurət.
Pozun, ey dustan, divani-şeri,
Meyü məhbubdən etmin rəvayət!

Neçün kim, Asiyi-zarü fitadə
Edibdir Şişə içrə tərki-badə.

## ABDULLA BƏY ASİYƏ

*Müxəmməs*

Asiya, sözlərüvün hər biri min canə dəyər,
Bir sözün qədrdə yüz min düri-qəltanə dəyər,
Nəzminin hər biri yüz ləli-Bədəxşanə dəyər,
Bəhri-təbin ki, gühər kanıdı, min kanə dəyər,
Xatirin gülşəni yüz rövzeyi-rizvanə dəyər.

Gərçi tifli-süxənə çoxlar olubdur dayə,
Leyk bihudə salıblar başını qövğayə,
Dəstrəs olmadı hər kəs gühəri-mənayə,
Gərçi çoxlar bu ərusi eləyir pirayə,
Sanma xamən kimi zülfi-süxənə şanə dəyər.

Şişə içrə səni ol kimsə ki, etmiş iyead,
Hər pərizad visalilə edibdir dilşad,
Xatirin xoş meyi-gülgun ilə, təbin mötad,
Fərəhin çox, kədərin yox, dəxi mülkün abad,
Bu şərəf qədr ilə yüz monsəbi-sultanə dəyər.

Bu da bir lütf ki, aləmdə xudavəndi-kərim,
Lütf edibdir kərəmindən sənə bir təbi-səlim,
Olu viranə bu məmurədə hər mülki-qədim,
Leyk itməz əsərin, şer ilə bir dürri-yetim,
Bu fərəh, həqqi ki, yüz mülki-Süleymanə dəyər,

Təb-şerin ki, sənin şöhrət edib dövranə,
Leyk, əfsanəyə sərf eyləməyin əfsanə,
Gəldi bir həcv bu günlərdə yenə Şirvanə,
Demiş idiz onu bir nəsli-əzimüş-şanə-
Ki, dəri-dövləti yüz dərgəhi-xaqanə dəyər.

Tapmısız eyb bunu ol gühəri-yektadə-
Ki, gedib seyyidə, namusunu vermiş badə,
Bu deyil eyb, təfərrüc eləsəz mənadə-
Ki, bu xanzadə isə, ol biridir şəhzadə,
Həqqi kim, aləmi-mənadə bu iş canə dəyər.

Yəzdgürd padşəhinin qızı, ey Asiyi-məst,
Bəs neçün verdi Hüseyn-ibn-Əli dəstinə dəst?
Bu haman nəsldir, ey taqiyi-govsaləpərəst,
Haşəlillah, yetə bu əmrdən ol mahə şikəst,
Ya ki bir töhmət o şəhzadeyi-dövranə dəyər.

Bu haman Xan qızıdır kim, buna yox şübhəvü şət
Eləyibdir neçə pambıq satanı dəhrdə bəg;
Asiya, soylə itirmək nə rəva həqqi-nəmək?
Bəli, adət belədir kim, ola hər kəs eşşək,
Yesə hər kəslə nəmək, sonra nəməkdanə dəyər.

Görə bir şəxs ki, bir şəxsi-kərimin kərəmin,
Cudü bəxşayişü feyzü kərəmi-dəmbədəmin,
Çəkməyə fəqr bəlasın, dəxi bu dəhr qəmin,
Dönübən həcv edə axırda vəliyyün-nəəmin,
Bu sitəm gəbrü nəsaravü müsəlmanə dəyər.

Biz eşitmişdik olur əhli-Qarabağ qəyur,
Gözləyər bir-birini işdə bəqədri-məqdur,
Səndə bərəksinə bu əmri-əcib etdi zühur,
Edib öz əhlinizi həçv, həm etmək məşhur,
Arif ol kim, bu rəviş məşrəbi-ürfanə dəyər.

Asiya, gərçi müzəkkər görünürsən, dişisən,
Aləmi-xakdə növi-bəşərin iymişisən.
Bisəbəb tutdun, əzizim, nə üçün bu işi sən?
Yoxmu qeyrət əsəri səndə, sən axır kişisən!
Həcvi-zən eyləməyin şiveyi-mərdanə dəyər.

Gərçi ol zən dəxi bir şirzəni-yektadir-
Ki, bu zənlikdə bizim tək kişidən əladır,
O1 biri seyyidi-ali-nəsəb, həm ağadır.
Zadeyi-şiri-Nəcəf, zeyqəmi-bipərvadır-
Ki, sən təki yüz min köpək aslanə dəyər.

Şaira, həcv demək izzətə bir mayə deyil,
Şerdir, yaxşı-yamanı olu, bu, ayə deyil,
Həcvə adət eləmək şairə bir payə deyil,
Kişilik mayəsi ancaq   deyil,
Var elə zən ki, biri əlli min oğlanə dəyər.

Şuri-mey yoxsa sənin başına gətti həşəri,
Məst olub saxlamadın hörməti-xeyrül-bəşəri,
Həcv edib nəslini, tutdun bu qədər şurü şəri,
Adını qoyma dəxi şieyi-isnaəşəri,
Ali-peyğəmbəri həcv eyləmək iymanə dəyər.

Gör səni kim bəy edibdir, bir utan admdan!
Yoxsa, Asi, çıxıb əyyami-sələf yadından?
Bir xəbər tut soraşub haləti-əcdadından,
Get, xəcalət çəkəsən, şərm elə ustadından-
Ki, sənin bu əməlin şiveyi-şeytanə dəyər.

Seyyidə həcv dedin, yaxşı deyildir bu sayaq,
Ay qoduq oğlu qoduq, şairə sən atdın ayaq,
İndi bundan sonra tut sən də dəxi həcvə qulaq,
Yay günündə babanın başına çallam toxmaq.
Tollanıb həllac kimi ranə dəyər.

## MƏHƏMMƏDTAĞI QÜMRİYƏ CAVAB

*Qəsidə*

Səne, ey Qümriyi-şeyda, səlami-bişümar olsun!
Cahan içrə pənahın lütfi-həyyi-kirdigar olsun!
Yetişdi naməniz Şirvanə, billah, vəhyi-münzəl tək,
Gərək ol naməyə ixlas ilə canlar nisar olsun.
Kəmalın günbəgün gün tək ki, olsun zahir aləmdə,
Vüçudun aləmi-fanidə daim bərqərar olsun,
Elə fikr etmisiz mən tutduğum iraddən guya,
Budur mətləb sizə zillət, bizimçin iftixar olsun?
Ədavətdən əgər mən tutmuşam irad məxdumə, .
Mənə düşmən, ilahi, miri-sahib-zülfüqar, olsun!
Vəli, Bixud demişkən "kotləsiz" çox, təbiniz sərkəş
Elə bir sözdən istərsiz ki, cəngü girü dar olsun.
Kimin gər tövsəni-təbində vardır böylə sərkəşlik,
Məhali-əmrdir kim, onda təmkinü vüqar olsun.
Bu qədri kəlləlik kim, səndə var, ey kəllə dərbəndi,
Gərəkdir kim, sənin tək kəlləmətrəs kiştzar olsun,
Nə vəch ilə sizi mən sevməyim aləmdə, ey yaran?
Təki əhli-kəmal afaq içində səd həzar olsun. Tutaq,
Qümri məhi-taban, Şüai mehri-rəxşandır,
Kim istər afitabü mahı kim, aləmdə tar olsun?
Və lakin yox Şüainin şüaı, məhz zülmətdir,
Deyilmi heyf, zülmət nur adilə namdar olsun?
Gərəkdir şer lafın eyləyən, ey bixəbər Qümri,
Rümuzi-nəzmü nəsrə agəh olsun, huşyar olsun.
Ərusi-nəzmə bir məşşatəliklə eyləsin zivər-
Ki, damadi-xəyalə hüsni-lütfü pərdadar olsun.
Gətirsin hicleyi-damadə hərdəm bikr məzmunlar-
Ki, əhli-zövq görcək lütfunü biixtiyar olsun.
Bənati-şerə arayiş verən olsun gərək vaqif,
Nə kim, hər bixəbər məşşateyi-rüxsari-yar olsun.
Başında şuri-eşqin artar, onda şahə naz eylər,
Gülı-nəzminlə ta kim, xar kollar laləzar olsun.
İraq ilə Hicazı çulğaya avazeyi-nəzmin,

Nəvayi-dükəşi-şerin binası üstüvar olsun.
Büzürgü kuçikü ürfan-ara şeri-hümayunun
Gərəkdir qədrdə manəndi-dürri-şahvar olsun.
"Nişaburun Səbahı" tək səfayi-təbə ver rövnəq-
Ki, ta firuzə tək şerin mətai-hər diyar olsun.
Xəta, Şahi-Xətayi təbiniz etmiş ələm bərdaşt,
Nə lazımdır ki, şəhr aşublə dolsun, niqar olsun?
Sürudi-şer ilə suzü güdazindən nədir mətləb?
Zərər verməz mənə sinəndə gor yüz min şərar olsun.
Məqami-nəzmə gəlsən xaricahəng olma, ey Qumri!
Ədayi-şerdə çox qoyma təbin hərzəkar olsun.
Dügahi-ruzü şəbdə Pəncgahi-fərzi-taət tək
Sənə vacibdir öz əşarın həllacişuar olsun,
Əşiranı pərişan etmə, başdan eyləmə bidad,
Qoy əhbabın sənə müşkül günündə yari-ğar olsun.
Əbülçəpvar ahəngi çəp etmə, rastlıq xoşdur.
Deyil mümkün bu kim, kəctəb kəslər rastkar olsun.
Mənə olma müxalif kim, xədəngim kur edər çeşmin,
Müqabildə əgər düşmən mənə tsfəndiyar olsun.
Gələ gər Zabili-mənadə təbim Rüstəmi qəhrə,
Gətirməz tab əgər Dərbəndə tək yüz min həsar olsun.
Nəzər qıl, vurma çəngin tari-şeri-əhli-ürfanə-
Ki, qanuni-büsati-nəzm əlində tar-mar olsun.
Rəvadır övci-istiğnadə, ey bibalü pər Qümri,
Sənə şəhbazi-zərrinbalü pər gəlsin, şikar olsun?
Mənəm ol şəhsəvari-tündcövlan ruzi-hiycadə-
Ki, tab etməz mənə gər yüz sənin tək xərsüvar olsun.
Rəşadətlə qədəm meydanə qoysa farisi-təbim,
Salar xakə əgər min ləşkəri-xəncərgüzar olsun.
Himari-təbi-ləngin üstə hər nadan səvar olmuş,
Umar kim, tusəni-təbim tək ol həm rahvar olsun.
Məşami-canə hərgiz xarü xəs gül nəkhətin verməz,
Bu namümkündü kim, hər pöşkdən müşki-tatar olsun.
Qətarə sarbani-təb çəksə Rəxşıni nəzmin,
Gərəkdir zülfi-huradən ona müşkin məhar olsun.
Xumarın var, ey Qümri, sənin qəflət şərabından,
Sənə bu şeri göndərdim ki, ta dəfi-xumar olsun.

Özün öz qüvvətin yaxşı bilirsən, qeyri bilməzsə,
Vəli cəhli-mürəkkəbsən, sənə bu cəhl ar olsun!
Əçəb nasalehü biabiru əşxasi-ərzalsiz,
Sizə şeyxi-Səlahın suyu, yarəb, zəhrimar olsun!
Bizə bu misrəi axırda, ey Qümri, demişdin kim,
"Qoyun, çanım, məni Dərbənddə şüğlüm kəsbü kar olsun'
Səni əvvəldə şüğlündən edən təbi-qəsirindir;
Dəxi bundan sora şüğlün həmişə kəsbü kar olsun.
Yəqin kəsb əhlisən, canım, gözüm, əl çəkmə şüğlündən,
Gorək kəsb əhli şairlik büsatından kənar olsun.
Yaraşmaz şair olmaq, filhəqiqət, əhli-bazarə,
Gərək tacirlər içrə şəxs sahib-etibar olsun.
Bu şairlikdən ol çək, çəkmə ol öz kəsbü karından,
Nə layiqdir bu silkin əhli hər bir nabəkar olsun.
Sizin tək zahidi-xüşkün nə hasildir kəlamından?
Gərək şair olan kəs eşqbazü meygüsar olsun.
Gərək şair olan rüxsarü zülfi-yar fikrində
Pərişan-xatirü aşüftədil leylü nəhar olsun.
Bu Qümrilik adm bəs tərk elə, əyləş dükanında,
Səninçün etibar, ey taciri-valatəbar, olsun.
Gərək Qümri olan kəsdə ola bir sərvqəd eşqi,
Onun fikrilə daim biqərarü düfikar olsun.
Gərək bir sərvqəd eşqində əşki-dideyi-
Qümri Axıb seylab tük hər yanə rəşki-cuybar olsun.
Nə lazımdır bizə bir siz təki nafəhm olan şair-
Ki, hər bir beytdə yüz min xətası aşikar olsun?
Nə lazımdır yazam əşar siz tək bikəmal üstə-
Ki, bu gül tək kəlamım çeşminizdə nişi-xar olsun?
Demişdin məbhəsi-şətrəncdə, canım, rəvadırmı
"Hüseyn məddahının kirdarı şətrəncü qumar olsun"?
Kişi şətrənc bilməkçin qumarbaz olmaz, ey qafil,
Gərək arif olan hər elmdə kamiləyar olsun.
Əgər şer anlayan kəs, Qümriya, bir şerini görsə,
Deyər bu Qümriyi-cahil gərəkdir səngsar olsun!
Demişdin üç yüz altmış fənn var, hansında kamilsən?
Muradın hansı fənn isə bəyan et, aşikar olsun.
Əzəl fənnim budur kim, məclisi-meydən xəbərdarəm,

Həmişə istərəm bəzmimdə yari-gülüzar olsun
Qumarbazəm, xərabati, qələndər, çərsiyü bəngi
Qərəz ki, məndə var aləmdə hər pislik ki, var
Bu xasiyyətlə sizlərdən yenə yüz rübbə əlayəm Səgi-
Kaşi gərək kim, əhli-Qumdan nik kar olsun
Könül, axtarma hərgiz mərifət əhli-Dağıstandan
Dirəxti-biddə mümkün deyildir kim, ənar olsun.
Səməndi-təbinə çox vermə cövlan, Seyyida, bəsdir!
Rəva görmə ki, Qümri bundan əfzun şərmsar olsun
Həmişə taciri-eşq ol, səfa mülkündə sövda qıl,
Əlində nəqdi-can mayə, xəridin zülfi-yar olsun.
Cəmali-zahiri gəzmə, səfayi-batin et hasil,
Məcazidə həqiqət seyrin et, həqq aşikar olsun.

## MƏHƏMMƏDTAĞI QÜMRİYƏ

*Qəsidə*

Səlamım asitanən xakinə badi-səba versin,
Pəyami-aşinanı aşinayə aşina versin.
Kəsimi-sübh qılsın ərz halım Qümriyi-zarə-
Ki bağı-eyşinə bir lütflə bərgü nəva versin.
Gətirsin naməsin pirahəni-Yusif tək ol şahın,
Bu Yəqubi-həzinin çeşminə nurü ziya versin.
Səvadi-naməsindən rövşən etsin dideyi-tarı,
Qübari-məqdəmindən çeşmi-canə tutiya versin.
Əla, ey Qümriyi-şirinsüxən kim, əhli-dil istər,
Bu ümmidim nihalı bari-işrət ibtida versin.
Könül, ey şairi-şirintəkəllüm, istər almdə,
Mərizi-canə gülqəndi-kəlamından şəfa versin.
Bizə bundan müqəddəm bir neçə əşar yazmişdın,
Bu ümmid ilə kim, ayineyi-qəlbə cila versin.
Əzizim, zənniniz kəc getdi, olduz dilgiran bizdən,
Büruzə təbiniz istərdi kim, rəsmi-hica versin.
Və lakin rəyi-pakü pürsəhabi-lütfi-ehsanın
Edib xahiş ki, bu nari-cidalə intifa versin.
İlahi, ollmasın hərgiz şikəst aləmdə ol kəs kim,
Şikəsti-üstüxanə istəyibdir mumiya versin.
Küsuf etmişdi gərçi afitabi-mehriniz bizdən,
Ümidim var ki, açılsın, genə nurü bəha versin.
Səbahi-lütfünüz baranını hərdəm qılın cari-
Ki, gülzarı xəyalə tazədən nəşvü nüma versin.
Gərək bundan sora Şirvanə gəlsin nəzmi-canbəxşin,
Kidurətdən dili-ərbabi-mənayə səfa versin.
Məhəbbət əhlisiz, canım, mühibbi-ali-Heydərsiz,
Sizə hər kim ədavət eyləsə, rəbbim bəla versin!
Həmişə fikriniz zikri-müsibətdir iradətlə,
Sizə, yarəb, cəzayi-xeyr şahi-Kərbəla versin.

Məqami-eşqdə səy ilə daim arizu eylər-
Ki, Qafil Kəbeyi-didarına canın fəda versin!
Gətir lütfünlə miskin Bixudi xaki-məzəllətdən-
Ki, ta canın sədaqətdən sənə ol binəva versin.
Fütüvvət qıl, elin tut Zöviyi-bixanimanın kim,
Muradın aləmi-fanidə şahi-Lafəta versin.
Rəvadır kim, sogani-kuyüvə, ey taci-sər Qümri,
Səfavü sidq ilə can Seyyidi-bəxtiqəra versin?!

## MƏHƏMMƏDTAĞI QÜMRİYƏ

*Qəsidə*

Əgər ol həzrətə məhrəm olan badi-səba, Qümri,
Yetirdi hərdəm ol dərgabə bizdən yüz dua, Qümri.
Zibəs ki, şövqi-didarın düşübdür xatiri-zarə,
Çıxıb can cismdən, billah, qılır meyli-həva, Qümri.
Yazıb dərdi-dilimdən şəmmeyi-şərh eylədim ta kim,
Hüzurunda ədəblə eyləyə halım əda, Qümri.
Pərişandır zibəs ki, xatirim dövran məlalından.
Tapılmaz xatiri-zarə verən zövqü səəfa, Qümri.
Xəyalım bas ki dərhəm eyləyibdir xublər zülfu,
Çıxar bir şer təhrir eylasəm yüz min xəta, Qümri.
Bəid olmaq gərəkdir şərhi-tətvili-ibarətdən-
Ki, olsun müxtəsər bunca mütəvvəl macəra, Qümri.
Deyildir mətləbim bu şerdən izhari-fəzl etmək,
Sədaqətlə sənə yazdım bu şeri biriya, Qümri.
Qərəz pərvaneyi-şövqüm olubdur tövfinə mail,
Olan, ey məçməi-Dərbənd ara şəmi-əza, Qümri!
Vəhidül-əsr, xəllaqül-məani, qüdvətüş-şəra.
Fəsahət kişvərində xosrovi-sahibliva Qümri.
Sənin əbyati-sehrasarü əşari-lətifindən
Gəlir billah, məşami-canə buyi-aşina, Qümri.
Şüainin əgərçi pərtövi-nəzmi-fəsihindən,
Qılır simab çərxi-əxzəri kəsbi-ziya, Qümri.
Əgər olsaydı Həssani-ərab bu əsrdə zində,
Fəsahət kəsbinə səndən edərdi iltica, Qümri.
Sipehri gərçi xurşidi-sipehri-nəzmdir, lakin
Olur xurşid nəzmin ərzgahında Süha, Qümri.
Xəlilin gülşəni-təbi yetirməz bir güli-ziyba,
Əgər ol gülşən içrə olmasa lütfün səba, Qümri.
Hanı, gəlsin Sikəndər kim cahanə kamyab olsun,
Səvadi-xamədən zahir qılıb abi-bəqa, Qümri,
Pərişan idi hahm dilşikəsti-guşeyi-ğəmdə,
Şikəstə könlümə əşarın oldu mumya, Qümri.
Bu növ möcüzayin nəzmü nəsr ilə dəxi, billah,

Mütiəm gərçi peyğəmbərlik etsə iddəa Qümri!
Qılıb şahi-Hiçazın mədhinə yüz nəğmələr ağaz,
Çəkib şur ilə mədhi-Heydərə dilkəş nəva, Qümri.
Müxalif dəhrdə hər ləhzə yüz suzü güdaz ilə,
Həsari-mədhi-movladə olub midbətsəra Qümri.
Yeri vardır bu gündən böylə mülki-şahə naz etsə,
Olubdur asitani-Mürtəzadə çün gəda Qümri.
Məcalislərdə, məscidlərdə təqrir etdim ol nəzmin,
Oxundu hər tərəfdə mədhinə yüz mərhəba, Qümri!
Olubdur cəddimin övsafına çün təbiniz guya,
Müin olsun sənə daim Əliyyül-mürtəza, Qümri!
Səni mən vəsf qıllam ta ki dünyadə həyatım var,
Neçin kim, olmusan vəssafi-şahi-Kərbəla, Qümri.
Mənim şahım, pənahım, qibləgahım, tacidarımsan,
Qəbul etmiş səni çakərliye Şiri-xuda. Qümri.
Eşitdim daima şüğlün sənin zikri-müsibətdir,
Olubsan şəmi-bəzmi-matəmi-ali-əba, Qümri.
Tökübüb xunabə gözdən bu qəribə ağla kim, daim
Gəlib fəryadə ağlar möhnətindən ənbiya, Qümri!
Qəbul olsa əgər ki, matəmi-şahi-şəhidanə,
Deyil bir misrəi-əşarına aləm bəha, Qümri.
Hüzuri-pakinə vardırsəlamı əhli-Şirvanın,
Sənə əhli-məbəbbət göndərir küllən dua, Qümri!
Dəmadəm şerlər eylə rəqəm zikri-müsibətdə-
Ki, ta olsun sənə çü töhfeyi-ruzi-cəza, Qümri.
Əgərçi Seyyidi-sərgəştə səndən durdür, lakin
Deyildir aləmi-mənadə ol səndən cida, Qümri.

## DƏRBƏNDLİ XƏLİL TƏXƏLLÜS ŞAİRƏ

*Qəsidə*

Ey piri-xirədməndü hünərpərvəri-dövran,
Vey müfliqü zirütbəvü danavü süxəndan.
Həmnami-Xəlilülləhü həmxülqi-Məhəmməd,
Heyətdə çü İdris və hikmətdə çü Loğman.
Əşari-şərifın ürəyə baisi-behcət,
Göftari-lətifin təni-pəjmürdəyə bir can.
Sənsən bu gün afaqdə Söhbani-fəsahət,
Həm varisi Əməqsənü hənı naibi-Həssan.
Sən nəzm sipehrində haman mehrsən, ey pir-
Kim, xiyrə şüam qılar aləmləri rəxşan.
Sən qümriyi-xoşləhceyi-baği-ürəfasən,
Hər misrəi-mövzun sənə bir sərvi-xüraman.
Rüxsari-münirindi sənin nuri-səbahi-
Kim, rövşən edər aləmi çün mehri-dirəxşan.
Dün yazdığın əşari-fərəhbəxşü lətifin
Yetdi mənə, oldu ürəyim xürrəmü xəndan.
Baxdıqca mənim ömrümü artırdı səvadı,
Guya o səvad içrədi yüz çeşmeyi-heyvan.
Müzmər o səvad içrə olan məniyi-rövşən,
Bir ruzi-münəvvərdi dili-şəbdə nümayan.
Yarəb, bu Xəlili bizə çox görmə cahanda,
Bu atəşi-dünyanı ona eylə gülüstan.
Təzim ilə yerdən götürüb bəndeyi-zarı,
Öz çakəri-üftadəsinə eyləyib ehsan.
Lütfılə edib zərrəni xurşidə müqabil,
Qoymuş ləqəbi-murini şəfqətlə Süleyman.
Bir səvəni şəhbaz qılıb, rubəhi əjdər,
Bir zülmətə nurani deyib, qətrəyəümman.
Ol padşəhi-məsnədi-iqlimi-fəsahət
Şəfqətlə edibdir ləqəbi-bəndəni sultan.
Əhsəntü kəmalatuva, ey piri-Xızırpey-
Kim, yazdığın əşar yetər fəzlüvə bürban.
Xürrəm o vilayət ki, ola siz təki əhli,

Məçmuəsi xoştinətü dindarü müsəlman!
Yarəb, ola məmur belə xitteyi-ziba,
Bu sahəti-Dərbənd ola çün rövzeyi-rizvan!
Didaruvuza təşnə idim xeyli zamandır,
Ol növ ilə kim, su həvəsində ola ətşan.
Amma mənə bir vəqt nəsib oldu bu dövlət –
Kim, yox fərəsi-təbdə bir qüvveyi-cövlan.
Əhvalımı dərhəm eləyib ğibbi-mühərriq,
Sevdayi-hərarət eləyib cismimi suzan.
Səfradən olub fəmmdə sədparə lisanım,
Amas qılıb, qüvveyi-təqrirə yox əlhan.
Bir yan bu mərəz, bir yana Şirvan fəraqı,
Bir yanə dəxi həsrəti-ruxsareyi-canan.
Xassə ki, səfər əzəmi-zəhmətdi, pəyəmbər
Təqrir eləyibdir səfəri qiteyi-niran.
Zəfi-mərəz ilə ki, dönüb cismim hilalə,
Gər xidmətüvə yetməsəm, olmaz mənə nöqsan
Bəs "sərhi-məmər" rəmzi kifayətdi bu halə,
Tətvili-dəlail olu eşq əhlinə şayan.
Ümmid ki, siz eyləyəsiz rəncə qədəm, ta
Daruyi-əyadət edə bu xəstəyə dərman.
Əfv et qələtim olsa əgər, olmuşam, ey pir,
Çün xubların zülfü təki halı pərişan.
Cəmiyyəti-xatirlə, xudaya, olasan şad,
Kamınca ola dəhrdə daim sənə saman!
Ümmid ki, məqbul ola bu töhfeyi-əhqər,
Seyyid dilü can ilə sizə oldu sənaxan.

## MİRZƏ RƏHİM FƏNAYA

*Qəsidə*

Agah ol, ey Fənayi-təbəhkarü pürhəvəs,
İqdam etməyib sən edən karə hiç kəs.
Həcv etmisən müravvici-bəzmi-əzanı sən
Əmri-şəniə şiə ikən etmisən həvəs.
Bir saiqəhüsamə bu gün asi olmusan-
Kim, bərqi-qeyrətilə yanar cümlə xarü xəs.
Manəndi-Asi eyləmisən həcvi-zən şüar,
Mərdanələr olurmu sənа bircə dadrəs!
Yetməzmidi bu barədə bidadi-Şümri-dun?
Yetməzmidi yeganə çəfavü qəmi-Ənəs?
Abi-Fərat təşnəsinin halına gərək
Bəzmi-əzadə cari ola əşk çün Ərəs.
Gor bir kəminə himməti-mərdanə göstərə,
Ey zənxisal, həçv nə lazımdı pişü pəs.
Səd heyf, Şişə sakinidir ol pəri-cəmal,
Tuti olubdu, heyf, qürab ilə hamqəfas!
Mülki-fənadə fani olaydı Fəna, əgər
Bəzmi-bəqayə can ilə rağib olurdu bəs.
Sultani-Neynəvayə edib ney kimi nəva,
Ağlardı hər dəqiqəvü hər ləhzə, hər nəfəs.
Məzburdıır şüai-təcəllayi-həq, vəli
Divə şəhabi-saqibü Musayədir qəbəs.
Ey karivani-eşqə edən rişxəndlər,
Qəlbində nüktə var ki, edər nalə çün cərəs.
Bihudə sanma əhli-dilin ahü zarını,
Sən möhrə tasə salma ki, bihudədir bu səs.
Covlanə gəlmə çürət ilə, çək inanını,
Çox tünd sürmə ərseyı-navərd ara fərəs.
Nakəs cəlalü dövlət ilə bir kəs olmayıb,
Kim səg məkəsdi, gər oxuna qəlbi-səgməkəs.
Əlbəttə, indi çayü plovdan qürur edər,
Omründə görməyibdir o kim daneyi-ədəs,

Gördükdə qəmtəriri-əbus olma, şerimi,
Bazari-imtiyazdə kim, olmusan əsas.
Gər Seyyidi Kəminə kimi həcv eyləsən,
Şükr eylərəm xudayə ki, hasildi mültəməs.
Seyyid duaçıdır sənə, ey kani-mərhəmət,
Razı deyil ona ki, qona üstüvə məkəs.
Olsun o gün ki, sən çıxasan təxti-izzətə,
Əynində sürx caməvü başında al fəs.

## MƏCRUH MUĞANİYƏ

*Qəsidə*

Mənəm ol padişəhi-mülki-süxən, varisi-Cəm-
Ki, oxurlar məni Həssani-ərəb, Fəzli-əcəm.
Şahibazi-hünərəm, balü pərim izzü kəmal,
Aşiyanimdi mənim qübbeyi-çərxi-əzəm.
Təxteyi-nərd mənə xani-məaniyi-süxən.
Həm onun möhrələri cümlə hürufi-möcəm.
Rövzeyi-cənnəti-əşardə təbim Kövsər,
Kəbeyi-qüdsi-məanidə kəlamım Zəmzəm,
Dordü qəm dəfinə əşarım edər hirzi-ənam,
Rəfi-ənduhə qılır nəzmimi təviz üməm.
Didə kim, görməyə əşarımı, olsun əma!
Guş kim, nəzmimi guş eyləməyə olsun əsəmm!
Asimani-süxənəm, leyk zümürrüd-sifətəm,
Nə hərasim var əgər kim, ola düşmən ərqəm.
Şüərayi ki, zəmanəmdə eder lafi-süxən,
Fövci-Yəcucdu, mən onlara səddi-möhkəm.
Nəhkəti-nafeyi-təbim tutub afaqı tamam,
Leyk hər kəs ki, zükam olsa, yetişməz ona şəmm.
Xəsm xərmöhrəvü mən gövhəri-ərzəndeyi-fəzl,
Mən həmə şaxeyi-mərcanü ədu şaxi-bəqəm.
Fələki-nəzmdə mən mehri-direxşani-süxən,
Mən həmə nuri-şərəf, xəsm siyəhruyü zələm.
Tibbi-ənfasdə derlər məni çün ruhül-qüds,
Təbimi bikri-məanidə oxurlar Məryəm.
Bavücudi ki, mənəm nəzmdə bimislü nəzir,
Bavücudi ki, mənəm rəşki-fəsihani-əcəm.
Mənə təriz qılıb şairi-xaki-Məcruh,
Eyləyibdir neçə əbyati-səfihanə rəqəm.
Eyləyibdir özünü şerdə sərrafi-süxən,
Bavücudi ki, deyil şaxisi-ənvarü züləm.
Hanı Məcruhi-bədəndişədə ol cürət kim,
Ta qoya şir günaminə diliranə qədəm?
Bir də Şirvanə verib dəşti-Muğani tərcih,

Hiç gör anlamayıb qübhünü bu taleyi kəm.
Hiç kəs nuri çü zülmət deməyib, zülməti nur,
Zəhri şəkkər deməyib kimsənə, ya şəkkəri səmm!
Gər desən abü ələf mədənidir, həqdi sozün,
Cinsi-ənam olur [həm] abü ələfdən xürrəm.
Çoxdu Şirvan ilə əlbəttə Muğanın fərqi,
Bu gülüstani-məsərətdi, Muğan vadiyi-qəm.
Nə Muğan əhfəzənallahü misali-Bərəhut,
Nə Muğan fəsli-Əsəd küreyi-həddadşiyəm.
Həq Muğanı sizə qılsın, bizə Şirvanı nəsib,
Heyfdir səfheyi-gülzarə basa zağ, qədəm!
Əhli-niranə nə layiqdi ola daxili-xüld,
Nə münasib ola şeytanə məqər baği-İrəm?
Nə rəva div rəsədgahi ola məsnədi-Cəm,
Nə səza fil qədəmgahi ola beyti-hərəm?
Mən ki zürriyyeyi-Sultani-Səluni ləqəbəm,
Valiyi-kövnü məkan, sərvəri-ərbabi-himəm.
Nütfeyi-pak deyildir mənə düşmənlik edən,
Gövhəri-saf deyildir məns hər kəs edə zəmm.
Hiç kəs ali-Əli büğzünə iqdam etməz,
Məgər ol kəs ola zatında şəqavət müdğəm.

## BİR NƏFƏRƏ

*Qəzəl*

Ey olan eşqiylə mənzuri dili-nalanımın,
Kəbeyi-məqsudisən, zövqi-səfası canımın.
Eylər idim Kəbeyi-kuyində qurban canımı,
Layiqi olsaydı gər ol kudə bu qurbanımın.
Vəsfi-ləli-ruhbəxşindir kəlami-şəkkəri,
Zikri-nami-dilkəşindir zinəti divanımın.
Aftabı arizindir asimani-fikrimin,
Ləli vəsfi-ləblərindir təbi-dürrəfşanımın.
Başıma yağdırdı axır çərxi-minafamdən
Daşlar, ey namehriban, təsiri öz əfğanımın.
Dudi-qəlyan tək qaraldırumzgarım qüssədən,
Çıxdı əflakə şərarı sineyi-suzanımın.
Şişeyi-könlüm kimi səngi-həvadisdən bu gün,
Ey pəri-peykər, sınıbdır şişəsi qəlyanımın!
Ey səfayi-xatirim, bir şişə ehsan eyləyib,
Səy qıl təmirinə bu xatiri-viranımın!

## ƏLİ ƏSĞƏR NÖVRƏSƏ

*Qəzəl-qitə*

Növrəs, ey həmdəmi-bimehr, şəhi-səngindil-
Ki, pərivar bu gün mənzü olub Şişə sənə.
Sənsən ol qəsri-müşəyyəd ki, rəhi-rüfətdən,
Yetməz, ey pak güftər, sülləmi-əndişə sənə,
Çərxi-minayi sənə eylədi sağər qəmərin,
Gördü ta Şişədə vardır həvəsi-şişə sənə.
Sənsən ol nəxli-bünərpərvəri-baği-məna-
Ki, olub danişü fərbəngü xirəd rişə sənə.
Dün eşitdim ki, Kərimxani-fələkçakərdan
Tapılıb aiəmi-imkandə bir pişə sənə.
Qüvveyi-təbdə sən şiri-neyistani-süxən,
Bais oldur ki, bu gün qismət olub bişə sənə.
Seyyida, Şişə tərəf səngi-məlamət atma,
Ta ki ustadi-hünər vurmaya bir tişə sənə,

## ƏLİ ƏSĞƏR NÖVRƏSƏ

*Qəsidə*

Səlam olsun sənə, ey Kəbeyi-əhli-səfa, Növrəs.
Minayi-kuyüvə olsun dilü canım fəda, Növrəs.
Mənə biganədən biganə oldun aqibət, ey şəh,
Səninlə olmayaydım kaş əzəldən aşina, Növrəs!
Məgər yox mehribanlıq Şişənin abü həvasında,
Dönübdür daşə könlün, ey rəfiqi-bivəfa, Növrəs?
Nə bir peyğam göndərdin bu müddətdə, nə bir qasid,
Məgər böylə olurmuş aşinalıq, mərhəba, Növrəs!
Əgərçi dəhri-dunun inqilabından pərişanəm,
Olub cəmiyyətim bərhəm, fələk etmiş cəfa, Növrəs!
Dağıldı yarü ənsarım başımdan, fərd qaldım mən,
Əlimdən getdi Asi-ol rəfiqi-xoşəda, Növrəs.
Səfa düşdü səfadən, zəmzəmi-əşkim rəvan oldu,
Bu qəmdən xaneyi-dil Kəbə tək geydi qəra, Növrəs.
Nə Agah agah oldu haləti-pürixtilalımdan,
Nə dəf etdi məlalım səfheyi-dildən Fəna, Növrəs!
Məgər böylə olurmuş aşinaliq, ey gözüm nuri,
Cəmali-bakəmalından gözüm gorməz ziya, Növrəs.
Biz axır bir gülüstanın gülüydik ruzi-əvvəldə,
Həvadis sərsəri saldı bizi axır cüda, Növrəs!
O1 ustadi-mükərrəm Yusifi, ol mürşidi-kamil,
Onu gürgi-əcəl seyd etdi, heyf ol müqtəda, Növrəs!
Uyub bu aləmi-əhbabdə hər sadərüx yarə,
Biz etdik daməni-məşuqəni əldən rəha, Növrəs!
Həyati-müstəari-dəhrdən mətləb deyil hasil,
Gərək kəsb eyləmək yüz səy ilə feyzi-bəqa, Növrəs!
Əgər azadəsən, eylə hesab et kuhi-Şəhlandır,
Düşərsə başinə gər sayeyi-bali-hüma, Növrəs!
Şikəsti-üstüxanə səbr qıl səngi-həvadisdən,
Təmənna etmə əbnayi-zamandan mumiya, Novrəs!
Əla, ey əndəlibi-gülşəni-rizvan, qəbul etmə,

Əgər versə sənə buyi-güli-cənnət səba, Növrəs
Əgərqəsri-müşəyyəd versə Qeysər, imtina eylə
Qüsurun var əgər etsən qəbul, ey pişva Növrəs!
Çəkil Ənqayi-Qaf ol bir qənaət içrə Seyyid tək,
Verər məqsumüvi ol xaliqi-ərzü səma, Növrəs.

## QARABAĞLI NALAN TƏXƏLLÜS ŞAİRƏ

*Məsnəvi*

Yetir, cy namə, məndən ərzi-səlam,
Dərgəhi-yarə halım et elam.
Söylə bülbüldən ol gülüstanə,
Yəni məndən cənab Nalanə,
Ərz qıl, ey güli-riyazi-ədəb,
Durri-yektayi-bəhri-izzü şərəf,
Ey kəlam əhlinin sərəfrazi,
Təbdə kainat mümtazi,
Ey midadın nəticeyi-zülmat,
Sözlərin zülmət içrə abi-həyat,
Ey Sikəndər zəmirü Xizrbəyan,
Kilkin ecazi-zadeyi-İmran,
Xidmətin baisi-kəmalımdır,
Səbəbi-dövlətü cəlalımdır.
Gərçi xidmətdə çox qüsurum var,
Lütfuvə var ümidi-xatiri-zar.
Gərçi Şirvanda sən olan günlər
Əhdü peymanlar etdik, ey sərvər,
Etmədim leyk mən ol əhdə vəfa,
Mənə bu işdə eyb edir ürəfa.
Leyk var əldə üzr, məzurəm,
Mən cəzayi-sipebra məmurəm.
Var ümidim kim, ol əta kani
Bəndədən əfv edə bu nöqsani.
Xasə kira, çərx kinəbünyandır,
Xatirim dəhrdən pərişandır.
Xasə kim, Əhsənül-Qəvaidi-şum
Şuəra tövrünü bilib məzmum.
Xasa kim, ol müzəvviri-rubah,
Şüəra silkini yazıb gümrah.
Zəmmi-əşarə gər o heyvani
Gətiribdir dəlil Qurani.

Bavücudi ki, sahibi-Quran,
Müstəfa, ol rəsuli-aləmiyan
Vəsf edib şairani-islami,
Xassə Həssani-xoşsərənçami,
Bir deyən yoxdur ey fusürdəzəmir,
Edən ayati əksinə təfsir,
Olmayan rasexi-kəlami-mübin,
Xəsmin olsun sənin imami-mübin!
Şairi zəmm edib əgərçi xuda,
Leyk vardır əqəbdə istisna.
Rəmzi - "illəlləzinə" kafidir,
"Əmilüs-salihat" şafidir.
Batil onlardu, ey səfeh kani-
Ki, edib həcv şahi-Bəthani.
Batil ol şəxslərdi kim, hamı
Hecv edəllərdi əhli-islamı
Leyk onlar ki, gəldi islamə,
Çatdilar izzət ilə ikramə,
Etdilər vəsf şahi-əbrarı,
Qıldılar mədh ali-əthan.
Onların vəsfini rəsuli-xuda
Eyləyibdir hədis ilə ifşa.
Şüəranın lisanını ol şah
Söyləyibdir "kilidi-gəncüilah".
Şüəra vəsfinə yetər bu rümuz:
"İnnə lillahi-təhtə ərşi künuz"*
Payeyi-şeri bundan eylə hesab,
Dedi: - "Əşşerü hikmətün"† o cənab,
Dəxi bu müddəayədir bürhan
Şəni-Əhməddə midhəti-Həssan.
Dəxi oldu Fərəzdəqi-dana
Mədhi-Zeyniil-İbadə nüktəsəra.
Sibti-Musadə qisseyi-Dibəl

---

* Göyün altında xəzinələr vardır ki, onların açan şairlərin dilidir.

† Şeir hikmətdir (fəlsəfədir).

Sənə kafi deyilmi, ey əhvəl?
Bavücudi ki, Dibəli-bədnam,
Şöhrəti var, içərdi badə müdam.
Ona xəz xirqəsin imami-Riza
Sileyi-şeri-bikrə etdi əta.
Seyyid İsmail idi meyxarə,
Mədh yazmışdı əhli-əthare.
Cəfəri-Sadiq, ol vəfa kani,
Silədən etdi kamran ani.
Dedi şənində ol imami-hüda
Mərhəmətdən ki, "nimə-nasirüna".
Ey edən şeri zəmm naqabil,
Çox təəccübdü alimü cahil,
Gərçi biz şairi-xoşətvarıq,
Madihi-əhli-beyti-əthariq,
Abi-kövsərdü badədən mənzur,
Sadədəndir murad hurü qüsur.
Bizə meyxanə baqi-rizvandır,
Saqimiz onda şahi-mərdandır.
Zatımız eybdən mübərradır,
Şerimiz taci-fərqi-Şiradır.
Bizdədir təbi-şeri-paki-hünər,
Sinəmiz bəhrü şerimiz gövhər.
Olma sərməsti-qəflət, ol huşyar,
Nə rəvadır məzəmməti-əşar!
Bavücudi ki, sərvəri-dövran
Şerdən bağlayıbdu bir divan.
Şer əgər olsa idi şeyi-kəsif,
Onu etməzdi övliya təsnif.
Ol nə şeydir cahanda, ey əhvəl-
Ki, ola şeri-pakdən əfzəl?
Gövhəri-paki-pürbəhadır söz,
Töhfeyi-dərgəhi-xudadır söz.
Ziynəti-bəzmi-Müstəfadır söz,
Madihi-şahi-həlatadır söz.
Necə ki, ol Nizamiyi-ustad

Şer vəsfində eyləyibdir dad:
"Süxən əz asiman fürud aməd,
Süxən əz aləmi-kəbud aməd,
Gər budi-gövhərı vərayi-süxən,
An fürud amədi becayi-süxən" *
Guş qıl ərzi-hali-Mövlana,
Bircə bil şerdən nədir məna:
Şüəra gərçi vəsfi-badə edər,
Ya ki tövsifi-şuxü sadə edər,
Qərəz oldur ki, vəcdi-hal olsun,
Xatirə nəşeyi-kəmal olsun.
Haşəlillah ki, firqeyi-şüəra,
Deyə meydir həlal, vaveyla!
Hansı şairdir ol polidxisal-
Ki, bilibdir şərabi-nabı həlal?
Hansı şairdi bilsin, ey qafil,
"İnnəməl-xəmri" ayəsin batil.
Bilmirəm Əhsənül-Qəvaidi-nas-
Ki, qurubdur qəvaid üçün əsas,
Niyə bərəksinə qılıbdı xəyal,
Götürüb boynuna bu qədr vəbal?
Bənd olub zabiri-kəlamə neçün?
Düşməyibdir kişı nizama neçün?
Üzrü vardır ki, əhli-zahir imiş,
Cəhl rəsmində xeyli mahir imiş.
Şer təvilin eyləyib inkar,
Eyləyir çox məzəmməti-əşar.
Niyə təvilə olmayır qail?
Ləfz təvilsiz olur batil.
Hər sözün zahirilə batini var,
Əhli-məna olulla bərxürdar.

---

* " Tərcüməsi: Söz göylərdən aşağı endi
Söz zümrüd alə
Sözdən qiymətli gövhər olsaydı,
Söz yerinə o (gövhər) enərdi.
Birinci misra Qurana işarədir (S.R.)

Əksər ayat olmasa təvil,
Qalı mübhəmdə məniyi-tənzil.
Xud tutaq, vəsfi-badə etməklə,
Mədhü övsafı-sadə etməklə,
Şüəralor o mədh ilə hamı,
Etdi gümrah əhli-islamı.
Miləli-sairi, bəs ey rubah,
Hansı şairlər eyləyib gümrah?!
Ruzü şəb cümlə məsti-badədilər,
Mayili-eyş-nuşü sadədilər.
Elə meyxarə var ki, nadandır,
Biri kafər, biri müsəlmandır.
Annamaz hiç şerü badə nədir,
Vəsfi-əşarü mədhi-sadə nədir.
Şer rəsmindən olmayıb agah,
Hansı şair edib onu gümrah?
Əyyühəl Əbsənül-Qəvaidi-zar,
Bu xəyalından eylə istiğfar!
Miləli-sairə olub vəssaf,
Eyləyirsən bu qədr kim, övsaf
Əhli-Yevropanın fərasətini,
Bəyənirsən tamam adətini.
Əhli-islamə sərzənişdir işin,
Dönmüsən şahmarə, nişdir işin.
Ari, ari, cənab peyğəmbər
Bu hədisi veribdi xəlqə xəbər-
Ki: "Gəlir bir zamani-tulü təvil
Əhli-islara olulla xarü zəlil,
Tutar ol vəqt küfr dünyanı,
Xar edər çərx əhli -iymanı.
Nə ki cühhal, bəlka alimlər
Dinimi, sərimi bəyənməzlər".
Sədəqə, səddəqə rəsulüllah.
Bu haman əsrdir bil, ey gürarah!
Sən təki şəxslər arayə düşüb,
Xatirin özgə müddəayə düşüb.

İndi ki, var məhəbbətin küfrə,
Sən də onlar kimi döşə süfrə.
Sən də gey çəkmə, başuva qoy saç,
Salgilən rəğbət ilə boynuva xaç.
Yerə çökmə, ayağun üstə...
Yayda iç pivə, romu saxla qışa.
Dəxi bundan sora yuma...
Gərçi səhvən kəsiblə sünnətüvi.
Eyləmə qüsl, getmə həmmamə,
Başuva şapqa qoy, nə əmmamə.
Hər urusə çatanda ver çasti:
"Mayo paçtenye,-söylə-izrasti!"
Məscidə getmə, gir kəlisayə,
Söylə Allahın oğlu İsayə,
Ləhmi-xınzirə etgilən adət,
Bədənində ziyad olur şəhvət.
Ruzənin olmasa sənə səməri,
Saxla pəhriz yeddi həftələri.
Ölüvün üstünə keşiş gətir,
Yerdən ayini-xaçpərəslə götür.
Eyləmə ayeyi-hicabə əməl,
Sənə hasil ola "famən yəməl".
Rusi öyrən ki, ey rəfi çənab,
Verəsən Münkərü Nəgirə cavab.
Maliki-ruzi-həşrü yövmi-nüşur,
Səni etsin o qövm ilə məhşur.
Ey edən ayinə özünü xitab,
Nəm çəkib ayinəndəki simab,
Filhəqiqət ki, baxdım, ayinəsən,
Etdiyin fikri-bikrə səd əhsən!
Leyk mirati-kəcnümasənmiş,
Münkiri-surəti-səfasənmış!
Bu səfər baxgilən bu şeri-növə-
Ki, sənin əks saldı ayinövə.
Dəxi minbəd böylə çox surət
Salacaq onda əks bir müddət.

Ey özün ayinə sanan rüsva,
Bunu da bil ki, səngdir şüəra;
Ehtiyat eylə, ey günü qarə,
Ayinə səngdən olur parə.
Bilmirəm səndə bu nə halətdir,
Şüəraya bu nə ədavətdir?
Belə məlum olur ələzzahir-
Ki, səni tərpədibdi bir şair.
Seyyida, bəsdi, tul oldu kəlam,
Xətm qıl, vəssəlam, vəl-ikram!

## SƏİD ÜNSİZADƏYƏ

*Mürəbbe*

Əla, ey müxbiri-sadiq, əlaəddini-vəd-dünya,
Səvadi-nurpaşındır bəyazi-aləmi-məna.
Səid etmiş səni ruzi-əzəldə xaliqi-yekta,
Çəlalın naqis olmaz etsələr yüz min həsəd əda.

Olum ey himmətin qurbanı, bir dərk et bu mənanı-
Ki, eylər ərz əşar ilə bu Xaqaniyi-sani-
Ki, var Rusiyyənin beş-altı milyon can müsəlmani
Qalıb elmü mənafədə təmamən bisərü bipa.

Açıb Rusiyyə babi-mənfəət cümlə rəayayə,
Dəmadəm şükrlər etmək gərək bu feyzi-üzmayə,
Müsaviyyət veribdir silki-ədna, fövci-əlayə,
Bərabərdir dəxi divandə əla ilə ədna.

Rəiyyət oğlu olsa bəhrəvər gər elmü mənadən,
Olur şayisteyi-xidmət, alır çin şahi-valadən,
Xuda razi ola bu imperaturi-müəlladən-
Ki, şamıldir cahanə teyzi çün xurşıdi-nurəfza.

Açıb hər qism məktəbxanələr bu mənbeyi-ehsan,
Bihəmdüllah ki, yoxdur tərbiyət babında bir nöqsan,
Sənaye məktəbin Qafqazdə eylər bu il bünyan-
Ki, ta sənətdən olsun bəhrəvər hər saivü cuya.

Bu il kim, Asiyayi-şərqdəndir fitnələr peyda,
Nümayandır Heratü Kabilü həm Mərvdən qovğa,
Bu aşubə o müfsidlərki, baisdir, xudavənda,
Zəlil et onları, məğlubü məqhur eylə, həm rüsva!

Neçə nərrad qurmuş təxteyi-nərd mülki-dünyam,
Salıbdır şeş cəhətdən şeşdərə İranü Turanı,
Qalıb şeşdərdə, tapmaz yol güşadə türklər xanı,
Şeşü ponç atraağı müşküldü tasi-qübbeyi-mina.

Tutubdur gərçi rüx bu filtənlər mülki-Əfqanə,
Piyadə səf çəkib, atlar düzülmüş səhni-meydanə,
Vəzir istər ki, şəh mat olmasın, söylər həkimano,
Dönübdür səfheyi-şətrəncə yeksar sahəti-dünya.

Diriqa, əhli-İranın xəyalü müddəasından,
Xudanakərdə əl çəksə həqiqi aşinasından,
Xüsusən maliki-Rusiyyə tək müşkülgüşasından,
İlahi, qıl kəramət hər kəsə bir dideyi-bina.

## HACI SƏİD ÜNSİZADƏYƏ

*Qəsidə*

İradə eyləsə bir qövmə xeyrin feyzi-rəbbani,
Olur bir padşahi-adil ol qövmün nigəhbani.

Bihəmdüllah kim, sultan bizə bir zati-alidir-
Ki, ədlindən olubdur gürg çöldə bərrə çubani.

Şəhənşahi-fələkqədr, imperaturi-müəzzəm kim,
Qılıb asudə əhdində bəladən xəlqi-imkani.

Məsihi-pak həqqiyçün, xudavənda, bu zişənin
Cəmali-afitabından cahanı eylə nurani!

Onun övladü əhfadını hifz eylə bəlalərdən,
Vəliəhdinin eylə ömrünü aləmdə tulani.

O, zilli-həqqdir, kəm etmə bizdən sayəsın, yarəb,
Himayət sayəsində pərvəriş qıl biz rəayani!

Çinan ki, təlimi olmuş onun bu aləmə şamil,
Açılmış cümleyi-afaqə babi-lütfü ehsani.

Təfavüt qoymayıb hər millətə eylər nəvazişlər.
Yəhudü erməniyü gürcüvü rusü müsəlmani.

Neçə əyyami-möhnət mövsümi-rəncü məşəqqətdə
Tutub cud ilə əl, etmiş nəvaziş xəlqi-Şirvani.

Necə bir zəlzələ Şirvanda oldu, uçdu çox evlər.
Şəhin memari-lütfü şəhrə oldu tazədən bani.

Nəvaziş qıldı sali-qəhtdə çox-çox məsakini,
Açıldı Yusifi-Misridən əfzun babi-ehsani.

Bizimçün eyləyib təyin rəfətli naçalniklər,
Ədalətpişə, lütfəndişə, yeksər mərhəmət kani.

Xudavənda, bu dovlət paydaru bərqərar olsun,
Onun bədxahının eylə, ilahi, ömrünü fani!

Bu günlərdə Şamaxı səfheyi-gülzarə dönmüşdür,
Bəli, gülzar olur bir mülk olsa böylə dehqani.

Xüsusən bir büləndəxtər gəlibdir şəhri-Şirvanə-
Ki, sədi-nəcmi-bəxtinə olur öz ismi burhani.

Səid ol zadeyi-Ünsi ki, zatı ünsdən müştəq,
Ənisi-əhli-ürfan, munisi-hər dərdi-pünhani.

İmami-əhli-sünnət xeyrxahi-dövlətü millət,
Qüdumindən firəhnak oldu əhli-mərifət cani.

Həqiqət, var idi bundan əzəl çox nəqsi Şirvanın,
Gəlib bu şəhrə ol mah oldu şəhrin cəbri-nöqsani.

Neçə illər çəkib qürbət-ara Tiflisdə zəhmət,
Kəmali-pişrəfti-övn üçün tərk etdi övtani.

Edib tərtib çap əsbabını yüz min məraratlə,
"Ziya"yə izn alıb qıldı "Ziya" afaqı nurani.

Həqiqət aləmində millətə bir xidmət etmiş kim,
Zəban acizdir Övsafında təqrir etməyə ani.

Həmişə fikri saidir tərəqqiyati-millətçün,
Həmara xeyrə daidir, edər tərğib əqrani.

Gələn tək verdi ruhi məclisi-ruhaniyə zinət,
Kəmali-ruhi-reyhanından oldu bəzm ruhani.

Özü qütbi-bənatün-nəş tək dövründə əshabı,
Təcəllası ziyadə pəst qıldı mehri-rəxşani.

Rəvaci-məscidi-camedə qıldı səyini zahir,
Götürdü dəftərə tərtib üzündən cümlə dükkani.

Düşüb ol fikrə kim, Şirvanı bir darülfünun etsin,
Qiraətxanə açsın, nəşr qılsın elmi-ədyani.

Bilibdir kim, cəhalət mayeyi-fəqrü xəsarətdir,
Təriqi-elmə tərğib eyləmək vacibdir insani.

Bu rəmzi guş qıldım ol əzizin öz zəbanından,
Açıb dürci-dəhanın eylədi böylə dürəfşani:

"Bizimçün, laməhalə, üç dilin təlimi lazımdır,
Biri elmi-ərəbdir kim, bilək mənayi-Qurani.

Ümuri-şəri-ənvərdə bizə lazımdı danalıq,
Edək təşxis Zeydü Əmrdən Musəbni-İmrani.

Biri vacib bizə bilmək vətəndə söylənən dildir,
Gərəkdir mətləbə biz eyləyək türkiylə ünvani.

Biri həm rusidir ki, bilməyi çoxlarə lazımdır,
Ticarətçün bilək, həm dərk edək zakuni-divani.

Zəbani-rusi bilmək, ya danışmaq qeyri dillərdə
Şəriətdə bizə nəhy olmayıb, yox rəddi-bürhani.

Nə rusi, nə firəngi, quşların bilsən dilin xoşdur,
Nə yüzdən olmayırsan mülki-mənanın Süleymani?!

Süleyman ol, zəbani-hikməti aç hüdhüdü murə-
Ki, ta divü pərilər olsun əmrün bəndəfərmani.

Məgər Səlman deyildi İsfəhan atəşpərəstindən?
Zəbani-fürs olsun qoy, gərəkdir kamil iymani.

Zəbani-fürs ilə təlimə getdi həmdu ixtası,
Şəhənşahi-Ərəb bir qövm üçün göndərdi Səlmani.

"Və min alaihi*" ayatini idrak edən arif
Bilir qeyri lisan göftarının yox şerə nöqsani.

Lisanın ixtilafın nemətindən ədd edib xaliq,
Bilir bu sirri ol kəs kim, bilir ayati-Qurani.

Demiş hər ixtilafatül-lisan öz nemətimdəndir,
Hər ol kəs kim, bilə çox dil-tapıb feyzi-firavani

Nə dildə olsa olsun, elm olsun, xəlt aləmdə
Deyildir bir dilə məxsus, var hər dildə imkani.

Xüsusən kim, bu əhlə rusi bilmək çox münasibdir,
Nə yüzdən bilməyək canım, lisani-şahi-şahani?"

Çün ol kani-ədəbdən guş qıldım bu bəyanati,
Yəqin etdim ki, həq xoşbəxt edib bu əbli-Şirvani.

Bilibdir "ütlübül-elmi və lov bis-Sin"dən mətləb" †
Muradı elmdir hər dildə olsa, yoxdu küfrani.

Ümidim var bu nik-əxtərin səyi-cəmalindən
Ola əltafımız minbəd hər bir elm şayani.

Zəbani-fürsü rusü ya ərəb, ya özgə dillərdə
Təriqi-əshəl üzrə eyləsinlər dərk mənani.

Bina təlimül-ətfalə əlifbayi-cədid etsin,
Götürsün müşkülati, zahir etsin rəsmi-asani.

Vətəndə zikr olan dillərdə təsnifatlar qılsın,
Götürsün arədən "İnşa"ü "Bustan"ü "Gülüstan"i.

---

* O (Səlman - S.R.) da bizdəndir (ayə).

† Elm Çində də olsa, onu axtar (ayə).

Oxunsun heyətü hikmət, hesabü elmi-coğrafi,
Yetər, bəsdir eşitdik "Qisseyi-Yusif-Züleyxani"!

Təriqi-tərbiyət təlimin etsin bəzi heyvanə,
Görürsün məktəbi-ətfaldən çubü fələqqani.

Bizimçün cəmü tərtib eyləsin millət təvarixin,
Yazıb əxlaq elmin, bizlərə şərh eyləsin ani.

Müəllimlər gəlib adabi-dərsi ondan öyrənsin,
Mühərrirlər ala təlimi-hər inşavü imlani.

Könül, şad ol ki, gəlmiş bu diyarə elmi-Bokrati,
Pəsənd etməz Şamaxı elmdə minbəd Yunani.

Gəlibdir bu diyarə ol həktmi-şərü hikmət kim,
Onun bir kəmtərin şagirdi eylər pəst Loğmani.

Çi məktəb, çi mədarislər tapar minbəd arayiş,
Salır tərtibü nəzmə himməti hər bir dəbistani.

Gərəkdir himmətindən özgə qazilər misal alsın.
Nizaminin gərək nazimlər olsun matü heyrani.

Bular ki, zikr qıldıq, Seyyida, yeksər hüveydadır,
Keçən həftə olan məclis olur bu əmr bürhani.

Gələn tək gördü kim, var göftguyi-şiəvü sünnü
Salu bir parə müfsidlər əracif ilə qovğani;

Çəkirlər bır-birinin büxldən məxfi ayağından,
Salırlar şübhəyə təzvir ilə ümmali-divani;

Ağa Seyyid Əlinin xəlqi cəm etdi otağinə,
Götürdü aralıqdan hikmət ilə keydi-ixvani.

Qülubi-xəlqə verdi etilaf ol sahibi-hikmət,
Dəlili-etilafə şərh edib ayati-rəhmani.

Dedi, ey yadigari-Müstəfa, zürriyyeyi-
Taha, Sizi təhbib üçün torğib edibdir həqq fərmani.

Sizə hər kım ədavət eyləsə, düşməndir Allahə,
Ədavət əhlinə amadə etmiş nari-niyrani.

Gərək biz padşahi-rusə əvvəl eyləyək ixlas-
Kim, oldur bizlərin hifzü hərasəldə nigəhbani.

Dübarə pişrəfti-millət üçün eyləyək çarə,
Olur ki, cəm edək biz xeyrə bu qövmi-pərişani.

Nəsihət eyləmək bu firqeyi-cühhalə lazımdır-
Ki, izan eyləsinlər rahü rəsmi-şəri-qərrani.

Müxalif olmasınlar dəhrdə qanuni-divanə,
Xilafi-əqldir hükkamə etmək işdə üsyani.

Təriqi-şərü qanuni-nizamın birdir ehkamı,
Hər iki qazi bir rəsm ilə eylər qət dəvani.

Qaçaqlar barəsində yazmışam ətrafü əknafə-
Ki, onlar küfr kanıdır, tutublar rahi-bütlani.

Olardan bir nəfər fövt olsa, molla verməsin qüslin,
Namazın qılsa hər alim-odur aləmdə moltani!

Bu üzdən kim, olublar imperaturə olar asi,
Ediblər bir də zaye hökmü şəri-şahi-Bəthani.

Verir hər cümədə camedə xəlqə çox nəsihətlər,
Hidayət eyləyir irşad edib bu qövmi-nadani.

İlahi, bu Səidin kövkəbi-bəxti səid olsun-
Ki, xurşidi-fələk tək tərbiyət eylərlər əkvani.

Bydur ümmid kim, gər bu təriq ilə ola sai,
Dirildər möcüzi-İsa kimi bu mürdə Şirvani.

Bu əmrə silsiləcünban əgər əqzəl-qəza olsa,
Bəyənməz qazi çərxi-şeşşümi, rüfətdə Keyvani.

Yəqindir kim məkatiblə mədarislər tapa rövnəq,
O gündən kim, gəlib tərğib edər bu əmrə əyani.

Mübaşir gər bu əmri-xeyr üçün Hacı Səid olsa,
Gərəkdir dəvət etsin bəzminə əyani-zişani.

Əzəl Hacı Əli Abbas bəydən istəsin himmət,
Əli bəy, həm Həsən bəy əmrə olsun salisü sani.

Dəxi Veysül-Qərən Haçı Üveysi eyləsin dəvət,
Dəxi ol zadeyi-Müftidən alsın əmrə fitvani.

Kərimi-zülkərəmdən eyləmək ümmid lazımdır,
Səxadə filhəqiqət kim, Kərim bəydir kərəm kani.

Təzərvi-arizunu istəsin Şahbaz bəydən kim,
Onun övci-səxavətdə olur peyvəstə teyrani.

Gərək Mahmud ağa ilə dəxi Sultan Mahmudun
Müqəvva eyləyə himmətləri övci-zəifani.

Ədalər kanıdır, Hacı Ömər bəydən olur hümmət,
Səxavətdə Səməd bəy göstərir bir Nuh tufanı.

Dəxi ümmid olur Hacı Səlamü Hacı Mürşüddən –
Ki, etsinlər bizə Darüssəlam ol nari-niyrani.

Gərək Hacı Ağa bəy himməti-mərdanə göstərsin,
Gətirsin karə Yüzbaşı bəy oğlu nami-Ağani.

Lətifi-lütfkarın lütfünə ümmidvar olsun,
Gərəkdir Hacı Möhsündən edək ümmidi-ehsani.

Riza Hacı Rizani eyləsin təqrib ilə karə,
Şəfi etsin o mərdi-möminə şahi-Xorasani.

Gərək bir sədd çəksin puri-İskəndər
Əli Əkbər, Çinan ki, baş çəkib öz himmətinin ərşə eyvani.

Həqiqət Məşhədi Kazım bəyin hər il əlasından
Tapıbdır karımız rövnəq, xuda, hifz et o pirani!

Bular ol şəxslərdir eyləyib hər ildə hümmətlər,
Xudaya, Məşhədi-Zeynalə eylə lütfi-ərzani.

Xudaya, Mirzə Hacı bəylə Nemət bəy əziz olsun-
Ki, bunlar sərbülənd aləmdə etmiş əhli-ürfani!

Bu yolda çox çəkən zəhmət həqiqətdə Ədil bəydir,
İlahi, ədlü ehsanınla daim şad qıl ani!

Yenə ümmidvarəm ki, bu əşxasi-mükərrəmlər
Edə ülfət, qıla himmət, ucalda qəsri-mənani.

Qalıbdır firqeyi-islam dalda cümlə millətdən,
Əhatə eyləyiblər başqalar elm ilə dünyani.

Deyirlər ki, üfunət eyləyibdir beyzeyi-islam,
Gərək rəfi-üfunətçün edək bu dərdə dərmani.

Bizə cəlbi-mənafe eyləsək dövlət deyil mane,
Gətirmək tazə üslubə gərəkdir köhnə dünyani.

Vaporlar atəşindir xah yolda, xah dəryadə,
Gorək əldən qoyaq ərradəni, kəştivü yelkani.

Nolur idrak qılsan hər güruhin dillərin, canım,
Kamandir söyləsək nöqsanmıdır dəryada losmani?

Xuda, Allahü boq kim, hər üçü bir oldu mənadə,
Yerində hər birin sərf eyləsə vardırmı nöqsani?

Əfəndi ya axund rusi danışsa, bir günah olmaz,
Xudaya, sən özün islah qıl bu qövmi-nadani!

Həqiqət söylə, Seyyid, qoy səni kafər desin mərdüm :
Uyub nəfs əhlinə tutma təriqi-küfri-xizlani.

Sənə bəsdir Ağa Seyyid Əlinin hüsni-təhsini,
Sənə bəsdir bu Ünsizadənin lütfi-firavani.

Mühibb ol padşahi-Rusə Ünsizadə tək sən də,
Həmişə vəsf qıl bu imperaturi-müəllani.

Nə yoldan getsə Ünsizadə, sən də salik ol rahə-
Ki, ta azdırmasın yolda səni quli-biyabani!

O, bir şəxsi-mücərrəd, xeyrxahi-cümlə aləmdir-
Ki, yoxdur zati-bimislində xahişhayi-nəfsani.

Qənaət qafınım ənqasıdır, kərkəsşikar olmaz,
Nəzərgahında etməz cilvə təsvilati-şeytani.

Duasilə bu zatın, Seyyida, xətmi-kəlam eylə,
İlahi, şamil oisun halına əltafi-yəzdani!

Ülumü hikmətindən xəlqi-aləm müstəfid olsun,
Mizaci-müstəqim üzrə həmişə olsun ərkani!

Həmişə feyzə yetsin gərdişi-abai-ülvidən,
Ona pürşir olsun ümməhatın lütfi-püstani.

Vüçudi xilqəti-aləmdən alsun üləti-ğai,
Bəqayi-nəslinin heç olmasın aləmdə payani.

Cəlali qaim olsun dövləti-Rusiyyə olduqca,
Çinan ki, yoxdurur bu dövlətin aləmdə payani-

Onun fərqindən etmə sayəsin kəm imperaturun,
O zillüllahə zillində həyatın eylə tulani.

Bu sədrin sədri kim, afaqə bir yənbuyi-hikmətdir,
Zülali-hikmətindən eyləsin sirab ətşani.

Məkatib, həm mədarisçün ziyad et rəğbətin, yarəb,
Edə İdris peyğəmbər kimi tədrisi-ruhani.

Cəlali-ba-Kəmalın hifz qıl aləmdə afətdən,
Əfəndizadə ağadır, xuda, hifz eylə ağani!

## MAHMUD AĞAYA

*Qəsidə*

Ey edən Adəmi avareyi-cənnət, buğda!
Ey verən həzrəti-Həvvayə xəcalət, buğda!
Səni Adəm yedi cənnətdə, müsibət gördü,
Çəkdi Həvvayi-bəladidə nədamət, buğda!
Adəmi eylədi şeytan səninlə iğva,
Gəldi Həvvayə səninlə dəxi töhmət, buğda!
Baisi-mələnətü məsiyəti-Adəmsən,
Kim ki, allansa səninlə, ona lənət, buğda!
Yeməsəydi səni cənnətdə əgər kim, Adəm,
Qalacaqdıq hamı firdovsdə rahət, buğda!
Bağı-firdovsdə axır qalacaqdıq rahət,
Səndən oldu bizə bu rəncü məşəqqət, buğda!
Hansı xirməndəsən, ey daneyi-ənduhü bəla,
Hansı məskəndəsən, ey mayeyi-möhnət, buğda!
Bir tapaydım səni, daş ilə əzəydim başuvi,
Eyləyəydim səni un kimi xəsarət, buğda!
Bişireydim səni təndirdə, edəydim büryan,
Doğruyeydim səni hər ləhzə, ey afət buğda!
Nə üçün mülki-Şəmaxidə tapılmazsan sən?
Ta edəydim sənə yüz gunə üqubət, buğda!
Tapmışam mənzilüvü mən sənin, ey töxmi-cəfa,
Bilmişəm hardasan, ey daneyi-rəhmət buğda!
Qaçmısan Mahmud ağanın yenə anbarına sən,
Etmisən orda nihan olmağı adət, buğda!
Yazıb ol kani-səxadən səni xahiş qıllam,
Səni ağa edəcəkdir mənə şəfqət, buğda!
Elə bildin ki, səni Seyyidi-nalan tapmaz,
Qalısan guşeyi-xəlvətdə fərağət, buğda?
Sahiba, Mahmud ağa, lütfü mürüvvət dəmidir,
Eləyib Seyyidi-miskinə xəyanət buğda!
İndi beş aydı ki, məndən qaçıb ol ruysiyah,
Qoyub avarə məni-zari bu nikbət buğda!
Tutmuşam indi sorağın, sizin anbardadır,

Qorxuram kim, qaça ordan dəxi xəlvət, buğda.
Babamız Adəmin ol qəlbiqara düşmənidir,
Eləyib həzrəti-Həvvayə ədavət buğda.
Qoyma anbarda qalsın, onu ixrac eylə,
Nə bilir nanü nəmək, rəsmi-məhəbbət buğda!
Ver mənə, ta ki, dəyirmanda onu un tək əzim,
Çox veribdir məni-biçarəyə xiffət buğda.
Sahiba, buğdanın əhvalın əger şərh eləsəm,
Olar afaqda bir tul hekayət buğda.
Qərəz oldur ki, bu il həm dəxi bildirki kimi,
Edəsən Seyyidi-biyarə inayət buğda.
Bir tağarın ədədi qədri həq etsin ömrün,
O qədər Seyyidə olsun dəxi qismət buğda.

**MAHMUD AĞAYA**

*Qəsidə*

Əla, ey sərvəri-valaməkan kim,
Qənimətdir vücudun Şirvanə.
Sənə olsun mübarək eydi-əzha!
Fələk kamınca olsun hər zəmanə!
Cahan olduqca olsun ömrün əfzun,
Dönə aləm sənə baği-cinanə.
Ola dünyada daim xatirin şad,
Dili-düşmən həsəddən dönə qanə.
Ola dövri-qəzadən kur çeşmi
O kim, bədxahdır bu dudmanə.
Deyil bu sözdən, ey sərvər, muradım,
Gətirmək vəsftivü nəzmü bəyanə.
Səni mən vəsf qılmaqdan nə fəxrin-
Ki, fəzlin cümlə rövşəndir cahanə. -
Qərəz, fikrim sənə mütləq duadır,
Duadən qeyri sözlərdir fəsanə.
Sənə məlumdur ixlasi-Seyyid,
Dəxi hacət deyil çəkmək əyanə.
Vəli bir neçə müddətdir ki, məndən
Kəsilmiş ol ədayi-müşfiqanə.
Nə cismi-zar üçün bir tazə xələt,
Nə quti-ruh üçün bir abü danə.
Əgərçi mən özüm təqsirvarəm
Gələndə kəsrəti-qəmdən amanə.
Nə qıldım halımı ərz ol cənabə,
Nə tutduın bir üzüm ol asitanə.
Buna həm bais oldur ki, həyadən
Utandım, almadım bir söz zəbanə.
Göründü zahirim xəlq içrə xürrəm.
Könüldə çəkdi nari-qəm zəbanə.
Əl-əttəxsis kim, bu fəsl bülbül
Gəlir gülzardə gülçün fəğanə.

Əl-əttəxsis kim, gülşəndə sünbül
Dönübdür zulfı-yari-dilsitanə
Əl-əttəxsis kim, xeyli-şükufə
Qılır tənə nücumi-asimanə.
Əl-əttəxsis kim, ahəngi-qümri
Qılır tənə nəvayi-nəğməxanə.
Əl-əttəxsis kim, əqsarai-aləm
Gedirlər eyş üçün hər gülsitanə.
Visali-yardə eşq əhli yeksər
Salıb meylin şərabi-orğüvanə.
Olub həmdəmlərim yar ilə məhrəm,
Bisatında dəfü çəngü çağanə.
Vəli mən xiclətimdən dilmükəddər,
Çəkib payi-nədaraət bir nəhanə.
Nə meyli-gülsitan, nə fikri-canan,
Olub qəm tirinə canım nişanə.
Rəvadırmı sənin əsrində olsun
Əsiri-qəm mənim tək bir yeganə?
Bu halı ərz qılmaqçun hüzurə
Bu cyd oldu əlimdə bir bəhanə.
Bu qərra nəzm ilə ərz oldu halım
Sənin tək bir ağayi-mehribanə.
Əgərçi şiveyi-nəzmi-kəlamını
Lətafətdə deyildir şairanə.
Budur ümmid kim, təbi-kərimin,
Edə təhsinlər bü natəvanə.
Ola Seyyid cənabından sərəfraz,
Qıla daim dua bu xanimanə.
Mübarək olsun eydin lütfi-həqdən,
Dağılsın seyti-fəzlin hər məkanə.
Günün xoş, xatirin xürrəm, dilin şad,
Ola Ömrün cahanda cavidanə!
Ola axır nəsibin baği-cənnət,
Budur axır duamız bəndəgan

## MAHMUD AĞAYA

*Qəsidə*

Mübarək eydi-novruzi sənə, ey şəhriyar, olsun!
Həmişə taleyin nasir, həmara bəxtiyar olsun!

Açılsın qönçeyi-bəxtin, cahanə ətrlər versin,
Həmişə gülşəni-eyşin cahanda novbahar olsun!

Cahan Mahmudisən, xidmətdə yüz ziba
Əyazın var, Şamaxı Qəzney asa dəhrə sahibiştihar olsun!

Adın Mahmud, bəxtin, taleyin mahmuddur daim,
Müinin Əhmədü Mahmud, lütfi-kirdigar olsun!

Zülali-çeşmeyi-heyvan ilə dolsun sənin camın,
Bəsani-Xızr ömrün ta cahan var, paydar olsun!

Xudavənda, sənə bu dövlətü bu ömrü asayiş
Nə qədri vardır dünyayi-fani bərqərar olsun!

Əgərçj qalmayıb dünyadə, qalmaz hiç kəs baqi
Və lakin zikri-xeyrin aləm içrə yadigar olsun!

Bizə çox görməsin pərvərdigari-həqq ağani,
Cavadın cudi ilə əhli-aləm kamkar olsun!

Edər tiri-cəlalın gur çeşmin fövci-üdvanın,
Nə eybi Rüstəmin bədxahı gər İsfəndiyar olsun?

Bu üç novbavələr kim, qönçeyi-gülzari-ömründür,
Açılsın abiyari-feyzin ilə ətrbar olsun!

Gəlib ol fəsl kim, dağ üzrə çıxsın laleyi-xüdru,
Gəlib ol fəsl kim, fəsli-zimistan dağdar olsun!

Gəlib ol fəsl kim, gül çohrə açsın səhni-gülşəndə,
Alıb buyi-güli-rənanı bülbül biqərar olsun!

Gəlib ol fəsl kim, gülzarə çıxsıtı arifü dana,
Çəməndə sadə olsun, badə olsun, badəxar olsun!

Səhər sövti-humayun ilə bülbül başlasın nəğmə,
Həzaran şurlə məmlüv bu fıruzi həsar olsun.

Edib başinə bülbül cəm bağ içrə əşiranın,
Büzürgü kuçigin dəstində hər yan çəngü tar olsun.

Əbülçəpvar ahəngi-çəp etsə zağ gülşəndə,
Gərəkdir rast bəzmi-basəfadə bərkənar olsun.

Gülün rüxsarını bülbül görən dəm şahə naz eylər,
Gərək şurə gəlib, ahəng edib, biixtiyar olsun.

Olur afaqə zahir bülbülün eşqi bahar olcaq,
Gərəkdir eşqi-kamil hər zamanda aşikar olsun.

Dügahi-ruzü şəbdə, çarigahi-fəsli-aləmdə
Gərəkdir aşiqin eşqi şəhiri-ruzigar olsun.

Xoşa ol rind kim, bu fəsli-ruhəfzayi-gülşəndə,
Yanında yari-ziba, əldə cami-xoşgüvar olsun.

Gülüstan guşəsində süfreyi-biintizarında
Mey olsun, dilbər olsun, hər zaman busü kənar olsun.

Səbu zamıdə, sağər əldə, məclis xali, mey hazır,
Vüsali-yari-gülrüxsar, fəsli-laləzar olsun.

Bəs gunə məclisi verməz həqiqət cənnətə adəm,
O kəs şeytandı kim, bir böylə məclisdən kənar olsun.

Həmişə vaiz etsin qoy məzəmmət badeyi-nabi,
Nə hasildir məzəmmətdən əgər ki, səd hezar olsun.

Bizə nifrin edər gər şeyxi-Şirvan badə şürbündən,
Ona bizdən gərək xeyr-dualər bişümar olsun.

Bizə hərçənd mey şürbin duadə zəhrmar eylər,
Məzaqında onun, yarəbb, kövsər xoşgüvar olsun.

Nə nifrin eyləsə, qoy eyləsin vaiz bizə, Seyyid,
Təki bəzmimdə badə, bir nigari-gülüzar olsun!

Təki gəlsin bahari-aləmara səhni-gülşənlər
Bəsani-sefheyi-Ərjəng pürnəqşü nigar olsun.

Sələ sultani-gültəxti-zümürrüdfam gülzarə,
Olub şabaş, əbri-tirədən dürlər nisar olsun.

Yazıb bir şer göndərsin dəxi Mahmud ağayə,
Nəsibin gövhəri-qəltan, dürri-şahvar olsun.

Deyil rizişdə kim, əbri-bəhari-aləmaradən
Zülali-feyzinə könlün onun ümmidvar olsun.

Əgər bilsə səni feyzinə layiq çox edər ehsan,
Bu xasiyyət gərəkdir onda gün tək aşikar olsun.

Deyil divanə kim, versin pulun hər bisərü payə,
Bu rəmzi bilməyənlər indi bilsin, huşyar olsun.

Hər il ondan səxalər görmüşəm mən lüttü ehsanlar.
İlahi, dövləti payəndə, bəxti payidar olsun!

Fələk qədra, bu sözlərdən qərəz mədhin deyil, amma
Budur fikrim ki, mədhindən mənimçün iftixar olsun.

Mübarəkbadiyi-novruzdur bu fəsli-zibadə,
Yazıb bu şeri göndərdim ki, məndən yadigar olsun.

Deyildir eyb şair mədh qılsa son tək ağani,
Böyüklər mədhi şairçün gərəkdir hər bahar olsun.

Vəli eybi budur ki, mədhdən var bir təmənnası,
Təmanna olmasa istər ki, mədhi səd həzar olsun.

O kəs ki, mədh edəndə bir səxavət eyləməz zahir,
Gərəkdir şairin həcvində həm çox əşkbar olsun.

Nə ağzımdır ki, siz tək şuxi mən həcv eyləyim, haşa!
Kinayə özgədir bu sözdə, ol namərdə ar olsun.

Yığıb -malü mənalı qoysun anbarına Qarun tək,
Edib tez puç olan malı xəzinə, xəznədar olsun!

Bu il bir neçə şəxsi eylədim tövsif, göndərdim-
Ki, şayəd xatirimdən feyzinə rəfi-qübar olsun.

Həsən bəydən yetişdi, çox sağ olsun, nəqd ənamım,
Onun bədxahı, yarəb, aləm içrə tarü mar olsun!

Ağanın dəxli yoxdur bir kesə bu rübi-məskunda,
İlahi, yavəri hər fəsldə həştü çahar olsun!

Bahari-ömrü olsun lütfi-həqdən tazəvü rəyyan,
Mühübbi gül təki xürrəm, onun bədxahı xar olsun!

## MAHMUD AĞAYA

*Qəsidə*

Alişan həzrəti-Mahmud ağa-
Ki, düşüb aləmə şöhrət səndən.
Kəsməsin sayə hümayi-bəxtin,
Getməsin hiç bu dövlət səndən.
Hələ dünyadə yüz il ömr edəsən,
Getməsin ləzzətü işrət səndən.
Vermisən hər kəsə bir növ səfa,
Şaddır əhli-vilayət səndən.
Bir mənəm şəfqətüvün məhrumi,
Yetmədi qəlbimə rahət səndən.
Sahiba, var dili-zarımda mənim
Xeyli müddətdi cərahət səndən.
Salmadı zəxmimə lütfun mərhəm,
Görmədim hiç təbabət səndən.
Özün insaf sər etsən onda
Edirəm indı şıkayət səndən
Neçə illərdi ki, görməz Seyyid
Sərvəra, hiç şəfaət səndən.
Keçən illərdə sənə şer yazıb,
İstədim halıma rəfət səndən.
İki ildir ki, gözüm yolda qalıb,
Görmürəm hiç əlamət səndən.
Yoxsa eşqin kimi payanə yetib,
Qurtarıb kəşfı-kəramət səndən.
Əhli-dil Kəbə deməzlər qapuvi,
Gər rəva olmaya hacət səndən.
Gəlmişəm xidmətüvə gözləyirəm
Lütf ilə çeşmi-inayət səndən.
Seyyidə lazımədir vasil ola
Nəqd bir cameyi-xələt səndən.
Yaz, bəratimi bu gün eylə əta,
Ta yetə qəlbə məsərrət səndən.
Yazmış idim sənə də əşan-
Ki, edim hasili-hacət səndən.

Dedi bir şəxs mənə tənə ilə:
Məhv olub fəhmü fərasət səndən
Bu sifət sən ki təməhkar oldun,
Eyləyir xalq odu nifrət səndən.
Əqlü idrak kimi zail olub
Yoxsa iksiri-qənaət səndən?
Olacaqsan bəs ölüncə sail,
Gedə müşgüldü bu halət səndən.
Bəsdi bir danə sənə köhnə əba,
Çün gedib zivərü zinət səndən
İstəmə Mahmud ağadan xələt,
Səhvdir btr belə cürət səndən.
Seyyidi-pakə həram oldu sual,
Məhv olub yoxsa səyadət səndən?
Sahiba, ərzimi ki, guş etdin
Gör nədir indi ləyaqət səndən.

## ƏLİ BƏYƏ

*Qəsidə*

Gəldi novruz ki, gülşənlərə zinət versin,
Ətri-azari-gülə tabü təravət versin.
Dəhr ara təbi-həva Maniyi-nəqqaş kimi
Qələmi-hikmət ilə güllərə surət versin.
Doidurub jalə ilə lalə o mərcan qədəhin,
hicr bimarı olan bülbülə şərbət versin.
Bad geysuyi-ərusanə yetirsin şanə,
Gül üzün ğazə qılıb, sərvə rəunət versin.
Novərusani-çəmən zinət olunsun yeksər,
Gül ələ sağər alıb badeyi-işrət versin.
Səhni-gülzardə açsın vərəqi-hikməti gül,
Bülbüli-xəstədilə dərsi-fəsahət versin.
Şərh olunsun rəvişi-mazivü müstaqbəlü hal,
Gül bu todris ilə bülbüllərə halət versin.
Nərgis açsın gözünü bağə təmaşa qılsın,
Susən açsın gözünü nazü nəzakət versin.
Məsnəd etsin həməli xosrovi-zərrin-nəsəb,
Bağ şahidlərinə xələtü nemət versin.
Kamran vəsli-güli-tərdən olurdu, ey dil,
Xari-sərtiz əgər bülbülə fürsət versin.
Bülbül eylər gülü övsaf gülüstan içrə,
Ta açılsın gül, o biyarə məsərrət versin.
Açılan dəmdə gülü qarət edər gülçinlər,
Səbr bülbüllərə ol sahibi-qüdrət versin.
Seyyida, sən gülü vəsf eyləmə, güldən nə bitər?
Qulu bəy mədhini qıl, ta sənə xələt versin.
Sənə noruzdə hər il eləyib ənam əta,
Yenə mədh eyfə, bu il könlüvə behcət versin.
Əli bəy vəsfini qıl, vəchi ələnnəqd olsun,
Nisyə sözdən nə bitər, nəqd ilə nemət versin.
Qulu bəy nəqdşünasi-şüəradır,
Seyyid, Var ümidim ki, sənin şerüvə qiymət versin.
Hər nə kamın ola bir rəng ilə eylər hasil,

Razı olmaz ki, sənə rəngi-xəcalət versin.
Hər nə etsə sənə zahir Qulu bəy etsin əta,
Həqq onun düşməninin məргini xəlvət versin.
Günbəgün həqq eləsin dövlətin əfzun buların,
Hasidü hafidinin könlünə nifrət versin.
Eyləsin əxtəri-bəxtini səadətlə qərin,
İzzətü hörmətinə gün kimi şöhrət versin.
Kərəmi-lütfləri səfheyi-Şirvanı tutub,
Bundan əfzun olara tanrı kəramət versin.
Sahiba, vəsf deyildir bu ki, mən eyləmişəm,
Vesfi-Çirma nəçidİr ki, günə zinət versin,
Günü bir kimsənə vəsf eyləməyib aləmdə,
Vəsf odur ki, özü halına şəhadət versin.
Sizə nemətlərini həqq eləyib cümlə əta,
Bir uzun ömr sizə ömrdə rahət versin.
Qərəzim vəsf deyil, xeyrü duadır mətləb,
Tarı bu işdə mənim təbimə sürat versin.
Şəhri-Şirvanda mənim izzətimin baisisiz,
Həq-təala sizə bu dəhrdə izzət versin.
Eyləsin şad xuda ruhin o mərhumlərin,
Saqiyi-həqq olara kovsəri-cənnət versin.
Sahiba, fəsli-bahar oldu, könül şad gərək,
Bari-qəra qoyma mənim qəlbimə siqlət versin.
Neçə ildir oluram təhti-pənahında sənin.
Qoyma hər kəlbi-əquri mənə zəhmət versin.
İncisəm mən, olu rəncidə dili-paki-rəsul,
Qoyma peyğəmbərə bu qovm əziyyət versin.
Sən gərək saxlayasan xaneyi-izzətdə məni,
Şahi-lütfün niyə hər bəydəqə cürət versin.
Ey mənim taci-sərim, sərvəri-alinəsəbim,
Kim nəcib olsa, gərək buyi-nəcabət versin.
Seyyida, şerdə rəmz ilə hekayət açma,
Nə gərək, vəsfüvi de, bəy sənə xələt versin.

## QULU BƏYƏ

*Qəsidə*

Alişana, ey Qulu bəy, gövhəri-bəhri-səxa,
Vəsfi-zatın eyləmək eyni-sifatımdır mənim.
Mən gədayi-dərgehin, sən padşahi-şövkətim,
Tabe olmaq ömrüvə rahi-niçatımdır mənim.
Mən təbibün-nəfs, həm şirin təkəllüm şairəm-
Kim, mələklər zikri-şeri-təyyibatımdır mənim.
Aləmi-zülmətsəra içrə haman Xızram ki, mən
Abi-heyvan rəşheyi-kilkü dəvatımdır mənim.
Abi-heyvandır kəlamım xəlqi ehya eyləyən,
Ey Sikəndərfər, haman abi-həyatımdır mənim.
Bəydəqi-filəfkəni-əsrəm ki, hər yan rüx tutam,
Yüz vəzirü şahü tusən təbi-matımdır mənim.
Şieyi-Xülləxzəmirəm, mirü sultanım
Əli-Kim, o şəh həllali-üqdi-müşgülatmıdır mənim.
Çox çağırdım, yetmədi mövla Əli fəryadıma,
Bilmişəm ki, baisi öz səyyibatımdır mənim.
İndi səndən qalmışam müşküldə, imdad istərəm,
Təşnəkaməm, şəfqətin abi-Fəratımdır mənim.
Müxtəsər, var bir atım kirtı, Zülcənahi-əsrdir,
Filhəqiqə həm qolumdur, həm qanadımdır mənim.
Ol Buraqım, Rəfrəfimdir, izzü cahım, dövlətim,
Həm səlatım, şövkətim, xümsüm, zəkatımdır mənim.
Bir neçə gündür qalıb heyvan samansız, arpasız,
Heyf ol bədbəxtü kəmtale ki, atımdır mənim.
Öldü at, ey dust, qıl arpa-saman əncamını,
Sanma kim, arpa-saman qəndü nəbatımdır mənim.
Nəqd filməclis əgər sən həm sərəncam etməsən,
Dad əlindən eylərəm ta kim, həyatımdır mənim.

## HƏSƏN BƏY NƏBİBƏYOVA VƏ MEHRƏLİ BƏYƏ

*Qəsidə*

Gəldi novruz, yenə mövsümi-işrət görünür,
Mötədil oldu hava, özgə lətafət görünür.
Əbri-azar salıb dövrə hüma tək sayə,
Açılır mülki-cahanda yenə dövlət görünür,
Dönəcək çünki behiştə ləbi-cuvü ləbi-kişt,
Bağlər əhli-təmaşalərə cənnət görünür.
Gül açar bülbüli-şeydayə niqabın üzdən,
Bülbülü xani-vüsalə yenə dəvət görünür.
Saqiya, bir belə mövsümdə gərək badeyi-nab,
Olmasa badə, məni-zarə əziyyət görünür.
Qoy bizə lən oxusun vaizi-şəhr, ey saqi,
Demənik lənəti, bizdən ona rəhmət görünür.
Nə bizim rəhmətimizdən ona bir zərrə səvab,
Nə o lənət edə, ondan bizə rəhmət görünür.
Doğru söz, yüz edə lənət, gətir, ey saqi, şərab,
Rahi-reyhanı ilə ruhuma rahət görünür.
Xassə kim, göndərib, ey saqi, Həsən bəy ənam,
Yenə asari-səxa, lütfi-inayət görunür.
Etmədi gor ki, inayətdə fəramuş məni,
Bakıdan xitteyi-Şirvanə inayət görünür.
Darxanəmdə səmavar, dəxi çayım, qəndim,
Gecələr xaneyi-dövlətdə ziyafət görünür.
Göndərib Mehrəli bəy, mehrə gəlib, çay ilə qənd,
Yenə öz əbdinə asari-şəfəqqət görünür.
Çay otağımda yenə çay kimi cari olub,
Kasələr içrə yenə şirəvü şərbət görünür.
Bu iki bəhri-səxa, sərvəri-alişandan
Seyyidi-bisərü samanə inayət görünür.
İndi bir qədr gərəkdir ki, ola sözdə nəmək,
Təbi-şairdə yenə meyli-zərafət görünür.
Şükrlillah ki, pulum var şərab almaq üçün,
Gözümə nur gəlib, xatirə behcət görünür.

Eydi-novruzda, ey kaş, olaydım Bakıda,
Çünki bəzmi-ürəfa içrə nəzakət görünür.
Çalıb ol bəzmdə dünbəyini Ambarsun bəy,
Oynayıb Mehrəli bəy, özgə bəşaşət görünür.
Oynasaydım nə olur mən də onun dünbəyinə,
Rindlər rəqsə gəlib türfə qiyamət görünür.
Seyyida, müxtəsər et, eyləmə tətvili-kəlam,
Yenə şerində sənin özgə kinayət görünür.

## HƏSƏN BƏY NƏBİBƏYOVA

*Qəsidə*

Eydi-novruz mübarək ola, ey yar, sənə!
Yar ola mərhəməti-qadirü qəhhar sənə!
Edər amadə güli-alı nisar etmək üçün,
Gülrüxüm, aşiq olub gülşənü gülzar sənə.
Bağban görsə səni bağdə, öz güllərini
Edəcək cümlə nisar, ey güli-bixar, sənə.
Bağbandan eşidib nərgisi-məstin vəsfin,
Göz açıb, aşiq olub nərgisi-bimar, sənə.
Təbleyi-ud nə əttar səpir ətri-gülab,
İstəyir kim, özünü oxşada əttar sənə.
Eydi-novruzdur, iç badeyi-gülfam, ey gül,
Ta verə özgə səfa badeyi-gülnar sənə.
Saqiya, ver meyi-gülgün ki, qəmim oldu ziyad,
Ta ki izhar eləyim bir neçə əsrar sənə.
Dəhəni-yarı tutub dün gecə mən, ey saqi,
Dedim:-Ey müğbeçə, bir məxfi sözüm var sənə.
Dedi: - Söz məxfi olanda olur ol sözdə qərəz,
Bilirəm, söhbəti-məxfidə qərəz var sənə.
Hiç şəkk yoxdu ki, şeytanə olur yar mələk,
Bu gecə xəlvət ara olsam əgər yar sənə.
Tovluyursan məni şeytan kimi yüz hiylə ilə,
Layiqi var ki, desəm mürşidi-əşrar sənə.
Qoymusan aduvi Seyyid əbəs, ey naseyyid,
Demərəm nəsli-şəhi-Heydəri-kərrar sənə.
Məşrəbin badədi, həmdəm sənə daim sadə,
Lənəti-həqqdir əlbəttə səzavar sənə.
Tüpürür ərseyi-məhşərdə Məhəmməd üzüvə,
Deməz övlad o gün Əhmədi-Muxtar sənə.
Əlüvə düşsə kəsərsən son imamın başını,
Tapşırıb mənsəbini Şümri-sitəmkar sənə.
Nə siyamü nə səlatü nə qiyamü nə qüud,
Nə sücudü nə rükuvü nə bir əzkar sənə.

Atmısan məzhəbi, tərk eyləmisən iymanı,
Layiqi yoxdu ki, qismət ola zünnar sənə.
Yaraşır luti Çərəngi kimi dünbək çalasan,
...burcudasan, əl çala hüzzar sənə.
Sənətin yoxdu sənin şer deməkdən özgə,
Mayeyi-fəxr olub şiveyi-əşar sənə.
Əhli-Şirvan səni idbar bilirlər, amma
Olmuyur hiç bu əhvaldə bir ar sənə.
Səni göz yaşı kimi saldı Həsən bəy gözdən,
Sud verməz dəxi bu dideyi-xunbar sənə.
Tutma tacirlərə ümmid, bez ölçəndü bular,
Qıymaz əlbəttə bir arşın bezi tüccar sənə.
Ehtiyacə birinin yanına getsən deyəcək,
Mərdi-təmanaü dəni, fasiqü füccar sənə.
Dövləti çoxdu bizim şəhrdə Mahmud ağanın,
Öləsən, bir qəpiyin verməz o sərkar sənə.
Ağ... olsa, gəlir neçə qara pul əlüvə,
O zaman eylər ağa hörməti-büsyar sənə,
Kim çatıb xeyrə bu Şirvanda Aleksan bəydən?
Xeyri qoy, şükr elə kim, etməsin azar sənə.
Çox ağırdır işi Hacı Əli Abbas bəyin,
Qəht olub dəhrdə bir mərdi-səbükbar sənə.
Sənə yox Molla Məcidin kərəmü ehsani,
Eyləyir quru-quru məcdini izhar sənə.
Əl tutan bircə Şəmaxidə Əli bəydi genə,
Çünki hərdəm bir onun mərhəməti var sənə.
Bir də mövladı sənə Hacı Ağa Seyyid Əli,
Odu bazari-məhəbbətdə xəridar sənə.
Bu iki taciri xaric eləyəndən sonra
Söyləyir əbli-Şəmaxi hamı murdar sənə!
Şəhri-Şirvandan o gündən ki, Həsən bəy getdi,
Bəxş edən yoxdu dəxi dirhəmü dinar sənə.
Bir çuxa eyləmədi kimsə sənə bəzlü əta,
... üryandü, verən olmadı şəlvar sənə.
Bilmədi bir para nadan Həsən bəy qədrin,
Yarüvü eylədilər aqibət əğyar sənə.

Şehri-Şirvanı edib tərk, oturdu Bakıda,
Əli çatmır dəxi ikram edə hər yar sənə.
Keçir övqati onun Mehri-Əli bəylə dəxi,
Bir də müşküldür ola həmnəfəsi-car sənə.
Bala oyna, çala gər dünbəyin Ambarsun bəy,
Nəyə lazımdı desin nari-bədənnar sənə.
Ceneral-konsul ilə həmdəm olan kimsə, dəxi
Həmdəm olmaz biri, ey zari-diləfkar, sənə!
Zayiri-Məşhədi-mövladu Məhəmməd Sadiq,
Verəcək, əbd eləyib, qır əvəzi qar sənə.
Seyyida, pərdəni çox açma, işi faş eləmə,
Tən edər, məst bilür arifü huşyar, sənə!
Hamidan arifü huşyar Həsən ağadır,
Edir agası kimi mərhəmət izhar sənə.
Təqiyev aclıq ilində sənə ənam eiəyib,
Qıl duasın ki, onun mərhəməti var sənə.
Keçən il çay ilə qənd etdi əta Mehrəli bəy,
Yenə göftan olur, qorxma, şəkərbar sənə.
Gərçi çarşənbələrin çayü yemişsiz keçdi,
Bəsdir ol mahi-fələk şəmi-şəbi-tar sənə.
Bayram axşamı alıb nisyə yemiş işrətlə,
Borcuvu göndərir ol mahi-kərəm var sənə.
Qorxma, aləmdə Həsən bəy sənə imdad eylər,
Razı olmaz ki, yetə xiffəti-büsyar sənə.
Ey Həsən bəy, həsənül-xülq, nəcibül-əhval,
Bir oğul etsin əta həzrəti-səttar sənə!
Görmədim bir kişi Şirvanda səndən qeyri,
O səbəbdən bilirəm mədhi səzavar sənə.
Türki yazdım sənə əşan ki, hali olasan,
Elədim dərdimi filcümlə mən izhar sənə.
Bundan artıq desəm əbvalımı tab eyləməsən,
Ey kərəm kanı, rəva görmədim azar sənə.
Arifü kamilə açmaq sözü lazım gəlməz,
Eyləyib zehn əta həzrəti-davar sənə.
Mətləbim eyd üçün olmuşdu mübarəkbadi,
Səbəb oldur yazıram bir neçə əşar sənə.

Barilaha, bu sifət çox görəsən bayrami,
Harda olsan bu zəmanə ola gülzar sənə!
Yarü əvanın ilə eyşü səfa eyləyəsən,
Verə saqi qədəhi-badeyi-gülnar sənə!
Necə ki, öylədü eyhamımı dərk etsən əgər
Rəbbi-izzət eləsin düşmənüvü xar sənə!

## HƏSƏN BƏY NƏBİBƏYOVA

*Tərkibbənd*

Gətir, saqi, qədəh kim, mövsümi-işrət hüveydadır,
Gəlir novruzi-sultani, bahari-aləmaradır.
Gəlir ol fəsl kim, gülşəndə cənnət aşikar olsun.
Deyərsən sünbüli-pürtablər giysuyi-huradır,
Açılsın laləvü gül bağü dağə yüz səfa versin,
Zəmani-seyri-bağü mövsümi-gülgəştü səhradır.
Çəmən əmvatini badi-səlıərgahi qılır zində,
Dəmi-badi-səhər, guya ki, ənfasi-Məsihadır.
Gəlir ol fəsl alsın lalə dəstə sağəri-mərcan,
Sanırsan bülbülü sərməstü rindi-badəpeymadır.
Gətir, saqi, meyi-gülgün ki, gəldi mövsümi-işrət,
Dəxi bundan sora bülbül gülün vəsfində guyadır.
Vəkəlla, haşəlillah, bülbül etməz vəsf gülzarı,
Təsəvvür etmə bülbül madihi-gülbərgi-rənadır,
Nədir gül kim, onu gülzardə vəsf eyləsin bülbül,
O zarın vəsfi-güldən məqsədi bir zati-valadır.
Edər bülbül o zati vəsf kim, aləmdə ol təkdir,
Həsən xəlqü, həsən xülqü, həsən namü Həsen bəgdir.
Gəlir, saqi, şərabi-nabı kim, fəsli-bahar oldu.
Açıldı laləvü gül, bağü səhra taləzar oldu.
Gəlibdir zabili-gülşəndə bülbül şurü qovğayə,
Sədayi-nəğmədən məmlüvv bu firuzi Həsar oldu.
Müvaliflər müxaliflərlə gəlmiş cəng üçün, saqi,
Bəyat ilə oxur əbyat bülbül, özgə kar oldu.
Kəmani-Rüstəmi qövsi-qüzehlər aşikar etmiş,
Zimistan münhəzimçün ləşkəri-İsfəndiyar oldu.
Əbülçəpvar fəsli-dey bir ahəngi-çəp etmişdi,
Qədini sərv edibdir rast, dilkəş ruzgar oldu.
Əşirani-gül olmuşdu pərişan səhni-gülşəndə,
Yenə cəm oldular, düşmən şükuhi tarümar oldu.
Nəkisavar qümri nəğmə eylər sərvi-rənadə,
Nəvayi-Barbüd səlsəl dəmindən aşikar oldu.

Səhər gülşəndə guş etdim bu beyti ləhni-bülbüldən,
Hazaran şövq ilə xürrəm dili-ümmidvar oldu-
Ki, yarəb, dari-dünyadə Həsən bəy kamkar olsun!
Onun seytü cəlalı dəhrə xurşid-iştihar olsun!
Bülurin camə tök, saqi, şərabi-nabı minadən,
Münvər eyle Turi-məclisi nuri-təcəlladən.
Deyir Musayi-dil: "Anəstü narən" lütf qıl, saqi,
Göründü nuri-iyzəd çeşmimə sinayi-Sinadən.
Xitabi-"lən tərani" rəmzinə ləb açma, ey saqi,
Məni qıl şadü xürrəm röyəti-rəbbi-təalədən!
Çəmalüllahı görmək istərəm ayineyi-meydən,
Məni məhrum qılma, saqiya, bu feyzi-üzmadən.
Demişdim içmənəm mey, saqi, gəldi novbahar axir,
Şikəst olmaq bu tövbə yaxşıdır, yüz fikri-təqvadən.
Hədis ilə mey içmək baği-cənnətdə həlal olmuş,
Deyildir sahəti-gülzar kəm, firdovsi-əladən.
Bizə mey vədəsin gülzari-cənnətdə verir vaiz,
Nə hasil nisyə sözdən, nəqd xoşdur eyşi-fərdadən.
Bu mövsümdə o kəs kim, badə içməz səxt qafildir,
Dili-agahımın sən feyzini artır cami-səhbadən-
Ki, ta sərməst olub vəsf eyləyim ol zati-valanı,
Həsən tinət Həsən bəy kim, yetirmiş feyzə dünyanı.
Şəmaxidən səfər etmiş əgərçi xeyli müddətdir,
Diyari-Badikubə feyzi-didarilə cənnətdir.
Düşübdür qamətindən ta o gimdən kim, cüda könlüm,
Mənə hər gün Şəmaxi dərdi-firqətdən qiyamətdir.
O gündən kim, gedibdir ol fələk-şövkət Şəmaxidən,
Mədarım ahü əfqandır, işim rəncü riyazətdir.
Dəxi bir kimsə yoxdur kim, səxa göstərsin, el tutsun,
Gedibdir sahibi, dildə qalan nami-səxavətdir.
Müxəmmərdir dərü divan Şirvanın xəsasətdən,
Qəribə şəhri-virandır, əcibə bəd vilayətdir!
Nəzər min yanə qılsan, qöftguyi-föhşi-bicadır,
Güzər hər bəzmə etsən, qeybətü büxlü ədavətdir.

Bu büxlü bu həsəd, bu göftgu bikarliqdandır,
Məcalı qeybətə olmaz o kəs kim, əhli-sənətdir.
Zinavü qeybətü böhtan bu qövmi-şumə məzhəbdir,
Yemək mali-yetimi bunlara dinü şəriətdir.
Bu qövmi-bədnihadm var içində əhli-dil tək-tək,
Və lakin bu yəqindir ki, o da olmaz Həsən bəg tək.
O da getdi Şəmaxidən, dəxi zövqü səfa getdi,
Yuzi xarşid idi, çün getdi, gözlərdən ziya getdi.
Deyirlərdi gedib dövlət Şəmaxidən, inanmazdım,
Yəqin etdim o gündən kim, o, dəryayi-səxa getdi.
Qalıbdır damənim dəstində bu qövmi-cəfakarm,
Mürüvvət aləmi teyy oldu, sultani-vəfa getdi.
Dəxi fülki-ümidim qərq olur dəryayi-ənduhə,
Qoyub dəryayi-qəmdə çün məni ol naxuda getdi.
Hər il novruzdə ondan gəlirdi lütfü ehsanlar,
Driğa ki, o bəxşayişlər, ol lütffi əta getdi.
Əli seyyidlərin qoymında qaldı dərdü möhnətlə,
Kərəmlə əl tutan ol sərvəri-müşgülgüşa getdi.
Zənanə dövrü oldu sanki ol mərdanələr dövrü,
Məgər kim, dövrdən, ey dil, Əliyyül-Mürtəza getdi.
Həsən bəy getməyini sanma kim, bir əmri-asandır,
Şəmaxi düşdü dövlətdən ki, ol mürği-hüma getdi.
Driğa dərd kim, getdi Şəmaxidən səxa kani,
Yetim oldu zəmanə möhnətiylə əhli-ürfani.
Gəlir novruzi-sultani, mənim, ey dil, dəmağım yox!
Əlimi yoxdu bir kimsə tutan, əldə əyağım yox.
Çəmənlər cənnəti-mövudə dönsə, seyri-bağ etməm,
Gülüstan seyrinə başın üçün bülbül, ayağım yox,
Mənim bağım, baharım, sünbülüm, sərvim Həsən bəydir,
Xəyali-sünbülü sərvim, baharü meyli-bağım yox.
Nədibdir* kim, o sərvin laleyi-rüxsarı hicrindən

---

* Nə edibdir.

Bəsani-daği-lalə sinəm üzrə tazə dağim yox.
Bürəhno şaxlər, novruz aldu, geydi xələtlər.
Bürəhnə bir mənəm aləmdə, şalvarım, papağım yox.
Büsati xali gördü dilbərim nuri-münəqqadən,
Xəyali-bazidən ğeyri bu məhfildə qonağım yox.
Şəbi-çərşənbələrdə rövşən etdi şəmlər mərdüm,
Yanan bu rişteyi-canımdan özgə bir çirağım yox.
Kimin əltafına təkyə qılım, ey saqiyi-gülrüx?
Gedibdir təkyəgahım, qibləgahım, bir dayağun yox.
Həsən bəydən sora mən neylirə bu cism ilə canı?!
Alıbdır canı cisimdən o şahın dərdi-hicranı.
O gün olsun ki, ya rəbbim, səfərdən dilbərim gəlsin,*
Sərim şuri, gozüm nuri, o mahi ənvərim gəlsin!
Məzaqi-cani-şirinim olubdur təlx hicrindən,
Açılsın karivani-Misr, kani-şəkkərim gəlsin!
Hümayi-övci-izzət getdi, çün balü pərim sındı,
Gəlib ol şahbazım, tazədən balü pərim gəlsin!
Düşüb zülmati-fəqr içrə konül təngə Sikəndər tək,
Yetışsin dadıma Xızri-səxa, ol rəhbərim gəlsin.
Qalıb biyarü yavər vadiyi-heyrətdə canü dil,
Nicat üçün xudavənda, o yarü yavərım gəlsin!
Ənırim, karivanım, qəhrəmanım, rişteyi-canım,
Pənahım, şahü mahun, dadxahım, davərim gəlsin.
Mənə kövsər şərabı, məclisiydi bağİ-rizvanım,
Açılsın babi-cənnət, camə abi-kövsərim gəlsin.
Tülu etsin yenə bürci-şərəfdən ol məhi-taban,
Münəvvər eyləsin çeşmi, o rövşən əxtərim gəlsin.
O məh şehr içrə olsaydı, işim nöqsanə dönməzdi,
Tutulmazdı dili-pürxün bu gunə qanə dönməzdi.

---

* Tərkibbəndin bu son bəndində şair öz qəzəlindən istifadə etmiş, iqtibaslar vermişdir.

## HƏSƏN BƏY NƏBİBƏYOVA

*Qəsidə*

Eyddir, fəsli-gülüstan olur, inşaallah!
Mövsümi-sünbülü reyhan olur, inşaallah!

Yenə güllər açılır bağdə xirmən-xirmən,
Lalələr atəşi-dehqan olur, inşaallah!

Zülfi-hura kimi sünbül açılır gülşəndə,
Bağlar rövzeyi-rizvan olur, inşaallah!

Bülbülim hasil olur dövləti-güldən kami,
Dövləti-vəsl nümayan olur, inşaallah!

Bağdə zahir sərvəti-Azarü Əyaz,
Bəd əz an dövləti-nisan olur, inşaallah!

Bülbül eylər gülü tövsif gülüstan içrə,
Sərvdə qümri qəzəlxan olur, inşaallah!

Seyri-gülzarə çıxır sirabədən gülrüxlər,
İşrətü eyş firavan olur, inşaallah!

Olmadı gərçi zimistanda mənim bir fərəhim,
Könlümüz bağdə şadan olur, inşaallah!

Gər Həsən bəy eləsə lütf bizə, ey saqi,
Sağərimdə meyi-rümman olur, inşaallah!

O Həsən bəy həsənül-xülq, bülənd-əxtər kim,
Düşməni xak ilə yeksan olur, inşaallah!

Düşməni-cahi onun gülşəni-bəxtini görər,
Qönçə tək bağrı onuu qan olur, inşaallah!

O, bu il uşkolanın əmrinə əncam eylər,
Lütflə silsiləcünban olur, inşaallah!

Şiəvü sünni olur cəm bu kari-xeyrə,
Qərəz ərbabi pərişan olur, inşaallah!

Eləyər səy səadətlə işə Hacı Səid,
Karımız məfxəri-sədan olur, inşaallah!

Var ümidim ki, Ədil bəy edə ədl ilə əməl,
Feli öz isminə bürhan olur, inşaallah!

Edəcək himməti-şahanəni Sultan Məhmud,
Bəxt təxtində o sultan olur, inşaallah!

Var ümidim ki, Məcid eyləyə lütfün zahir,
İşə bir növ ilə saman olıır, inşaallah!

Görürəm himmətini Hacı Əli Abbasın,
Dəxi əmniyyəti-Şirvan olur, inşaallah!

Əli bəy eyləsə bir lütf əla rəğmi-həsud,
Hasidin mənzili niran olur, inşaallah!

Həqq edə ömrünü əfzun Məşəd Zeynalın,
Himməti işdə nümayan olur, inşaallah!

Hacı Mehdilə bizə Məşhədi Kazım bəydən
Yenə bəxşayişü ehsan olur, inşaallah!

Ey Həsən bəy, qərəzim gərçi deyildi bu kəlam,
Nəzmdir, mətləbə ünvan olur, inşaallah!

Qərəzim yazmaq idi hali-dili-zar sənə,
Yenə filcümlə nümayan olur, inşaallah!

Tövsəni-təb ləcamidir əlimdə möhkəm,
İstəsəm hər yana cövlan olur, inşaallah!

Eyddir, Seyyidi-düxəstəyə eydanə gərək,
Himmətin dərdinə dərman olur, inşaallah!

Neçə çərşənbə yemiş almamışam, həqqi budur,
Almasam bu gecə də qan olur, inşaallah?!

Gər xoruz bannamasa, sübh məgər açılmaz?
Açılır sübh, obaşdan olur, inşaallah!

Xüşkbar olmasa, bayram gecəsi yanmasa şəm,
Ay, ulduzla çirağan olur, inşaallah!

Seyyida, qorxma, dəxi yazmısan əhvalı bəyə,
Sənə əltafi firavan olur, inşaallah!

## HƏSƏN BƏY NƏBİBƏYOVA

*Qəsidə*

Saqiya, novruzdur üz verdi yüz behcət mənə,
Sağərə tök badeyi-gülgunu, qıl şəfqət mənə.

Şükrlillah ölmədim, çıxdım bahara, saqiya,
Lütfi-xaliqdən müyəssər oldu bu dövlət mənə.

Gərçi yoxdur mülkü malım, dövlətim, simü zərim,
Təndürüstəm, hiç yox əmrazdən illət mənə.

Nüktəsəncü bəzləguyü nikxuyü xoşzəban,
Vardır hər gecələr bir neçə həmsöhbət mənə.

Başın üçün, saqiya, dur, tök əyağə badəni,
Məst olum, huşyarlar çəksin bu gün həsrət mənə.

Şaxlər yaşıl vərəqlərdən geyindi xələtin,
Gərçi mən bibərgü barəm, yoxdu bir xiffət mənə.

Var ümidim ki, Həsən bəy görsə bu əşarımı,
Tikdirə novrazəcən ziba olan xələt mənə.

Ol Həsən bəy kim, onun çox görmüşəm ehsanını,
Hamıdan əfzun Şamaxıda edib hörmət mənə.

Çox fəqirin lütfü ehsan ilə tutmuşdur əlin,
Bu sözün isbatına vardır neçə hüccət mənə.

Eylədi hər il müsəlman məktəbiyçün lütflər,
Gərçi axırda o məktəb olmadı qisməl mənə.

Eylədi aclıq ilində çox gözəl əncamlər,
Söyləyirdi, xəlq zəhmətdə, nədir rahət mənə?

Un çəkib bikəslərə verməkdə bir əllafdən,
Üz veribdir görcək ol halətdə yüz heyrət mənə.

Kimdən aldı min manata qədri məktəbçün kömək,
Bir sözüm böhtan isə, etsin hamı lənət mənə.

Söz sözü çəkdi, uzandı mətləb, ey valagühər,
Gərçi bu iradlər hərgiz deyil hacət mənə.

Ey qələm, açma zəbani-pürfəsahət şerdə,
Ey qələm, lal ol ki, düşmənlər verir zəhmət mənə.

Ey qələm, təhrir edib hər sirri sən faş eyləmə,
Ey qələm, vermə mətalib kəşfinə cürət mənə.

Qoy sözü qalsın, Həsən bəy mədhinə eylə şürür
Olma küfran əhli, təğyir olmasın nemət mənə.

Bir neçə həftə əgər naxoş idin ol evdə sən,
Üç kərə gəldinı, vüsalın olmadı qismət mənə.

Böylə fikr etmə ki, bəndə xidmətində qasirəm,
Bəndeyi-dərgahınam, səndəndi bu rüfət mənə.

Eyləməzsə səhhətünçün gər duayi-xeyrlər,
Bir mərəzdən verməsin bari-xuda səhhət mənə.

## HƏSƏN BƏY NƏBİBƏYOVA

*Qəsidə*

Ey Həsən bəy, həsənül-xülq, rəfiül-əxlaq,
Şəxsi-əvvəl ki, sənə yoxdu cahanda sani.

Dəri-ehsanüvə möhtac ümumən fuqəra,
Sənsən aləmdə olan lütfü səxavət kani.

Əhli-Şirvani bu il lütf ilə ehya elədüz,
Həqq qəbul eyləyə aləmdə belə ehsani.

Füqəralər hamı sidq ilə duagudü sənə,
Həq sənin zəhmətüvü etməyə, ya rəb, fani!

Həm bədən zəhməti var, həm dəxi puldan keçmək,
Həcci-əkbərdi bu, ey mülki-səxa sultani.

Tutduğun işdə sənin zərrəcə nöqsanın yox,
Kim pəsənd eyləməsə, əqldə var nöqsani.

Leyk səndən gileyim var, oya kani-səxa,
Gor qəbul eyləyəsən, ərz qılım mən ani.

Bir tağar buğda Kərim boy dəxi eylərdi bərat,
Əzqəza olmadı bu il işimin samani.

Bir tağar buğda hər il Hacı Əli Əkbər bəy
Mənə eylərdi əta, kəsdi həq ol ehsani.

Gah Tiflisə yüyürdüm, gəhi çapdım Bakıya,
Qoydu avarə bu gərdım məni-sərgardani.

Cəm edib murü mələx cümlə il azuqəsini,
Hərə öz dərdinə bir növ tapıb dərmani.

Bir tağar, iki tağar xəlq yığıb azuqə,
Kimi anbarını doldurdu, kimi ənbani.

Məni bazarə edib gərdişi-gərdun möhtac,
Oldu sərmənzilim əllaflərin dükkani.

Sarı buğda unu aldımsa da, arpa çıxdı,
Eylədim gündə bir əllaf ilə mən dəvani.

Əzqəza durdu dəyirman, kəsildi çörəyim,
Evmizin oldu dəxi cəftə unundan nani.

Amma nə cəftə unu, təmi acı, zəhr kimi,
Qismi-səyyüm ki, yeməzdi onu çöl heyvani.

Sanki əzvay idi hər bir tikəsi ol çörəyin,
Saldı ishalə uşaqları çıxıb

Evimiz bir, iki, üç həftə çörəksiz qaldı,
Gah bişirdik noxudu, gah yedik lobyani.

Qanını şişəyə tutdu fələk ol tiflərin
Ac qalıb qaçdı uşaqlar dodağının qani.

Gecələr nəql dedim körpə uşaqlarım üçün,
Nisyə sözdən nə bitər, çeynədilər yorğani.

Gördüm axundlara bəxşayiş olub cəftə unu,
İftaroy sort ki, vardır yeməyə imkani.

Özümü alimü seyyid biliben fəxr etdim,
Fikr qıldım ki, mənə artıq olur ehsani.

Demə bunlar məni Şümr oğlu bilirmiş, heyhat!
Nə münasib ki, sərəfraz edələr Mərvani.

Bu çilenlər ki, bizim vardır, inşaallah,
Tez çıxar üç manata buğda unun batmani.

Birisi var ki, təmənna edir ağsaqqallıq,
Mən onun rişi-səfidinə olum şeytani!

Mehdiyi-əsr bu günlərdə zühur etsə əgər,
Minməz öz eşşəyini, ona qoyar palani.

Hacı Möhsün bəyə lazımdı ki, ehsan eləsin,
Çün öz ismində müşəxxəsdi bu rəmzi-sani.

Əli bəydən nə deyim, çoxdu şikayət ondan,
Hiç ol gözləməyir nəsli-şəhi-Mərdani.

Hacı Mehdi bəyə tari özü versin insaf,
Bircə salmır yadına Seyyidi-sərgərdani.

Səfər oğlu Hacı Mehdi Bakıya etdi səfər,
Saldı dəryaçəyə zövrəq buraxıb yelkani.

Bakıya getmiş idi ta unu təhvil alsın,
Yollasın tez ki, ucuzluq eləsin Şirvani.

Keyfə xərç eylədiyin qoydu un üstə hacı,
Mərhəbalər ki buna, kamil imiş iymani!

Heyf ol Hacı Üveysdən ki, qoşulmuş bulara!
Çünki bunlarda tapılmaz rəvişi-ürfani.

Eylədi Hacı Üveysi-Qərənin ruhunu şad,
Gəldi felindən onun rayiheyi-rahmani.

Bunların vəsfi hələ sonraya qalsın Seyyid,
Hələ sən dordüvü yaz, təbüvə ver cövlani.

Sahiba, şükr ki, on iki manatım var idi,
Götürüb xidmətüvə şövq ilə gəldim, ani.

Dəri-anbar güşad idi səxavət, ey bəy,
Torbalarda gorüb un şövqə gətirdim cani.

Bir meşok un tələb etdim ki, əta eyləyəsiz,
Qurtaram ta qəm əlindən bu dili-virani.

Gəh mənə yarma həvalə elədin, gah köpək-
Ki, yeməzdi onu ac qalsa yüz il, moltani.

Üstümü unnu görüb, sanma dəyirmançı məni,
Aç bəsirət gözüvü, ləli xəzəfdən tani!

Gərçi zahirdə fəqirəmsə, qənidir təbim,
Bu gədalıqda pəsənd eyləmənəm sultani!

"Fəqr fəxrimdü" o gündən ki, deyib peyğəmbə
Bilmənəra zərrəcə dünyanı və mafıhani.

Mən ki ənqa kimİ bir qafi-qənaətdi yerim,
Neylirəm cifeyi-rəmz üə belə dünyani?

Kişi namərd ətəyin tutmayıb, ölmək xoşdur,
Çünki namərddə yox bəzlü əta imkani.

Mən səni mərd bilib xidmətüvə gəlmiş idim,
Fərz qıldım ki, Həsən bəydə olur bəy qani.

Mən belə fərz qılırdım ki, yaman gündə mənə
Əl tutarsan, dəxi bu cismə verərsən cani.

Mən belə fərz qılırdım ki, işim düşsə sənə,
Tərk edib öz işüvü, sən bitirərsən ani.

Heyf, ol zənn ki, mən eyləmişəm,-batil imiş!
Çəkdim ol hərflərə indi xəti-bütlani.

Gərək onda mənə sən çarə qılaydın, ey bəy,
Gör unun on manata olsa idi batmani.

Əlli ildə belə il dəhrdə bir dəfə düşür.
Çərx daim eləməz zillət üçün dövrani.

Qış gedər, yaz gəjər, laləvü güllər açılar,
Bağlər zahir edər sərvü gülü reyhani.

Gün həmişə bulud altında nişimən qılmaz,
Əbrdən ta ki çıxıb dəhri qılar nurani.

Daima guşeyi-zindandə qalmaz Yusif,
Aqibət təxtə çıxıb tərk qılar zindani.

Bu yaman gündür, əzizim, bunun
Ömrü az olar, Bu deyil Nuhi-Nəci ömr eləsin tulani.

Səni tari, özün insaf elə, bir mən kimi şəxs-
Ki, fəsahətdə nıərie xəlq deyir Xaqani,

Sən təki bəy ona bəd gündə əlac eyləməyə
Dəxi çıxmazmı göyə ahi-dili-suzani?

Gər mənim şikvəmi konsul eşidə, ya ki bilə,
Sənə əlbəttə məzəmmət yazacaq tulani.

Seyyida, bəsdi şikayət, sözü itmamə yetir,
Bundan artıq dəxi incitmə bəyi-zişani.

Həq-təala eləsin ömrünü daim əfzun,
Kəsməsin lütfünü ondan kərərm-rəbbani.

Eləsin tari ona bir vələdi-saleh əta,
Halına şamil ola mərhəməti-sübhani.

Mumya istəmə minnətlə cahan əhlindən,
Səbr qıl möhnətüvə, saxla şikəst əzani.

## RZA BƏY ƏFƏNDİZADƏYƏ

*Qəsidə*

Saqiya, şad ola ta ruhi-Fəlatun ilə Cəm,
Xümi-meydən mənə bir cami-şərab eylə kərəm.

Kərəm et yadi-Skəndərlə mənə sağəri-mey-
Ki, tutubdur könül ayinəsini zəngi-ələm.

Ələmü qüssəvü ənduhə dəvadır meyi-nab,
Meyü nab ilə olub rəf könüldən qəmü həm.

Həmmü qəm dəfinə mey sağəri bİr ayətdir,
Ayeyi-arizi-ol dilbəri-zibayə qəsəm.

Sanma kim, eyləmişəm tövbə meyi-əhmərdən,
Bu səbəbdən ki, mənə hasil olub tövfi-hərəm.

Tutmuşam tövfi-hərəmdən sora mən, ey saqi,
Tazədən piri-müğan damənini müstəhkəm.

İndi xalın həcərimdir, səri-kuyin Ərəfat,
Qaşların taqi mənə qiblədi, camın Zəmzəm.

Görmədim Kəbə təvafında səfayi-batin,
Yenə meyxanədədir zevqü səfayi-aləm.

Bundan əqdəm ki, məqamım səri-meyxanə idi,
Yox idi cümleyi-aləmdə mənə möhnətü qəm.

Keçinirdi günüm asayiş ilə aləmdə,
Var idi hər gecə camımda şərabi-Dərğəm.

Mehrü meydən mənə hər sərvqədü qönçədəhən,
Həmdi-meydən mənə hər lalərüxü İsadəm.

Mənzilim guşeyi-meyxanədə bir cənnət idi
Ki, mənə, görsə idi rəşk aparardı Adəm.

Leyk bir şəxs* məni məkr ilə yoldan çıxarıb,
Necə kim, Adəii şeytan edib afzun ilə dəm,

Etdi yüz hiylə ilə dur məni meykədədən,
Eylədi Kəbə təvafında özüylə həradəm.

Gətdi yollarda mənim başıma yüz gunə bəla,
Qüssədən axın sədparə könül tapdı vərəm.

Niyyəti şöhrət imiş kim, ona "haci" deyələr,
Qoymuyubmuş deme məlun yola sidq ilə qədəm.

Mənə bir növ hükumətlər edirdi billah-
Kim, onu eyləməyib Şamdə Mərvani-həkəm.

O cəfalər ki, mənə Şamdə etdi o şərir
Əhli-beytə o qədər eyləməyib Şümr sitəm.

Leyk səd şükr ki, bir növ ilə çatdıq vətənə,
Oldu vəsli-rüxi-dildar ilə könlüm xürrəm.

Kərçi müddətdi ki, bu şəhrdə sərgərdanəm,
Olub övzai-fələkdən səri-karım dərhəm.

Nə bəyan etməyə var halımı bir yarü rəfiq,
Nə büruz etməyə əhvalımı var bir məhrəm.

Bir quru hacilik ismiylə qənaət nə edim?
Gətir, ey saqiyj-gülçöhrə, mənə sağəri-Cəm!

Tərdəmağ eylə məni badeyi-gülfaram ilə,
Oluban məst, eləyim kəşf rümuzi-mübhəm.

---

* Şamaxılı Əliabbas bəyə işarədir.

Ta Əfəndi ola müstəxbiri-hali-zarım,
Eyləyim nəzm ilə keyfiyyəti filçümlə rəqəm.

Ol Əfəndi ki, vüçudi şərəfi-aləmdir,
Misli nayabdü bu şəhrdə manəndi-ədəm.

Ol Əli namü Riza-helmü Məhəmmədzadə-
Ki, səxasından olub tazə rüsumi-Hatəm.

Vəsfi-ətvari-pəsəndideyi-zatından onun
Gərçi acizdi fəsahətlə zəban açsa qələm.

Leyk bu təbi-qəsir ilə məni-sərgəştə
Ərseyi-mədhdə cövlanə gətirdim ədhəm.

Rayizi-əql tutub səxt inani-təbim,
Dedi kim, açma bu meydanda təkapuyə qədəm.

Könlü bir cami-cahanbindü kim, ol cövhərdə
Cümlə zahirdir ona səndə olan keyf ilə kəm.

Seyyida, müxtəsor et, eyləmə tətvili-kəlam,
Gərçi dövran eləyib xaneyi-eyşin bərhəm.

Şərhi-halın bu qədər bəsdi, kifayət eylər,
Zati-pakidir onun külli ümurə ələm.

## RZA BƏY ƏFƏNDİZADƏYƏ

*Məsnəvi*

Səlam olsun sənə, ey yari-cani,
Salan gözdən məni-bixanimani.
Əzizim, mehribanını, tacdarım,
Əla ey qəm günündə qəmküsarım!
O gündən ki, sən etdin tərki-Şirvan,
Olubdur firqətində bağrımız qan.
Çıxıb bu mülkdən sən gərçi getdin,
Vəlakin mənzilı-məqsudə yetdin.
Sən etdin sahəti-Tiflisi məva,
Nə Tiflis, ol diyari-cənnətasa;
Nəsimi buyi-cənnətdən müəttər,
Zilali-pakı rəşki-abi-kövsər,
Kəminə kuçəsi firdovsi-əla,
Nişiməngahi-səd ğilmanü hura,
Dəri-meyxanələr daim güşadə,
Mühəyya hər tərəfdə camü badə.
Nə badə, əşki-Məryəm tək müsəffa,
Nə badə, çün dəmi-paki-Məsiha.
Nə müstəhsən əməl tutdu müvafiq-
Ki, oldun cənnətü firdovsə layiq.
Biz axir bir gülüstanın gülüydük,
Nə yerdə bir gül olsa bülbülüydük;
Biz iki məğz idik bir pust içində,
Nəziri yox rəfiqü dust içində;
Çəragah eyləyib bir səbzəzarı,
İçərdik şərbəti-bir çeşməsarı.
Fələk axır salıb firqət arayə,
Bizi saldı qəmü dərdü bəlayə.
Fərəhnak ol, əzizim, bu səfərdən,
Qutardın sən həqiqətdə səqərdən.
Xüsusən ol əzizi-ərşpayə,
Salıbdır başüvə lütf ilə sayə.
Götür əl ruzü şəb şükri-xudayə-

Ki, mis tək yetdi cismin kimyayə.
Gühər istərdin, axır kanə yetdin,
Xızr tək çeşmeyi-heyvanə yetdin.
Tutub əldə həmişə nəqdi-canın,
Edərdin xidmətin piri-müğanın.
Müin oldu sənə axırda pirin-
Ki, oldu ol yeganə dəstgirin.
Qəza çəkdi inanın ol diyarə,
Bəlayi-fəqrdən oldun kənarə.
Rizasın gözlə daim ol əzizin,
Ola hərgah təşxisü təmizin.
Məbada olasan küfrani-nemət,
Rizasiyçün onun sərf eylə himmət.
Bəradərcan, Rizadır çünki adın,
Rizasinə riza ol ustadın.
Əgər məndən sual etsən, bəradər,
Olubdur xatirim qəmdən mükəddər.
Nə yarım var, nə cami-xoşgüvarım,
Nə də meyxanələrdə etibarım.
Bizə Şirvan ara qəht oldu bir kar,
Tapılmır bunda bir mərdi-kərəmkar.
Çox etdim dəhrdə hər karə xidmət,
Gəhi xanə, gəhi tüccaro xidmət,
Birindən olmadı rəfi-məlalım,
Keçindi möhnətü üsrətdə halım.
Hər ol bir kimsə kim, əhli-səxadır,
O kəs simürğdür, ya kimyadır.
Tapılmaz mülki-imkanda vücudu,
Bəradərcan, quru adın nə sudu?
Yetibdir qırxa indi sinnü salım,
Budur ancaq cahan içrə xəyalım-
Ki, ömrümdən əgər var isə baqi,
Həmişə yarım olsun camü saqi.
Olub bu xəiqi-aləmdən kənara,
Edim qəm dəfinə sağərlə çarə.
Başımda var şərabi-nab şövqü,
Vəli sənsiz meyi-nabın nə zövqü?

Əgərçi çami-mey rahətfəzadır,
Vəlakin yarsız içmək xətadır.
Ümidim var kim, sağ olsaq, ey yar,
Yetər axır yenə didarə didar.
Edər bir çarə bu hicranə mövla,
Qərəz ki, eyliyəm səndən təmənna,
Mübarək dəstüvə aldıqda xamə,
Yazanda lütf ilə Şirvanə namə,
Qəsəm mövlayə, ey rindi-qədəhnuş,
Xəyalından məni etmə fəramuş.

## RZA BƏYƏ

*Qəsidə*

Gətir, saqi, meyi-gülgun ki, şad oldıım bəşarətdən,
Bilirsən mətləbim məxfi olan rəmzü işarətdən

Cəmali-batinə meyl eylə, zahirdən nədir mətləb,
Kitabətdə qərəz mənadü əlfazü ibarətdən.

Gərəkdir taciri-məna olub dadü sitəd qılmaq,
Əgər məqsudi-tacir nəfdir rənci-tiçarətdən.

Bəyan et mətləbi vazeh dil ilə ta ki, faş olsun,
Nə aiddir kinayətdən, nə hasil istiarətdən?

Şərabi-nabı tök cami-bülurə, ey büti-ziba-
Ki, şayəd xatirini təskin tapa suzi-hərarətdən.

Meyi-təlx ilə şirin eylə gəl ovqatimi saqi,
Qutar bu təlxkami-zəhri-hicrani məraratdən.

Bu gün beytüş-şərəfdən çilvə eylər beyzeyi-beyza,
Yetər əhli-cahanın başları çərxə fəxarətdən.

Bu gün novruzi-soltanımdır, ey sərdəftəri-xuban,
Çıxıbdır padşalıq təxtinə şahım vəzarətdən.

Bu gün ol gündü kim, ərbabi-xeyrin könlü şad oldu,
Çəkibdir nəhsi-əkbər əl bu gün, saqi, şərarətdən.

Hanı mülki-Diməşqi zülm ilə abad edən kəslər?
Nə onlardan əsər qaldı, nə ol mülkü imarətdən.

Hanı- Həccaci-büman, hanı ol zadeyi-Süfyan?
Hanı mülki-cahanda fəxr edən kəslər xətarətdən?

Əgər əbri-siyah olsa hicabi-mehri-nurani,
Qalırmı nəyyiri-əkbər ziyavü istitarətdən?

Məgər gülbündü Məryəm bağdə, ey cismimin ruhi,
Məsihi-qönçəni tövlid edər, düşməz bəkarətdən?

Gəlir lək-lək şimalə, saqiya, lək-lək sürudiylə
Sanırsan haciyi-beyti-xuda gəldi ziyarətdən.

Süleymanə, həqiqət, əhrimənlər asi olmaqçün
Düşərmi nazirən, əhkami-peyğəmbər nəzarətdən?!

Həmişə rəsmdir kim, nur ilə zülmət müqabildir,
Bu məna, saqiya, məfhum olubdur nəssü ayətdən.

Minayi-dairə oldu müzəyyən mərkəzi-həqdən,
Xudaya, düşməsin ol dairə bu istidarətdən!

Yoxumdur bir təqiyyə ta ki məxfi mədh edim şahi,
Gərəkdir kim, oxunsun mədhi-şiri-həq cəharətdən.

Bəsani-mum nərm olmaq rəvadır əhli-idrakə,
Nə hasildir qəlizül-qəlb olan qövmi-həcaərətdən?

Riza bəydir bu qövlün aləmi-mənadə məqsudi,
O kim, mümtazi-aləmdir bu gün əslü nəcabətdən.

Kapitani-mükərrəm, zati əzəm, ələmü əfxəm,
Alıb şəmşirü çinü pensiya fərxəndə dövlətdən.

Hünərlər göstəribdir ərseyi-dəvadə Rüstəm tək,
Olub şayisteyi-ənam asari-rəşadətdən.

Nişani-tuşi-xarakub oldu gərçi əzası,
Alıbdır imperatorun nişanın hüsni-xidmətdən.

Bu gunə xidmət etsin kim ki, eylər şahına xidmət,
Olur əhli-səfa ehsanə vasil hüsni-xidmətdən.

Bu mənsəblə təvazölər qılıb əmsalü əqranə,
Təvazö etmək üçün şahlər düşməz şərafətdən.

Əgərçi dürri-gənci-Gənceyi-pür gəncdir zati,
Vəli bir gənçdir Şirvan ara əsrari-hikmətdən.

Şamaxı ta ki oldu məsqətür-rəsi o zişanın,
Şamaxı fəxr eylər Kəbəyə fəözlü kəramətdən.

İlahi, bu Riza bəy şadkamü kamiran olsun,
İlahi, hifz qıl nuri-dü eynin hər bir afətdən!

İlahi, eylə bu Mahmud ağanı aqibət məhmud,
Onun məhmudlər olsun Əyazi malü dövlətdən!

Bu gün bürci-Həməldən göstərib üz mehri-nurani,
Təcəlla göstərib həq, doldu aləm şurü behcətdən.

Gəlib novruz kim, versin səfalər səhni-gülzarə,
Çəmənlər rövzeyi-rizvanə dönsünlər təravətdən.

Dönə abi-bəqayə cuylər, həm sərvlər xüzra,
Çəmənlər tən edə firdovsi-əlayə qəsarətdən.

Bu gün ol gündü kim, şad oldu ruhi-paki-peyğəmbər,
Bu gün biganələr əzl oldular təxti-xilafətdən.

Yetişdi çün xitabım saqiyi-şəkkərləbü ziba,
Bu gunə etdi izhari-gühər dürci-fəsahətdən-

Ki, ey sərdəftəri-ərbabi-nəzmü nəsr olan
Seyyid, Buyur, nuş eylə sağər badeyi-şahi-vilayətdən.

Mühübbi-Mürtəza, nuş et meyi, üsyan hesab olmaz,
Olur asi o kəs kim, içməyə cami-məhəbbətdən.

Vəli bu göftgunun sirrini eylə mənə rövşən
Görüm kim, bir nə ləzzət görmüsən bu çami-işrətdən?

Dedim: - Ey saqiyi-gülrux, bu gün könlüm ki, xürrəmdir
Bihəmdüllah, qutardı əhli-aləm dərdü möhnətdən.

Nəsib olsun o tifli-novrəsə bir ömri-tulani,
İlahi, düşməsin aləmdə hərgiz istirahətdən!

Əla valagühər, Seyyid sənə yazdı bu əşari,
Təmənnası onun əlbəttə vardır əhli-izzətdən.

Əzəl gündən budur adət ki, hər bir mən kimi şaır
Yazıb əşar, istər kami-dil ərbabi-himmətdən.

Əlin tut Seyyidin bir şəfqət ilə, ey səfa kani,
Ümidim vardır kim, qalmaya zatın səxavətdən.

## MƏŞHƏDİ KAZIM BƏYƏ

*Qəsidə*

Məşhədi Kazım bəy, ey sərxeyi-ərbabi-səxa-
Kim, edibdir himmətin çakərliyə mərhun məni.

Xatirim hər gündə bir ehsanuvun mərhunudur,
Dərk edər hər gündə bir əltafı-gunagun məni

Gərçi biçizəm, vəli sirği-qafı-himmətəm,
Eyləyibdir pərşikəstə çərxi-buqəlmun* məni.

Sahiba, xümxaneyi-çərx içrə mən gümnam ikən
Eyləyibdir himmətin aləmdə Əflatun məni.

Nuri-şəmsi-şəfqətindən ay kimi bədr olmuşam,
Gərçi dövri-çərxi-dun etmişdi kəl-ürcun məni.

Qübbeyi-əflakə yetnıiş Övci-rüfətdən başım,
Eylə dilşadəm ki, tutmaz fəxrdən hamun məni.

Xassə, ey sərvər, Ağa Seyyid Əlinin himməti
Eyləyib guya ki, soltani-bilasağun məni.

Leyliyi-sirri-həqiqətdir o sibti-Müstəfa
Kim, edib hüsni-xisali dəhr-ara Məcnun məni.

Həqq onu xoşhal qılsın, ömrün əfzun eyləsin-
Kim, edib xoşhal o mövla həddidən əfzun məni.

Olmuş idim eylə çirki-məsiyətdən mündəris-
Kim, dəxi pak eyleməzdi əlli pud säbun məni.

Mən o şəxs idim ki, məndən nifrət eylərdi cahan,
Söyləyərdi paklər napakü bəl-məlun məni.

---

* Buqələmun

Şükrlillah olmuşam ta kim, sənaxani-Hüseyn,
Eyləyib xoşbəxti-aləm iyzodi-biçun məni.

Randeyi-dərgah ikən üsyatı ilə iblis tək,
Bəxti-xoşfərcam edib bu dövlətə məqrun məni.

Siz bu il himmət qılıb məscidə iqdam eylədiz,
Etməyə ta xələtü ənam ilə məmnun məni.

Xələti təbdil qıldız pula, ey sahibkarəm,
Böylə fikr etdim ki, bu kəslər edər Qarun məni.

Özlərin altı yazanlar verdi axır üç manat,
Bəzilər kim, verməyib heç, etdilər dilxun məni.

Rabeindən "kəlbəhüm" rəmzilə keçmək yaxşıdır,
İncidib bu əmrdə bu üç nəfər məlun məni.

Bundan əqdəm mən elə napak idim kim, həcvdə
Eyləməzdi pak hərgiz Qülzümü Ceyhun məni.

Təbi-mövzun kim, mənə bir mərhmətdir həqqdən,
Rəşkdən zəmra eyləyir bir parə namövzun məni.

Ruhi-qüdsidən mənə imdad olur vəqti-süxən,
Eyləsə aciz əgər nagah bir məzmun məni.

Səbr övladır, hələ qalsın bu nəqlü macəra,
Ta görək naşad edir, ya şad edir gərdun məni?

Onların övsafim ol vəqt izhar eylərərm-
Kim, gətirsin bir dəmağə badeyi-gülgun məni.

Müxtəsər söz, sahiba, bu işdə məğbun olmuşam,
Eyləyiblər məkr ilə məlunlər məğmun məni.

Kəsməsin həq sayəni hərgiz başından Seyyidin,
Olma razı kim, edə dövri-fəlak məhzun məni.

## HACI MOLLA ABDULLA ŞAHTAXTLIYA

*Qəsidə*

Əla, ey bülbüli-xoşləhcə, Haci Molla Abdulla-
Ki, gülzari-müsibət üz verir nəşvü nüma səndən.

İraqü İsfəhani doldurub avazeyi-fəzlin,
Vərai-Mavəraün-Nəhrə düşmüşdür səda səndən.

Büzürgü kuçigi pürşur edib şuri-humayunin,
Həsari-günbədi-firuzə düşmüşdür nəva səndən.

Dəbistani-kəmalında misali-tifli-əbcədxan
Gərəkdir rövzəxanlar öyrənə məşqi-əza səndən.

Süheyli-övci-izzətsən, bulardır kinnəgi-şəbtab,
Tüluindan yetibdir qətlə övladüz-zina səndən.

Rəvan olmaz, qalır heyrətdə cuy içrə ləmaşadə
Əgər ki, guş edə bir mai-cari macəra səndən.

Sənə Davuddən guya çatıb irs ilə bu həncər,
Vəilla sadir olmazdı bu sövü-canfəza səndən.

Şəhadət zikrin eylərsən bəyan nəssi-kitab ilə,
Odur kim, feyzini kəsməz şəhidi-Kərbəla səndən.

Səni zakirlərin sultanı etmiş həq bu mənadan-
Ki, çatsın feyzə, ey sultani-aləm, hər gəda səndən.

Əzayi-şahi-dini ruhül-ərvah içrə zikr et kim,
Olurlar şadman ərvahi-paki-ənbiya səndən.

Ərəb əbyatını təqrir qıl ləbni-Hicaz ilə-
Ki, ta xoşnud ola xilqətdə ruhi-Mustafa səndən.

Əli övladmın məddahısan, ey zülfüqari-dil,
Olur xoşnud üqbadə Əliyyül-mürtəza səndən.

Sipehri-izzəftü iqbaldə sən mehri-rəxşansan,
Özün öldürsə etməz zövidə sibqət Süha səndən.

Sənin təsiri-ənfasından oldu zində çox kəslər,
Bilir əhli-nəzərlər çox mislər ülmuş kimya səndən.

Dilin nayibmənabi-Zülfüqari-paki-Heydərdir-
Ki, olmuş cümləsi məcruh qövmi-əşqiya səndən.

Tutub ətrin cahanı, bir gülüstani-əzasən sən,
Aparır Yəsrib içrə töhfələr badi-səba səndən.

Rizayi-bikəsin zikrilə əhvalın ki, ta olsun
Xuda xoşnudü Heydər şadü peyğəmbər riza səndən.

Səni Şahtəxtli derlər xəlayiq, etmənəm bavər,
Səni xoşbəxtli etmiş olub razi xuda səndən.

Nə dünyayə gəlib mislin, nə gəlməz qəmə bir kimsə,
Rəvadır etsəler gər fəxrtər ərzü səma səndən.

Xoşa ol şairin halınə kim, əşari-zibasın
Oxursan şövq ilə, behcət tapar ol binəva səndən.

Dəmi-təqrirdə sən can verirsən şerü əşarə,
Tapar şairlərin əşarı bir özgə səfa səndən.

Bu üzdən bir neçə təzmin ki, onlar fikri-bikrimdir,
Hədiyyə eylədim təqririn eylər dil rica səndən.

## BAKILI HACI HÜSEYNQULUYA

*Qəsidə*

Könlümdə dərdü firqəti-hicran yarası var.
Ey saqi, sağərində bu dərdin dəvası var.
Saqi, gözün fədası olum, cami-mey gətir,
Bimar könlümə meyi-nabın şəfası var.
Saqi, əyaqə dur, meyi-nabı əyağə tök,
Əl tut, bəlalı başımızın çox bəlası var.
Tən xəstə, dil zəifü fələk düşməni-qəvi,
Dəhrin nə yerdə mən kimi bir mübtəlası var?
Bir yanə dərdi-qürbətü bir yan bəlayi-hicr,
Seyli-sirişkimin dəxi çox macərası var.
Bir ahuyi-Xətayə giriftar idi könül,
Gördüm ki, rahi-eşqdə yüz min xətası var.
Gördüm ki, qəsdi-canım edibdir rəqiblər,
Xunrizlikdə hər birinin müddəası var.
Düşdüm səfər xəyalına mülki-Şəmaxidən,
Gördüm vətəndə məks eləsəm, çox cəfası var.
Bir gecə ərz eylədim ol mahi-Nəxşəbə,
Ey məh ki, gozlerimdə cəmalın ziyası var.
Hərçənd səndən ayrılığım səxtdir mənə,
Lakin başımda özgə diyarın havası var.
Bir nöqtədir səfərlə səqərdə əgərçi fərq,
Xassə ana ki, sən təki bir dilrübası var.
Müşküldü bülbül ayrıla bağü bəhardən,
Xassə comaluvün gülünün kim, səfası var.
Çox müşkül əmrdir ola tən ruhdən çida,
Lakin zəmanənin bu qəmə iqtizası var.
Çün guş qıldı surəti-halimi ol nigar,
Gördü ki, məndə əzmi-səfər iddəası var.
Nərgisdən etdi jalə rəvan bərgi-laləyə,
Gördüm ki, dağ olur ciyərində yarası var
Tən ilə söylədi ki, demə bivəfa məni,
Nə aşiqin məhəbbəti, nə bir vəfası var.
Tuti şəkərdən ayrılımı ixtiyar ilə,

Xassə ki, şəhd ləblərimin çox səfası var.
Qəddim hənuz rast edər sərvə tənələr,
Qümrilərin kənardə "ku-ku" sədası var.
Xaki-dərimdə məskən edir əhli-dil hənuz,
Aşiqlərin bu babdə çox ilticası var.
Get, qamətimdən ayrı gorürsən qiyaməti,
Tulü dirazdır, başuvun çox bəlası var.
Xassə, nə zövq var səfəri-Badikubədə-
Kim, badi-Xəzri llə müşəvvəş havası var.
Hər göz açanda gözlərüvi kur edər qübar,
Nə bağı, nə gülü, nə suyu, nə səfası var.
Əhli tamara mail olub kəsbi-dövlətə,
Nə eyş-nuşü rahəti var, nə səfası var.
Bilməzlə zövqi-şer nədir, ya ki, mey nədir,
Meydə nə zövq, ya ki, neyin nə cəfası var.
Getməz o mülkə şair olan kimsənə, əgər
Başında əqli, ya ki üzündə həyası var.
Ol sərvi-məhliqadən eşitdim bu sözləri,
Gördüm ki, sözlərində məzəmmət nəvası var.
Əcz ilə ərz eylədim, ey sərvi-gülüzar,
Sürmə bu qədr tusəni-sərkəş, xətası var.
İndi səfası özgə olub Badikubənin,
Cahü cəlalü fəzldə özgə əsası var.
Xoşbəxt edibdi bari-xuda Badikubəni,
Hər yerdə iştiharə gəlibdir, sədası var.
Duz mədəni, dəmir yolu, dəryavü neft ilə
İqlimü həftü şeş cəhət içrə bəhası var.
Rəşki-sədirə Cafu Xüvornəqdir-evləri,
Səngi-rüxamilərlə müşəyyəd binası var.
Tacirləri nə facir olubdur bizim kimi,
Alimlərində Buzərü Səlman cəlası var.
Yox bəylərində biz kimi dəndaneyi-təmə,
Nə ücb, nə qürur, nə kibrü riyası var.
Xəzri əsəndə badi verir gözlərə ziya,
Ol büqeyi-mübarəkinin tutiyası var.
Xassə, var onda məqbəreyi-həzrəti-
Bibi, Bimarü cürmü məsiyətə çox şəfası var.

Həmşireyi-imam Rizayi-Qərib kim,
Kim zayir olsa qəbrinə həqqin rizası var.
Böhtan demə ki, bilməz olar şer qədrini,
Əşarə meyl edən neçə bir dilrubası var.
Qadirdi təbi-şerə neçə zati-basəfa,
Qaani kimi hər birinin iddəası var.
Hər guşəsində var neçə bir əhli-hikməti,
Bəzlü səxadə süfreyi-cudü səxası var.
Qoy qalsın özgəsi, hələ guş eylə huş ilə,
Gör əhü-zat tək nə sifət mültəcası var.
Fərzəndi-biqərineyi-Hacı Hüseynqulu
Ağa Dadaş bəy ol ki, cahanə səfası var.
Bikizbü biriyadü nəzərkərdeyi-xuda,
Əhli-bəsərdü kim, nəzəri-kimiyası var.
Sultani-nızigardü fəzlü kəmaldə,
Babi-fezilətində onun çox gədası var.
İbrahimində dövləti-İbrahimi gərək,
İsmailində əhli-dilin can fədası var.
Xosrov ki, tifli-novrəsi-şirinzəbandır.
Pərvizi-əsrdir o ki, gülgun qəbası var.
Hər kəs ki, Sadiqində desə kizb var onun,
Kəzzabdır bu qövldə, səhvü xətası var.
Yarəb, bu nəsli-dilkəşi-Haci Hüseynqulu
Baqi ola, nə qədr cahanın bəqası var!

## MƏHƏMMƏD ƏFƏNDİ MÜFTİYƏ

*Qəsidə*

Nə başarətdi bu, ey qasidi-fərxəndəliqa,
Nə fərəhdir bu, nə behçət, nə sürurü nə səfa!

Nə məsərrətdi ki, var xitteyi-Şirvan içrə,
Aləmi şur tutub, vəcdə gəlib ərzü səma!

Bu nə əyyami-gülüstandı, nə ruzi-novruz,
Bu nə eydi-rəmazandı, bu nə eydi-əzha!

Bətai-mahini edib Yunisi-xurşid məqər,
Hələ sultani-fələk huti qılıbdır məva.

Aləmi-pir deyil feyzi-bahar ilə cavan,
Qarışıb bir-birinə bəs niyə pirü bürna?!

Dedi bir şəxs mənə tən ilə kim, ey qafil,
Xəbərin yoxdu məgər əmrdən, ey bisərü pa?!

Şəhri-Şirvanə gəlib bir fələki-məcdü kəmal-
Ki, kəmalatına heyrandu güruhi-hükəma.

Hafizi-dini-xuda, naşiri-ehkami-rəsul,
Naibi-şəri-nəbi, varisi-sultani-hüda.

Bu haman şəxsi-fələkrütbədi kim, feyzi onun
Dəmi-İsa kimi əmvatlər eylər ehya.

Bu haman zati-müqəddəsdi ki, ənvan onun
Eyləyib aləmi manəndeyi- turi-Sina.

Dedim:-Ey şəxs, yəqin xitteyi-Şirvanə bu gün
Oldu məlurn, gəlib movkəbi-Müfti ağa.

Ol nəbi ismü Əlirəsmü o Osmanzadə,
Dürri-dəryayi-Vidadi, gühəri-qədrü bəha.

Dedi:-Ari, bu Məhəmməd o Məhəmməddir ki,
Xəbərin verdi bizə rəmz ilə şahi-Bətha.

Mehdiyi-əsrdi kim, eyləyib aləmdə zühur,
Canibi-həqqə edər xəlqi-cahanı ihda.

Bu haman Mehdi ki, qətl eyləyəcək Dəcçalı,
Bu haman Mehdi ki, eylər ona nüsrət İsa.

Kim ki, damanını tutmaz o şəhi-valanın
Qalacaq küfrü zəlalətdy müxəlləd əbəda.

Gəlməyib dövləti-Rusiyjətə bir böylə əmin,
Görməyib dini-nəbi bir belə alim, haşa!

Bəhsi-elmində təmamən üləmayi-aləm
Məhvdir eylə ki, Xürşid şüasında Süha.

Ey ki, əşrafi-cahan səndən edər əxz şərəf,
Vey ki, Xürşid zəmirindən edər kəsbi-ziya!

Məsdəri-elmü ədəb, mənbəyi-insaniyyət,
Mənşəyi-fəzlü hünər, mahəsəli-helmü həya!

Eyləsin fəxr sənin tək xələfindən Adəm,
Eyləsin dəhrə mübahat səniylən Həvva.

Sahiba, ərseyi-mədhində gəlib cövlanə
Göstərir özgə hünərlər qələmi-çapükpa.

Hərə bir növ ilə aləmdə sənə xidmət edər,
Mən də bu mədh ilə etdim sənə tərtib səna.

Dideyi-şəfqət ilə surəti-əhvalıma bax,
Kimiyadır, nəzəri düşsə, edər xakə tila.

Gərçi var idi bu söz kim, şəbi-merac nəbi
Bir mələk çərxi-çaharümdə görübdür guya.

Var bir kus qabağında, əlində bir çub,
Qalxızıb çub olan dəstini, tutmuş bala.

Nə vurar kusə o çubi, nə salar yanə əlin,
Sordu peyğənıbər əmin kim, nə üçündür bu əda?

Ol mələk söylədi kim, həq məni etmiş məmur,
Üləmadən biri hərgah edə izhari-səxa,

Mən həmin çub ilə bu kusə vuram bir dəfə,
Dedi: heç vurmusan ol çubi? Dedi: Ey mövla,

Əli olsun şil, əgər vurmuş olam bir dəfə
Ta o gündən ki, məni xəlq eləyib bari-xuda!

Var ümidim ki, sən ey müftiyi-pakizə-xisal,
Salasan şəfqət ilə günbədi-gərdunə səda,

Həm mələk şad ola səndən, həmi bu Seyyidi-zar,
"Fəcəzakəlləhü bü-həşri cəzaən həsəna"*.

## MÜFTİ HACI ƏBDÜLHƏMİD ƏFƏNDİYƏ

*Qəsidə*

Gəlir novruz kim, etsin müzəyyən bağü səhrani.
Gətirsin surətə xəllaqi-qüdrət sərvi-rənani,

Tökülsün əbrdən baran əşki-çeşmi-Adəm tək,
Həva qılsın hüveyda arizi-zibayi-Həvvani.

Yavuqdur kim, çəmənlər rəşki-gülzari-
Xəlil olsun, Bənəfşə eyləsin izhar buyi-mişki-Sarani.

Gülə bülbüllər olsun cümlə İsmail tək qurban,
Çü Haçər lalə etsin dağ cismü cani-şeydani.

Çıxa bətni-səməkdən Yunisi-Xurşidi-nurəfşan,
Edə bürçi-Həməldən aşikari-ruyi-zibani.

Məgər Əyyubdir səlsəl ki, səbr eylər zimistanə,
Məgər Circisdir sari ki, çəkdi cövri-sərmani?

Yavuqdur kim, bahar etsin cahanə tazədən rövnəq,
Çinan ki, Nuh qıldı yengidən məmur dünyani.

Yavuqdur kim, rüxi-zibayi-gül Misri-məhəbbətdə
Müzəyyən eyləsin Yusif kimi bəzmi-Züleyxani.

Nəsimi-gül yetib çün nəkhəti-pirahəni-Yusif
Qıla Yəqub tək bülbül münəvvər çeşmi-beyzani.

Olar Firondur, Misri-çəməndən dəf oldum kim,
Büruz eylər güli-suri-yədi-beyzayi-Musani.

Yetib ol gün ki, nərgis başə alsın təşti-zərrini,
Yetib ol dəm ki, etsin lalə zahir xuni-Yəhyani.

Büsati-bağı etsin gül müsəxxər öylə kim, guya
Süleyman ibn-Davud eylədi şəhri-Əhirani.

Dirəxti-qönçə olsun hamilə çün Məryəmi-
Əzra, Büruz etsin çəmənlərdə səba ecazi-İsani.

Zəburi Zəndxanlar eyləsin Davud tək əzbər,
O əlhan ilə kim, Zərdüşt oxurdu Zəndi-Zəndani.

Çəmən Beytül-müqəddəs, teyrlər Nəstur Mülka tək,
Oxurlar ləhni-ruhafza ilə İncili-Luqani.

Buludlar Naqeyi-Saleh kimi rəqsan həvalərdə
Və lakin həml edib ol naqələr löluyi-lalani.

Yavuqdur kim, zimistan qövmi-Lut-asa həlak olsun,
Həva Ruhül-Əmin tək göstərə "ayati-kübrani".

Yavuqdur kim, ərəqlənsin cəmali-Müstəfa tək gül,
Büraz etsin çəməndə buyi-xülqi-şahi-Bəthani.

Onu təsdiq qılsın həzrəti-Siddiq tək bülbül,
Onu Faruq tək tövsif qılsın qümri əlhani.

Yavuqdur kim, qızarsın lalə xuni-paki-Osman tək,
Əlinə susən alsın Mürtəza tək tiği-bürrani.

Yavuqdur kim, açılsın laleyi-əhmər niqabından,
Rəsuli-eşq görsün arizi-ali-hümeyrani.

Gətirsin zümreyi-irqi-nisarə iqdi-Pərvinin,
Zühərlər zahir etsin bağda rüxsari-Zəhrani.

Yavuqdur kim, büsati müftiyi-islam tək açsın
Təbaye sahəti-gülzardə təsniflər şani.

Bahari-aləmara xürrəm etdi aləmi, guya
Kəramət birlə Məryəm səbz qıldı nəxli-xurmani.

O müfti kim, onun hikmətdə bir yeksalə şagirdi
Pəsənd etməz dəbistanında Qista ibn-Luqani.

O Keyvan-mənzələt, ol Müştəriiqbal kim, hər şəb
Nisar eylər fələk dərgahına iqdi-Sürəyyani.

Həmidüz-zülməali, ol məkini-rütbeyi-ali
Ki, salmış nəcmi-iqbali vəbalə bəxti-ədani.

Hanı Musa ki, gəlsin vadiyi-Tiflisə əzm etsin,
O pakın sinəsindən seyr qılsın Turi-Sinani.

Dəmi-canbəxşi eylər mürdeyi-sədsalələr ehya,
Hanı inkar edənlər möcüzi-paki-Məsihani.

Əla, ey müftiyi-islam kim, övsafin etməkçün
Mürəttəb qıldı Seyyid sidq ilə bu şeri-şivani.

Budur ümmid mövladan ki, misli-müftiyi-sabiq
Nəvalın etməyə məbxum şəfqətdən bu mövlani.

Çinan ki, səkkiz il bundan müqəddəm şəhri-Şirvanda
Yazıb bir nəzmi-ziba, mədh qıldım müfti ağani.

Dedim bir təbl kim, meracdə görmüşdü peyğəmbər,
Olur ki, çaldrıb şəfqətlə salsın çərxə əvani.

Onu çaldırmadı çün öz əliylə müftiyi-əvvəl,
Bu dəfə çaldırar, Allah qoysa, müftiyi-sani.

Ümid oldur ki, sultani-bahar etdikdə əşcari
Müxəllə xələti-əlvan ilə, ey mərhəmət kani!

Gələ Şirvanə ezaz ilə nagəh xələti-müfti,
İlahi, eylə Seyyiddən icabət bu təmənnani.

## MÜFTİ MOLLA HÜSEYN ƏFƏNDİYƏ

*Qəsidə*

Gətir, saqi, qədəh kim, könlümə zövqü səfa gəldi,
Yetişdik feyzi-üzmayə, yenə feyzi-xuda gəldi.

Əgərçi mövsümi-mizandır, ey saqiyi-gülrux,
Təravətbəxş dəhrə bir bahari-canfəza gəldi.

Yenə sirab olduq İltifati-əbri-rəhmətdən,
Nihali-xüşksali-aləmə nəşvü nüma gəldi.

Dirəxti-arizu müddətdi kim, bibərgü bar idi,
Bihəmdillah, açıldı qönçələr, bərgü nəva gəldi.

Töküldü sağəri-büllurə mey vəcdi-nişatından,
Qədəhlərdə hübabın başına özgə həva gəldi.

Oturmuşdum keçən şəb guşcyi-izlətdə, ey saqi-
Ki, nagəh müjdə ilə guşə qayibdən səda gəldi.

Olub əzmi-rəmim ehya o sövti-ruhpərvərdən,
Deyildi sövti-biganə, mənə çox aşina gəldi-

Ki, ey sərxeyli-fövci-şairani-xitteyi-Qafqaz,
Bu mülkə, agah ol, ol xosrovi-şirinliqa gəldi.

Gəlib bir zat kim, ondan olubdur bəll müşgüllər,
Dəxi qəm dəfinə bir sərvəri-müşkülgüşa gəldi.

Bihəmdillah, nəsib oldu sənə didarı bir zatın-
Ki, mahi-tələtindən gözlərə nurü ziya gəldi.

Hüseyni-paktinət, müftiyi-Qafqaz kim, anın
Vucudundan bu torpağa xəvasi-kimya gəldi.

Səri-ruhaniyan, ruhi-mücəssəm, alimi-ələm,
Sürurі-sineyi-aləm, rəvani-övliya gəldi.

Sanırsan bir yədi-qüdrətdü, oldu qeybdən zahir,
Bu Qayibzadə zahir oldu, dəhrə yüz cila gəldi.

Çəkibdir çətri-nöqsan etməyə yüz min riyazətlər-
Ki, guya ricəti-gübradü, əsrə Mürtəza gəldi.

Nə qəra biman oldu dideyi-pürşiveyi-yarın,
O badami-siyəhdən aqibət dərdə dəva gəldi.

Qəbul etdi Hüseyn bari-əmanət ruzi-əzzəldə,
Bu nasut aləmində etməyə əhdə vəfa gəldi.

Əmanət ərz olanda ruzi-əvvəl cümlə əşyayə,
Düşüb xövfü hərasə, cümlə əşyadən iba gəldi*.

Edibdir əhdü peyman kim, yetirsin dini təkmilə,
Nizami-aləmin icrasına ol pişva gəldi.

Məhəmməd məsnədində qaim oldu nəşri-hikmətçün,
Tüluundan o şəmsin aləmə nurü bəha gəldi.

Əgərçi çoxları todbir qılmışdı bu mənsəbçün
Vəlakin ol güruhin tiri-tədbiri xəta gəldi.

Qədərlənmişdi çün nami-Hüseyn ta ki bu mənsəblə,
Bu əmrin dəhrdə icrasına hökmi-qəza gəldi.

---

* Quran ayəsinə işarədir.

Zülali-çeşmeyi-heyvanə oldu aqibət vasil,
Bu Xızra zülmət içrə lütfi-yəzdan rəhnüma gəldi.

Şamaxı şəhrinin mehrabı kəc düşmüşdü taətçün,
Bu günlər rast oldu, çünki ol qiblənüma gəldi.

Qədəm qoymaq dilərdi Əhximən mülki-Süleymanə,
Süleymanın pənahı Asəf ibni-Bərxiya gəldi.

Şəyatinlər üruç istərdilər mülki-səmavatə;
O qövmin dəfinə tiri-şəhabi-pürbəla gəldi.

Yetişdi hökmi-nafiz imperaturi-müəzzəmdən,
Hüseynin nisbinə fərmani-şahi zil-üla gəldi.

Hüseynin qəsdin etmişdi əgərçi Şümrsövlətlər,
Bihəmdillah, bəlayə ol güruhi-əşqiya gəldi.

Hüseyn namında çün məşhur idi imdadə yetməklik,
Vilayət mülkünün şahı "vəliyyü innəma" gəldi.

Əla, ey müftiyi-islam, nikunamü nikəncam-
Ki, xaki-məqdəmin çeşmi-cahanə tutiya gəldi.

Nə müddətdir vəfasız qövm içində zaru nalanəm-
Ki, hər bir kinəvərdən, ya Hüseyn, yüz min cəfa gəldi!

Dönüb tufani-Nuhə göz yaşım xəlqin bəlasından,
Mənim, ey naxuda, gör başıma yüz macəra gəldi.

Vəlakin sabir olmaq şiveyi-mərdani-salikdir,
Hədisi-Müstəfadır: "Əlbəlaü lilvila"* gəldi.

---

* Dostun bəlasını [qəbul etmişəm] (hədis).

Mərizi-fırqət idim, gəlməyindən şadman oldum,
Dili-bimarıma nitqi-Məsihadən şəfa gəldi.

İki müfti sənin tək gəlmiş idi şəhri-Şirvanə,
Olardan Seyyidi-dilxəstəyə lütfü əta gəldi.

Biri ali-Vidadi, zübdeyi-irfan Məhəmməd kim,
Məhəmməd şərinə ondan rəvaci-bərməla gəldi.

Biri Hacı Həmidi-zülməali, hamidi-həq kim,
Gələn gün Şirvanə Qülzümi-cudü səxa gəldi.

Bihəmdillah, üçüncü müfti sənsən, ey həya kani,
Cahanı bəxş qıldın, zatüvə şərmü həya gəldi.

## HACI HÜSEYN ƏFƏNDİYƏ

*Qəsidə*

O gün kim əhli Şirvan çıxdılar yeksər müsəllayə,
Təzərrə qıldılar baran üçün rəbbi-təalayə.

Açub əlavü əsfəl başların ağlardılar hər gün,
Ucaldı nalələr yerdən təmamən ərşi-əlayə.

Giriban çak olub ağlardılar biçarə aləmlər,
Uşaqlar əldə Quranlar çıxardı gündə səhrayə.

Zükur əhli çağurdi dadə yetsin şahi-Mərdani,
Ünas əhli təvəssül qıldılar damani-Zəhrayə.

Təvəqqə qıldılar islam əhli şahi-Bəthadən,
Təzərrə qıldılar qövmi-nəsara ruhi-ülyayə.

O alimlər ki, nitqindən olurdi mürdələr ehya,
Olardan olmadı bir çarə hərgiz ərzi-muyayə.

O fazillər ki pəst etmişdi feyzi abi-heyvani,
Qalub zülmətdə, heyran, düşdilər bir özgə sevdayə.

Oxundu daşə hər gün çox dualar nəşri-rəhmətçün,
Və leykən düşmədi bir qətrə baran səhni-ğəbrayə.
Zibəs əlğis, əlğis etdilər ol Xızrməqdəmlər,
Yazıldı hərfi-ğeyni ya vü sa gərduni-xəzrayə.

Əgərçi xatibi-tətazvadən kəsmədük ümmid,
Və leykən abi-rəhmət enmədi kişti-təmənnayə.

Əlləndi su məqamından həvadən başlara pıtraq,
Yanub nari-atəşdən gögdə quşlar, gəldi ğövğayə.

Məzaci-dəhr oldi münqəlib nari-hərarətdən,
Rütubati-tələttüf cisimiərdə dendi səxrayə.

Töküldü suyə daşlar, səngdillər səxtzəm oldi,
Çıxub əttövbə vəttövbə sevtt çərxi-minayə.

Vəli bir Kəbəyi-fəzlün məqamın zahir etməkçün
Yetürdi hatifi-qeybi Xəlili-cənnətəfzayə.

Ki, ey sərdəftəri-ruhaniyan, məcüsi-vəhdətə
Əgər bir şərhi-kafi istər olsun bu müəmmayə;

## HACI HÜSEYN ƏFƏNDİYƏ

*Qəsidə*

Təvəqqüf eyləmə bir peyk qıl irsal bərqasa,
Təzərre namisin təhrir qıl ol əbri-səqqayə.

Xəbərdar eylə hali-mərəzdən sən ol Süleymani –
Ki, hər muri Süleyman tək edübdür hökm dünyayə.

O ustadi-müzzəm kim, onun yeksalə şagirdi
Müəllimdür Cüneydi-Məğribiyyü ibn Cövzayə.

Məhəmməd fitrətü Siddiq təsəddiqü Ömər sövlət, -
Ki, zünnureyn tək ziynətfəzadur əmri-üqbayə.

Əli rəsmü nəbi tiynət, Hüseyn namü Həsən xilqət, -
Ki, xaki-məqdəmi bir tutiyadur çeşmi-şəhlayə.

Əgər Musa əsa zərbilə su daşdan rəvan etdi,
Bu, daşdan şəhdi-kövsər cari eyiər kuhü səhrayə.

Təməllüqlər ki zülmət içrə Xızrə etdi İskəndər.
Yetərdi mənzili-məqsudə, etsəydi bumövlayə.

Bu ilhami yetürcək hatifi-qeyb, mələktiynət,
Rovanə qıldı bir peyki-rəvan dərgahi-valayə,-

Ki, ey dəryayi-rohmət, vey sohabi-şəfqətü rafət,
Əla ey mədoni-ehsan, əla ey məkrəmətsayə;

Səni verrəm qəsəm ol heft məft mərdi-kuhi-bənanə,
Səni verrəm qəsəm əbdülçehelə, həft ğərrayə.

Səni verrəm qəsəm miqatü həccü tövhü ehramə,
Səni verrəm qəsəm tərvihü ləbbeykü müsəllayə.

Təvəqqüf eyləmə, təşrif qıl Şirvanə kim, yanduq,
Sədayi-ələtəş yerdən çıxar xurşidi-əzrayə.

Sərəfraz eylə, ey sərdari-aləm, əhli-islami,
Düşübdür Bijəni-iqbalimiz bu çahi-yeldayə.

Nə müddətdür ki, tihi-qəmdə sərgərdanü heyranuq,
Yetişməz dəstimiz, fəryad kim, damani-Musayə.

Nə müddətdür ki, gün altındayuq, səhradə sərgərdan,
Dönübdür aşki-çeşmi-zarimiz yaquti-həmrayə.

Dönübdür rudi-Nilə gərçi əşki-çeşmimiz, leykən
Cəmali-Yusifi-məna gərək bəzmi-Züleyxayə.

## HACI HÜSEYN ƏFƏNDİYƏ

*Qəsidə*

Bu peyğami eşitmək hüdhüdiindən ol ima nəzər
Səvar oldu həman şəb bir səməndər bad peymayə.

Məgər kim leylətül-əsradə soltani-hərəmdür bu,
Olub rakib Büraqə əzm edüb mehrabi-əqsayə.

O soltani-cəlalun Cəbrəil oldu cilvədari,
Keçürdi qabi-qövsnyni, yetürdi bəzmi-əzmayə.

Yetişdi bir zəman Şirvanə ol şahi-fələkşövkət –
Ki, əhli düşmüşdü ğəmü ənduhi-üzmayə.

Kənari-nəhri-sədi eylədi mənzil səadətlə,
O nəhrün suyi döndi Kövsərü eynən təsəmmayə.

Cəmalından təcəlla nuri oldi hər tərəf sate,
Görən söylərdi kim, Musa gəlübdür Turi-Sinayə.

Dutub yüz dərgəhi-həqqə ol şəh, zikr etməgin, ya rəbb,
Həman ləbbeyk eydi yetdi guşi-əhli-mənayə.

Ki, ey nayib, mənabi-nəqşbənd, şahi-dərvişan,
Nə zəşmətdür ki, istisqa üçün gəldün bu məvayə.

Əgər məqsud barandıır, bu xud bir əmri-asandur,
Və gər xud abi-heyvandur sənündür ol fələkpayə.

Əgər mənzur sudur, abi-kövsər yağdurum gögdən,
Verüm nəşvü nəma, hər xar dönsün nəxli-Tubayə.

Mələklər kim vəkilü hökmrani-badü barandur,
Qulamundur təmami anlar, cy şahi-giranmayə.

Əgər hökm eyləsün, gögdən enər, yerdən çıxar baran,
Dutər övrad bismillahü məcrihavü mürsayə.

Həman dəm yağdı baran, eldi sirab əhli-
Şirvani, Yetürdi əhli-Şirvan başini övci-Sürəyyayə.

Dedi tarixi-sali ramzi-istisna ilə Seyyid, -
Ki, tarix olmasun əhli-kəramət əhli-dünyayə.

Əgər dal olmiyə, tarixidür ol sali-zibanun,
Bu gün Hacı Hüseyn pirimiz çıxdı müsəllayə" .

Xülusi-qədr ilə xidmətlər etdin dövləti-
Rusə, Nişanlar imperaturi-müəzzəmdən əta gəldi.

Neçə illər onun əmrinə son övqat sərf etdin,
Bu nəhv ilə vücudundan cahana incila gəldi.

Danışsam hali-mazıdən o bir, "Şərhi-Mütəvvəl"dir,
Bəşarətlər sənə, müstəqbələ, ey müqtəda, gəldi.

Vüçudun oldu çün öz ülfətinlə murşidi-kamil,
Sənə tədrisdə İdrisdən yüz mərhəba gəldi.

Bu günlərdə sənilləndir rəvaci-dini-peyğəmbər,
Həzaran rövnəqə səyinlə şəri-Müstafa gəldi.

## ƏBDÜLƏLİ BOYAQÇIZADƏYƏ

*Qəsidə*

Gəldi novruz, dəxi fəsli-gülüstan ulacaq.
Bülbülün bağdə əlhanı nümayan olacaq.
Mahi-azar hələ əvvəli-fərvərdindir,
Dür nisar eyləyəcək, dövləti-niysan olacaq.
Xəti-ənbərş ikəni -türreyi-dildarım tək,
Səhnı-gülzar vali sünbülü reyhan olaçaq.
Zülfi-hura kimi sünbül açacaq türrəsini,
Bülbüli-bixəbərin halı porişan olacaq.
Dönəcək Kövsərə ənharlərin suyu tamam,
Bağlər qeyrəti-məmureyi-rizvan olacaq.
Şişə əldə gələcək cümlə pərilər bağə,
Oxuyub rindlər əfsunü qəzəlxan olacaq.
Lalə cuş eyləyəcək xuni-Siyavuş kimi,
Cənk üçün zali-foløk Rüstəmi-dəstan olacaq.
Lalərüxlər çıxacaq seyri-gülü gülzarə,
Dağdil mən kimi hər bisərü saman olacaq.
Ahuyi-çərx edəcək bürci-Həməldə məva,
Ol qəzali-xütənim türfə qəzəlxan olacaq.
Bağban bağı bu ayini-səfadə görcək,
Sənəti-kamileyi-xaliqə heyran olacaq,
Çıxacaq xosrovi-gül təxti-zümürrüdfamə,
Bad təhrik edəcək misli-Süleyman olacaq.
Rindlər oldə qədəh seyr edəcəklər bağı,
Lalənin camı o dəm gövhəri-rəxşan olaçaq.
Seyyida, həsrət ilə sən baxacaqsan bağə,
Ciyərin qönçə kimi möhnət ilə qan olacaq.
Verəcək rəng gülü laləyə səbbağı-qəza,
Sibğətulla əsəri dəhrə nümayan olacaq.
Bu xəmi-niliyi-gərdundən İsayi-həva,
Müxtəlif rəngi-zərü hülyeyi-əlvan olacaq.
Səndə sim olmuyacaq almağa hərgiz badə,
Məşribin xuni-ciyər, həmdəmin əfqan olaçaq.

Dedim:-Ey şux, bu il olma kənarə mondən,
Dediı-Qismət sənə, əlbottə ki, hicran olacaq.
Gar Əbazər ola bizər hami bizar olur,
Zər uian kimsədə cami-meyi-rümman olaçaq.
Zər gərək, zur nədir, sim görək, şer nədir?
Zər olan kimsə, monitn vəslimo mehman olacaq.
Yalvanrsan mənə qurbanın ölümdən bədtər,
Xüşkə aşiq nə gərək kim, monə qurban olacaq?
Var isə bərreyi-büryanü şorabi-nabm,
Neçə giin bağdə vəslim sənə imkan olacaq.
Dedim:-Ey şüx, məgər yoxdu, həqiqət, xəbərin,
Məşhədi Əbdüiolidən sənə ehsan olacaq.
Necə ki, bildir əta eylədİ öz bəndəsinə,
Yeno qorxma, bu il ol əbri-dürofşan olaçaq.
Bizi sirab edər ol əbri-soxanm kərəmi,
Şövqdən xatirimiz gül kimi xondan oiacaq.
O1 Əli namü Əli cıdü Əli dil ki, onun
Əsəri-raərhəməti şöhreyi-Şİrvan olacaq.
Hələ bir tazə çavandır, özünün bəxti cavan,.
Tül örar eyləyəcək, bəxtİlə piran olacaq.
Olacaq ömri-təvil i!ə bu əsrin Xızn,
Qədəhi-badə ona çeşnıeyi-heyvan olacaq.
Dilbəra, vəsfıni qıl zadcyi-Abdullahm,
Onda bu baxt ki, var-izzotə soltan olacaq.
Validi əbdi-ilah idi müsəınma adma,
Bu özii əbdi-dəri-sorvəri-mərdan olacaq.
Sadiqül-qövl olan kimsədi, bilməz o, yalan,
Əhli-sidq içrə onun bər sözü bürhan olacaq.
KövkəbӀ-bexti onun tazo, hələ ay kimidir.
Sonra on dörd gecolik bir məhi-taban olacaq.
İzzətü dövləti bir bədri-dirəxşanə dönər,
Ömri-bədxahləri ruybonöqsan olacaq.
Onda hor kardə, hər işda ədalət görurom,
Kirtı desə züim edib, ol qövlo peşiman olacaq.
Haşəlillah ki, o, zühn eyləyə bir məzlumə,
Belə məzlumlərin halına giıyan olacaq.

Desələr bəs niyə öldürdü Hüseyni-ərəbi,
Bu çəfadən nə Yezidü bu nə Süfyan olacaq.
Bir nəfər Şümri-şərir adını qoymuşdu Hüseyn
Döndü Muxtarə bu kim, qatili-üdvan olacaq.
Bu Əlidən o Hüseyn olmuş idi nigərdan,
Kim Əlidən ki, dönər-qətlinə fərman olacaq.
Görməyən Həzrəti-Adəmdə Əlinin nurin,
Xaliqə münkir olub, axırı şeytan olacaq.
Gərək insanda iki göz ola binavü bəsər,
Hər kimin kur ola çeşmi, yeri niran olacaq.
Biri zahir, biri batindi gözü, ey arif,
Leyk əgər qəlb gözü kur ola, xizlan olacaq.
Vay, əgər bir nəfərin hər iki çeşmi ola kur,
Mənzili tar, onun munisi Mərvan olacaq.
Ola bu əsrdə hər kirasə ki, ədayi-Əli,
Onda nə dinü nə ayinü nə iman olacaq.
Sahiba, Məşhədi Əbdüləli, ey kani-səxa,
Sənə həmvarə kömək şəfqəti-yəzdan olacaq.
Gərçi zahir gözü kur olsa, bədən naqisdir,
Dideyi-batinə zahir gözü ünvan olaçaq.
Sulcani-hünərin əldə, minib rəxşi-murad,
Qüssədən düşmənüvün qaməti çövkan olacaq.
Xosrova, şad olacaqsan bu ticarətdən sən.
Düşmənin sud ilə sərmayəsi xüsran olacaq.
Bilməyən kimsə nəmək qədrini bu aləmdə,
Kəsəcək kəsdiyi əppək onu, binan olacaq.
Qədri-peymaneyi-ehsanüvü hər kim bilməz,
Onu bimayə qoyan etdiyi peyman olacaq,
Bilmisən, zairi-mövla, o Cəlilin qədrin,
Sənə, əlbəttə, müin şahi-Xorasan olacaq.
Görmüsən xabdə ayü günü on bir yulduz,
Məsəlin vaqieyi-Yusifi-Kənan olacaq.
Tutacaqsan, bilirəm, məsnədi-izzətdə qərar,
Zillət ilə qabağında hamı ixvan olacaq.
Seyyida, xətmi-kəlam eylə, çox incitmə bizi,
Söz uzansa, bilirəm, hərzəvü hədyan olaca

Bu Əli namə sənin mətləbin oldu vazeh,
Hiç bak eyləmə, ehsanı fıravan olacaq.
Bu fəsahətdə sənin nozmüvü görsə Mirza
Deyər, əhsəntü sənə, xatiri şadan olacaq.
Sənə Seyyid bu yəqini eləyər axırda,
Bu kolamında nə bir reyb, nə böhtan olacaq.
Görəcəksən bu sifət dəhrdə bayramlan,
Zinəti-bəzm sənə nöqlü meyü xan olacaq.

## ƏBDÜLƏLİ BOYAQÇIZADƏYƏ

*Qəsidə*

Gəldi novruz, müzəyyən elədi dövrani,
Gətirir bağə yenə servü gülü reyhani.

Açılır bağdə gül arizi-dildar kimi,
Ucalır bülbülün əflakə yenə əfğani.

Nərgisin camına jalə tökülür badəmisal,
Əlinə falə alır ol qədəhi-mərcani.

Xani-vəslin gül açıb, bülbülü eylər mehman,
Xoşdu məşuqəsinin aşiq ola mehmani.

Xəlvəti-xasi-Züleyxayə dönər səhni-çəmən,
Qönçənin çak olu pirahəninin damani.

Qətreyi-jaləni hər kəs görə bərgi-güldə,
Ali-valadə görər yüz gühəri-qəltani.

Zahida, soməədən dışra çıxıb, gəl bağə,
Bir təmaşa elə sən kargəhi-sübhani.

Süni-məşşateyi-qüdrət gülü eylər zinət,
Bax güli-əhmərə, ol hikmətinin heyrani.

Doldurub lalə meyi-jalə ilə sağərini,
Yəni mey şürbünə təklif qılır pünhani.

Səhni-gülzarə səhər vəqti olur qaliyəbad,
Yar tək sünbül açar türreyi-müşkəfşani.

Gətirir badi-bahar təbleyi-udü ənbər,
Ta müənbər eləsin badiyeyi-imkan

Afitab etdi Homəldən bu gün izhari-ziya-
Ki, ziyasından olub cümlə cahan nurani.

Dönəçək bülbüli-xoşləhçə nigəhbanə yenə,
Bəzmi-pürdərdə sətalər verəcək əlhani.

Barbudün olacaq nəğmeyi-sari şirin,
Xosrovun bəzrainə nisbət qılacaq bostani.

Gələcək seyri-çəmən eyləməyə gülruxlər,
Görən onları behişt içrə görər qılmani.

Ey xoş ol aşiqi-şeydayo ki, bu mövsümdə
Həmdəmi-çani-həzini ola öz canani.

Kim kİ, cananı onun yoxdu belə mövsümdo
Elə bilsin ki, onun cismdə yoxdur cani.

Ey xoş ol rindi-qədəhnuşə ki, vardır yan,
Çəkməyir sən kimi hərgiz oləmi-hicrani.

Bu sifət mən də bu aləmdə zəlil oimaz idim,
Məndə olsaydı əgər malü mənai imkani.

Nə evim var, nə otağım, nə pulum, sİmü zərim,
Nə rübabım, nə kobabım, nə meyi-rümmani.

Nə ümid ilo gəlib yar məno yar olsun,
Qaçacaq, gəlsə, acından dodağınm qani.

Eyləməz şerimi bir həbbə şəiriycə hesab,
Nə çıxar şerü qəzəlden, nə deyim mən ani?

Nifrət eylər qəzəlimdən o qəzali-rəna,
Gər deyim vəsfi-xəti-müşkinə bir divani.

Ger desəm seyyidi-ah nəsəbəm, xümsünü ver,
Söyləyər kim, bu qedər faş eləmə hədyani.

Xüms lazımdı ki, ol müctəhidi-əsrə çata,
Ala, seyyidlərə təqsim eliyə ürfanı.

Sən hara, xüms hara? Bir bu süalından utan,
Sən təki rində verir xümsünü bir məstani.

Gər desəm, qoy üzüvü bir üzümün üstə mənim,
Söyləyər, ləkkəli etmə bu məhi-tabani.

Dedim:-Ey şux, sənə yari-vəfadar mənəm,
Dedi:-Kim yar eləyibdir mələkə şeytani?

Dedim:-Ey sərv, gülümsən, sənə mən bülbüli-zar,
Dedi:-Bayquş kimi get, mənzil elə virani!

Mən güləm, səndə vəli bülbülə yoxdur nisbət,
Səni tari, özüvə bağlama bu böhtani!

Səndə bülbül kimi vardırmı gözəl sövtü səda?
Bülbülün qaşdı bu aləmlər-ara dastani.

Şənüvə "ənkərül-əsvat" olubdur nazil,
Gedib, ey xər, açıbarı bircə oxu Qurani.

Həq qılıb ayeyi-ənamı səninçün nazil,
Heyf insan deyələr sən kimi bir heyvani!

Qoymusan adüvi seyyid, nə səlatü nə siyam,
Yoxdu sən fisqdə bir erməniyü nəsrani.

Gecələr məst, günüzlər dəxi naçaştü cünüb,
Uymusan bütlərə, tərk eyləmisən iymani.

Harda bır büt görəsən səcdə qılırsan o bütə,
Xaç olur gərdənüvə zülfi-əbirəfşani.

Sənə seyyid desəm, ağzımda dilim lal olsun!
Etmisən tərk bu gün məzhəb ilə ərkani.

Dedim:-Ey sərvi-bütan, sürmə bu gunə tövsov,
Sakit ol, hər nə dedin, ver mənə bu meydani!

Ta sənə şərh qılım surəti-əhvalımı mən,
Guş qıl huş ilə ərzi-məni-sərgərdani.

Həq təcəllasım hər yerdə görə əhli-nəzər,
Eyş edər zovq ilə, bir haldır ol vəçdani.

Yoxdur əhli-nəzərə Kəbəvü bütxanədə fərq,
Hər məkanda tapılır şəşəeyi-sübhani.

Büt özü hal ilə təsbih qılır sübhanə,
Get, oxu "səbbəhə lillah"da bu mənani.

Kimisi Kəbədə həqqi, kimi deyr içrə görür.
Hərə bir növ gəzir, axtarır ol canani.

Gördü həq pərtövünü düxtsri-tərsadə əyan,
Nə məzəmmət eləyim eşqdə mən Sənani.

Dağə Fərhad çalıb tişəni şirin-şirin,
Gördü Şirində həq nurini, verdi cani.

Gördü Məcnun əsəri-xaliqini Leyladə,
Düşdü vadilərə, mənzil elədi səhrani.

Gördüm əksi-rüxüvü ayineyi-camdə mən,
Vacib etdim özümə şürbi-meyi-səhbani.

Bu sifətdə, gözəlim, şəhrdə bir mən deyiləm,
Çoxdu mən tək bu yerin aşiqi-sərgərdani.

Bilirəm ki, nə səbəbdəndi mənə tənələrin,
İnçidirsən nə səbəbdəndi bu bağrıqani.

Məndə olsaydı əgər simü zərü dövlətü mal,
Gözüvə onda gələrdim, gözəlim, ruha

Çıxmaz idin gecə-gündüz otağımdan tışra,
Əyləşirdin o zaman salihə tək pünhani.

Bəs əlac oldu ki, təhsil qılam sim ilə zər,
Dərdi-pünhanıma hasil eləyim dərmani.

Məşədi Əbdüləli halıma vaqif olsa,
Edər əlbəttə bu sərgəştə üçün samani.

Bəs gərək şikvə edim zadeyi-Abdullahə,
Eydi-novruzdə şad eyləyə bu giryani.

Bilirəm yoxdu savadı, ona xoş gəlməz şer,
Ola bir nəzm xüsusən ki, belə tulani.

Biləcək ki, bu qədər şairə pul lazımdır,
Edəcək çareyi-dərdim o səxavət kani.

Var ümidim ki, edə Seyyidi-zari xürrəm,
Eyləyə lütf ilə öz bəndəsinə ehsani.

Ey xuda, Məşhədi Əbdüləlini şad eylə,
Ola mənsuru müzəffər özü və əvani!

## HACI MEHDİYƏ

*Qəsidə*

Gətir piyaleyi-mey, saqi, səlsəbil gərək,
Şərabi-nab ola bəzmdə səbil gərək.

Edər bir-iki xüm olsa mənə şərab kifaf,
Bu rindi-meykəşə piri-muğan kəfil gərək.

Mühafizət qıla şayəd məni bu sərmadən,
Salam özümü xərabat ara dəxil gərək.

Şərabi-azəri tök camə, ey büti-Azər,
Bu narə ginnəyə bir mən kimi Xəlil gərək.

Gətir piyaleyi-büllurdə meyi-safi,
Cəmali-bariyə ayineyi-cəmil gərək.

Şərabi-nabdü bir vəhy, mən peyəmbəri-əsr,
Bu vəhyə saqiyi-gülçöhrə Cəbrəil gərək.

Şərab şürbünü mən eyləyirsə şəri-rəsul,
Şərabi-nabə bu mövsümdə bir bədil gərək.

Əlil edib məni, saqi, zəmaneyi-fərtut,
Əlac qıl ki, dəvayi-təni-əlil gərək.

Gərəkdi kim, gətirə qüvvətə təni-zari,
Şita zamanıdu, məcuni-zəncəbil gərək.

Dəxi bu mərhələdə qalmayıb səxa əhli,
Bir özgə səmtə bu viranədən rəhil gərək.

Nə xoşdu Qafi-qənaətdə olmağa Ənqa,
Nə qal cifeyi-dünya üçün, nə qil gərək.

Bu dərdi-fəqrin əlacı zəmanədə olmaz,
Özü əlac eləyə xaliqi-cəlil gərək.

Bu bari-minnəti-dunanı çəkməyə, ey dil,
Sənin işin deyil, ol barə zuri-fil gərək.

Gərəkdi münim olan xəlqə eyləyə ehsan,
Gərəkdi adəm olan olmaya bəxil gərək.

Dedim əba gətirər Məkkədən mənə Mehdi,
Toxunmuyubdu əba Məkkədə bu il, gərək.

Məgər ki, Məkkə tərəf Misrdən əba gəlməz,
Olubdu xüşk bu illərdə rudi-Nil, gərək.

Göründü Məkkə tərəf bağlanıb yolu Şamın,
Hicazə, qafiləyə bağlanıb səbil, gərək.

Dedin əba yox idi Məkkədə-inandım mən,
Bu qövli-həqqə nə isbatü nə dəlil gərək.

Əbanı qət elədim bir ədəd san kürkə,
Həva soyuqdu, mənə kürki-Ərdəbil gərək.

Desən ki, yoxdu Şəmaxidə Ərdəbil kürkü,
Bu barədə dəxi bəs göftgu təvil gərək.

Dedin tapılmır əba Məkkədə-inanmalıdır,
Şəmaxidə tapılır kürk hər qəbil gərək.

O da tapılmasa, üç arşın et drap əta,
Mənim tək uşkola mollasına şenil[*] gərək.

Drapı lütf elə, etsin dilimi lal xuda,
Desəm ki, astar üç arşın ona fenil[†] gərək.

---

[*] Şinel
[†] Filanel

Bu xahişi edirəm böylə mərdü mərdanə,
Həmişə şair olan olmuya mühil gərək.

Fəda olum sənə, ey Mehdiyi-vəfapərvər!
Yanında olmuya bu sözlərim səqil gərək.

Gərəkdi mən bürüneydim əbayi-ehsanın,
Görüb oleydi o düşmənlərim zəlil gərək!

Məsəldi ki, kişi ari, küsər uman yerdən,
Ədalətə olasan mərdi-biədıl gərək.

Hər il gələndə Şəmaxiyə şəhri-Maskovdan,
Edərdin onda əta töhfeyi-cəzil gərək.

Nə oldu Məkkəyə getdin, kəsildi ehsanın,
Əgər çox olmasa da, töhfeyi-qəlil gərək.

Əgər desən ki, bəli, fasiqə səxadü həram,
Bu iddəanı sübut etməyə dəlil gərək.

Məni günah eləyən görmüsən nə yerdə görək?
Kişi gözüylə görə sürmədanda mil gərək.

Bu qədr bil ki, sənə müxlisəm sədaqətdə,
Nə kürki-tazə, nə mahut, nə zibil gərək!

Bu sözləri sənə mən yazmışam zərafətçün,
Mühibblər ola ehya, ədu qətil gərək!

Hicayi-xəsmüvə bir Əzrəildir qələmim,
Ala müxalifiivün canın Əzrəil gərək!

## HACI İSMAYIL OĞLU AĞAYA

*Qəsidə*

Ey verən feyzi kainatə səfa,
Adı Hacı Ağa, vücudi ağa.

Eyləsin tarı Hacıya rəhmət,
Yeri olsun o cənnətül-məva.

Guş qıl huş ilə şikayətimi,
Göstərir ərzi-halıma məna.

Durmuş idim dünən Əli bəy ilə,
Tingədə söhbət etməyə yekca.

Gəldi nagəh xəlifə dəvət üçün,
Etdi təklif Əli bəyə tənha.

Gecə gəlsin təbaq üçün Əli bəy,
Məni təklif etmədi əsla.

Safərin on üçü o, xəlfə Səfər,
Özü nəhs ulduzu o qəlbi qəra.

Ondan etdim sual, key xəlfə,
Məni də dəvət eyləyib ağa?

Verdi bir növ ilə cəvabımı səxt,
Dedi ki, sən hara, təbaq hara?

Nə rəvadır ola o məclisdə
Bir sənin kimi şəxsi-bisərü pa?

Məhfili-tacirani-Şirvandır,
Deyil ol bəzm layiqi şüəra.

Doğrusu, sınmışam bu halətdən,
Bu sifət macəra deyildi rəva.

Edəsən əhli-dövləti dəvət,
Düşməyə yadə biz təki füqəra.

Eyləsin bu işi mübarək həq,
Eylərəm mən həmişə xeyr-dua.

Bilmirəm, leyk bu xəcalətdən
Çıxacaqsan nə növ ilə, aya?

Eydi-novruzdur, bahar oldu,
Şaxlər geydi xələti-xüzra.

Nə rəvadır ki, mən qalam üryan,
Nə rəvadır qəba geyim, nə əba?

Köhnəlibdir qəbayi-ətləsimiz,
Mənə bildir ki, etmiş idin əta.

Tazəsin versən, ixtiyarın var,
Verməsən də işimdi mədhü səna.

Səni peyvəstə şadman etsin
Xaliqi-kainat sübhü məsa.

Oğluvu saxlasın bəlalərdən,
Ey ilahi, cahanda bari-xuda!

Sənə daim duaçıdır Seyyid,
Dilü can ilə hər səbahü məsa.

## AĞA BƏYƏ

*Qəsidə*

Məşhədi Ağa, ey ədəb kani,
Yetirən feyzə əhli-Şirvani.

Yazmış idin mənə məzəmmət sən,
Öz boyun kim tulü tulani.

Demiş idin ki, ey təbibü ədib,
Niyə göndərmədin o dərmani?

Deyil idim ki, qərzdar sənə,
Ta bileydim özümə fərz ani.

Sidqi mənsub etmisən özüvə,
Bizə nisbət bu kizbü yalani.

Etmənəm hiylə aşinalərə mən,
Xoş deyil şüğlü feli-şeytani.

Çıxmış idi yadımdan əhli-vətən,
Tapmaz idinı həbibü əqrani.

Səni mən, söylə, harda görmüşdüm,
Eyləmə iddəayi-bütlani.

Sənə mən gəlmişəm haçan bazi?
Tovlayıb kim sənin tək oğlani?

Kim səni tovlayıb uşaqlıqda,
Axtarıb tap özün o mənani.

Yazmış idin ki, rast otuz ildir
Dustəm mən səninlə ürfani.

Sənə bu iddəadə yoxdu sübut,
Qazi batil deyər bu dəvani.

Otuz ildir ki, mülki-ğürbətdə
Çəkmişəm zəhməti-firavani.

Düşmüş idim vətəndən avarə,
Görməz idim cəmali-canani.

İmperaturə xidmət eylərdim,
Şəhi-rus, ol ədalətin kani.

Neçə bir çinlər ki, almışdım,
Mənə lütf etdi çini-kaptani.

Bəy idim gərçi əvvəlindən özüm,
Leyk artırdı şövkətü şani.

Gördü çün şah hüsni-xidmətimi,
Pensiya feyzin etdi ərzani.

Mətləbim sözdən iftixar deyil,
Feli-şeytandı fəxri-nəfsani.

Adəmiyyət gərəkdir adəmdə-
Kim, təvazö ucaldır insani.

Əfsərəm mən, çinovnikəm, kapitan,
Mənə şamİldi feyzi-rəbbani.

Sizə bəylikdə gərçi tay deyiləm,
Var sizlərdə mənsəbi-xani.

Tapşırıbdır xudayi-ərzü səma,
Sizə Əngüştəri-Süleymani

Fəxr edər Həzrəti-Süleymanə
Kapitan kimsə olsa dərbani.

Demisən fəxr ilə ki, şiri-nərəm,
Yıxaram pənçəm ilə dünyani.

Verirəm mən səni xudaya qəsəm,
Gəl dağıtma bizim bu virani.

İndi gər şirsən, hünərvərsən,
Get nişimən elə neyistani.

Nədi bu tülkülərlə bəs karın,
Özüvə bil hərif aslani.

Neçə gəldi dilin, səni tari,
Mənə tay eylədin o Səlmani?

Nəçiyəm tay olam o Səlmanə,
Odu aləmdə hikmətin kani.

Dolama, lütf elə, biləngə məni,
Söyləmə bu həqirə böhtani.

Fikrimi eyləmə pərakəndə,
Məndən əl çək, sən oğluvun çani!

Demiş idin mənə, mən Ağa bəyəm,
Gözüvü aç, məni dürüst tani.

Dideyi-nadürüstdə hanı nur,
Tanıya ta sənin tək ağani?

Hanı xiffaşdə o taqətü tab,
Görə ta nuri-mehri-rəxşani?

Tanıyan nəfsini, tanır həqqi,
Hanı məndə o feyzi-sübhani?

Səni çox yandırıbdır eşşək işi,.
Yazmısan nəqli-arpa, samani.

Neyləyirsən, sənə nə lazımdır
Eşşəyin harda qaldı palanı?

Nalçəkər söhbətində karın yox,
Döymə bica çəkiclə sindani.

Eşşəyin qeyratin nədir çəkmək,
Bu deyil müqtəzayül-insani.

Nə müsəlmandı nalçəkər ki, gəlib
İnçidə mən kimi müsəlmani.

Nalçəkər çatdı öz cəzasına,
Çün işində var idi nöqsani.

Həq-təala deyib, məni tanıyın,
Özüvə nisbət eylədin ani.

Sən də Firon tək de: Rəbb mənəm,
Səcdənə dəvət eylə imkani.

Demiş idin gəlib bu cümə günü,
Olam, ey dust, çay mehmani.

Öz evindir, nə vəqt kim, gələsən,
Payüvim cismü candı qurbani.

Leyk səndən təvəqqeim budu kim,
Həddüvü bil, danışma hədyani.

Mən kiməm gör ki, sən özün kimsən,
Fikr et, ey xəstə cismimin cani!

Yazmısan şer ilə mənə namə,
Açmısan bir qəribə dastani.

Qadirəm mən də yazmağa əşar,
Mədhüvə saz qıllam inşani.

Xəlqə bizdən qalıbdı şairlik,
Bizik aləmdə nəsli-Xaqani.

Nə yazarsan, gələr cavab sənə,
Bilmə aciz bu zarü nalani.

"Sinnə bissin fəlcəruhü qisas'",
Annayıb dərk qıl müəmmani.

## KƏRİM BƏY ŞIXƏLİBƏYOVA

*Qəsidə*

Kərim bəy, ey kərəm kani, kəramətpişə sultanım,
Kərimüt-təbsən, görmüş kəramət hər gəda səndən,

Çü Kəbə qibleyi-hacatsən, bir rükni-əzəmsən,
Məqami-səydə çox hacilər görmüş səxa səndən.

Zibəs ki, mürdeyi-ehsanuvun möhtacıdır aləm,
Edərlər fəxr əlhəq Zəmzəmü Cəffü Mina səndən.

Əritmiş mum tək çox ahənin xatirləri qəhrin,
Məqami-mehrdə çox mislər olmuşdur tila səndən.

Qülubi-əhli-afaqə olub cəzzab əltafın,
Gəlir bu babdə xasiyyəti-ahənrüba səndən.

Sən ol xurşidi-xavərsən, sən ol mahi-münəvvərsən-
Ki, eylər mahü xurşidi-fələk kəsbi-ziya səndən.

Şikayətnameyi-Seyyiddi, guş et, gərçi aləmdə
Şikayət görmədim ki, eyləsin bir aşina səndən.

Məazalla, şikayət söylədim, səhvü xəta qıldım
Və lakin bir gileydir eylərəm, ey bəy, sana səndən.

Bu il qoydu məni avarə bu gərduni-dulabi,
Uzaşdı bir qədər bu Seyyidi-bəxti-qəra səndən.

Kəsildi ol kərəmlər, ol səxalər, lütfü ehsanlar-
Ki, hər il bitəvəqqe hasil olmuşdu mana səndən.

Mən öz ixlasü öz ətvarü öz halımdayam baqi
Və lakin ol sifətlər cümlə olmuşdur fəna səndən.

Budur zənnim fənafillah seyrin etmisən hasil,
Muradi-əhli-həqsən, dəhrə düşmüş macəra səndən.

Fənafil-mürşüd olmuşsan, cahani-fanidən farıq,
Təki tapsın səfalar aləmi-mülki-bəqa səndən.

Dəxi əşarə meylin yoxdu müşirsən rümuzatə,
Nə meyli-badəvü sadə, əcəbdir bu əda səndən!

Sən ol şəxs idin, ey sərver ki, hər şəb bəzmi-işrətdə,
Düşərdi gümbədi-gərdunə yüz sövtü səda səndən.

Təəhhül baisi-təcrid imiş, mən haldən qafil,
Əziza, agəh oldum kim, olub zayil həva səndən.

"Əqarib kəl əqarüb" nüktəsindərı vaqif oldunmu,
Rizasan olmağa biganə hər bir əqrəba səndən?

Bular xud həlldir, zira ki, sən həllali-müşkülsən,
Olur müşküllərim həll, ey şəhi-müşkülgüşa səndən.

Bahar olcaq olur ərbabi-zövq üçün güşayişlər,
Gərək tapsın güşayiş bu bahari-dilgüşa səndən.

Şamaxı cayi-işrətdir, xüsusən novbaharında,
Məni həqq etməsin, ya rəb, bu mövsümdə cüda səndən,

Dehistan əhlinin həqqində çox sözlər peyəmbərdən
Yazardım, etməsəydim, padşahım, gər həya səndən.

Yazıb Mollayi-Rumi "Məsnəvi"də görmüsən yüz yol,
Xətadır dehnişinlik, ey fələkşövkət, xəta səndən.

Vücudin bir tilayi-zərri-dəstəfşardır gərçi,
Əgər yatsan yüz il torpaqdə, getməz cila səndən.

"Əleyküm bis-səvadil-əzəm"i* zikr etdi peyğəmbər,
Bu qövlə tabe ol, ta sahibi olsun riza səndən.

Bu dəfə şəhrə kim, gəlmişdin, ey mahi-münəvvər sən,
Mühaqə düşdü Seyyid, tapmadı nurü ziya səndən.

Mərizi-münşərəf mövt idi cismi-dərdpərvərdim,
Vəlakin olmadı hasil bu bimarə dəva səndən.

Məsihim saldı gözdən bu pərişanhal bimarın,
Təbibim, dil umardı bir əyadətlə şəfa səndən.

Süleyman hüdhüdündən bir kitabət olmadı hasil,
Gərək abad olaydı sahəti-mülki-Səba səndən.

Nola çıxsa fəğanlar nöh səmayə üzv-üzvümdən?
Şikəstə üstüxanə yetmədi bir mumiya səndən.

Əlimdən aldı dövrani-fələk ol rükni-Şirvani,
Onun xəllaqi-əkbər ruhunu etsin riza səndən.

Başımdan getdi, səd əfsus, onun ol kölgəsi, indi
Gərəkdir vaqe olsun sayeyi-bali-hüma səndən.

Rümuzat ilə yazdım dərdi-dil sən arifi-əsrə,
Edər bu Seyyidi-ixtaspərvər iltica səndən-

Ki, bu əşari-bikrü təyyibat-asarımı görcək,
Əla rəğmi-həsudan sadir olsun mərhəba səndən.

Əgər sən lütf, ya kim, qəhr edərsən-ixtiyarın var,
Rizayəm mən rizasından rizayi-iltica səndən.

---

* Əhalisi çox olan şəhərlərə meyl edin! [yeni, mədəniyyətə doğru gedin]

## HACI ƏLƏKBƏR BƏY VƏ KƏRİM BƏY ŞİRVANİYƏ

*Qəsidə*

Gəlir novruz kim, güllər çəməndə aşkar olsun,
Gülün eşqində bülbüllər gəlib fəryadə zar olsun,

Kəyumərsi-təbaye eyləsin məmur dünyanı,
Cahan düşsün nizamə zinətü zib aşkar olsun.

Siyamək tək baharın divi-dey tökmüşdü qanın gər,
Gəlib Huşəngi-fərvərdin ki, cəngü girü dar olsun.

Edib Cəmşid tək novruz cəmiyyət ki, gülşəndə
Çəmən şahidləri sərməsti-cami-xoşgüvar olsun.

Məgər Zöhhagi-tazidir zimistan kim, bahar əhli
Xüruc etmiş ona yeksər ki, təxti tarümar olsun.

Firidun tək büsati-gülşəni etsin müsəxxər gül,
Həzarə Gavə tək gəlsin hüzurə, cannisar olsun.

Yetib ol dəm ki, çıxsın çahdən Bijən kimi bülbül.
Müğeyrə lək güli-suri ona həmvarə yar olsun.

Açıb Key-Xosrov-asa əbr bağə dösti-ehsanın,
Səxayi-gövhəri-nayab, dürri-şahvar olsun.

Sipahi-səbzəni çəksin bahar afaqə Rüstəm tək,
Zimistan Bəhmən-asa saliki-rahi-fərar olsun.

Həciri-çərx məkrindən hərasandır dili-bülbül,
Neçün kim, istəməz Söhrab tək gül zəxmdar olsun.

Fələk Piranə bənzər, leyk olmaz məkrdən xali,
Ayılsın qümriyi-Kudərz, ondan huşyar olsun.

Fərarə bağdən Ərcasibi-dey olsun amadə,
Qüvayi-naməyə çün Ləşkəri-İsfəndiyar olsun.

Tökübdür bərqi-təndir bağdə Darayi-dey qanın,
Gərəkdir kim, bular Canusiparü Mahyar olsun,

Kəmani-Rüstəmi qövsi-qüzeh versin nişan xəlqə,
Xədəngi-jalədən dey Əşkibusi dilfikar olsun.

Şəqayiq cuşə gəlsin xakdən xuni-Səyavuş tək,
Çəmənlər daməni-Rudabə-asa laləzar olsun.

Fəramərzi-baharı Bəhməni-dey çəkdi gər darə
Və lakin qoymadı çərx öz şükuhi paydar olsun.

Zimistan bir fəsad etmişdi kim, Key-Xosrovü
Kudər Tutub Gurgin kimin həbs etdi ta kim, xarü zar olsun.

Bəli, əhli-fəsadın halına zindan münasibdir,
İlahi, bu zimistan, dəhrdə bundan da xar olsun!

Bahari-dilgüşa etsin müsəxxər cümlə afaqi,
Açılsın lalələr, güllər, zəmanə mürğzar olsun.

Nə qəm qaldısa zindanda zimistan, daima qalsın,
Nə qəm zağü zəğənlər zar olub, həmvarə zar olsun!

Təki Hacı Əli Əkbər beyin ömrü diraz olsun,
Təki aləmdə əclali-Kərim bəy bərqərar olsun!

Qala, yarəb, onun bədxahi aləmlərdə sərgərdan,
Bunun düşmənləri hər bir məkanda şərmsar olsun!

Onun bədxahına xəllaqü aləm yüz bəla versin,
Bunun düşmənləri yüz min qəmü dərdə düçar olsun!

Ona bər kim məhəbbət etsə, olsun daxili-cənnət,
Buna hər kim ola düşmən, yeri darül-həvar olsun!

Onun bədxahı düşsün, barilaha, çahi-zindanə,
Bunun əhbabı, yarəb, kamiyarü kamkar olsun!

Fələkqədra, bu gün novruzdur, əyyami-işrətdir,
Bu gunə ruzi-işrət siz cönabə səd həzar olsun!

Bu gün şairlər İranda yazallar mədh əyanə-
Ki, seyti-fəzli əyanın cahanə iştihar olsun.

Edər şairlərə ənam əyanlar zərii xələt,
İlahi, eylə kəslər aləm içrə tacdar olsun.

Məni-biçarə yazdım həın bu ziba şeri-şivani-
Ki, ta Övsafiivüz məndəıı cahanə yadigar olsun.

Bu xidmətçün gərəkdir lütfüvüzdən xürrom olsun dil,
Xəzani-möhnətim dönsün sürurə novbahar olsun.

Nə lazımdır sizin tək şəxslər sağ ikən aləmdə
Mənim qəmdən qaralsm ruzigarım böylə tar olsun?!

Nə lazım siz tək aləmdə hümalər var ikən Seyyid
Gəzib kerkəs kimi hər süfrə üzrə rizəxar olsun?!

Nə layiqdir olam mədyun hər baqqalü əllafə,
Tələbkaran bipərva mənİmçün bişümar olsun?

Gəhi qalsın qələmdanım girovda, gah dəstanm,
Nə dildə taqətim qalsın, nə əldə ixtiyar olsıın.

Bu qış kim, mən keçirdiın, kcçməsin bir kafərə, yarəb,
O güniər kim mənim vardır, ona düşmən düçar olsıın!

Gərək bu fəsldə evlərdə yansın şəmi-novnızi,
Gərək hər çarşənbə süfrələrdə xüşkbar olsun.

Uşaqlar şövq ilə bayramə geysin rəxti-əlvaniar,
Bəzənsinlər çiçək tək cümlə, rəşki-laləzar olsun.

Nə gördü xüşkbarı Aişəm, nə şərni-novruzi,
Nə həm bir rəxti-əlvan kim, bəzənsin aşkar olsun.

Əgər bundan ziyadə şərh qılsam hali-zarımdan,
Budur xovfim ki, mirati-zəmir üzrə qübar olstın.

İlahi, ömrüvüz olsun cahan mülkün də tulani,
Mübarək nızi-novruzi sizə, ey şəhriyar, olsun!

## HACI MOLLA QƏNİYƏ

*Qəsidə*

Güt açıldı, qönçeyi-ümmid xəndan olmadı,
Gülşəni-iqbaldə bir gül nümayan olmadı.
Novbahar oldu, açıldı cümlə güllər, lalələr,
Püstə tək məqsudimiz badamı xəndan olmadı.
Vəsli-güldən bülbülün şad oldu qəmgin xatiri,
Xatiri-qəmginimiz aləmdə şadan olmadı.
Səhvlər səbz oldu feyzi-əbri-gövhərbardən,
Novbahari-arizu səbzü xuraman olmadı.
Gülsitani-aləm oldu səbzü royyan, ey könül,
Gülşəni-iqbalımız sorsəbzü rəyyan olmadı.
Camı doldu lalənin gülşəndə dürri-jalədən,
Bərgi-eyş üzrə mənə bir dürr qəltan olmadı.
Şaxi-Aqərdən təvəllüd eylədi Yəhyayi-gül,
Şahidi-bərgi-təmənnadan bir oğlan olmadı.
Məryəmi-əzrayi-qönçə doğdu İsayi-gülü,
Qönçeyi-məmulimizdən bir gül ehsan olmadı.
Çıxdı Yusif həbsdən, qurtardı Bijən çahdən,
Yusifi-məqsudimiz çün dəfi-zindan olmadı.
Saqiya, novruzdur, həngami-çamü badədir,
Qanə dönmüş badəni içdik əgər, qatı olmadı.
Mahiyi-büryan, kəbabi-bərrədir kim, saqiya,
Yunisi-mehri-fələk Hut içrə pünhan olmadı.
Bərşikəst oldu cahanda sövləti-sərmayi-dey,
Səfheyi-gülzar pamali-gülüstan olmadı.
Şükr kim, oldu qürabül-beyn zail bağdən,
Bülbüli-xoşləhçə məhrumi-gülüstan olmadı.
Yasəmən məğzin çıxartmışdı əgər Zöhhaki-dey,
Şükrlillah kim, onun dərdinə dərman olmadı.
Oldu yağı Gavə tək Novruz dey Zöhhakına,
Bağ onun pamali manəndi-Sifahan olmadı.
Bu işarati bilir əhli-bəşarət, saqiya,
Bilməyən rəmzi-rümuzi əhli-ürfan olmadı.
Məqsədim Novruz vəsfindən nə eydi-tazədir,
Yüz belə eyd oldu, hərgiz karə saman olmadı.

Gər pərişanxatir oldum, saqiya, yoxdur qəmim,
Hansı məcmədir ki, axırda pərişan olmadı?
Əyləşib bir şah övrəngi-xilafətdə bu gün –
Kim, onun bir murinə həmta Süleyman olmadı.
Cənnəti tərk etdi Adəm, rağib oldu kuyinə,
Gördü kim, kuyinə həmta bağı-rizvan olmadı.
Görsə idi nurini, eylərdi səcdə Adəmə.
Nəhyinə münkir onun aləmdə şeytan olmadı.
Təni-rümhü zəxmi-tirü zərbi-tiğindən onun
Hansı farisdir ki, ol xak ilə yeksan olmadı?
Xaki-payı tutiyadır əhli-aləm çeşminə,
Ali-Mərdan xaki-payı ali-İmran olmadı.
Xızr peyğəmbər zülali-lütfünün ehyasıdır,
Ömri-tuli-Xızra bais abi-heyvan olmadı.
"La fəta illa Əli, la seyfə illa Zülfüqar"*,
Şiri-həq şənindən özgə şənə ünvan olmadı.
Ol müəllim "əiləməl-əsma" dəbistanındadır,
Elmdə İdris ona tifli-səbəqxan olmadı.
Bilmədi hər kəs o şahı kim, vəsiyyi-
Müstəfa Şafeyi-qövlində ol kəs əhi-iman olmadı.
Əmrinə asi olan qaldı cəhim içrə müqim,
Fəzlinə münkir olan müslim müsəlman olmadı.
Ey vəsiyyi-Müstəfa, vey tacidari-həlata,
Olmayan çakər sənə aləmdə sultan olmadı.
Bunca kim, övsafi-fəzlin qıldı düşmənlər nihan,
Gün təki tapdı ziya, bir zərrə pünhan olmadı.
Şahsən, çoxdur vilayətlərdə çakərlər sənə,
Hiç bir çakər misali-əhli-Şirvan olmadı.
Xassə kim, bir çakeri-yekrəngdir Hacı
Qəni-Kim, onun zöhdü vərədə tayi Səlman olmadı.
Olmadı bir kəs ki, hübbündən onun şad olmasın,
Olmadı bir kəs ki, büğzündən peşiman olmadı.
Etdi çox tutini ol ayinə ilə tərbiyət,
Oxşadı insanə nitqi, leyk insan olmadı.
Aftabi-feyztabı gərçi qıldı pərveriş,

---

* Əli kimi oğul yoxdur, Zülfüqar kimi qılınc

Leyk hər səngi-siyəh ləli-Bədəxşan olmadı.
Çoxları feyzə çatıb ol mənbəi-ehsandan,
Kimsə, Seyyiddən siva, məhrumi-ehsan olmadı.
Kəbəyi-iqbalını səy ilə övsaf eylədim,
Navdani-rəhmətindən feyz baran olmadı.
Var ümidim ki, bu gün novruzdıır, etsin əta,
Hacıdan gərçi mənə Qurbanda qurban olmadı.
Seyyida, sən haciyə ixlas ilə eylə dua,
Baxma kim, lütfü sənə kəm, ya firavan olmadı.

**HACI MOLLA QƏNİYƏ**

*Qəsidə*

Hacı Molla Qəni, cy taciri-şəhri-Şirvan,
Ey açan izzət ilə kəsbi-həlalə dükkan,

Kəsbi-ruzidə müşəxxəsdi deyilsən kahil,
Nəss ilə kahili kafər dedi soltani-cahan.

Əhli-kəsbi eieyib mədh şahənşahi-rüsul,
Dedi "kasibdi həbibulla"*, əya ruhi-rəvan!

Səndə yox zərrə qədər göfteyi-əvvəldən əsər,
Qövli-sani görünür səndə sərəpay əyan.

Olmusan şamü səhər kəsbi-həlalə məşğul,
Məclisində nə yalan var, nə düruğü böhtan.

Vəqt kim, kəsbi-həlalından olursan fariğ,
Qılıb asudə nəmazın, oxuyursan Quran.

Bundan artıq nə deyim mən sənə, ey can, tərif?
Bundan artıq nə deyim mən sənə övsafü bəyan?

Nə şərafətdi bu kim, qosrüvi ali deyələr,
Qoy ağac ilə daşa fəxr eləsin bişəvü kan.

Nə şərafətdi bu kim, xəz deyələr puşişüvə,
Pusti-heyvandır, ona fəxr eləsin qoy heyvan.

Nə şərəfdir bu külah olsa Buxara dərisi,
Qoy ona fəxr eləsin tazə quzu, ya ki çoban.

Şərəfi-mərd səxavətdi, kəramət səcdə,
Kimdə bıı iki sifət olsa odur əhli-cinan.

---

* Kasıb Allahın dostudur (ayə).

Birinin sendə, əzizim, görürəm asarın,
Biri zahirdü və lakin biri olmuş pünhan.

Görmüşəm çox səni səcdə eləyən xəllaqə,
Gah, gah da görürəm xəlqə edirsən ehsan.

Leyk hər bir sifəti etməyə təkmil çalış,
Olmasın mahi-münəvvər kimi səndə nöqsan.

Sizdən ötrü bu il, ey dust, çəkirdim zəhmət,
Gəh şəbihxan olurdum sizə, gəh mərsiyəxan.

Öz əlinlə elədin pulları yeksər təqsim,
Göttguyə ləb açıb eyləmədim şikvə bəyan.

On manat oldu o məclisdə bərati-Seyyid,
Məndən artıq aparıbdır pulu hər bir heyvan.

Verdün on min mənati heyf o qancaq Əliya,
Bir görək razi idi bu qismətə şahi-Mərdan.

Növhəxanın pulunu axsrı haşa eləduz,
Oldu aşüftədil ol bülbüli-gülzari-cinan.

Atduz üstünə onu Hacı Əliabbasın,
Dedi ki, Hacı Qasun hacı deyil altda qalan.

Görəsən oldumi məlum ki, kim altda qalub.
Kim olub altda qalan, ta kim olub üstə çıxan.

Başın üçün hacı, məcmui-zərafətdi bular,
Yazmışam ki, oxuyub, xatirin olsun xəndan.

Gər deyəm qəlbüvə bir tükcə dəyən söz, haci,
Dilimi lal eləsin qadirü həyyi-sübhan!

Sən mənim köhnə vəliyyünnəəmimsən ki, sənin
Görmüşəm nemti-əlvanüvi ümman-ümman.

Elmi-Haruni gərək, dövləti-Qarun nə gərək,
Nə hünərdir birinin pılu ola yüz milyan.

Nə şərəfdir birisi nəsli-peyəmbər olsun,
Olmaya taəti-peyğəmbərdən onda nişan.

Nə təfəzzüldü biri elm oxuyub alim ola,
Hamıdan artıq idi elmdə məlun şeytan.

Qərəzim sılsiləcünban bizə sən olmaq idi,
Eydi-novruzdə oldum sənə mən təhniyəxan.

Açılır laləvü güllər, gəlir əyyami-bahar,
Xələti-bərk geyər əyninə şaxi-üryan.

Nə rəva bir belə mövsümdə mən, ey sahibi-cud,
Geyməyim əynimə ezaz ilə rəxti-əlvan?!

Var ümidim görünə Seyyidə asari-səxa,
Eyləyə xatiri-məhzunini lütfün şadan.

Barilaha, olasan dəhrdə daim xürrəm,
Yetməsin dövləti-iqbalüvə asibi-xəzan.

Həq bu aləmdə Məhəmmədlə səni şad etsin,
Behəqi-xətmi-rüsul, şafeyi-əhli-üsyan.

## MİR ƏBDÜLQƏNİ AĞAYA

*Qəsidə*

Mübarək eydi-xürrəm, fəsli-xoş, vəqti-təmaşadır,
Müzəyyən oldu aləm kim, bahari-aləmaradır.

Qılır əmvati-gülzari nəsimi-sübhdəm ehya,
Qiyamətdir çəmənlərdə, məgər kim, həşri-kübradır?

Müsəlsəl oldu sünbüllər, açıldı laləlar, güllər,
Qılırlar nəğmə bülbüllər, çəmən bəzmində qovğadır.

Bənöfşə xətti-yar-asa çəmənlərdə olur peyda,
Çü zülfi-şahidi-rəna yenə sünbül mütərradır.

Gülüstanə çəkib cədvəl xəti-reyhan ilə dövran,
Bu ya Ərjəngi-Mani, ya kitabi-Zəndi-danadır.

Təcəlla qıldı gül nari ki, yaxdı bülbüli-zari,
Görənlər səhni-gülzari deyər kim, Turi-Sinadır.

Gülü gəhvarə içrə tərpədir badi-səba gahi,
Sanırsan ki, bu Məryəmdir, o məhd içrə bir İsadır.

Salıb neylufəri-nəynini abə madəri-giyti,
Deyirsən kim, bu Yuxavidürür, ol tifl Musadır.

Pəri-bülbül nədir vəchi ki, yanmaz atəşi-dildən,
Bu İbrahimdir guya ona, ol qövm ədadır.

Kitabi-hikməti şərh eyləyir gülzar-ara bülbül,
Məgər kim, bülbüli-xoşləhcə ol Əqtayi-Luqadır?

Səfayi-Kəbə tək artdı səfası bağü bostanın,
Bəsani-çahi-Zəmzəm əbr tari bağə səqqadır.

Hərəm şövqiylə səflər bağlayıb göy üzrə durnalər,
Cahan ləbbeyk sövtündən dolubdur, şur bərpadır.

Əgərçi kuhlər geymişdi ağ ehramlər qışda,
Olub emaldən fariğ, bu həm bir feyzi-Üzmadır.

Çıxıbdır pişvazə güldən ötrü sünbülü susən,
Məgər gül zayiri-beyti-xudayi-heyyü danadır?

Məgər həcdən gəlir gül, pişvaz eylər onu bülbül?
Mənə bir əmrdir müşkül, bu nə rəmzü nə iymadır?

Məgər şəhrə olur vasil bu gün ol alimü kamil,
Fəniyyü əzəmü fazil ki, elmü helmə dəryadır.

Məhəmmədzadeyi-Heydəməsəb, sibti-
Əbülqasim, Güzini-nəsli-yasin, behtərini-ali-Tahadır.

Səfayi-Heydərü Səfdər, həyayi-paki-peyğəmbər,
Çəmali-bakəmali-dilgüşasından hüveydadır.

O şahın puridir kim, baisi-icadi-aləmdir,
O mahın nuridir kim, varisi-ənharü tubadır.

O kəsdir kim, onun cəddi qılıbdır seyr əflaki,
Nəbiyyü Haşimiyyü şahi-üqba, mahi-Bəthadır.

Şəbi-əsradə gəldi məscidi-əqsayə ol mövla,
Bu sözdən, ey süxənvər, şahidim mebrabi-əqsadır.

Fəni namında vaqedir onun nami-humayuni,
Finayi-təbi-paküə bəli məşhuri-dünyadır.

Fəni ol kəs deyildir kim, çox olsun dövlətü mall,
Fəni ol kəsdü kim, ğanedü, bu zati-müəlladır.

Bihəmdilləh ki, bu əbdi-ğənidir, həm özü qane,
Qənaət qafının simürğüdür, bir mürği-Ənqadır.

Girami qardaşıdır müctəhid ki, bu çahan içrə
Zəbani-şiəvü sünni onun mədhində guyadır.

Həsən namü Həsən xülqü Hüseynü Mürtəzasövlət-
Ki, nuri-Əhmədı-Mürsəl onun vəchində peydadır.

Məgər kim, bürci-vahiddə tülu etmiş iki kövkəb,
Biri guya Ütariddir, biri guya ki, Şiradır.

Bulardır şəxsi-ruhani, bulardır Müstəfa cani,
Bulardır bədri-sübhani, səlili-mahi-Bəthadır!

Bulardır nəsli-Taha, hasili-məzmuni-zülqübra,
Cahan bır ləfz tək peyda, bular ol ləfzə mənadır!

Nə qəm bədxahi olsa bir neçə nakəs bu mövlanın,
Düşərmi rütbəsindən kimsə ki, nəslilə mövladır?

Nə nöqsan şahi-Bəthayə Əbuçəhlin məxafindan,
Kəmali-şəmsi-vəhdət kim, onun vəsfində guyadır.

Həzaran şükr kim, gəldi yenə ol alimü kamil-
Ki, feyzi-məqdəmindən şəhri-Şirvan cənnət-asadır.

Bu il getmişdi "Beytullah"a bir şəxsi-kərim ilə-
Ki, bir əhli-kərəmdir əşrəfi-hər pirü bürnadır.

Xəlili-xüllətəfza beytini etdi təvaf ol kim,
Simayili-nəsəbdir, xülqi rəşki-müşki-saradır.

İlahi, baqi ülsun izzü cahi, şövkətü şani-
Ki, zatən baisi-təzvici-şəri-paki-qərradır!

Hüseyni-Kərbəla həqqinə, yarəb, rəhmlər eylə,
Hüseynü həm Rəhimə lütflər kim, zati-valadır!

Bağışla sən imami-Cəfərə həm Cəfəri, yarəb,
Bu övladə əta qıl ta ki, ərşü fərş bərpadır!

Edərlər ehtiramü lütflər övladi-Zəhrayə,
Bulardan şadxatir Müstəfavü ruhi-Zəhradir.

Əgərçi dəhrdə çox kimsələr səyyah olub, əmma
Səyahət alim ilə eyləmək bir feyzi-üzmadır.

Onun əfzun qılsın əcrini, həm səyini məşkur,
Bəridir reybü nöqsandan ki, bir əhli-təvəlladır.

Əla ya ey yeganə müctəhid kim, bülbüli-təbim
Həvayi-vəsfi-gülzari-kəmalatında şeydadır.

Keçən il eydi-novruz idi, gördüm lütfü ehsanın,
Bir ildir indi zövqü xatiri-zanmda peydadır.

Yenə vardır ümidim kim, bu il, ey mürşidi-kamil,
Görüm əltafü ehsanın ki, xatir pürtəmənnadır.

Dualər eylə, Seyyid, ol əmini-həzrəti-həqqə-
Kim, oldur sahibi-xülqi-Həsən ismi-müsəmmadır.

Həmişə ta ki bülbül şad olur gülzari-fəzlində,
Həmara rəşkdən kim, zağ ilə ol xar bərpadir.

Ola əhbabüvüz dilşad, dərdü qüssədən azad,
Nə nifrin eyləyim bədxahə kirn, peyvəstə rüsvadır.

Zükami var cüəl kim, buyi-güldən eyləyir nifrət,
O yüzdən istəməz xurşidi kim, xəffaş əmadır.

## UĞURLU BƏY ŞIXƏLİBƏYOVA

*Qəsidə*

Alişana, sənə daim ola Allah kömək,
Hökmüvə tabe ola əmri-qəza, dövri-fələk;
Gər sənin lcamın ilə eyləməsə dövr zəmin,
Olsun əczayi-fələk biri-birindən münfəkk.
Varmı yadında ki, ol məclisi-işrətdə mənə
Keçən il mülki-Qəşətdə nə bərat eylədi bəg?
Bir tağar buğda idi şəfqəti alişanın,
Bir də yazda aparam yanı buzovlu bir inək.
Evə gəlcək elədim nəql inək söhbətini,
Nəhrəsin çalxamağı başladılar öyrənmək.
Bir neçə kəndi dəxi buğdaya hazır elədik-
Ki, gələn vəqt sərəncam olunsun bişək.
Bir neçə vəqt keçib olmadı buğda hasil,
Fikr qıldım ki, hələ yaxşı deyildir dinmək.
Doğmuyubdur o inək bəlkə hələ, səbr eylə,
Səbr "müftahi fərəcdir", kişidə səbr gərək.
Bəlkə çox palçıq olubdur Qəşətin yolları,
Çixa bilmir yoxuşu yüklü olan at, eşşək.
Gözləyək bəlkə inəklə belə gəlsin buğda,
Yaz olar yol quruyar, səhl olu buğda əkmək.
Leyk bir il ki tamanı oldu, bu oldu məlum:
Alişanın qərəzində yox imiş şey vermək,
Fikr qıldim ki, bu əhvali-xəcalətxəbəri
Filhəqiqət ki, deyil yaxşı Kərim bəy bilmək.
Həm bu keyfiyyəti filcümlə Uğurlu bəydən
Vacib oldur ki, yazıb künhünü təhqiq eləmək.
Fikri verməkdir əgər, bir belə təxir nədir,
Var isə özgə xəyalı, onu da fikr etmək?
Seyyida, bəsdi bu bihudə xəyalından usan,
Lövhi-dildən bu xəyalat rüqumin elə həkk [?]
Bu nə buğdadi ki, hər ləhzə təmənnası ilə

Gah un tək ağanb, gəh sarahrsan cov tək.
Bu haman buğdadı kim, Adəmi cənnətdən edıb,
Bu haman buğdadı, Həvva başına gətdı kələk.
Ol ki təqdir sənə qismət edibdir ruzı,
Olasan qane əgər "la təxəfəllahü meək'".

## KƏRİM BƏY ŞIXƏLİBƏYOVA

*Qəsidə*

Həzar şükr, könül, mövsümi-bahar gəlir.
Fəzayi-gülşən-ara nəğmeyi-həzar gəlir.
Çəməndə sünbül açar türrə zülfi-dilbər tək,
Məşamə buyi-xoşü nafeyi-tatar gəlir. Nəvayi-
Barbüdü ləhceyi-Nəkisa tək,
Bu mürğzardə fəryadə mürği-zar gəlir.
Dəməndə ləxləxeyi-tar müşkü ud olur,
Çəməndə zümzümeyi-çəngü udü tar gəlir.
Nisar edir çəmənə dürrü gövhər əbri-bahar.
Bəsani-sail açıb pənçəsin çinargəlir.
Bənofşə pişrəvi-ləşkəri-bahar olur,
Təsəvvür eylə ki, Rum üzrə Zəngibar gəlir.
Kəmani-Rüstəmi qövsi-qüzeh edər zahir,
Dey Əşkbusi kimi tirə zəxmdar gəlir.
Bahar Gavə kimi nagəhan xüruc eylər,
Şükuhi-sövləti-Zöhhak tarümar gəlir.
Dəridə pəhluyi-Söhrab tək olur qönçə,
Səhab dideyi-Rüstəm tək əşkbar gəlir.
Diyari-bağə Firiduni-gül olur sultan,
Sürudi-təhniyətə əndəlibü sar gəlir.
Görəndə gülşən-ara sünbüli-dilaranı,
Xəyalə türreyi-pürpiçi-zülfi-yar gəlir.
Xoşa ol aşiqi-xoşbəxtə kim, bu mövsümdə
Büsati-işrətinə yari-gülüzar gəlir.
Nə qönçə tək ciyəri hicrdən dönər qanə,
Nə xatirinə qəmü-dərdə xar-xar gəlir.
Mənim də dövrü bərim rövzeyi-cinanə dönər,
Əgər kənanına ol rəşki-novbahar gəlir.
Görəndə qənd ləbin ol büti-şəkərdəhənin
Gözümə cümlə cahan mülki-Qəndəhar gəlir.
Şərabi-nab məni-zarə ol şəkərləbsiz
Fəraqi-əfiyi-zülfilə zəhrimar gəlir.
O tari-türreyi-pürpiçü xəm fəraqında,

Bu rövşənay cahan gözlərimə tar gəlir.
Yəqin bil ki, fərəhdən çıxar tənimdən can,
Əgər ki, müjdə gələ şəhrə şəhriyar gəlir.
Gətir piyalə mənə, saqiya ki, məxmurəm,
Fəsilə olsa əgər, möhnəti-xumar gəlir.
Gətir piyalə ki, təsiri-badədən, saqi,
Gözümə bu dərü divar laləzar gəlir.
Gətir piyaleyi-gülgun ki, bəhri-təbimdən
Kənara yüz gühərü təbi-şahvar gəlir.
Gətir piyalə ki, məxmur olub qılım tövsif,
O sərvəri ki, mənə mədhi iftixar gəlir.
Kərimi-zülkərəmü mənbəyi-mənabeyi-cud-
Ki, cudi-süfrəsinə Mön rizəxar gəlir.
Desəm səhabi-kərəm ol Kərimə töhmətdir,
Desəm bəhyari-əta himmətinə ar gəlir.
Bir ibtilayə düçar olsa ol yeganeyi-əsr,
Müinü nasir ona ruhi-həştü çar gəlir.
Qəzaleyi-fələki-pir öz ixtiyarı ilə
Kəməndi-himməti-valasına şikar gəlir.
Şikarə əzm eləsə nəsri-çərx rəğbətlə,
O şahbazə qılır meyl, aşikar gəlir.
Bu vəchdən ki, o şahın dərindədir izzət,
O astanəyə hər əhli-etibar gəlir.
Vəleyk bilməyirəm, taleyim dönübdü mənim,
Könül fəraqı ilə zillətə düçar gəlir.
O vəqtdən ki, gedib şəhrdən o mabi-kərəm,
Zəmanənin mənə nöqsanı hər nə var, gəlir.
Gəhi səidü şəqi halımı edər dərhəm,
Gəhi ədilü bədil əmrə aşikar gəlir.
Düşübdü nakəsü nadan əlinə əfsanın,
Behişt naqəsinə nari-qəm mahar gəlir.
Süheyl-xasiyətəm düşmənimdü ali-zina,
Nə qəm, müqabilə gər mərdi-nabəkar gəlir.
O kəs ki, rövzəneyi-püştdən tapıb ruzi,
Hər ayinə çü hərayinə ruzigar gəlir.
Vəlcyk rövnəqi olmaz o gərmi-şəbtabın,
Süheyl tabiş edər ömrü tarümar gəlir.

Könül, bu qədr belə ixtiyardən düşmə,
Yenə Şəmaxiyə ol sahibixtiyar gəlir.
Əgərçi Qaraçala eylədi günün qarə,
Tülu edər yenə gün, şəb gedər, nahar gəlir.
Yenə o sərvi-rəvan lalə tək çıxar dağə,
Əlaci-dərdi-diti-zarü dağdar gəlir.
Büsati-bağı edər Tur gül təcəllası,
Təcəlliyati-xuda bağə aşikar gəlir.
Şəmimi-müşk tutar səhni-bağü səhranı,
Bənəfşə seyrinə bu zülfi-müşkbar gəlir.
Yenə qulağə yetər sövti-nalcyi-dürrac,
Sədayi-kəpkdəri zibi-kuhsar gəlir.
Xuda kərimdir, ey dil, qərar tut bir dəm,
Gəlir Kərim bəyin könlünə qərar, gəlir.
Yenə düşər sənə ol Sədi-Əkbərin nəzəri,
Yenə mədarına bu çərxi-kəcmədar gəlir.
Çıxar bu zağü zəğənlər fəzayi-gülşəndən,
Həzar nəğmə ilə əndəlibü sar gəlir.
Bu arxa su gəlib, ümmid var bir də gələ,
Yetər sənubərə zövq, abi-cuybar gəlir.
Dəxi bu xaneyi-möhnətdə qalmasan sən mat,
Yenə hərayüvə ol miri-şəhsüvar gəlir.
Fəda olum sənə, ey xirməni-nəvali-əta,
Hər il vəzifə mənə buğda bir tağar əlir.
Gəlib payızda bizə nisfi-buğdamız, lakin
Ümid var ki, qalan nisfi bu bahar gəlir.
Mədaxil azdı, məxaric füzun, nə çarə qılım?
Əyal qüssəsi qəlbi-həzinə bar gəlir.
İlahi, eylə bu zatın cəlalını əfzun,
Həmişə nasir ona lütfi-kirdigar gəlir.
Əli nəbirəsidir çünki bu Hüseynzadə,
Cəza günündə Əlivü Hüseynə yar gəlir.
Ömər sülaləsinin ömrün eylə əfzun kim,
Müəmmərinə onun feyzi-bişümar gəlir.
İlahi, eylə Simailə* canımı qurban,

* İsmayıla.

O tiflə Hacərü Sara ki, cannisar gəlir.
Hicabü ismət ilə eylədin dua, Seyyid,
Ağa bu şeri görə, afərin həzar gəlir.
Qənaət eyləməsən afərinə, yoxdur qəm,
Bahardə sənə bir əsbi-rahivar gəlir.
İlahi, ömr eləsin bu kərəm ilə ağa,
Nə qədr aləmə kim, fəsli-növbahar gəlir.

## AĞA BƏY SOLTANZADƏYƏ

*Qəsidə*

Sahiba, ey kim, sənitı övsafi-zatın qılmağa
Ərseyi-dünyayə əvvəldən sənaxan gəlmişəm.

Kəbeyi-məqsudimiz sənsən, Minadır dərgəhin,
Bu Minayi-dövlətə qoç kimi qurban gəlmişəm.

Duşməni-Mərhəb-misalın qanə qəhan etməyə
Zülfüqari-Heydərəm, dünyayə üryan gəlmişəm.

Sərvəra, üç aydı getmişdim Dağıstan seyrinə,
Bu səfərdən olmuşam xeyli peşiman, gəlmişəm.

Görmüşəm biganə dəstində babamın mülkünü,
Qeyrətimdən qönçə tək bağrım olub qan, gəlmişəm.

Bu səfərdən düşmüşəm hədsiz qaranlıq günlərə,
Dönmüşəm nisfindən ötmüş ayə, nöqsan, gəlmişəm.

Şəhrdə bir növ qurtardim orucluq ayını,
Şəhri-şəvval içrə bu dərgahə mehman gəlmişəm.

Ta ki bu dərgahə gəlduinı, ruh tapdım tazədən,
Eylə bildim, sahiba, dünyayə olan gəlmişəm.

Fəqr dərdilə mizacım istiqamətdən düşüb,
Bilmişəm lütfündə var ol dərdə dərman, gəlmişəm.

Bir mühəqqər mur idim çöllərdə sərgərdan gəzən,
Təxti-izzətdə səni gördüm Süleyman, gəlmişəm.

Sahiba, bu gəlməyim əqdəmki gəlmək tək deyil,
Gərçi bu dərgahə mən hər il firavan gəlmişəm.

Mən özüm hərçənd xatircəmlik tapdım, gəlib,
Leyk bir cəmin qoyub halın pərişan gəlmişəm.

Zahirən evdir adı, amma unu, buğdası yox,
Atmışam guya ki, bir köhnə dəyirman, gəlmişəm.

Salmışam ancaq elə bir həftənin əncamını,
Qoymuşam bir tay kömür, on beş ədəd nan, gəlmişəm.

Bir müsəlman yox ki, tutsun bir müsəlmanın əlin,
Şəhri-Şirvanı görüb bir kafəristan, gəlmişəm.

Hamıdan bədtər bu kim, ardımca çakərzadənin
Çeşmi-şəhlasın qoyub əşk ilə giryan, gəlmişəm.

Sahiba, bu yazdığım hərfin biri böhtan isə,
Bil ki, mən islamə bəs manəndi-Mərvan gəlmişəm.

Çarə qıl kim, getdi əldən xanımanı Seyyıdin,
Sənsən, ey sahibkərəm, sultanı, xanı Seyyidin.

## AĞA BƏY SOLTANZADƏYƏ

*Qəsidə*

Alişana, Ağa bək, eyni sənün xidmətüvə,
Baş əgər Ərəbü Xurşidü fələk hər saat.

Omrün olduqca bu saati-fələkdən şəbü ruz
Derdə görmiyəsən hiç mükəddar saat.

Düşmənün qoynuna saat qoya gər ziynət üçün,
Nişi-əqrəb tək ola xəsminə niştər saat.

Ol sabir ki, gəlür saat içindən guşə
Eyliyür ismi-hümayunuvi əzbər saat.

Sahiba, məqsudi-Seyyid sənə xud zahirdür,
Bunca kim qafiyədə oldi mükərrər saat.

Varmı yadunda ki, Bakudə didüm saat alaq,
Vədə verdün, verəsən sən mənə digər saat.

İmdi üç aydu ki, dörd ayə gedür, yox əsəri,
Quş olub, yoxsa gögə uçdi, tapub pər saat.

Gərçi mövcud isə bəs illəti-təxiri nədür?
Yoxsa yadundan olub məhv o kafər saat.

Haşəlillah bu nə zənndür ki, səxadən qalasan,
Nəzəründə bilürəm xakə bərabər saat.

Sahiba, çatdı qəzadən mənə saat qabi, qəzadən mənə!
Olmadı heyf o qab içrə müyəssər saat

Məni bu dərd necə əgməsün, ey kani-kərəm? –
Ki, qoyub qoynuna hər bisərüpalər saat.

Dün fələkdən bu hekayətdə şikayət elədim,
Dedim: ey çərx, qoyub qoynuna hər xər saat.

Mən ki, ey çərx, sənün şişəvə daş atmamışam,
Nə olur, həm qoya bu Seyyidi-müztər saat.

Tənilə verdi cəvabim fələki-minayi, -
Ki, nə layiq qoya övladi-peyəmbər saat.

Bir baban var idi kim, tapmaz idi iki çörək,
İmdi sən xahiş edürsən qoyəsən bər saat.

Dedim: ey çərx, mənim va, Ağa bəg tək şahim,
İstəsə yer yüzü hər gün olu yeksər saat.

Ol Ağa bəg kim, onun şəfqətü əltafından
Qoyub ikramilə hər pirü qələndər saat.

Saat üçün fələkə hökmü ola gər cari,
Oli filhal dönüb mahi-münəvvər saat.

Müxtəsər, tuli-kəlamımdən, əya kani-kərəm.
Seyyidi-zarə gərəkdür ola zivər saat.

Bu təmənnadə gümanım budu kim, eyb degila,
Öz ağasından əgər istəsə çanər saat.

## HACI ÖMƏR BƏY ŞİRVANİYƏ

*Qəsidə*

Olub rəncidəxatir ki könlüm bir nəfər bəydən,
Həras eylər ilan vurmuş öküz tək indi hər bəydən.

Məzaqımda betərdir xasiyətdə zəhri-qatildən,
Əgər bimar könlüm hasil etsə gülşəkər bəydən.

Eşitmişki, bəylər himmətindən şər dönər xeyrə,
Bəşərdən nişam nifrət ki, xeyrim oldu şər bəydən.

Dəxi bəylər büsatın görməyə hərgiz gözüm yoxdur,
Əgər xeyrim ola hər gündə dünyalar qədər bəydən.

Təqərrüb eylədim hər bəylə, mən bədbəxtlik gördüm,
Xoşa ol şəxslər kim, oldu onlar bəxtəvər bəydən!

Mənim xud danə immidiylə axır şəhpərim sındı,
Əgərçi bağlayıb dünyadə çoxlar balü pər bəydən.

Dirəxti-biddən etmək səmər ümmidi asandır,
Vəli müşküldü xeyli tutmaq ürnmidi-səmər bəydən.

Şikayət eyləyərdim dün gecə yüz ahü zar ilə,
Çəkirdim rişteyi-nəzmə ki, çəkmişdim nələr bəydən.

Zəbani-rənd açıb bir yari-danadil ki, ey Seyyid,
Qiyas etmə təmamən bəyləri sən bir nəfər bəydən.

Tutaq ki, bəylərin vardır ziyanı qeyri-kəslərçün,
Təvəqqe əhlisən sən, şairə olmaz zərər bəydən.

Gözündən gəlsin ol ənamü ehsanlar, o nemətlər-
Ki, aldın gah buğda, gah pul, gah atü xər bəydən.

Belə bədxərclik kim, səndə var tab eyləməz dərya,
Əgər mədən ola, canım, qutarır simü zor bəydən.

Gərəkdir səndən etsin əlhəzər bəylər əcəbdir bu,
Utanmazsan ki, bəs sən eyləyirsən əlhəzər bəydən?

Yadından çıxdı yoxsa ol bürünci-tazəvü birənc,
Gəlirdi xitteyi-Şirvanə yük-yük hər səfər baydən.

Bu nə kufrani-nemətdir, bu nə asari-bidətdir,
Qılırsan nə şikayətdir bu ol sahibhünər bəydən?

Hanı ondan səva, insaf qıl, bir bəy ki, tutsun əl,
Məgər məqsud olur hasil cahan mülkündə hər bəydən?

Bu il bəs hanı buğdan, hansı bəydən xeyrə çatdın sən,
Muradın hasil oldu söylə hansı taci-sər bəydən?

Filan bəydən nə oldu hasilin, yainki behmandan,
Bu il nəfin nədir, gəl vazeh eylə müxtəsər bəydən.

Dedim ey dust, xamuş ol ki, bu təqsir səndəndir,
Təmənna etdiyim yoxdur bu il bir mahəzər bəydən.

Təmənna eyləsəm hər şey ki, ol dünyadə mümkündür,
Təvəqqüfsüz olur hasil bu gün Hacı Ömər bəydən.

Muradım olsa buğda buğda tək çak ctmənəm sinə,
Təvəqqe eylərəm Hacı Ömər b;ıy ktmi nər bəydən.

Nədir buğda ki, ondan ötrii Adəm tək olam qəmgin,
Olur hasil təmənna eyləsəm ləlü gühər bəydən.

Həvayi-qeyr ilə hər ləl tək qan eyləmə bağrın,
Tələb qıl rəngkarın, ey dil, ol xurşidfər bəydən.

Əla, ey saniyi-Faruq, əla ey mədələt kani,
Ömər qılsın fəxarət sən kimi sahibzəfər bəydən.

Qılıncın kəskin olsun Zülfüqari-paki-Heydər tək,
Səni xəllaqi-aləm eyləsin mümtaz hər bəydən.

Bu il bir mərhəmət qıl Seyyidin həqqində, cy sərvər,
Desinlərkim, olubdur, şükrlillah, bəxtəvər bəydən.

## MÖHSÜN BƏYƏ

*Qəsidə*

Əyyami-bahar oldu, açıldı gülü latə,
Aldı gülü lalə ələ bağ içrə piyalə.

Bu mövsüm əgər, saqi, deyil mövsümi-işrət,
Bəs cam nədəndir ki, alıb dəstinə lalə?!

Gər badi-bahari deyil İsa, nə səbəbdən
Yüz nitqi-fərəhbəxş verir bülbüli-lalə?

Tərlər, necə ki, arizi-məşuqə həyadən
Hər sübh gül üstə düşər ol növ ilə jalə.

Məhbubə yanında necə ki, yalvarır aşiq,
Bülbül gülü görcək edir ol növ ilə nalə.

Təsiri-bahar ilə olur şimdi tənavür,
Sərma ilə hər nəxl ki, dönmüşdü ufalə.

Dumalər oxur gah Əşiran, gəh Əbülçəp,
Gah şəkli-müsəlləs, gah urar cümləsi halə.

Gülşəndə qiyamətdi ki, bu xakdən, cy dil,
Güllər götürüb başını, əhsəntü, bu halə!

Gülşəndən əyan oldu yenə cənnəti-mövid,
Süni-əzəii yetdi gülüstanda kəmalə.

Gəh bad çəkər türreyi-sünbüllərə şanə,
Gəh qazələr eylər yədi-qüdrət güli-alə.

Aşiq təki nərgis gözün açmış nigərandır,
Guya ki, alıb səbrin onun bir gözü alə.

Gül bülbüli-şeydayə edər ərz cəmalın,
Bir al ilə istər ki, onun könlünü alə.

Güldür ərəqi-ruyi-Məhəmməd, gülü görcək
Göndər sələvat Əhmədi-Muxtar ilə alə.

Mafatə mükafat qılıb badi-baharı,
Tədbir eləyir maziyu müstəqbəlü halə.

Gülzarı zimistandan alıb verdi baharə,
Yazdı xəti-reyhan ilə bir nəğz qəbalə.

Xoşbəxt o kəslərdi ki, bu fəsldə hər gün,
Gülşəndə ola həmnəfəsi camü piyalə.

Xoşbəxt o kəslərdi ki, bu gərdişi-gərdun
Eylər oların qismətini eyşə həvalə.

Hərçənd mənim dostrəsim yoxdu bu kamə,
Bir kani-səxa leyk gəlir fükrü xəyalə.

Bir kani-kərəm, kəhfi-üməm, növgüli-iqbal,
Möhsün bəyi-fərxəndəşiyəm, "damə cəlalə!"*

Bir tazə cavandır ki, dəxi bəxti cavandır,
Yetsin görüm ol Xızr təki dəhrdə salə.

Xurşid cəlalın fələki-şöbədögərdan,
Ey bari-xuda, verməsin aləmdə zəvalə!

Abi-kərəmü lütfi-xuda, gərdi-məlali,
Peyvəstə qıla daməni-eyşindən izalə.

Ey bari-xuda, aləm-ara badi-həvadis,
Dəhr olduqcan əsməsin ol tazə nihalə.

---

* Cəlalı əbədi olsun!

Bəxşayiş ilə xəsm edər ol xəsm zəbanın,
Ədalər ilə hacəti yox cəngü cidalə.

Sahibkərəma, gərçi bu aləmdə fəqirəm,
Əmma nə fəqiri ki, düşəm zilli-süalə.

Təbinı ki, qənaət eləyir bir qədək ilə,
Yoxdur həvəsim aləm ara ətləsü şalə.

Gərçi geyərəm şal, əgər mümkünüm olsa,
Əmma nə düşüm, olmasa gər, fikri-məhalə?

Bəylər kimi hərçənd mənim şal donum yox,
Nə şohrə bu gün nayibam, axır nə mahatə.

Hər kəs ki, tuta bəy ətəyin, bəy olur axır,
Şirin olur ağzı, dəyər hər kəs əli balə.

Səd şükr ki, Seyyid tutub ol damәni-pakın,
Ümmidi budur kim, gələ lütfünlə kəmalə.

## HACI ƏBDÜLƏHƏD MÜTƏLLİBZADƏYƏ

*Qəsidə*

Gəlir novruz kim, güllər çəməndə aşikar olsun,
Açılsın laləvü gül zinəti-fəsli-bahar olsun.

Gəlir ol fəsl kim, nərgislər açsın çeşmi-şəhlasın,
Zimistan badəsindən məst olanlar huşyar olsun.

Götürsün başını torpaqdan ehya olub güllər,
Çəkib sərvi-səhi qamət, qiyamət aşkar olsun.

Gülüstan içrə etsin nəğmeyi-Palizban bülbül,
Səhi sərv üzrə qümri ləhcəsi azadvar olsun,

Xədəngi-jaləni pürtab qılsın Rüstəmi-nisan,
Dü çeşmi-bəhmənü dey kur çün İsfəndiyar olsun.

Gətirsin taciri-badi-səba bari-giranmayə,
Mətai müşkü ənbər, səndəlü udi-qumar olsun.

Edib səyyadi-qüdrət bir belə tədbiri-ziba kim,
Qəzali-mehr gəlsin, bərreyi-gərduna yar olsun.

Əcəb olmaz qəzalı şir aləmdə şikar etsə,
Təəccüb bundadır kim, bərrəyə ahu şikar olsun.

Otursun xosrovi-xurşid təxti-aci-Cəmşidə,
Açıb gəncineyi-çudin cahanə zərnisar olsun.

Ləbi-məşuqələr tək qönçə şəkkərxəndə qılmaqçün
Bəsani-çeşmi-aşiq əbri-nisan əşkbar olsun.

Çəməndə atəşi-sina əyan olsun güli-tərdən,
Təcəllasında bülbül misli-Musa biqərar olsun.

Dəridə damən ilə qönçə çıxsın bəzmi-xəlvətdən,
Züleyxa kimi bülbül öz işindən şərmsar olsun.

Bu gün novruzdur, tök zülfüvü rüxsarüvə, saqi,
Gərəkdir kim, bərabər müddəti-leylü nəhar olsun.

Ayağı başın üçün etmə bir dəm badədən xali,
Əlündə sağəri-səhbayi-xurşid-iştihar olsun.

Gərəkdir xoş keçirmək bir belə mövsümdə övqatı,
Mey olsun, şəkkər olsun, əldə cami-xoşgüvar olsun.

Bu gün ol gündü kim, çəng oldu bişək düşməni-
Heydər, Nə eybi var əgər çəngində mütrib, çəngü tar olsun.

Bu gün ol gündü kim, mövla oturdu təxti-izzətdə-
Ki, ta ədasının ruzi-sətidi şami-tar olsun.

Əgərçi zadeyi-Süfyani-biiyman həsadətdən
İradə qıldı kim, pərxaşü cəngü girüdar olsun.

Deyil cayi-təəccüb hindədən bir böylə bədtinət,
Gərəkdir ot kökü üstündə bitsin, paydar olsun.

Gəlib Suqi-Ükazə mövsümi-həcdə quran xeymə,
Gərək ol zaniyə nəslində böylə yadigar olsun.

Siriştə tinəti olmuşdu çün kim, nari-duzəxdən,
Gərəkdir nardə əlbəttə bir asari-nar olsun.

Dirəxti-pürxəbisə sındı gərçi tarümar oldu,
O nəslə indi lənət eyləyənlər tarümar olsun.

Dirəxti-teyyibə şahi-Nəcəfdir, ali-əşrafi
Çü əsü sabit oldu, rəfi qoy gərdunmədar olsun.

Siracullah nurin istədi düşmən ola xamuş,
Vəli hyqq istədi ol nur nuri-hər diyar olsun.

Mədinə, Kərbəla, mülki-Nəcəf, arzi-Xorasani
O nur ilə xudavənd istədi kim, nurbar olsun.

Diyari-Şirvani etdi bir nur ilə həm rövşən-
Ki, müxlislər gözü rövşən, müxalif çeşmi-tar olsun.

Əgər məndən sual etsən o nuri-paki-sübhani,
Çəkib ol istiarətdən deyim qoy aşikar olsun.

Odur nəsli-Vəli, nuri-cəli, Seyyid Əli Ağa
Ki, əllamə gərəkdir xidmətində pişkar olsun.

Fəximü məfxərü əfxəm, əlimü alimü ələm,
Fahimü müdrikü əzəm, həlimi-bürdü bar olsun.

Yeganə fazili-Şirvan, mahin sibti-şəhi-Mərdan.
Ona hər kim olur üdvan yeri darül-bəvar olsun!

Əlində xaməsi bədxahə olsun əjdəha, yarəb,
Əsası düşməni-Mərhəb-xisalə Zülfüqar olsun!

Dimaği-bədsəkah sünbülasa olsun aşüftə,
Dili-həssadi, ya rəb, lalə kimi dağidar olsun.

Nə qəm kim, bir əhəddən olmasa karından imdadı,
Xudavənda, təki Hacı Əhəd aləmdə var olsun!

O Əbdül Müttəlibzadə ki, yox manəndi dünyadə,
Səxadə şəni-valadə şəhiri-ruzigar olsun!

Tiçarət-pişə, xeyr-əndişə, nəxli-izzətə rişə,
Hünər aslanına bişə həmişə bardar olsun!

Qılır kuşiş ticarətçün, dili-xəlqi ziyarətçün,
Bina qoymuş imarətçün, ilahi, üstüvar olsun!

İlahi, sadiqi-haziq ola hər qövldə sadiq, Vilayi-
Heydərə vasiq, mühübbi həştü çar olsun!...

Edibdir valideynin şad, qoymuş xeyrdə bir ad,
Gətirmiş su o xoşbünyad, yarəb, bərqərar olsün!

Gel, ey abi-bəqani zülmət içrə axtaran bülbül,
Bu sudən iç ki, könlün şad, ömrün paydar olsun!

Budur "eynən tüsəmma səlsəbilən", ey büləndəxtər!
Gəlib bu sudən iç, abi-bəqa çeşmində tar olsun.

İçib bu suyi hər kəs kim, Yezida eyləməz lənət,
O məzluma səlam etməz, ona su zəhrimar olsun!

Əla, ya Hacıya, dərya-nəvala, kani-əfzala,
Sənə mövlayi-Qənbər hər iki aləmdə yar olsun!

Keçən il eyddə bir lütf qıldın Seyyidi-zarə,
Gərəkdir feyzüvün adabi-şükrü səd hezar olsun.

Gərək hər ayda çatsın əhli-fəqrə feyzi-ehsanın,
Nəinki mən kimi ildən-ilə ümmidvar olsun.

Deyil haşa şikayət etdiyim, bunlar zərafətdir,
Gərəkdir sözdə bir cüzi nəmək, ey tacidar, olsun.

Bihəmdilləh, deyilsən özgələr tək, əhli-danişsən,
Tanırsan qəlb ilə ol nəqdi kim, kamil-əyar olsun.

Səvad ilə deyildir adəmin hər işdə təşxisi,
Deyil adəm hər ol bir kəs ki, qəsri zərnigar olsun.

Xəzü səncab ilə fəxr eyləyən kəs xeyli heyvandır,
Gərəkdir zinəti-insan elm olsun, nisar olsun.

Nə ol elmi ki, vardır məndə, bir də qəlbi-şeytanda.
Gərəkdir elm olan kəsdə əməl həm paydar olsun.

Əgər bir kimsədə elmü əməl olsa səxavətsiz,
İnanma cənnətə daxil onun tək xərsüvar olsun.

Bular tovəm təvəllüd eyləyiblər, üç bəradərdir,
Gərəkdir hər birinə hər üçü hər işdə yar olsun.

Sepayə bir ayağı sınsa, diki saxlamaz möhkəm,
Gərəkdir üç ayağ ilə sepayə bərqərar olsun.

Dəlail çox bu mənayə, vəli meydanda vüsət yox,
Yetir əncamə, itmamə gərəkdir ixtisar olsun.

Yetər Hacı Əhəddən xələtü ənamü ehsanin,
Xəlifə malıdır Bağdad içində hər nə var olsun.

Nə gün səndən kəsibdir abi-lütfu feyzü ikramın,
Qərəz ki, şəxsi-şairsən sənə bu şivə ar olsun.

Əgər dünyaları qoysa sənin anbaruva dolmaz,
Gərəkdir bu mətaə özgə kəs anbardar olsun.

Çəhənnəmsən, sənə "həl imtələtə" söyləsə xaliq,
Sənin "həl min məzid" itə cavabın aşikar olsun.

Sənə hər il nə qədri pulü xələt çatdı ağadən,
Sənin bir görmədim fəsli-xazanın novbahar olsun.

Nə bir əynündə faxir camə, nə kisəndə simü zər,
Nə bir şamında şamın, nə naharında nahar olsun.

Hər ol bir şəxsi ac istər xuda, dönməz tənəümdən,
Gərəkdir kim, həmişə xarü zarü xaksar olsun.

Tutaq Haçı Əhəd qıldı bu il də on manat ehsan,
Get özgə kar tap, bundan sənə hasil nə kar olsun?!

Bu gunə şair olmaqdan sənə culablıq xoşdur,
Nə şer olsun cahanda, həm nə şairlik şüar olsun.

Nəsici-ənkəbut əfzəldir indi şeri-şairdən,
Mətai-fəzlə müşgüldür ki, minbəd etibar olsun.

Şəhi-Səlçuqlərdən sonra getdi rövnəqi şerin,
Baxan yoxdur dəxi gər şer düri-şahvar olsun.

Qənaət qafını ənqayi-məğrib tək nişimən qıl,
Nə lazımdır hüma manəndi-kərkəs cifəxar olsun!

Çəkil bir ğarə, çək ağuşə bir yari-güləndamı,
Sənə bəsdir cahanda gər belə bir yarü ğar olsun.

İlahi, fazili-Şirvan ilə Hacı Əhəd daim,
Cahanda kamranü kambəxşü kamkar olsun!

## HACI ƏHƏD MÜTƏLLİBZADƏYƏ

*Qəsidə*

Novbahar oldu, könül, dəhri tutub zövqü səfa,
Geymisən Kəbə kimi sən nə üçün böylə qəra?

Başinə qönçə qoyub bərgi-zümürrüddən tac,
Əyninə lalə geyib izzət ilə sürx qəba.

Xəlvəti-xasi-Züleyxadı məgər səhni-çəmən-
Ki, gülün xari-cəfa pirəhənin qıldı qəba?

Tök mürəsse qədəhə badeyi-xurşidvəşi,
Aftab etdi Həməl bürcünü, saqi, məva.

Həmələ gəldi bu gün ahuyi-zərrmi-fələk,
Etdi biçunü çəra gör ki, bu mərtədə çəra.

Həft sin içrə bu əsnadə səmək lazimədir,
Hutdən çünki olur Yunisi-xurşid rəha.

Aləmi-pir bu gün oldu cavan, ey saqi,
Əyləşib eyşü nişat etməyə pirü bürna.

Bülbül izhar qılıb həncəreyi-Davudi-
Ki, salıb şur ilə bu çərx həsarinə nəva.

Zağ edib tərk Əbülçəp kimi ahəngi-çəpi,
Rast sərv üzrə çıxıb qümri olub nəğməsəra.

Oxuyur ləhni-Hicaz ilə pərəstu nəğəmat,
Eyləyir-ləhni-hüdi hüdhüdi-gülzari-Səba.

Ruzi-novruz edib dəkkeyi-əttar güşad,
Aləmə ətr verir ləxləxeyi-badi-səba.

Bülbüli-zar gülün hüsnünə qalmış heyran,
Həq təcəllasına məbhut qalan tək Musa.

Gül açıb çöhrəsini arizi-İshaq kimi.
Saçılır hər tərəfə nəfxeyi-müşki-sara.

Ərzi-Babildi çəmən, bülbüli-bidil Yəqub,
Laləvü gül biri Rahil və biridir Ləyya.

Lalənin rəngi şəfəq kimi basıbdır sürxi,
Ərzi-Əqdəsdə əyandır yenə xuni-Yəhya.

Nəfəsi-İsəvi asar ilə badi-səhəri
Edər əmvati-gülstanı bu günlər ehya.

Səhni-gülşəndə olur cənnəti-mövud əyan,
Aləmi-ricət olub dəhrdə hər yan peyda.

Nəfxeyi-sürdü guya nəfəsi-badi-səhər,
Nəfx olub surə bu gün, zində olubdur mövta.

Qönçəyə müjdeyi-İshaqı verir ruhül-əmin-
Ki, edər xəndə təəccüblə lisani-Sara.

Bərqi-novruz töküb fəsli-zimistan qanın,
Nəsbi-sultani-gülə bağdə oldu şura.

Qış gedib gəldi bahar, oldu əyan vəcdi-sürur,
Ey könül, şad olusan rəmz ilə olsan dana.

Üqdeyi-rəsi-zənəbdən qutarıb mahi-münir,
Şükr kim, rəfi-xüsuf oldu, verir dəhrə ziya.

Şad ol, ey xatiri-qəmdideyi-məğbun ki, bu gün
Aləmi şur tutub, vəcdə gəlib ərzü səma.

Rəvişi-şerdə ustadlıq eylə zahir,
Muşikafani-cahan ta ki desin "amənna!".

Ümənayi-bələd üçün oxu bu əşari,
Sənə ənam eləsin ta ki o fəxri-üməna.

Hər nə məqsudi-dilindir, sənə ənam eylər,
Hacı Əbdüləhəd, ol püştü pənahi-füqəra.

Talibi-həqqədi mətlubi-Mütəlübzadə,
Talibin mətiəbi məqsudini eylər ilqa.

O çahanbəxş ki, ənanının eylər şükrün,
Hamiyi-seyyidi-sadatü güruhi-üləma.

Zayiri-Kəbə olubdur o büləndəxtər kim,
Onun ehsanına göz dikmiş ümumi-füqəra.

Müxlisi-müctəhidi-əsr, müridi-hasil,
Çakəri-ali-peyəmbərdi, mühibbı-ağa.

Ta Əli nurini rüxsari-Əliqoə görmüş,
Məhv olubdur necə ki, Mehr şüaində Süha.

Çoxları oldu rəvan, türfə onun tək, lakin
Çoxları getdi bu il həccə onun tək, amma...

Birisi etmədi bir mərdi-fəqirə ənam,
Birisi etmədi bir biveyi-biyarə əta.

Leyk bu açdı gedən vəqt səadət əlini,
Etdi hər bir kəsin öz halına şayistə səxa.

Hər kəsə dırhəmü dınar verib, malü mənal,
Hər fəqirə kəsilib qismət olundu kala.

Cümləsi oldu gələndən sora məlum bizə,
Nə qədər Yəsrübü Bəthadə edibdir əta.

Belə getsin gedəcək kim ki, təvafi-həccə,
Bu sifət getməyəcəkdir dəxi bir kəs, haşa!

Gərək asarı bunun dəhrdə tarix olsun,
Qala baqi adı ta var bu dünyayə bəqa.

Məkkədən getdiyi sövqatı gəleydi ələ gər,
Olacaqdır bilirəm bəndəyə bir Misri əba.

Leyk, bəxtim mənə yar olmadı, qaldım üryan,
Pozdu mən eylədiyim qüvveyi-tədbiri-qəza.

Hiç şək yox, bilirəm ki, o səxavət kanı,
Yenə lütf eylər oba Hacı Riza olsa riza.

Haşəlillah, demərəm Hacıya mən maneyi-xeyr,
Xass bir şəxsə ki, mən tək ola bir bərgi-nəva.

Xassə bir şəxs ki, məddahı ola ağanın, Eyləyə ali-
Əli vəsfini hər sübhü məsa.

Xeyrxahımdı məniın Hacı Rizanı bilirəm,
Zinəti-qafiyədən ötrü bu söz oldu əda.

Rastlıqdan bu sözü teybət üçün nəzm etdim,
Kəc xəyal etsə əgər Hacı, mənə va əsəfa!

Haşəlillah ki, muradım ola bir özgə xəyal,
Müxlisəm Hacıya, bülah ki, bireybü riya!

Çünkn məlumdü Məşdi Əliyə əhvalım,
Var ümidim ki, verə ayineyi-qəlbə səfa.

Yəni təfsir qıla sözlərimin mənasın,
Tutmaya Seyyidi-sərkəştəyə şerində xəta.

Mürdəşirzadə əgər annamasa məzmunu,
Eybi yox, dübbədü, yox zehn ilə həm fəhmü zəka.

O nə bilsin ki, nədir vəsfi-Əmirül-Bərərə,
O nə bilsin ki, nədir midhəti-sultani-hüda.

O nə bilsin ki, nədir nəzmdə səngin mətləb,
Ö nə bilsin ki, nədir şerdə rəngin məna.

Seyyida, bəsdi zərafət, sınacaqdır bu hərif,
Mollasan sən də, bəli, dübbə biləndir molla.

Barilaha, ola Hacı Əhədin ömrü diraz,
Saxlaspın cümlə bəladən onu daim mövla!

## ƏHMƏD BƏYƏ

*Qəsidə*

Əssəlam, ey güli-gülzari-səxa Əhməd bəy,
Dürri-dəryayi-ədəb, kani-əta Əhməd bəy.

Yanmışam suzü güdaz ilə, edibdir xamuş
Şəmi fanusi-xəyalımı həva, Əhməd bəy.

Yetdi bikəsliyim ol qayətə kim yanımda.
Durmayıb tünd fərar etdi səba, Əhməd bəy.

Bir xəbər ver mənə bəydən ki, nə vəqti gələçək,
Hüdhüdi-xoşxəbəri-şəhri-Səba Əhməd bəy.

Bu Süleymanə hücum eylədi divani-bəla,
Xatəmi-işratimə yetdi bəla Əhməd bəy.

Əkl edər mənbəeyi-ömrümü bu daneyi-fəqr,
Yıxılar nəxli-qədim, sınsa əsa Əhməd bəy.

Xatəmi-işrətimi div alıbdır əldən,
Hökmüm olmaz dəxi bir şəxsə əda, Əhməd bəy

Hər büsatı ki, tədarüklə mən etdim çidə,
Badə bəzl etdi onu badi-fəna, Əhməd bəy.

Dürlərim dürci-dəhanımda olubdur nabud,
Getdi yəğmayə o löluyi-səfa, Əhməd bəy.

Ey bəşarətmənişi-zadeyi-sərxeyli-bəşər,
Müjdəbəxşi-dili-ərbabi-vəfa Əhməd bəy.

Nuri yox gözlərimin, eynəyə möhtac oldum,
Qatmayıb mərdümi-çeşmimdə ziya, Əhməd bəy.

Tir olan qamətimi qövsi-fələk qıldı kəman,
Yan gedər tirim, edər indi xəta, Əhməd bəy.

Taciri-Çin idim əvvəldə, mətaım xoşbu,
İndi kafurə dönüb müşki-xəta, Əhməd bəy.

Ağarıb muyi-sərim bərf tək, ey kuhi-səfa,
Novbaharımı edib fəsli-şita, Əhməd bəy.

Həqq edə hacı Muradımı, muradə vasil,
Onu çox görməyə bıı qövmə xuda. Əhməd bəy.

Dün eşitdim ki, sənə şer yazıbdır Müşfiq,
Etmisən sən də ona lütfü əta, Əhməd bəy.

Elə bildim ki, mənə lütffi əta eyləmisən.
Olmusan nasiri-qövmi-füqəra, Əhməd bəy.

Süfreyi-cudüvə mehmandu guruhi-üləma,
Rizəxari-kərəmindir şüəra, Əhməd bəy.

Azü çox hər nə isə eyləmisən lütf ona,
Çoxlar olsun sənə bu işdə fəda, Əhməd bəy.

Özgələr bəy verəni sahibinə rədd eləməz,
Bəy olan kimsədə olmaz bu əda, Əhməd bəy.

Dedim arpamı satıb, buğda sərəncam edərəm,
Zövq ilə saz edərəm bərgü nəva, Əhməd bəy.

Cuhud oğlu yedi arpanı bu il, mən qaldım,
Olmadı dəstrəsim hiç ğəza, Əhməd bəy.

Təng olub axır Uğurlu bəyə yazdım namə,
Möhrəmiz salmadı ol tasə səda, Əhməd bəy.

Qənim olsun görüm öz adı onun nazirinə,
Mustəfadə yox imiş hiç səfa, Əhməd bəy.

Şeyxəlibəylidə tək bircə Kərim bəydü kişi,
Gəlməyib, gətməyəcəkdir ona ta Əhməd bəy.

Dövlətə sahib olur hər kimə salsa sayə,
Sayeyi-dövlətidir zilli-hüma, Əhməd bəy.

Var ümidim ki, Kərim bəy görə bu əşan,
Bəndədə bilməyə bu işdə xəta, Əhməd bəy.

Bir qədər buğda əta qıl mənə, ta bəy gəlsin,
Eyləsin borcumu lütfıylə qəza, Əhməd bəy.

Xanədon un qutarıb, buğda tağar boş qaldı,
Üz veribdir mənə yüz dərdü bəla, Əhməd bəy.

Ya hesab et bəyə, ya kim özün ehsan eylə,
Nə isə, eyləginən dərdə dəva, Əhməd bəy.

Var ümidim ki, bu bimari-qəmi-iflasə,
Daruyi-lütfün edə lütfü şəfa, Əhməd bəy.

İki Müşfiq qədəri etməyəsən lütf mənə,
Xatirim olmayacaq hiç riza, Əhməd bəy.

Lütf qıl, saxla bu əşanmı, ta bəy gəlsin,
Nə verərlər görək ol bəhri-həya, Əhməd bəy.

## HACIAĞABƏY OĞLU ƏLİYƏ

*Qitə*

Əla, ƏIİ boy, eyki nəvalın şükrün
Zikr etməyə acizdü zəbanım yoxdur.
Birbülbiili-xoştəranəyəm aləmdə,
Səd heyf ki, tazə gülsitanım yoxdur.
Tiri-qəmə mən nişanəyəra zira kim,
Bir kİpriyi ox, qədi kəmanım yoxdur.
Yoxdur meyi-gülrəng, kötıül qanə dönüb,
Hərçənd bədəndə hiç qanım yoxdur.
SövdagərＩ-hiyleyİ-kəmaləm, əmma
Sərmayeyi-sudü həm ziyanım yoxdur,
Məlum-şərifivüzdü kim, xəlq kimi
Kəsb eyləməyə mənitn dükanım yoxdur.
Ey dəftəri-izzii cah, bir dəftər olur
Yazsam ki, ogər filan-fılanım yoxdur.
Söz nıüxtəsəri budur ki, var bir atım,
Tədbirin elə, arpa-samanım yoxdur.
At qaldı samansız, neçə giin sobr elədirn,
Səbr eyləməyə dəxi təvanım yoxdur.
Qurbanın olum, bunıın sərəncamı üçün
Səndən qcyri bir kəsə gümanım yoxdur.

## FƏRƏC BƏY AĞÄ BƏY OĞLUNA

*Qəsidə*

Ey səfasəy kim, sücudi-dorin
Fərzdir əhli-alomə çün Həcc.
Çakori-dövlətin bəni-Abbas,
Bəndeyi-xidmətin bəni-Xəzrəc.
Etməyən vəsfi-şövkətin uikən,
Getməyən rahi-xidmətin əvəc.
Qeyr özün yüz sənə təşəbbeh edə
Haşəlillah ki, rast oisun kəc.
Şövqi-didari-mətbəxindəndir-
Ki, qəbul etdi narə yanmağı gəc.
"Hovlə beytiş-şərifikə füqəra
La yətufunə sailən min fəcc"*.
Çeşmeyi-cudo lütftivüz mənbə,
Qülzümi-lütfə səffüvüz məxrəc.
Agəh ol, ey nocib həmsayə-
Ki, mənə üz veribdi "üsrü hərəc".
Gərçi yəxdan xahişimdi mənim,
Şerdən qeyri yoxdu bir agənc.
Nə o seyyid monom ki, xüms alam,
Qapımı kəsdirə güruhi-xələc.
Nə unum var bu il, nə bir buğdam,
Sahiba, az qalıb dağılmağa dəc.
Hatifi-qeyb müjdə verdi mənə,
Key olan gövhəri-kəlamə mərəc!
Buğda fikrində hiç qəm çokmə-
Ki, Fərəcdən olur ümidi-fərəc.
Ol Fərac xan ki, hiç xanzadə
Görməyibdir belə ülüvv dərəc.
Nəslü bin-nəsl zati-valası
Lütfü çudü səxayədir mədrəç.
Kəbeyi-arzuyə Seyyid üçün
Astanından özgə yox mənə

---

* Sənin şərafətli evin kasıbların pənahıdır, dilənçini qapıdan naümid qaytarmazlar.

## ƏLİ ƏSĞƏR BƏYƏ

*Şamaxı bəylərindən şikayət*
*Qəsidə*

Əli Əsğər bəy, əyä okbəri-ərbabi-kəmal,
Əzəmi-əhli-kərəm, əkrəmi-əshabi--nəval.

Sənsən ol ayineyi-həqqnümayi-əzəli-
Ki, olur səndən əyan surəti-keyfiyyəti-hal.

Ərzi-halım eşit, ey sərvəri-fərxəndəliqa!
Çünki hal ohlisən, əhvalıma qal, eyləmə qal.

Neçə müddətdi ki, el qoydu dəbistanə məni,
Pir vəqtimdə olub məşğələ dərsi-ətfal.

Ayda on iki manat kosdi çilenlor donluq-
Ki, hər ayda çatar. ey Seyyidi-pakizə-xisal.

Baxıban zahiri-ohvalına ol əşxasın,
Təməi-xam ilə biz do elədik özgə xəyal.

O, çilenlər ki, olar var idi tacir sinfı,
Hər nə yazmışdı isə doftərə, verdi fılhal.

Leyk bəy dəstəsinin saxtə oldu kan,
Oldu pul vermok işi onlara bir əmri-məhal.

Hərçi səy eyiədi bu əmrə rəisi-məclis,
Gəlmədi məclisə bir parə ləimü möhtal.

Zahirən gərçi Ədil bəy də çalışdı, amma,
Onda çox nüktə var, ol rəmzi bilir əhli-kəmal.

Eyləyib əldə bəhanə bunu Sultan Məhmud-
Ki, verib Hacı Əli Əkbərə həq dövlətü mal.

O gorakdir verə bu əmrdə üç yüz miıı otuz,
Yoxsa bu uşkola əmri başa gctməz bir sal.

Yenə könlündəkini yaxşıdı bıı zahir eder,
Bilmirəm heyf ki, Nemət bəy edibdir nə xəyal?

Hamıdan Hacı Ömər bəy, gərək o pul versin,
Kondi var, torpağı var, əmrino tabcdü mahal.

Həsənin çünki yox idi qərəzində vermək,
O1 zartıan oldu bəhanə ona da Molla Cəlal.

Hər zaman surini kim, göydə çalar İsrafil
O1 zaman hasil Ümid bəydən olur "ma fil-bal".

Barəkəllah ki, mordanə imiş Ağa Qədir,
Nə ki yazmışdı o gün dtiftərə, ctdi irsal.

Barəkəllah, Ağa bay zadeyi-Haci Aşur,
Hamıdan verdi əzəl, qalmadı boynunda vebal.

İstədim həcv eləyim diin bu bəy dostəsini,
Bir nəfər yari-müvafiq dedi; Ey tuti-misal...

Onları eyləmə həcv, üzriəri var olarm,
Öyrənib almağa məcmuəsi bunlar məhü sal.

Almağa öyrənən, adətdü ki, vermək bilmez,
Hiç olur təndir ağacdan, dəxi gərdun abdal?

Bunların var idi Şirvanda bir sərxcyli,
O idi silsiləcünbani-ümurati-cəlal.

Zübdeyi-əhli-kərəm, adı kinıi nəfsi Kərim,
Əhli-Şirvanı bilirdi özünə əhlü əyal.

Hatəmi-saniyi-dünya ki, dəmi-cudində
Yox idi sail üçün hacəti-izhari-süal.

Çünki ol yoxdu Şəmaxidə, odur bais kim,
Bunlar eylər özünü hər biri bir şəxs xoyal.

Hanı ol şəxslori adını qoymıışdu çüen,
Pul yazanda eləyən bir-birinə istccal?

Hanı ol arşın ilə ay işığın ölçənlər,
Hanı ol özlorini eyləyən əyanə misal?

Sahiba, ofv elə bu tul kəlamımdır kim,
Ürəyim qüssəvü möhnətdən olub malamal.

İndi üç aydı ki, eldən dəxi yoxdur imdad,
Qalınışam guşeyi-möhnətdə pərişan-əhval.

Yoxdu bir şəxs məni-xəstəyə səndən məhrəm,
Sən də insafə gəlib eyloməsən hal sual.

Bir demirsən neçə müddətdi ki, bu Seyyidi-zar,
Qalıb avarovü sərgəştə, giriftari-malal.

Ramazanda nə yedi xuni-ciyərdən qeyri,
Ya ki indi nə yeyir nisfdi mahi-Şəvval?

Tut yedim bər gecə mon Hacı Ələkbər bəydən,
Nə yesin söylə görək evdə qalan əhlü əyal?

Seyyidəm, leyk nə ol seyyidi-sahibmənbər –
Ki, mənimçün edələr cəm təridü əfsal.

Mir Kərim tək yox üzüm mən də çıxam bazarə,
Doyənək əldə, salam aləmara qalü məqal.

Bəs ki şairlik ilə aləmara məşhurəm,
Bavər etməz mənə bir fund pənirə baqqal.

Bundan artıq nə açım pərdoni, ey kani-həya,
Müxtəsər, yoxdu nə çay, qənd, nə gondüm, nə zoğal.

Ya özün cylə sərəncam və ya hacidən
Rəfi-hacət qıl, əya Əkbəri-ərbabi-kəmal!

## LƏNKƏRANLI ŞİRƏLİ BƏYƏ

*Qəsidə*

Həlqeyi-zülfi-siyəh rüxsareyi-canandə,
Əqrəbi-cərrarədirməhtabi-nurəfşandə.

Eylə billəm könlümü har dəmdə bir əqrəb çalar,
Hər dəqiqə görcək ol zülfi rüxi-canandə.

Ayda bir yol mənzil eylər mah əqrəb bürcünü,
Görməmişdim əqrəbi daim məhi-tabandə.

Xatirim dərhəm olur saətbəsaət kim, neçün,
Əqrəbi-zülfün hədisi söylənir hər yandə.

Başimə gor çərxdən daşlar yağarsa razıyam,
Görməyim tək ol tnəhi əğyar ilə cövlandə,

Səngi-möhnətdən sınır sədparə könlüm şişəsi,
Şişəvü peymanə görcək yari-bədpeymandə.

Züfüvün zəncirinə divanə könlüm bağlanıb,
Sal zənəxdan çalma, bənd eylə bu zindandə.

Çox gətirmə sən məni əfğanə kim, günnəz rəva,
Himməti Şiri-Əli hərdəm məni ətgandə.

O1 cahani-cud kim, dəsti-səxasından onun,
Qalmadı mədəndə zor, dürrü gühər ümmandə.

Rəşki-kilkİndən dobiri-çərx sındırdı qələm,
Çün onıı kamil görüb, gördü özün nöqsaııdə.

O1 əmiri-xitteyi-Ləngərkünan kim, hər zaraan,
Əhli-Şirvan bəndəsidir ribqeyi-fərmandə.

Ey sipehri-izzətü rüfət, bu gün mehrin sənin
Səng-ara atəş kimi müzmərdü cismü candə.

Məndən etmişdin təmənna bir neçə şiyva qəzəl-
Kim, nəziri olmasın aləmdə bir divandə.

Gərçi düşdü üqdeyi-təxirə bir müddot bu iş,
Bu günəh məndən deyil, var çerxi-kəcgərdandə.

Mən haçan Şirvanda qaldım kim, edim xidmət sənə?
Olmuşam gəh Rəştdə, gəh xitteyi-Tehrandə.

Hər zaman kim, şəhrdə gördüm uzaqdan mən səni,
Şərmdən qaçdım ki, ta pünhan olum bir yandə.

Eylə bil, bir seyd səyyadə olur qafil düçar,
Nagəhan bir gün düçar oldum sənə meydandə.

Gərçi həqqin var idi, etdin məzəmmət bəs mənə,
Var məzəmmətlor yeri bu Seyyidi-nalandə.

Sən buyurdun ki, mənə, ey Seyyidi-bietibar,
Bu necə ətvardır sən tok ülüvvi-şandə?

Beş qəzəl etdim təmənna səndən ayid oimadi,
Altı ay qoyduz məni avarə bu dövrandə.

Özgə vəqti şeriivo filfil bükər əttarlər,
Köhnə dəftərlər kimi hər parə bir dükkandə.

Bir məsəldir kim, pışik gördü ... dərmandır
...pünhan eylədi güllük ara külxandə.

Xud tutum kim, sözlərin yanmda misli-zərridir,
Zərrə olmaz qədrü qiymət ta ki vardır kandə.

Söz gərək səndən çıxıb, aləmdə şöhrət eyləsin,
Zirənin miqdarı olmaz xitteyi-Kirmandə.

Hiç aqil saxlamaz öz gövhərin sərrafden,
Seyyida, varmı sözün bu sorduğum bürhandə?

Sən ki, hasil etmədin məqsudimi, gəl indi sən,
Bir şey et məndən təmənna olmasın Şirvando.

Bu kəlamından sənin məlum olur, ey taci-sər,
Seyyidi-nakamo meylin var sənin ehsandə.

Mən nə lazım İstəyim bir şey ki həqdir, olmasın,
Firqeyi-əhli-kəmal içrə, qalam nöqsandə.

Diqqət etsən şerinə, zahirdü fikri Seyyidin,
Saət əsbabin kj, munca zikr edib ünvandə.

Gah şişə, gah əqrəb, gah saətdir sözü,
Mətləbin etmiş əyan bu nükteyi-pünhandə.

Şəfqətin gər olsa, bir saət əta qıl Seyyidə-
Kim, görüb ani, sizi yadə salam hər andə.

Nə o saət olmasın ki, hər gədanın var biri,
Nə o saətdən ki, vardır şahdə, sultandə.

Müxtəsər, bir saət olsun kim, görən kəslər onun,
Adına saət desinlər məclisi-ürfandə.

## HACI MƏCİD ƏFƏNDYƏ

*Qəsidə*

Lütfi-həq çün kainatə xələti-xilqət verər,
Hər kəsin öz qədrinə mənsub bır xolət verər.

Hər kəsin öz arzusunca layiqini verdi həq,
Hikməti var kim, kimə fəqrü kimə dövlət veror.

Məbdeyi-fəyyazdə yox biixl, ey sahibxirəd!
Qabiliyyət qodri hər bir çizə bir surət verər.

Gərm olur, eylər ğəza çünki üfunət mədəda,
Qüvveyi-tövlid ona hər ləhzə bir halət verər.

Ol həkimi-layəzalin hikmətİndən yox sual,
Hər kəsə hər nə veribdir mövcibi-hikmət verər.

Müqtəzayi-zatidir hər bir kəsin öz xilqəti,
Xakə süflilik əta, əflaka gər rüfət verər.

Müxtəlifdir çünki əsması həkimi-mütloqin,
İxtilafat ilə bes əşyayə xasiyyət verər.

Akisin oksində illət yoxdu, ey ərbabi-huş,
Müxtəlif ayinələrdir, müxtolif surət verər.

Oldıı istedadlar çün müxtəlif əsma ilə,
Şeyi-vahid bəs bu üzdən surəti-kəsrət verər.

Münbəsitdir külli-oşyadə zühuri-zati-həq,
Bir təcəlladır kim, ol Musa ona taqət verər.

Zati-həqqi sanma əşyadə hüluli-ixtilat,
Kim hülulə mötəqiddir əqlinə xiffət veror.

Bil ki, mövcudi-məcazidir cəmii-mümkünat-
Kim, təcəlla məzhəriyyətlə ona şöhrət verər.

O1 təcəlla gər təəllüq qət edə imkandən,
Nistü nabüd olmağı imkan üçün sürət verər.

"Daxilun fikülli şeyin, xaricun ən külli şey"*,
Qövli-mövlayi-çahan əlani-bişübhət verər.

Həm əzəldə, həm əbəddə masiva mədumdur,
Məzhəriyyət şərt olub, əyanə mahiyyət verər.

Olma Sufistan tək münkir vücudin həqqinə,
Həq vücudi mümkünatə zivərü zinət verər.

Mümkünati-aləm öz zatilə qaim olmayıb,
Qaimi-bilqeyrdir, həq feyz hər saət verər.

Cövhəri-naridə yoxdur surəti-rəhmaniyat,
Xakə bəs oz surətin yəzdani-bisurət verər.

Etmədi bu cəhl Əbucəhli xudavəndi-cahan,
Qalibin tərkib edib əczasına ülfət verər.

Nöqteyi-küfrə müqabü nöqteyi-iman durar,
Hər şeyin ziddi onun təşhurinə qüvvət verər.

Nurü zülmət, küfrü iman, hübbü büğzü xubü zişt,
Etdiyi üzdən təqabül zatma behcət verər.

Mömin ilə kafirin bari xudadır xaliqi,
Feyzi-xüqət hər şeyə sultani-biminnət verər.

Leyk olmaz kafirin küfninə razi lütfi-həq,
İlləti-mövcudənin dəfinə yüz alət verər.

---

*Her şeyə daxildir, her şeydən xaricdir [Allahın sifəti].

Ənfusü afaqdə ayatlər icad edər.
Şübhədən eylar müərra feyz hər növbət verər.

Zəngi-küfri xatiri-Firondən pak etməyə,
Seyqəli-raxşəndə Musayə yədi-qüdrət verər.

Kafirin küfrünə gər razi ola bari-xuda,
Ənbiyayə bəs nədən təbliğ ilə zəhmət verər?

Küfr ilə iraanə surət verdi xəllaqü xuda,
Mahə sardiyyət verən, xurşidə gərmiyyət verər.

Eyni ədlindəndi gor eylər üqubət bir kosə,
Feyzi-fəzllndəndi gər ğeyrə rifahiyyət verər.

Həqqə təaətdən təfaxür eyləmə, ey bülhəvəs,
Şükr ona qıl kim, sənə həq qüvveyi-taət verər.

Feli-şərrin nisbətin qıl nəfsüvə, ey zül-lübab,
Gərçi xcyrü şorrə surət ol şəhi-vohdət verər.
Olma şeytan kim, edib üsyan dedi: "əğvi toni",
Biədəb öz felini xəllaqına nisbət verər.

Adəm ol, "inna zələmna" növhəsilo nalə qıl-
Kim, inabətlər sənə ol sahibi-rəhmət verər.

Küfri-məğzidir bu halətlor, nə təqdiri-xuda,
Ey könül, söz müşkil oldu sameə siqlət verər.

Qıl itaət sən Əbülqasim Məhəmməd şərinə -
Kim, toşokkür neməti-üznıayə həm nemot verər.

Hər nə çatmış şəri-paki-Müstəfadən, qıl qəbul,
Müslihün əmrinə tabelik səlahiyyət verər.

Eylə daim çaryari-Müstəfanun mədhini,
Xassə qıl səddiq mədhin kim, dilə rahət verər.

Mayəyi-ğar Müstəfadur, zinəti-rukni-səfa –
Kim, səfalər aləmə ol Kobeyi-şövkot verər.

Cümlədən etmişdir əvvəl nəqli-meraci qəbul –
Kim, bu təsliqi onun alomlorə ləzzət verər.

Eylə ondan sora ol Faruqi-əzəm vəsfini
Kim, ona fətııü zəfərlər sahibi-nüsrət verer.

Beyləqi-islami gərdıınə ucaltmışkən o şah,
Bir piyalə rüx dutub əhvalinə zillot veror.

Zəxmi-xəncərlə əbulülii onu qıldı şəhid,
Gövhəri-əşkə əzasından nəbi qiymət verər.

Doğmuyub gün bir kəsi əfzəl ola Faruqdən,
Fərq həqdən batilə ol sahibi-rifət verər.

Ey könül, qıl xassə zünnureyni-pakun mədhini
Kim, onun nuri-rüxi xurşidə yüz xiclət verər.

Ümmügülsümü Ruqiyyə - Düxtərani-Müstəfa,
Zövcəsidir ol şəhin, həqq türfə zövciyyət verər.

Qıldı müfsidlər oni mehrabi-taətdə şəhid,
Xuni-paki ayeyi-Quran ara zinot veror.

Xövf edib təhrifdən cəm ctdi Qurani-həqi,
Həq ona Quran oxunduqcə həqü ücrət verər.

Bədi-Osman et şəhi-Düldülsüvanın vəstını,
Ruhi-qüdsi etməgə mədhin sənə cürət verər.

Sanma kim, ol şahi ancaq mədh edübdür hələtə,
Lavükəlla yüz xəbər Quranda hər ayət verər.

Fatehİ-Xeybər, qozonfər fər əmiri-lafəta,
Sətvətindən canını hır sahibi-sətvət verər.

Cinnü insün taətindən oldi əfzəl zərbəti,
Ya Əli, Allah Əli, ari, belə zərbət verər.

Eylə andan sora bir banuyi-ismət vəsfini,
İsməti hər xandan ismətə iffət verər.

Zöhrə öz hər övc bir kövkəb, əhədi-əşər,
Kayeyi-təthir onun şənində amiyyət verər.

Ya rəsulillah, tərəhhüm qıl qulamun Seyyidə,
Qoyma kim, şeytan ona hər ləhzə yüz xələt verər.

Saxla iymanm onun şeytani-bədfərcamdu
O1 zəman kim, əxzi-iyman etməgo şərbət verər.

Görsə şerin, Seyyİda, Hacı Məcidi-zül-lübab,
Hiç şək yoxdur sənə təhsİn edor, xələt verər.

Et Diyalluyə sofər, dürri yetir sorrafma,
Rəsmdir, sərraf olan kəs gövhərə qiymət verər.

Kəbədirbeyti-humayuni o Hahib-rüfətin,
Kəbə, ari, sahİbi-dəvətiərə hacət verər.

Bəsdir ol ki, müfti ağadan eşitdin vəsfini,
Zati-paki gün təki öz nurinə şöhrət verər.

Barilaha, şadkam olsun bu sahib-mərifət,
Ta ki feyzin aləmə xurşid her saət verər!

## HÄCI GÜLƏLİYƏ

*Qəsidə*

Ey olan ali-Əli çakori Hacı Güləli,
Kömək olsun sənə hər əmrdə rəbbül-ərbab.

Ta ki bu vəqtə kimi şəhri-Şəmaxidə, Hacı,
Eyləyirdim özümü mən sənə bir dust hesab.

Məkkədən gəlmiş idin, gəlmiş idim görməgüvə,
Ya ki bir üzr olub, eylomişom üzrə şitab.

Amma indi görimür səndə ögey-doğmalıq,
Yəni var pullu ilə pulsuza bir həddi-nisab.

Gözümün nururta bir hnftədi ki, toy olacaq,
Həq mübarək eləsin bu toyu, ey ali-çənab!

Çökməsin sinənə Allah o cavanın dağın,
Eyləsin şad onunla səni daim vəhhab!
Leyk ərzim budu bir həftodi ki, süfrə açıb,
Eylədin çayü plovdan hamı xəlqi sirab.

Qalmadi şohrdə bir kimsənə məndən qeyri,
Hamı dəvət olunub pİrü cavan, şeyx, şəbab.

Nə olaydı, bizi də dəvət edəydin, Hacı,
Ta göraydi üzümüz kari-mübarəkdə kəbab.

Erməni, rus, müsəlman-hamı mchmanış olub,
Eyləyəydin məni də ermənİ, ya rus hesab.

Həsrətim qaldı o məçlisdə ki, xoşxanları
Oxuyurdu gecələr şur ilə bidadi-Rəhab.

İki Mehdi, iki xoşləhceyi-Fars-ibn-Nova,
Sözlərindən tökülüb məclisə yüz dürri-xoşab.

Mən tutaq kim, deyil idim o büsatə layiq,
Əldə vardır ki, bəhanə, çalınır cəngü rübab.

Məclisi-işrətə şayistə cavan oğium var,
Mən əgər piri-zəifəm, vəli var onda şəbab.

Nə onu eyləmisən məçlisə dəvət, nə məni,
Kəsib insafuvu Allah, nədir bunca icab?

Bir məsəldir ki, uman yerdən olur küsməkiik,
Küsmüşəm səndən, əya, haciyi-ferxəndə-niqab!

Bilməsən gər, Məşədi Nəqdi əmidən xəbər al,
Əqrəbayəm sənə axır ki, mən, ey xanəxərab!

Müxtəsər, başın üçün xeyli dəyibdir bu mənə,
Dost-duşmənlər içində xəciləm, bağn kobab!

Sonaşullar ki, neçün Haci səni rədd eləyib,
Qalıram, lal oluram, tapmayıram hiç cavab.

Bəlkə şair içə bir çay, gedər ehsanə,
Bəlkə seyyid yeycı bir aş, göziim, yoxdu səvab?

Seyyida, çox da şikayət eləmə, eylə tamanı!
Çünki meyxanəyə minbəd deyilsən əsbab.

Xelq divanə deyil ki, sani dəvət eləsin,
Nəyə lazımsan, əya şairi-şumü kəzzab!

İstəyirsən ki, əgər hər yerə dəvət olasan,
Başla meyxanəni, çal dünbəyi, nuş eylə şərab.

Nədir axır sənə bu elmü ədəbdən hasil,
Aç gözün, vadiyi-qəflətdə doxİ eyləmə xab.

Fikrüvü cəm elə kim, cəm edəsən dövlətü mal,
Ta sənə xəlq elosin haciyü şəhzado xitab.

Çünki dövlətlə gedər gərdİ-fəqarət səndən,
Tapılır onda sənə bir neçə ziba əlqab.

Onda Hacı Güləli çaymı içməz sənsiz,
Xeyrü şərdə sənidə dovət edər çün əshab.

Nə yaman dərd imiş aləmdə fəqirlik, yarəb!
Fəqrlikdən xoş olur nari-cəhənnəmdə əzab.

Seyyida, Hacı səni səhv ilə yaddan çıxarıb,
Könlüvü, qorxma, alır lütf ilə ol ərş-cənab.

Barilaha, bu toyu eylə mübarək ki, mənim
Nuri-çeşmimdü o dürdaneyi-bəhri-ənsab.

## HACI MEHDİQULUYA

*Məsnəvi*

Hacı Mehdiqulu, nəcibi-zaman!
Ay sənə canı Scyyidin qurban!
Sən mühibbi-Əliyyi-İmransan,
Çakəri-ali-şahi-Mərdansan.
Hörmətin çoxdu fövci-sadatə,
Afərinlər sənin kimi zatə!
Sözə şahiddü cümlə ətvann,
Ağa Seyyid Əliylə rəftarın.
Fithəqiqət o nəsli-mövladır,
Adı kimi özü də ağadır.
Həqq onun, ey güzini-əhli-kərəm,
Etməsin səndən iltifatını kəm.
Cəddi olsun sənin havadarın,
Həşrdə, nəşrdə nigəhdann.
Səni kövsərdən, ey rəfi cənab,
Saqiyi-kövsər eyiəsin sirab.
Kəmtərinin bu binəva Seyyid,
Sənə daim cdər dua Seyyid.
Mənə bildirki lütfü ehsanın
Vasil oldu, rəhiniyəm amin.
Əvəzində onun, sənə sübhan
Sündüsi-cənnət eyləsin ehsan.
Leyk, ey tacidar, ol xələt,
Vəchi var, olmadı mənə qismət.
Aldı əldən o səvbi Mir Cəfər.
Atama verməræm dəxi bu səfər.
Dəxi bundan sora bahar olacaq,
Bağü səhra ki, laləzar oiacaq,
Geyəcək sərv xələti-xüzra,
Lalə əynində sürxfam qəba.
Geyəcək nəxl zümrüdin camə,
Qönçə başında yaşıi əmmamə.
Olacaq təxti-şaxə gül soltan,
Qılacaq bağ fövcinə ehsan.

Dolacaq dürlə lalənin camı,
Olaçaqdır şükufə bayramı.
Özün insaf qıl, nəcibi-zaman,
Bu rəvadırmı mən qalım üryan?
Bu gecə xassə eydi-üzmadır,
Eydi-şahənşəhi-mtiəlladır.
Çıxacaq məsnədi-xilafətə şah,
Şiri-davər Əli vəliyullah.
Bu gecə cümlə xəlq olur xürrəm,
Bu rəvadırmı mən tutam matəm?
Ola hər xanə şəm ilə rövşən,
Eyləyim zülmət içrə mən məskən?
Şəm yox, nəqlü xüşkəbanın yox,
Nisyə almağa etibarım yox.
Şairəm, şerdir mənim karım.
Dürri-şer ilə dolmuş anbarım.
Şerə baqqal xüşkəbər verməz,
Şer bir nəxldir-səmər verməz.
Qalmış idim məəttəlü heyran,
Bir kəsə goknəyirdi hiç güman.
Etdi piri-xirəd məni hali,
İndi yaz haciyə bu əhval.
O səni, qorxma, şadkam eylər,
Lütf ilə məğziyül-məram eylər.
Şöhrət üçün o, eyləməz ehsan,
Lütfii ehsanıdır onun pünhan.
Özü həngami-cudü lüttü səxa,
Görməyirsən, edir ki, şormü heya?
Niyə halın belə pərişandır,
Ciyərin dərdi-fəqrdən qandır?
Edər ol hali-zarüvə çarə,
Eyləmə istixaro bu karə.
Çünki guş eylədim bu mənam,
Yadıma düşdü ol kərəm kanı.
Həq sənin ömrüvü təvil etsin,
Düşməni-cahüvü zəli! etsin!
Yavərin lürfi-kirdigar olsun,.
Gülşəni-xatirin bahar olsun!

## MİRSÄDIQ XAN LƏNKƏRANİYƏ

*Məsnəvi*

Mirsadıq xan, ey nəcibi-zaman,
Xələfi-orşədi-şəhi-Mərdan.
Cəddi-pakm Məhəmmədi-ərəbi,
Bəhri-qürbün o dürri-müntəxəbi.
Bundan əfzun olunnu fozlü şərəf,
Babi-pakındi padişahi-Nəcəf.
Vəsfin etməkdə tur məni məzur-
Ki, sizi vəsf edib xudayi-ğəfur.
Nuri-mişkatsız siracü zücac,
Şüəravəsfinə deyil möhtac.
Əsli-zeytunəsiz, mürəbbisiz,
Leyk nə şərqiyü nə qərbisiz.
Kövkəbi-dürriyi-xudasız siz,
İzzəti-paki-Müstəfasız siz.
Xassə Şirvanda, ey mətin ixlas,
Olmusan bir cənabə müxlisi-xas-
Ki, bu gün xəlqi-əsrə mövladır,
Sibti-paki-Əliyyül-əladır.
O1 Əli hilmü, ol Əli həmnam,
Varisi-elmi-ənbiyayi-izam.
Xassə bir şəxs ilə müsahibsən-
Ki, deyil əhli-əsr tək pürfən.
Kazimül-ğeyzü nəxli-bağı-səxa,
Zayiri-rövzeyi-imami-Riza.
Xassə kim, ol Xəlil həmnamı,
Sındıran Kəbə içrə əsnamı.
Zayiri-beyti-rəbbi-leylü nəhar,
Çakəri-ali-Əhmədi-Muxtar.
Xasə bir hüsni-xülqə həmdəmsən
Ki, onun hər sifatıdır əhsən.
Hacı Möhsündür ol həya kani-
Ki, odur xəlqə həqqin ehsani.
Bu müsahibləri görüm, ey xan.

Sənə çox görməsin xudayi-cahan.
Sənə onları qadiri-əzəli
Eyləsin mehriban bəhəqqi-ən.
Sahiba, ey əmiri-sahibhuş,
İndi tut şerü ərzi-halıma guş.
Nə bu sozlər mənim kəmalımdır,
Xaki-payında erzi-halimdır.
Sərvəra, indi xeyli müddətdir-
Ki, məqamın bu şəhri-qürbətdir.
Açılsan xəlqə süfreyi-Hatəm,
Etmirəm büxl, qılmasin həq kəm.
Xalı ali-rəsulü ali-əvam,
Etmisən cümlə xəlqə sən itam.
Murlər rizoxari-xanındır,
Ey Süleyman, sənin zamanındır!
Növ-növ eylədin ziyafətlər,
Gördülər xəlq nazü nemətlər.
Biz də axır sənin qulamın idik,
Baisi-izzü ehtişamın idik.
Həmi həmsayə, həm əmuzadə,
Bəzmüvə xidmət üçün amadə.
Deyiləm çox da şəxsi-nakamil,
Olmuyam ta ki bozmüvə qabil.
Xəlq-ara izzü ehtiramım var,
Fəhm elə, hər məkanda namım var.
Seyyidəm, şairəm, dəxi haci,
Deyiləm hiç şəxs möhtaci.
Nə fribəndə, nə təməhkarəm,
Kim ki, əhli-təmədü-bizarəm.
Məzhəbim şiveyi-fütüvvətdir,
Tuşeyi-himmətim qənaətdir.
Gərçi biçizü müflisi-dunəm,
Belə fikr eylərəm ki, Qarunəm.
Təbi-pakim misali-dəryadır,
Sözlərim onda dürri-laladır.
Sözümün şahidi bu kim, ey xan,
O1 zamandan ki, xani-ərşməkan

Eyləyib bu diyarda məva,
Ona həmsayə mən təki dana.
Bir mənim kimi mərdi-sehrayin,
İçməyibdir bir istəkan çayın.
Görməyib bir səxavət asari,
Özun insaf qıl, səni tari.
Hiç layiqmidir ki, siz təki xan
Edə Şirvanda məks tul zaman,
Bir mənim kimi nadirə göftar
Görməyə lütfi-xani leylü nəhar?
Xasə kim, olmuşam bu vəqt fəqir,
Ləşkəri-fəqrə dostgirü əsir,
Qalmayıb əhli-əsrda insaf,
Dürrə xərmöhrə ad qoyur sərraf.
O1 ki sərmayeyi-kəmalımdır,
İndi bu əsrdə vəbalımdır.
Xəlq edər əhli-şerdon foryad,
Büxlü imsakdə olubustad.
Məndən et hali-xəlqi istifsar,
it bilir ani kim. doğadə nə var.
Baxa onlarda cübbəvü şalo,
Təh veriblər xınalı saqqalə.
İt ki, qəlladəsi ola rəngin.
Deməк olraaz şikar edər bu yegin.
Xəz geyən kəs əgər oiaydı dəli, -
Dağdə xirs olurdu Şeyx Əli.
Nə qalıb bəy, ne mordi-sövdagər,
Xəlq nabah olubdu, hiylətgor.
Hiç kəs bitəmn səlam etməz,
Bir yerə bir məramsız getməz.
Əhli-aləm olub o gunə ləim-
Konlara* cuddur əzabi-əlim.
Qalmayıb hiç sahibi-ehsan,
Nə əmirü, nə xanü bazərgan.
Diş çıxardıb olubdu bəylər sog,

---

*Ki onlara.

Orda-burda qalıbdı xan tək-tək.
Bir zamandan pəniri sövdagər
Necə bəs şişedən tənavül edər?
Bir belə əsrdə bəs, ey mövla,
Kimi mədh eyləsin dəxi şüəra?
Şükrlillah ki, ey səxa kani,
Sizdə yoxdur bu nəqlin imkani.
Lütfü ənamuvuz hüveydadir,
Zatuvuz eybdən muhərrədır.
Var ümidim ki, Seyyidi-zare,
Edəsiz lütf, ta o biçarə
Olmasın fəqrü faqədən diltəng-
Ki, ona fövci-fəqr edib aheng.
Xassə kim, mövsümi-zimistandır,
Xatirim qüssədən pərişandır.
Nəqd filməclis eylə ehsanım,
Cəm qıl xatiri-pərişanım.
Demə kını, Seyyidi-bedi məqal
Nə üçün nəqd istədi dərhal?
Bu günü yaxşı bildi fərdadən,
Sirkeyi-nəqdi nisyə həlvadən.
Çünki Söhrab eylədi rehlət,
Nuşdaru dəxi deyil hacət,
Barilaha, behəqqi-şahi-Nəcəf,
Olasaq daim əhli-izzü şərəf!
Seyyida, bu duayə səd təhsin-
Ki, mələklər hamı deyir: - Amin!

## ƏLABBAS BƏYƏ

*Qəsidə*

Qövs tək qamətimiz oldu hürudətlə dü ta,
Ta ki, soltani-fələk Cədydə qıldı məva.

Bərfi-kafumüma tutdu büsati-xaki,
Döndü xasiyyəti-kafurə doxi təbi-həva.

Sərətanü Əsədü Sünbülədən yox bir əsər,
Əqrəbü Qövs ilə Mizandə asari-səxa.

Nola kim, mehr çıxıb Cədy ilə
Dolvü Hütü Həməlü Sur ilə Cövzadən ola çöhrənüma.

Gələ ol fəsli-dilara, açıla laləvü gül,
Gedə qəm, bağdə hər dəm tutula şurü nəva.

Lohceyi-səlsəlü qümri ola sorv üzrə bülənd,
Nəğmeyi-bülbülü sari sala gülzarə səda.

Gələ sövdagəri-Çin, yəni bahari-dilkəş,
Hər tərəf laləvü guldən aça rəngin kala.

Gətirə Müştəriyi-çərx Sürəyya nəqdin,
Türreyi-Zöhrəsinə almağa müşki-buya.

Xoş o kəs kim, bu üç ayda keçə bir növ günü,
Çıxa əyyami-bəharə, qutarə rənçü ina.

Məni bu fəsl həlak eyləyəçəkdir, bilirəm,
Olmuşam çünki bu övqat zoifül-əza.

İki şeydir mənə bu mövsümi-sərmadə əlaç;
Bir san kürk və ya kim, bir-iki cam səhba.

Buların həm dəxi təhsili mənə müşküldür,
Hər birindən ötəri var neçə mane peyda.

İçmək olmaz bunıı vaizlərin ehkamından,
Almaq olmaz onu bİpul birindən, haşa!

Dün gecə mən bu xəyalat ilə piçideyi-qəm-
Ki, xudaya, nə olur surəti-halım fərda,

Kimə izhar eləyim şiddəti-sərma qəmini,
Kimə, yarəb, eləyim zəfi-tənimdən şikva?

Nagəhan piri-xirəd söylədi işfaq ilə kim,
Nə təhəyyürdə qalıbsan belə, ey bisərü pa?

Tutalım şürbi-meyə oldu şəriət mane,
Pustiıı geymoyo manedimi şəri-ğorra?

Əhli-dünyayə o kəs kim, kərəm etdi dövlət,
Kərəmindən sənə bir təbi-səlim etdi əta.

Sənsən ol şairi-ecazsüxən kim, süxənin
Dəmi-İsa kimin əmvatlər eylər ehya.

Bir qəsidə yazasan bir kəsə bir mətləb üçün
Səni dərhal bilaqədr edər kamrəva.

Lilləhül-həmd, sözün işvəli, təbitı mötad,
Nəzmi-canbəxşüvə müştaq ümumən kübra.

Dedim:-Ey piri-xirəd, xeyli zamandır ki, dəxi
Xaneyi-nohsə düşüb kövkəbi-bəxti-şüəra.

Yoxdu dünyadə ərusi-süxənin damadi,
Dürri-nasüftə kimi bikr qalıb çox məna.

Bir Əziz eyləmədi Misri-səxavətdə zühur,
Qaldı zindanda neçə Yüsifi-fərxəndəliqa.

Dari-dünyadə müsəmması olubdur nayab,
Mürği-Ənqa kimi'dİllorda qalıb nami-soxa.

Ürəfalər kimin əltafına tutsun ümmid,
Şüəralər kimin övsafma olsun guya.

Dedi:-Ey tənbəli-Bəğdad, əcəb aqilsoıı!
Dəcleyi-lütfü səxa dəhrdə olmuş məcra.

Səy edir təşnə olan ta yetirə suyə özün,
Şətti-Bəğdaddəsən, sakini-dəştü səhra!

Yetirib əsr yenə dəhrdə bir kani-kərəm,
Bitirib xak yenə dəhrdə bir nəxli-vəfa.

Tazadən oldu yenə gnrdişi səd əcramın,
Qalmadı kövkəbi-Mərrixdə noxvət əsla.

Açdı sövdagərİ-tövfiq dəri-dükkanın,
Hacət ərbabma bəzl etmoyə hər dəm kala.

Bir səxa kanı olan şəxsi-bülondiqbalm
Göz dikibdir kəfı-ehsanına yeksər füqəra.

Dedim:-Ey pir, o kimdir ki, bəyan cylə, onun
Bu qədər bəzldo övsafını etdin inşa?

Dedi:-Bir şəxsdü kim, nami-humayunun onun
Müjdəsiz bir-birinə hurilər etməz itqa.

Zayiri-beyti-xuda, qibleyi-orbabi-səfa,
Əli Abbas bəy, ol qədrşimasi-füzəla.

Ruzü şəb qeyrəti-dəsti-gühərəfşamndan
Göstərir çin cəbin aləmo ruyi-dərya.

Kəfi-ehsanı tutub hər yıxılan şəxsin əlin,
Dəsti-cudi eləyib çox mərəzi-fəqrə dəva.

Cami-əhbabmadır şəfqəti abi-kövsər,
Dili-ədasınadır qəhri onun qəlbi-şita,

Eylədi dəviyi-divani-vəkalətdə bu il
Ümənayi-bələdin cümləsinə istila.

Dedim: - Ey piri-xirəd, şərrəməkəlla ki, sənin
Yoxdu göftari-fəsihində bir asari-riya.

O mənim köhnə vəlİyyün-nəəmimdir ki, onun
Görmüşəm şofqətü onamını dərya-dərya.

Olmasaydı əgor ehsanı onun hafizi-mən,
Ləşkəri-fəqr edərdi məni çoxdan yəğma.

Məni oldur aparan səy ilə "Beytullah"a,
Məni oldur eləyən fəzldə ongüştnüma.

Leyk müddətdi ki, btr cürm verib məndən sər,
Olmuşam cümleyi-aləmdə bu sözdən rüsva.

Mənzilim rahət ilə cənnəti-məvadə ikən
Oldu axır mənə bu xaki-məzəllət məva.

Mən nə üzlə dəxi ol dərgəhi-valayə gedim,
Bir kəs öz tutduğu kirdardən etməzmi həya?

Dedi:-Qəm çəkmə ki, ol sərvəri-valagühərin
Kinə xəlq eyləməyib sineyi-safında xuda.

Sən deyilsən məgər ol kimsənin övladından-
Ki, dedi həq, "fəəsa Adəmü rəbbeh fəğəva"".

Olma get, feyzi-vəliyyün-nəəmindən məhrum,
O1 dəxili-dəri-dəryasifəti-ali-əba.

Eylədim piri-xirəd pəndini can ilə qəbul,
Başladım etməyo ol zati-humayımə dua-

Ki, xudaya, bu sipehri-şərəfi-əclalın
Yetməsin damənine xaki-küdurət əbəda!

Görüm olsım ürəyi şad, kədərdən azad,
Eyləsin hifz boladən onu daim mövla!

Sahiba, ərseyi-raədhində gəlib cövlanə
Göstərir özgə hiinərlor qələmi-çapükpa.

Təbi-düşvar-pəsəndin kimi, ey fərdi-zaman.
Bir-birindən düşüb əfradlərim müstəsna.

Ta ki aləmdo gəhİ eyş olur, gahi teyş,
Ta ki dünyadə gəhi seyf olur, gahi şita.

Hər bahar eyş edəson zümreyi-əhbabm ilə,
Teyşi-qəmdən ola əfsürdə güruhi-xüsəma.

Seyyidi-xəstə sənin köhnə sənaxanındır,
Tazədən qıl onu əltafin ilə kamrəva.

## ŞAHBAZ BƏYƏ

*Qəsidə*

Saqiya, abi-qəmgüdazı gətir,
Ver yenə tazədən hoyat mənə.

Bisəbatəm şorabi-Dərğəmsiz,
Seyli-meydən gərək səbat mənə.

Aç bu Sinayi-xüm təcəllasın,
Zahir olsun bu şəşəat mənə.

Mey hədisindən özgə hər söhbət
Bil gəlir nəqli-batilat mənə.

Türrəzari-cahanı tərk etdim,
Vermədi sud türrəhat mənə.

Satigini -şorab imnadır,
Sirri-pünhanə kaşifat mənə.

Ərəqü badeyi-nıüsəffadır.
Dəmi-ğəmdə müfərrihat mənə.

Dordməndəm, qəmə giriftarəm,
Dürdi-meydon olur nicat mənə.

Şahidim, beydoqim tamam oldu,
Üz veribdir oyunda mat mənə.

Şeşdərə düşdü möhreyi-bəxtim,
Təng olub indi şeşcəhat mənə.

Vəsli-busi-kənari-dilbərdən
Xəqi gəlir indi miiskürat mənə.

Onda çün var büt təcəllası,
Kəbədən xoşdu suməat mənə.

Məni kafir bilirso möminlər,
Nə qənıim, bəsdi mömiııat mono.

Saqi, ey sağərin meyi-rövşən,
Buyi-camm müottərat mənə.

Deyiləm mən Hüseyni-osr, neçün
Bağlanıbdır rohi-Fərat mənə?

Olmadı bu həzin teybdəmağ,
Yetmədi cami-təyyibat mənə.

Mən-Sədin üzü qara olsun-
Ki, olub bəstə kainat mono.

Yoxsa ol şahibazi-övci-səxa
Belə olmazdi bisifat mənə.

Var ümidim ki, verməyə hərgiz,
Bir xələl Lat ilə Mənat mənə.

Latü lütəm, ogərçi Şəhbazım
Xoş deyil versə yüz manat mənə.

O gərək öz qədimi lütfündən,
Göstərə feyzi-basiqat mənə.

Şahbazi-büləndpərvazım
Hər il eylərdi iltifat mənə.

Göndərirdi hər il vəzifəmizi,
Lütfü olmuşdu vacibat mənə.

Gördü ol şəh bu il piyadə məni,
Halımı bildi, qaldı mat mənə.

Rüx tutub ol vəziri-piləfkən-
Kim, bir at eyləyib bərat mənə.

Buğda həm getdi, gəlmədi atım,
Verdi yüz-yüz müşəbbihat mənə.

Doqquz aydır tamara, doqquz gün,
Etmədi vəz hamilat mənə.

Yoxsa abai-ülvi olmuş əqim,
Bir vələd vernıoz ümməhat mənə.

Yoxsa təbim düşüb bukarətdən,
Sud verməz bu səyyibat mənə.
Mütərakim olub sohabi-həva,
Övn qılmaz bu naşirat mənə.
Nəxli-ümmidi qıldı pəjmürdə,
Bu sifat ilə asifat mənə.
Zülməti nurü nüri zülmətdən
Eyləməz forq fariqat mənə.
Ey qələm, eylə gövhərəfşanlıq,
Dür ver, ey zülməti-dəvat, mənə.
Qəndi-əşar ver, deyil lazım,
Nə Səmərqənd, nə Herat mənə!
Gərçi Şəhbaz buğda etməz əta,
Darını versə bəsdi tat mənə.

Tat təbimdü, darı şeri-tərim,
Lütf edib rəbbi-kainat mənə.

Dariyi-şerimi verəm quşa gər,
Quş verər uçmağa qanat mənə.

Əlli beş ildü ömrümün qədəri*,
Ruzimi həq qıhb bərat mənə.

İndi ömrüm yetibdi payanə,
Yetişibdir dəmi-məmat mənə.

Yenə bir növ ilə dolannam mən,
Neçə il gər ola həyat mənə.

Ey fələk, sud vermədi hərgiz,
Şeri-bikrü müləmməat mənə.

Gərçi destimdə yoxdu malü mənal,
Verməyib əl mütəhhərat məne.

Gər tühidəsti-dövlətəm, lakin
Şərdir kuzeyi-mənat mənə.

Fələki-izzətin mənəm qütbi,
Xuşeyi-çərxdir zəkat mənə.

Şahibaza, bülondpərvaza!
Kəşf olub sirri-qayibatmənə.

Adəməm, qismət olmadı gəndüm,
Niyə baxmaz o nikzat mənə?

Nə, Bicovdan gəlib mənə gəndüm,
Nə verir həbbeyi-Boyat mənə.

---

* Hicri-qəməri təqvimlə göstərilir.

Saba-birgün durar dəyirmanlar,
Buğda çoknwkdə yox nubat*

Var ümidim ki, tazədən kərəmin
Verə, ey sərvərim, həyat mənə.

Nüktəgirani-qövmi-bədtiynət,
Tutmasın ta ki bir tıükat mənə.

Bəs ki müştaqi-şövqünəm, ey şəh,
Bəd gəlir nəğmeyi-bəyat mənə.

Şahbazım, vəzifeyi-sali,
Gətirirdi hər il elat mənə.

Niyə təğyir tapdı ehsanın,
Niyə oldun belə boyat mənə?

Seyyida, bəsdi, eylo xətmi-süxən,
Gələcək, qorxma çox bərat mənə.

---

* Növbət mənə

## ŞAHBAZ BƏYƏ

*Qəsidə*

Hər aşiqi-sitəmzədə kim, pakbaz olur,
Daim zəmanədə işi suzü güdaz olur.

Görməz həqiqi aşiq olan vəsli-yarını,
Bəzmi-vüsal qisməti-əhli-məcaz olur.

Əhli-hünər cahanda oiur çox niyazmənd,
Hər kəs ki, bihünərdü o kəs biniyaz olur.

Şahi gədayə çərx cdər sahib-irtica,
Məhmud könlü bəsteyi-zülfi-Əyaz olur.

Ədnayədir nəvazişi bu çərxi-əxzərin,
Bilməm sipehri-dun niyə odnanavaz olur?!

"Fəali-mayüridi"* salır xaki-zillətə,
"Məfüli mən ərad"† dönüb sərfəraz olur.

Qəddin xəm eyləyib ona gərdun qılar nəmaz,
Hər mərdi-xubtinət kim, binəraaz olır.

Abai-səbədir mənə düşmən, həm ümməhat,
Meydani-qəmdə hər gecə bu türkü taz olur.

Eylər piyazi çərx əsəl kami-ğeyrdə,
Həlva yesəm və leyk mənimçün piyaz olur.

Gahi-simaki-rameh olur tirə könlümə,
Gahi-simaki-əzəl ona çarəsaz olur.

Sibtilərin müxalifı Qibli olur, vəlı
Oövmi-Qüreyş xəsmi-rəsuli-Hiçaz olur.

---

* İslədiyinə qadir.
† Başqasının istədiyini yerinə yetirən.

Haşa qılır, sobatım alır çərxi-nərdbaz,
Məşhıırdir ki, mərdi-ınüqəmmordə baz olur.

Seyri-sipehrdən nə horasım, əgor mənə
Fəryadrəs zəmanodə ol Şahbaz olur?

Ol şahibazi-əsr ki, ədlindən ol şəhin
Güncüşk aşiyani həmon çeşmi-baz olur.

Ol şahibazi-övci-ədalət ki, dərgohi
Lütf ilə əhli-fəqrə şəbü ruz baz olur.

Ol sərfərazi-mülki-səxa kim, cənabına
Hər kimsə kim, dəxil düşər sərfəraz olur.

Seyyid dəxildir senə, ey mənbəyi-əta,
Xövf etməsin ki, aləm ara biniyaz olur.

Cismi-cahannümadü zəmirin zəmanədə,
O1 camdən əyanə golır, hər nəvaz olur.

Ey tacidar, haləti-pürixtilahını
Gər yekbəyek yazam sənə, qissə diraz olur.

"Xeyrül-kəlam qəllə və dəllə"* demiş həkim,
Hikmət yanında tul süxən bicəvaz olur.

Öz yazdığım kəlam özümə xoş gəlir, vəli
Şayəd ki, ğürbeyi-məsoli-şahbaz olur.

Mən xuşəçini-xirməni-ehsanınam sənin,
Lütf eyləsən, bu il yenə halım təraz olur.

Naz eyləsəm, nə eybi var, öz Şahbazıma,
Adətdü nazpərvər olan əhli-naz olur.

---

*Kəlamın yaxşısı odur ki, az sözlə geniş rnəna ifadə etsin.

Məndən sivay seyyidə lütfun ziyadədir,
Bilməm səbəb nədir mənə yetdikdə az olur?

Seyyidliyin nişanəsi əmmamədir əgər,
Günbəd gərəkdi kim, hamıdan sərtbraz olur.

Qədrim əgərçi pəst isə, şerim bülənddir,
Gər simi-şerə bir məhəki-imtiyaz olur.

Əşari-abdar verir qədrimə rəvac.
Zinət ərusi-dilkəşə ari, cəhaz olur.

Bir quti-layəmut ilə saxla bu il məni,
Xövf etmə, gül yenə açılır, fəsli-yaz olur.

Qalmaz həvayi-xatirimizdə bu tirəlik,
Əbri-siyəh kənarə durur, xoş ayaz olur.

Qıl şad gəndüm ilə yenə pir Seyyidi,
Məşhurdir, kəpəklə köpək könlü saz olur.

## ŞEYXÜL-İSLAM MOLLA ƏHMƏDƏ

*Məsnəvi*

Şeyxül-islam, ey həya kani-
Ki, sənə yoxdu dəhrdə sani.
Hikmətin əvvəlinci Loğmani,
Ömrün olsutı cahanda tulani!
Dövlətü şövkətin tnüdam olsun!
İzzətin həm ələddovam olsun!
Ey verən şəri-Müstətäyə rəvac,
Əhli-islam lütfuvə möhtac.
Rəmz "əzbün Fəratü milhi-ücac*",
Lütfü qəhrindir, ey nəbimərac.
Qəhr kim, lütfiin ilə müzmərdir,
Bu cəlal ol cəmalə məzhərdir.
Ey riyazi-şəriətin şəcəri,
"Güntü kənzün" hədistnin səməri.
Qülzümi-vəhdətin səmin gühəri,
Rahi-şərin əmirü rahbəri.
İlləti-caiyi-cahan sənsən,
Baisi-xəlqi kiin -fəkan sənsən.
Ey olan əhli-clm mümtazı,
Füzəla fövcünün sərəfrazı.
Elmin Əllaməyə edər nazi,
Fəzlivü görsə fəxr edər Razi.
Sənə jagird Əhmədi-Hənbəl.
Xadimin Şeyxi-Tusdan əfzəl,
Sərvəra, istima qıl halım,
Eyləyim ta ki ərz əhvalım.
İndi düz qırx iki olub salım,
Eləməz bir tərəqqi iqbalım.
Günbəgündən zəlilü xar oluram,
Möhnətü qüssəyə düçar oluram.
Oxudum, elm eylədim hasil,

---

* [Biri] Fərat çayı kimi şirin, digəri şor və aci.

Oldum aləmdə fazilü karnil-
Ki, olam bir muradə raən vasil,
Məni xar etdi bəxti-naqabil.
Elmdən hasilim ziyan oldu,
Günü-gündən işim yaman oldu.
Məni-divaneyi-zəlumü cəhul,
Nəfsi-biçarani edib məşğul.
Eylədim kəsb elmi-fıqhü üsul,
Olmadı hiç bir murad vüsul.
Mənə öz elmim oldu vizrü vəbal,
Mənzilim hər məkanda səffi-mal.
Eylədim əhli-eimə xidmətlər,
Ta ki qıldıın "Mütəwəli" ozbər,
Məni incitdi cüdi-"Layəhzər".
Müxtəsər, zaye oldu nuri-bəsər.
Özgə nəhv ilə sərf oldu zaman,
Olmadı Əmrü Zeyddən saman.
Ey olan mütki-fəzlə əllamə,
Vey olan şeyx əhli-islamə,
Sinədə gərm olub bu hongamə,
Gor yetə şəfqətinlə əncamə.
Faş olur sirri-nəssi "mən əvha",
"Və huvəşşcyxü, yühyiü-mövta"*.
Seyyida, ol cənabə eylə dua-
Ki, duadır təriqeyi-şüəra.
Barilaha, bəhəqqi-şiri-xuda,
Ona tulani ömr eylə əta!
Xatirin şad elə bu dünyadə,
Əhməd olsun şəfiin üqbadə.

---

* O ölüləri dirildən şeysdir.

## BİR NƏFƏR DOSTA

*Qəsidə*

Otdu əfsürdə çəmənlər ələmi-sərmadən,
Gəldi gün əqrobə mizani-tələk-pərvadən.
Çalır oqrəb kimi mərdümləri tiri-sərma,
Döndü kaşanə cahan bu oləmi-üzmadən.
Zəmhərir aldı cahan ınülkünü, xurşid məgər
Nəzəri-mərhəmətin kəsdi bu gün dünyadən?
Hanı ol gün ki, çıxıb ınehr ilə xurşidi-fələk
Aləmə feyzrəsan olmuş idi Cövzadon?
Gül açılmışdı rüxi-yar kimi gülşəndə,
Bülbül olmuşdu fərohnak güli-rənadən.
Zində etmişdi səba alomi eçaz ilo,
Yox idi minnəti-əmvat dəmi-İsadən.
Atəşin gülləri görsəydi əgər kim, Musa.
Fərq qılmazdı gülüstanı dəxi Sinadən.
Hüdhüdün var idi başında Süleyman kimi tac,
Lale Bilqeys kimi sürx meyi-mənadən.
Əşki-Davud kimi jalə gülün camında
Bülbülün ləhni keçib nöh fələki-minadən,
Gülşənin Beyti-Müqəddəsdən olub qədri füzun,
Lalənin rənci səfabəxş dəmi-Yəhyadən.
Ərzi-Əqdəsdi cahan, sanki xəzan Büxtümnəsr,
Qətl üçün əzm qılıb çəkməz olin yoğmadən.
Mülki-dünyanı ki, bu növ ilə tutmuş sərma,
Çıxacaqdır, bilirəm, ruh ınəni-şeydadən.
Çarə oldur ki, mənə hər gün içəm bir neçə cam,
Eyləyim gərtn təni-zari meyi-səhbadən.
İçim ol badeyi-gülguni ki, təsiri onun
Piri-sədsalərıi çapük cloyir bümadən.
Əmri-müşküldü həqiqət onu da içsəm əgər,
Yüz sifariş goləçəkdir mənə hər molladən.
Biri minbərdə çıxıb hökm edəcəkdir ki, filan
Mey içib kafər olub, çıxdı əli üqbadən.
Biri məsçiddə gedib vəz edəçəkdir: O, şərir,

Şürbidir, lənət edin, hökm budur movladən!
Ona seyyid deməyin kim, boni-Abbasidir ol,
Ar edər Əhmədi-Muxtar belə rüsvadon!
Bu Yezid oğlu oleydi ogər övladi-Hüseyn,
Əlləməllah ki, içməzdi meyi-hümradən!
Maili-qaməti-məhbubdur ol namövzun,
Rast yol getmədi, məhrum olacaq Tubadən.
Badəyə, sadəyə bu naxələf olmuş talib,
Oldu məyus dəxi Kövsər ilə huradən.
Almayın hiç səlamın, bu deyil islami!
Bu şəqavətdə şəqitərdi hamı tərsadən,
Məşvərət hökmü ilə dün gecə söhbət elədim;
Bu xəyalatımı həll etməyə bir danadən.
Dedi:-"Ey şairi-şirinsüxənü nadirəgu-
Ki, sənə məntiqə ilham olıınur baladən.
Əvvəla arif olan kimsənə bibak gorek,
Etməyə vahimə dünyavü mafıhadən.
Rindi-bibak olan kəsdə gərəkdir cürət,
Qorxmaya gavi-döhülzən kimi hər qovğadən.
Eyləmə vahimə nifrini nədİr mollanın,
Nə icabət olaçaq dəvəti-bimənadən?
Kim ki, mey içsə, həqiqətdə əgər kafər ola.
Bir müsəlman tapılmaz bu yekə dünyadən.
Hər oməl xatimeyi-karə baxar, ey arif,
Arif ol, ibrət elə qisseyi-Bersisadən
Saniyən, indi ki, var səndə xəlayiq xövfi
İçmə mey, könlüvü fariğ elə bu pərvadən.
Bir sarı kürk ki, ola qiyməti beş-altı manat
Al bürün, canuvü qurtar oləmi-sarmadən".
Dedim: - "Ey dust, əgər olsa beş-altı manatım,
No qəmim var idi sərmayi-məlal-əfzadən?
Dərd beş-altı manatın dərdidir, ey kani-hünər".
Dedi:-"Xövf etmə, tələb eylə filan ağadan.
Hər iki ildə ki, bir kürk sənə qismətdir,
Yetirər xaüqi-biçun onu bir valadən.
Qismətin, qorxma, doxi aləm ara hasildir,
Talib ol, eylə tələb ol gühəri-valadən".

Həqqi, ey rəyi olan mehri-fələkdən ənvər,
Həqqi, ey sədri ziyabəxş olan Şiradən.
Əfzəli-ünsiri-afaqsən, ey ruhi-rəvan!
Ruh əfzəldi həqiqətdə hamı əzadən.
İlləti-qaiyi-icadsən, ey illəti-tam!
Zati-pakindi qərəz bu süvəri-əşyadən.
Gərdişi-çərx gətirdi bizi bir əsrdə ki,
Büxli tərcih verirlər sifəti-əsxadən.
Əsrimizdə görünər cudü səxadən bir əsər,
Görünə dəhrdə hərgah əsər Ənqadən.
Olub ol növ ilə gör münqələb övzai-cahan,
Gövhər ümmidini bir kəs eləməz dəryadən.
Bundan əqdəm var imiş dəhrdə ərbabi-səxa,
Görünür cümlə təvarixı-cahanaradən.
Füzəla silkinə hor nov ilə ehsanlar edib,
Aparıb nami-niki hər biri bu dünyadən.
Şüəralər olub ol şəxslərin vəssafi,
Fariğül-bal hamı sənətü istiğnadən.
Leyk bir kəs ki, sənin həqqüvə olsa arif,
Dəhrdə vaqif olur nükteyi-istisnadən.
Barilaha, edəsən ömr cabanda yüz il,
Mən tək əfsürdəmizac olmuyasan sərmadən!

## BİR NƏFƏR DOSTA

Əla, ey sərvəri-niku-xəsail-
Ki, səndəndir fəxarət ruzigarə.
Əla, ey sərvəri kim, seyti-fəzlin
Yetib aləmdə gün tək iştiharə.
Keçən gün tifli-çakərzadə ilə-
Ki, həq vermiş onu məni dilfikarə,
Durub qəm kəsrətindən kuçə içrə,
Edirdik əcz ilə hər yan nəzarə,
Nümayan oldu nagəh bir cənazə,
Aparırlardı dəfn üçün məzarə.
Düşüb bir tifl dalınça o nəşin,
Edib qəmdən yaxasın parə-parə.
Açıb başın, töküb gülrəng yaşın,
Gəlib fəryadə manəndi-bəzarə.
Deyərdı nalə ilə key, babacan,
Aparırlar səni bir bəd diyarə:
Lihafın xiştü bəstər qarə torpaq,
Olur tömə vücudin murü marə.
Nə abü nə qida, nə şəmü şərbət,
Misali-bəxti-əhli-şer qarə.
Bu halı tifli-çakərzadə görcək,
Gəlib fəryadə düşdü ahü zarə-
Ki, vaveyla, məgər ağa, bu nəşi
Qoyacaqlar bizim evdə məzarə?
Dedim:-Ey nuri-çeşmim, bu nə sözdür,
Bu gunə sözləri eylə kənarə. Dedi:-
Bu vəsflər kim, söylər ol tifl.
Bizim ev halətin gətdi şümarə-
Ki, nə abü ğiza, nə şəmü şərbət,
Çəkibdi fəqr odu onda şərarə.
Həqiqət hal, ey fəxri-zəmanə,
Bu halətdir nihanü aşikarə.
Əgər bundan ziyadə kəşf qılsam,

Düşər od xirməni-səbrü qərarə.
Ümidi-Seyyid oldur bu məlalə-
Ki, etsin himmətin lütf ilə çarə.
Behəqqi - Seyyidi -ruzi-qiyamət-
Ki, şafedir hami xürdü kibarə.
Nə xahiş eyləsən, olsun müyəssər,
Yetişsin şövkəti ruzi-şümarə.

## BİR DOSTUN MƏKTUBUNA CAVÄB

Əssəlam, ey güli-gülzari-vəfa!
Əssəlam, cy gühəri-bəhri-əta!
Ey salan yadə məni-heyrani,
Sənə qurban bu həzinin cani!
Hər zaman ki, fələki-şöbədəbaz
Vermiş idi mənə min suzü güdaz,
O1 güli-gülşənimin hiçrani,
Mənə təng etmiş idi dünyani.
Həmdəmim naləvü fəryadü fəğan,
Göz yaşını seyl tək olmuşdu rəvan.
Çox pərişan idi qəmdən halım,
Kafər ağlardı görə əhvalım,
Xatirim hicrdə məşğuli-xəyal,
Gözlərim müntəziri-rahi-vüsal.
Nagəhan nameyi-yari-kamil
Mənə bir şəxsdən oldu vasil.
Öpübən naməni qoydum gözümə,
Gəldi can cismimə, taqət dizimə.
Vəh, nə məktub Gülüstani-İrəm!
Vəh, nə məktub, güli-baği-kərəm!
Vəh, nə məktub ki, babi-rəhmət!
Səfhəsi səfheyi-bağİ-cənnət.
Sətrlər sanki xiyabani-behişt,
Etdi namən məni mehmani-behişt.
Nöqtəsi mərdüməki-dideyi-hur,
Vəsfini etməyə əqümdə qüsur.
Oxudum naməni, oldum ehya,
Etdi Nuh oğlunu ehya İsa.
Sanki bir pirəhəni-Yusif idi,
Çeşmi-Yəqubi münəvvər elədi.
Hər səvadın oxudum, can tapdım,
Xızr tək çeşmeyi-heyvan tapdım.
Barilaha, olasan şad müdam,
Məni şad eylədin, ey fəxri-kiram!
Eyləyib xürrəmü xəndan məni,

Eylədin aləmə sultan məni.
Sən görüm aləmə sultan olasan!
Təxti-izzətdə Süleyman olasan!
Eylədin mən kimi bir murə kərəm,
Etməsin lütfünü həq səndən kəm.
Var ümidim ki, xudavəndi-qəfur,
Edə mən bikəsə vəslin məqdur.
Yenə vəslindən ola şad könül,
Ola bu qüssədən azad könül.
Gələ bu mürdə olan cismimə ruh,
Ala saqilər ələ cami-səbuh.
Yenə bərpa ola bəzmi-işrət.
Can tapa ləli-ləbindən ləzzət.
Daim əbr içrə gün olmaz məstur,
Çıxıb axırda verər aləmə nur.
Bir qərar ilə deyil çərxi-mədar,
Gah olur fəsli-xəzan, gah bahar.
Yenə gütlər açılır, yaz olur,
Yenə bülbül gülə dəmsaz olur.
Vəslüvə can yetər inşaallah!
Bu bəlalər bitər inşaallah!
Ta təsəlli tapa dil hicrin ara,
Bir qəzəl tazədən etdim inşa.
Var ümidim oxuyub şad olasan,
Hicrə səbr etməyə mötad olasan.

## BİR MƏKTUBA CAVAB

Bir vəqti-xocəstə, hiyni-xürrəm-
Kim, talib idi könül dəmadəm.
Bir qasidi-xoşxəbər, hünərvər,
Yəni rəvişi kəmali-şəkkər,
Cünbani-səlasili-müvalat,
Həm baniyi-xaneyi-məalat,
Ramidehi-xatiri-rəmidə,
Şadidehi-qəlbi-qəmrəsidə,
Məktubi-şərifini gətirdi,
Dildən qəmü qüssəmi götürdi.
Nə namə ki, məhz ruhə rahət,
Sərməşqi-fəsahətü bəlağət!
Dil bəzmini eylədi münəvvər,
Can bağını qıldı tazavü tər.
Bər verdi ümidimiz nihali,
Dil mənzili qəmdən oldu xali.
Məzmunu çün oldu cümlə məfhum,
Rəf oldu könüldə dərdi-məğmum.
Təsnimi-həvayi-inbisatı,
Açdı dil ara güli-nişatı.
Hər nüktə ki, olmuş idi izhar,
Dil oldu qamusuna xəbərdar.

## BİR MƏKTUBA CAVAB

Dusti-girami, sənə olsun səlam!
Sənsiz olub eyş bizimçim həram.
Gül açılıb, mövsümi-gülzardır,
Bülbüli-xoşləhcə yenə zardır.
Daği-dilin zahir edib lalələr,
Sağəri-reyhanə dolub jalələr.
Hüdhüd olub qasidi-şəhri-Səba,
Müjdə verir aləmə badi-səba.
Təxtə çıxıb bağdə sultani-gül,
Zahir edib şövkət ilə şan gül.
Sərv açıb bağdə xəzra ələm,
Lalə olub xosrovi-mülki-
Əcəm. Səfheyi-gülzar olubdur səfa,
Bülbül oxur nəğməni sübhü məsa.
Fərşi-zümürrüd döşənib gülşənə,
Çümlə olub bağ müəttər yenə.
Aç gözümi, səfheyi-gülzarə gəl,
Az bu qədər möhnət ilə zarə gəl!
Çək çəmənə Yusifi-dövranı sən.
Kövkəbi-rəxşan, məhi-tabanı sən.
Bas qədəmin, bağı elə payimal,
Qalmaya gülzardə hərgiz cəlal.
Seyyid ilən seyri-gülüstan elə,
Düşməni-nadan ciyərin qan elə!

## AĞA MİRCƏFƏR HACI SEYYİD ƏZİM OĞLUNA

Nuri-çeşmim, zadömrül-əziz, hali təhrir ki, səlxi-mahi-zil-hiccətil-həramdır, lilləhül-həmd vəl minnə cənab Ağa bəyin xidmətində sübh və şam varam. Əgərçi gəlməyim bu səfər tul çəkdi, nuri-çeşmim, təngdil olma. Məsləhət belədir. Çünki xanlıqdan Nəsir xan buraya gələcəkdi, ona binaən bəy məni burada saxladı ki, ta xan gəlsin. Hələ də ki, xan gəlməyibdir. İnşaallah, ümidvaram Qurban bayramına şəhərə gəlim. Əgər bayramacan gəlməsəm, bayramdan sonra inşaallah, gəlləm, xatircəm olasan. Təvəqqe eləyirəm ki, yaxşı dolanasan; ananı incitməyəsən, yoldaşlaruvu incitməyəsən, oxumağa səy eləyəsən:

Ey oğul, bu dəlili-bişəkdir:
"Adəmi-bisəvad eşşəkdir",

Və məndən Ələkbər əmiyə və Molla Cəlala ərzi-səlam elərsən. Və məndəki qoca atı cənab Ağa bəy Özgəyə bağışladı. Piyada qatmışam. Gərək necə olu. Və boz atı Qara bəyə bağışladı. Allah kərimdir, bəlkə ondan yaxşısı olacaq? Hər halda, Allaha şükür eləmək VƏ Ağa bəyin ömri-şərifmə dua eləmək bizə vacibdir. Allah ona tul ömr kəramət eləsin.

Vəssəlam!

Təhrirün: fis-səlxi-zil-hiccə, sənə 1292.

*Hacı Seyyid Əzim,*
*[Möhür:] Seyyid Əzim Ələvi.*

## KİTABDAKILAR

## SATİRALAR

Alimləri məzəmmət edən cahillərə…………………………………………7
Şirvanın təzə bəyləri haqqında……………………………………………..14
Şamaxının təzə bəylərini həcv………………………………………………23
Şamaxı babilləri haqqında…………………………………………………..28
Quba təziyadarları və xeyməni qarət edənlərə……………………………..34
Nəsrəddin şahın həcvində……………………………………………………39
Sultanov Hadiyə………………………………………………………………40
Həsən Qara Hadiyə……………………………………………………………42
Hümayini həcv…………………………………………………………………45
Abid əfəndinin həcvində………………………………………………………47
Ərəb Əfəndizadə Mahmud əfəndiyə…………………………………………..49
Salyanlı Axund Mola Məhəmmədhəsən haqqında……………………………50
Qazi Hacı Molla Məhəmməd Məlikkəndliyə………………………………….51
Bir nəfər dosta yazılan zarafatdır……………………………………………53

## MÜXTƏLİF ŞEİRLƏR

Qəzet nədir……………………………………………………………………57
Həsənbəy Məlikova……………………………………………………………60
"Ziya" qəzetinə (İlahi, bu "Ziya" afaq ara gün tək ziyalənsin)…………….62
"Ziya" qəzetinə (Ey "Ziya", ey ziyayi-çeşmi-cahan)………………………..64
"Ziya" qəzetinə (Ey verən səfheyi-"Ziya"yə ziya)…………………………67
"Ziya" qəzetinə (Mərhəba, ey İrəvanın xaki-zibamənzəri)………………..68
Bakı şairlərinin tərifləri …………………………………………………….70
Səfa haqqında…………………………………………………………………72
Məhəmməd Səfanın tərifi……………………………………………………74
Abdulla bəy Asi və Xudadad bəyin vəfatı münasibəti ilə…………………76
Hacı Əbdüləhəd Şirvaniyə……………………………………………………79
Miskin dünyadan şikayət ……………………………………………………..83
Fərhad mirzəyə………………………………………………………………..85
Qəsidə (Söylədim yarə ki, ey məh gəlib əyyami-bahar)…………………..88
Bahariyya………………………………………………………………………89
Qəsidə (Dün ki, xurşid üzünə əbri-siyah oldu hicab)………………………93
Qəsidə (Afərin, ey əhli-sünnət vəl-cəmaət, afərin)…………………………95
Qəsidə (Ey dadmayan zəmanə ara eşq şərbətin) …………………………97
Şərab haqqında………………………………………………………………...99
Əhibbanın ricası ……………………………………………………………..100

Şamaxının vəziyyətinin təsviri ...102
Hacı Rüstəm bəyə...107
Mənzumə...108
Seyidin məzəmməti...110
Arzu...111
Seyidin münacatı...112
A.S.Puşkin haqqında...113

## MƏKTUBLAR

Həsənbəy Məlikova (Ey Həsən bəy, müəllimi-dana)...117
Həsən bəy Məlikova (Ey bizə xeyirxah olan Möhsün)...122
Həsən bəy Məlikova (Alişan Həsən bəy...)...125
Həsən bəy Məlikova (Müəllimi-xeyirxah...) ...128
Həsən bəy Məlikova (Ry həsən bəy, əmiri-alişan)...132
Mirzə Əbdülxalıq Yusifə ...136
Mirzə Əbdülxalıq Yusifin Məhəmməd ağa Cürmiyə yazdığı
həcvə cavab...139
Məhəmməd ağa Cürmiyə...141
Məhəmməd Səfaya cavab...148
Mirzə İsmayıl Qasirə ...149
Abdulla bəy Asiyə (Həzar şükr, könül, mövsümi-bahar olacaq)...155
Abdulla bəy Asiyə (Asiya, sözlərüvün hər biri min canə dəyər)...157
Abdulla bəy Asiyə (Qəsidə)...160
Məhəmmədtağı Qümriyə cavab...163
Məhəmmədtağı Qümriyə (Səlamım asitanən xakinə badi-səba versin) .167
Məhəmmədtağı Qümriyə (Əgər ol həzrətə məhrəm olan
badi-səba, Qümri)...169
Dərbəndli Xəlil təxəllüs şairə...171
Mirzə Rəhim Fənaya ...173
Məcruh Muğaniyə...175
Bir nəfərə...177
Əli Əsğər Növrəsə (Səlam olsun sənə, ey Kəbeyi-əhli-səfa, Növrəs)...178
Əli Əsğər Növrəsə (Qəsidə)...179
Qarabağlı Nalan təxəllüs şairə ...181
Səid Ünsizadəyə (Əla, ey müxbiri-sadiq, əlaəddini-vəd-dünya)...188
Hacı Səid Ünsizadəyə (İradə eyləsə bir qövmə xeyrin feyzi-rəbbani) .... 190
Mahmud ağaya (Ey edən Adami avareyi-cənnət, buğda)...200
Mahmud ağaya (Əla, ey sən'əri-valaməkan kim) ...202
Mahmud ağaya (Mübarək eydi-novruzu sənə, ey şəhriyar, olsun) ...204
Mahmud Ağaya (Alişan həzrəti-Mahmud ağa)...208

Əlibəyə……………………………………………………………….210
Qulu bəy……………………………………………………………...212
Həsən bəy Nəbibəyova və Mehrəli bəyə………………………………213
Həsən bəy Nəbibəyova (Eydi-novruz mübarək ola, ey yar, sənə)…………215
Həsən bəy Nəbibəyova (Gətir, saqi, qədəh kim, mövsümi-işrəl hüveydadır)……………………………………………………………219
Həsən bəy Nəbibəyova (Eyddir, fəsli-gülüstan olur, inşallah)……………223
Həsən bəy Nəbibəyova (Saqiya, novruzdur üz verdi yüz behcət mənə)…………………………………………………………………..226
Həsən bəy Nəbibəyova (Ey Həsən bəy, həsənül-xülq, rəfiül-əxlaq)…….228
Rza bəy Əfəndizadəyə (Saqiya, şad ola ta ruhi-Fəlatun ilə Cəm)……….233
Rza bəy Əfəndizadəyə (Səlam olsun sənə, ey yari-cani)…………………236
Rza bəyə (Gətir, saqi, meyi-gülgun ki, şad oldum bəşarətdən)………….239
Məşhədi Kazım bəya …………………………………………………243
Hacı Mola Abdulla Şahtaxtlıya ………………………….……….245
Bakılı Hacı Hüseynquluya ……………………………………………..247
Məhəmməd Əfəndi Müftiyə………………………………………….250
Müfti Hacı Əbdülhəmid Əfəndiyə…………………………………….253
Müfti Molla Hüseyn Əfəndiyə…………………………………………256
Hacı Hüseyn Əfəndi (Qəsidə) ……………………………………..260
Hacı Hüseyn Əfəndi (Qəsidə) ……………………………………..262
Hacı Hüseyn Əfəndi (Qəsidə) ………………………………………264
Əbdüləli Boyaqçızadəyə (Gəldi novruz, dəxi fəsli-gülüstan olacaq)……...266
Əbdüləli Boyaqçızadəyə (Gəldi norvuz, müzəyyən elədi dövrani)………270
Hacı Mehdiyə…………………………………………………………..275
Hacı İsmayıl oğlu ağaya………………………………………………...278
Ağa bəyə………………………………………………………………..280
Kərim bəy Şıxəlibəyova………………………………………………..285
Hacı Əli Əkbər bəy və Kərim bəy Şirvaniyə……………………………..288
Hacı Mola Qəniyə (Gül açıldı, qönçeyi-ümmid xəndan olmadı)…………292
Hacı Molla……………………………………………………………….295
Mir Əbdülqəni ağaya……………………………………………………298
Uğurlu bəy Şıxəlibəyova ………………………………………………302
Kərim bəy Şıxəlibəyova………………………………………………..304
Ağa bəy Sultanzadəyə (Sahiba, ey ki sənin xidmətüvə şamü səhər)…..308 Ağa bəy Sultanzadəyə (Sahiba, ey kim, sənin övsafı-zatın qılmağa) …...310
Hacı Ömər bəy Şirvaniyə……………………………………………31 2
Möhsün bəyə……………………………………………………………315
Hacı Əbdüləhəd Mütəllibzadəyə (Gəlir novruz kim, güllər çəməndə aşikar olsun) ……………………………………………318
Hacı Əhəd Mütəllibzadəyə (Novbahar oldu könül, dəhri tutub

zövqü səfa)……………………………………………………………324
Əhməd bəyə……………………………………………………….329
Hacı Ağa bəy oğlu Əliyə…………………………………………..332
Fərəc bəy Ağa bəy oğluna ………………………………………..333
Əli Əsğər bəyə ……………………………………………………….334
Lənkəranlı Şirəli bəyə……………………………………………..338
Hacı Məcid əfəndiyə………………………………………………341
Hacı Güləliyə……………………………………………………….346
Hacı Mehdiquluya…………………………………………………349
Mirsadıq xan Lənkəraniyə…………………………………………351
Əli Abbas bəyə……………………………………………………355
Şahbaz bəyə (Saqiya, abi-qəmgüdazı gətir) ………………………………360
Şahbaz bəyə (Hər aşiqi-sitəmzadə kim, pakbaz olur)……………………365
Şeyxül-islam Molla Əhmədə.................................................................368
Bir nəfər dosta (Oldu əfsürdə çəmənlər aləmi sərmadən)…………………370
Bir nəfər dosta (Əla, ey sərvəri-niku-xəsail)……………………………..373
Bir dostun məktubuna cavab (Əssəlam, ey güli-gülzari-vəfa)……………375
Bir məktuba cavab (Bir vəqti-xocəstə, hiyni-xürrəm). ...............................377
Bir məktuba cavab (Dusti-girami, sənə olsun səlam)……………………...378
Ağa Mircəfar Hacı Seyid Əzim oğluna ……………………………………379

Buraxılışa məsul: *Umud Rəhimağlu*

Texniki redaktor: *Mübariz Piriyev*

Kompyuter səhifələyicisi: *Allahverdi Kərimov*

Korrektor : *Rəhilə Quliyeva*

Yığılmağa verilib 28.09.2004. Çapa imzalanıb 27.03.2005.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 24. Oftet çap üsulu.
Tirajı 25000. Sifariş 60.
Kitab "PROMAT" mətbəəsində çap olunmuşdur.